**Şəlalə Babayeva**
**Mətanət Həsənova**

# SOSİAL PSİXOLOGİYA

**Bakı – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**
Psixologiya kafedrası

# S O S İ A L  P S İ X O L O G İ Y A

bakalavr hazırlığı üçün dərslik

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
13.05.2019-cu il tarixli F-255 №-li əmri ilə
dərslik kimi təsdiq edilmişdir.

**BAKI – 2019**

**ELMİ REDAKTOR:** ***Ramiz Əliyev***
psixologiya üzrə elmlər doktoru,
professor

**RƏYÇİLƏR:** ***Ulduz Qəzvini***
psixologiya üzrə fəlsəfə doktoru,
dosent

***Akif Quliyev***
psixologiya üzrə fəlsəfə doktoru,
dosent

***Lalə Cabbarova***
psixologiya üzrə fəlsəfə doktoru,
dosent

***Şəlalə Rasim qızı Babayeva***, psixologiya üzrə fəlsəfə doktoru, ***Mətanət Fariz qızı Həsənova,*** müəllim, Sosial psixologiya, dərslik, Azərbaycan Dillər Universiteti, 2019, 339 s.

*Dərslikdə sosial psixologiyanın klassik və müasir problemləri əhatə olunur. Onun mövzusu, məqsəd və vəzifələri, metodları, yaranması və inkişafı haqqındakı biliklər sistemli qaydada şərh edilir. Hazırda, dünyada qloballaşmanın getdiyi bir dövrdə insan şəxsiyyətinin sosial problemləri, ünsiyyət və münasibətləri, qrupların birgə fəaliyyətinin dinamikası haqqındakı məsələlər aydınlaşdırılır. Dərslik bakalavr pilləsində təhsil alan ali məktəb tələbələri üçün nəzərdə tutulmuşdur.*

# MÜNDƏRİCAT

GİRİŞ
I FƏSİL. PSİXOLOJİ ELMLƏR SİSTEMİNDƏ SOSİAL PSİXOLOGİYANIN YERİ
1.1. Sosial psixologiyanın mövzusu, məqsədi və vəzifələri
1.2. Sosial psixologiyanın tədqiqat sahələri
1.3. Sosial psixologiyanın metodoloji əsasları
1.4. Sosial psixologiyada tədqiqatın quruluşu və metodları
1.5. Sosial rəyin öyrənilməsi
1.6. Sosial psixologiyanın yaranması və inkişafı
1.7. Sosial psixologiyada müasir nəzəriyyələr
Suallar və tapşırıqlar
Ədəbiyyat

II FƏSİL. SOSİAL PSİXOLOGİYADA ŞƏXSİYYƏT PROBLEMİ
2.1. Şəxsiyyətin sosial məzmunu
2.2. Şəxsiyyətin sosial quruluşu
2.3. Şəxsiyyətin sosiallaşması
Suallar və tapşırıqlar
Ədəbiyyat

III FƏSİL. SOSİAL MÜHİT VƏ "MƏN"
3.1. Fərdin sosial mühitlə qarşılıqlı əlaqəsi
3.2. Fərdi şüurun sosial təfəkkürə təsiri
3.3. Sosial bilik sosial dərketmənin əsası kimi
3.4. Sosial rol və rol davranışı
3.5. Gender rolları
Suallar və tapşırıqlar
Ədəbiyyat

IV FƏSİL. SOSİAL PSİXOLOGİYADA ÜNSİYYƏT PROBLEMİ
4.1. Ünsiyyətin sosial xarakteri
4.2. Ünsiyyət informasiya mübadiləsi kimi
4.3. Ünsiyyət və kommunikasiya
4.4. Ünsiyyət mədəniyyəti
Suallar və tapşırıqlar
Ədəbiyyat

V FƏSİL. SOSİAL PSİXOLOGİYADA QRUP ANLAYIŞI
5.1. Qrup sosial-psixoloji fenomen kimi
5.2. Qruplarda qarşılıqlı münasibətlər
5.3. Qrup münasibətlərində rol münaqişələri
Suallar və tapşırıqlar
Ədəbiyyat

VI FƏSİL. KİÇİK QRUP, ONUN XARAKTERI, QURULUŞU VƏ NÖVLƏRI
6.1. "Kiçik qrup" anlayışı və onun quruluşu
6.2. Kiçik qrupların növləri
6.3. Kiçik qrupların sosiometrik təhlili
6.4. Qrup fəaliyyətində dinamik proseslər
6.5. Sosial fasilitasiya
6.6. Qrup həmrəyliyi
6.7. Qrup təzyiqi və konformluq
Suallar və tapşırıqlar
Ədəbiyyat

VII FƏSİL. BÖYÜK QRUPLAR VƏ ONLARIN İDARƏ OLUNMASI
7.1. Böyük qrupların sosial-psixoloji xüsusiyyətləri və təsnifatı
7.2. Böyük qrupun idarə olunmasının metodologiyası
7.3. Boyük qruplarda idarəetmənin strukturu
7.4. Böyük qrupların idarə olunması metodları

7.5. İdarəetmədə liderlik və rəhbərlik problemi
7.6. İdarəetmədə rəhbərlik üslubu
Suallar və tapşırıqlar
Ədəbiyyat

VIII FƏSİL. SOSİAL TƏSİR, QLOBALLAŞMA VƏ ETNOMƏDƏNİYYƏTLƏR
8.1. Qloballaşmada sosial təsir effektləri
8.2. Qloballaşmanın etno-mədəniyyətlərə təsiri
8.3. Qloballaşmaya təsir edən etnopsixoloji cəhətlər
8.4. Etnopsixoloji dəyişmələr
Suallar və tapşırıqlar
Ədəbiyyat

IX FƏSİL. SOSİAL PSİXOLOGİYADA PRAKTİK XİDMƏTİN TƏŞKİLİ
9.1. Sosial psixologiyada praktik xidməti zəruri edən amillər
9.2. Təhsil qruplarına psixoloji xidmət
9.3. Ailədə psixoloji xidmət
9.4. Əmək qruplarına psixoloji xidmət
9.5. Sosial qruplarda müsbət psixoloji iqlimin qorunması
Suallar və tapşırıqlar
Ədəbiyyat
Ümumi ədəbiyyat siyahısı
Əlavələr

# GİRİŞ

Son illər psixoloji elmlər sistemində yeni-yeni sahələr yaranaraq inkişaf etməkdədir. Belə sahələrdən biri də Sosial psixologiyadır. Sosial psixologiya ümumi psixologiyanın bir sahəsi olub cəmiyyətin sosial-psixoloji problemlərinin tədqiqi məsələlərini əhatə edir.

Qeyd etmək lazımdır ki, həm Sosial psixologiya, həm də yeni yaranan digər elm sahələrinin inkişafını zəruri edən başlıca məsələ cəmiyyətdə gedən dəyişmələrdir. Yəni, Sosial psixologiyanın inkişafı həm də ona görə zəruridir ki, müasir cəmiyyət olduqca sürətlə inkişaf edərək öz ardınca sosial mühitin hər bir sahəsində dəyişmələr yaradır. Bu dəyişmələrin mahiyyətini sosial elmlər kontekstindən əhatəli öyrənərək onları milli mədəniyyətə uyğunlaşdırmaq hazırda sosial elmlər içərisində prioritet məsələyə çevrilmişdir. Digər tərəfdən, bu həm də ona görə vacibdir ki, dəyişmələrin uğurla nəticələnməsi üçün onların mənşəyi aydınlaşdırılmalı, gedişi izlənməli, inkişafı proqnozlaşdırılmalıdır. Ona görə də Sosial psixologiyanın öyrənilməsi və tətbiqi aktual problem kimi diqqəti cəlb edir.

Məsələ burasındadır ki, Sosial psixologiya sahəsindəki ziddiyyətlər yalnız onun məznununda deyil. Belə ki, cəmiyyət açıq rəqabətə hazır olan ən güclü, qabiliyyətli, istedadlı insanların yetişdirilməsi üçün yeni bir inkişaf sisteminə doğru getməkdədir. Bu sistemdə iqtisadi, sosial, psixoloji maneələrin olması şübhəsizdir, lakin "güclü", "istedadlı" hesab etdiyimiz insanlar üçün belə maneələr yoxdur. Daha doğrusu, onlar bu maneələri dəf etməyə qadirdilər. Əsas məsələ odur ki, inkişaf tələbatı ilə

yaşayan bu insanlar üçün kifayət qədər informasiya mənbələri, yaradıcı mühit lazım gəlir. Belə mühit məhz sosial qruplar, xüsusilə ailə, təhsil və əmək qruplarıdır. Sosial psixologiya elmi insanı həm də bu qruplarda, qarşılıqlı birgə fəaliyyət və ünsiyyət prosesində öyrənir.

Bütün bunlar hazırda mühüm sosial institut hesab olunan qurumların qarşısında mürəkkəb vəzifələrin durduğunu göstərir. Ən optimal çıxış yolu isə sosial sifarişin müəyyənləşdirilməsi, sosial inkişafın bu istiqamətdə getməsidir. Şübhəsiz ki, sosial rəylər müxtəlif olacaqdır. Sonda bu rəylər fərdlərin fəaliyyət göstərdikləri sosial mühitdə onlara düzgün istiqamətlənmə imkanları verəcəkdir. Onlar özlərini şəxsiyyət kimi formalaşdıraraq həm özləri, həm də başqaları üçün arzuolunan sosial fərdə çevriləcəklər. Milli maraqlara və qloballaşmanın qanunauyğunluqlarına müvafiq olaraq dəyərli vətəndaş olacaqlar.

Bunun üçün yeganə çıxış yolu təhsilin sosioloji konsepsiyasının işlənib hazırlanmasıdır. Bu sahədə bir sıra işlər görülməkdə, islahatlar həyata keçirilməkdədir, lakin təcrübə göstərir ki, onun həyata keçirilməsi mexanizmi mükəmməl deyil. Əsas amil olaraq tədqiqatçı kadrların bu prosesə ciddi hazırlanmaması, bütövlükdə cəmiyyətdə, eləcə də konkret olaraq təhsil işçiləri arasında sosioloji maarifləndirmənin düzgün təşkil edilməməsi və bu sahədə sosial rəyin nəzərə alınmamasını göstərmək olar. Bunun nəticəsidir ki, sosial əlaqələrdə hələ də ənənəvi vasitələrə üstünlük verilir, insanlar stereotiplərdən uzaqlaşa bilmirlər. Buna görə də əsas diqqət onların ictimai şüurunda, sosial təfəkküründə dəyişmə yaratmaq, özünüinkişafa, özünükorreksiyaya yönəltmək olmalıdır. Bu zaman fərd

özünü yaşatmaq üçün baş verən dəyşmələrə özünü hazırlamağın labüdlüyünü dərk edəcək, yeniliklərə hazır olacaq, onları mənimsəyərək öz təcrübəsinə tətbiq edəcək.

Hesab edirik ki, bu işləri həyata keçirmək üçün özünün sosial funksiyalarına görə təhsil sistemi daha geniş imkanlara malikdir. Çünki o, bir tərəfdən təhsilin tarixi sistemlərinin varisliyini təmin edir, digər tərəfdən, cəmiyyətin fəaliyyətinə və inkişafına fəal şəkildə təsir göstərir. Bu sistemin funksiyaları sosial-iqtisadi münasibətlər, sosial əlaqələr, siyasi və ideoloji proseslərin xüsusiyyətləri ilə sıx bağlıdır. Təhsilin funksiyalarına, həm də təkrar sosial istehsalla, insanların topladıqları biliklərin, vərdişlərin nəsildən-nəslə ötürülməsi ilə bağlı olan məsələlər daxildir.

Həmin məsələlər ümumbəşəri tələbatlarla, yeni nəsillərin daha yüksək təhsil, elm və mədəniyyət səviyyəsinə yüksəlməsi meyilləri ilə müəyyən olunur. Ə.Ə. Əlizadə, H.Ə.Əlizadə bildirirlər ki, təhsilin fəlsəfəsi və Sosial psixologiyasında bu kontekstdə önəmli araşdırmalar aparılıb, "yeni dövr" mədəniyyətində "ən yeni dövr" mədəniyyətinin seçimli xüsusiyyətləri müəyyənləşdirilmişdir. Yeni pedaqoji təfəkkürün başlıca paradiqmaları "ən yeni dövr" mədəniyyətinin xüsusiyyətləri ilə bağlıdır. Bu xüsusiyyətləri nəzərə almadan yeni pedaqoji təfəkkürün mədəniyyətini anlamaq mümkün deyil.

Bütün bunlar göstərir ki, cəmiyyətdə aparılan islahatlarda onun daşıdığı mədəniyyət, dəyərlər, sosial qiymətləndirmələr nəzərə alınmalıdır. Bunun elmi yolu – ictimai (sosial) rəyin öyrənilməsidir. Bu məsələlərlə, məlum olduğu kimi, Sosial psixologiya məşgul olur. Sosial psixologiyasının obyekti və predmetini, inkişaf

tarixini, tədqiqat sahələrini, respublikamızın təhsil mühiti üçün səciyyəvi olan cəhətlərini müəyyənləşdirmədən problemi həll etmək mümkün deyildir.

Psixologiya elminin əsas sahələrindən biri olan Sosial psixologiya fənni üzrə tərtib edilmiş bu dərslik bakalavr pilləsində təhsil alan tələbələrə kömək məqsədi ilə hazırlanmışdır. Sizə təqdim etdiyimiz bu əsərdə Sosial psixologiyanın əsaslarına diqqət yetirilmişdir. Dərslik humanitar elm sahələri üzrə bakalavr səviyyəsində təhsil alan tələbələrin öz ixtisasları üzrə peşəkar kadr kimi hazırlanması üçün mühüm əhəmiyyət kəsb edir. Onun məqsəd və vəzifəsi sosial psixologiya üzrə bilik, bacarıq və vərdişlərə yiyələnmək, peşə ixtisasının təməlini qoymaqdır.

Tələbələr bu fənni mənimsəməklə sosial psixologiyanın nəzəri əsaslarını, onun predmetini, məqsəd və vəzifələrini, inkişaf tarixini, metodoloji əsaslarını, tədqiqat metodlarını öyrənəcəklər. Eyni zamanda, tələbələr sosial psixologiyanın praktik məsələləri: özü haqqındakı sosial qiymətləndirmələrin müəyyən edilməsi yolu ilə özünü tanıma və iddia səviyyəsi, sosiallaşma, sosial qrupların təsnifatı və tipologiyası haqqında ümumiləşmiş biliklərə, bacarıqlara yiyələnəcəklər. Kiçik və böyük qrupların, həmin qruplarda rəhbərliyin, liderliyin sosial-psixoloji xüsusiyyətləri, qrupdaxili münaqişələrin həlli yolları, ünsiyyətin sosial-psixoloji əsasları, qloballaşma dövründə mədəniyyətlərdə baş verən dəyişmələr, o cümlədən, sosial psixoloqların praktik fəaliyyətinin istiqamətləri barədə məlumatlar əldə edəcəklər.

Sosial psixologiyanın obyekti insan və cəmiyyətdir. Digər ictimai elmlər kimi onun obyekti də sosial-psixoloji

reallıqlardır. Fənnin məqsədi şəxsiyyətin sosial münasibətləri, insan resursları, mədəniyyət, təhsil və digər sahələrdə baş verən psixoloji proseslərin transformasiyası, öyrənilmə-si, mənimsənməsi və həlli yollarının göstərilməsidir.

Fənnin vəzifələri tələbələri insanın sosial mühitlə qarşılıqlı əlaqəsi, ünsiyyət və münasibətləri, sosiallaşması, qrup fəaliyyəti, kiçik və böyük qrupların xüsusiyyətləri və digərləri haqqında elmi biliklərlə məlumatlandırmaqdır.

Sosial psixologiyanın tədqiqat sahələri çox genişdir. Bu, iki fərdin əməkdaşlığından, yaxud münaqişəsindən başlayaraq qlobal sosial proseslərə qədər olan bütün sahələri əhatə edir. Aydın məsələdir ki, istər ayrıca bir fərdin həyatında, istərsə də cəmiyyətdə baş verən sosial dəyişmələr daha çox təhsil prosesi ilə bağlı olur. Çünki hər bir subyektin inkişafı məhz təhsil prosesində, insanlarla ünsiyyət və fəaliyyətində gedir. Bu inkişafın dinamikası, xüsusiyyətləri, ləngiməsi və inkişafı bilavasitə təhsil mühitində yaradılmış sosial şəraitlə əlaqələndirilir.

# I FƏSİL
# PSİXOLOJİ ELMLƏR SİSTEMİNDƏ SOSİAL PSİXOLOGİYANIN YERİ

## 1.1. Sosial psixologiyanın mövzusu, məqsədi və vəzifələri

Bir çox elmlər, tarixi inkişafın hələ ilkin mərhələlərindən öz predmetini müəyyənləşdiriblər. Bu qrupa qədim elmlər məsələn, fəlsəfə, pedaqogika, dilçilik, hüquq və b. daxildir. Yeni yaranan hər bir elmdə bu proses ciddi mübahisələrin başlıca mövzusu kimi uzun müddətdir davam edir. Bunu sosial psixologiya elminə də aid etmək olar. Hazırda isə Sosial psixologiyanın öz predmeti, anlayış və kateqoriyaları, tədqiqat metodları, bir çox aktual problemləri vardır.

H.Spenser ümumilikdə elmin predmetini müəyyənləşdirməyin yolunu, həqiqətə gedən yolu düzgün seçməkdə görür. Əgər H.Spenserin bu yanaşmasını Sosial psixologiya elminə də aid etsək, o zaman belə bir qənaətə gələ bilərik ki, insan psixologiyası sosial xarakter daşımaqla sosial mühitdə yaranan ictimai (qarşılıqlı) münasibətlərdə inkişaf edir. Həmin münasibətlər insanın həyatında sosial-psixoloji hadisələr kimi təzahür edir.

*Sosial psixologiya insanın həyatında baş verən müxtəlif sosial-psixoloji hadisələri öyrənən elmdir. Bu mənada sosial psixologiya, psixologiya elminin insanın insan qrupları və bütövlükdə cəmiyyətlə qarşılıqlı münasibətlərindən bəhs edən əsas sahələrindən biridir.*

Özünün predmetinə görə sosial psixologiyanı digər sosial elmlərdən fərqləndirmək üçün onun məqsədini də

aydınlaşdırmaq tələb olunur. Sosial psixologiyanın məqsədi bir sıra məsələlərlə bağlıdır. Belə ki, *sosial psixologiyanın məqsədi,* insanın ictimai həyatını, qrup və cəmiyyətdəki fəaliyyətini, ünsiyyət və münasibətlərinin sosial xarakterini, sosial qarşılıqlı təsiri, bu təsir nəticəsində yaranan fəallıq və dinamikanı, yaxud ləngimələri, o cümlədən digər məsələləri öyrənməkdir.

Bu baxımdan sosial psixologiyanın əsas *məqsədi* – sosial varlıq olan insanın qrup ünsiyyəti, qrup münasibətləri və rol davranışının xüsusiyyətlərini aydınlaşdırmaq, inkişaf yollarını göstərməkdir.

Bunları nəzərə alaraq Sosial psixologiyaya belə tərif vermək olar: *sosial psixologiya sosial-psixoloji faktları, hadisələri, onların yaranmasını, təzahürünü, inkişafının qanunlarını və mexanizmlərini öyrənən elmdir*.

Ə.Bayramov və Ə.Əlizadənin qeyd etdikləri kimi, insan psixologiyasının sosial xarakter daşıması, ictimai münasibətlərlə şərtlənməsi psixologiya elmi üçün nəzəri-metodoloji əhəmiyyətə malikdir. İstər ümumi psixologiya, istərsə də psixologiya elminin ayrı-ayrı sahələri bu mühüm problemi qnoseoloji aspektdə təhlil edir. Sosial psixologiya isə həmin problemə nəinki qnoseoloji, həm də ontoloji baxımdan yanaşır, sosial-psixoloji faktları xüsusi tədqiqat sahəsi kimi ayırıb onların qanunlarını və mexanizmlərini geniş miqyasda öyrənir.

Digər ictimai elmlər kimi sosial psixologiyanın obyekti də sosial-psixoloji reallıqlardır. Sosial psixologiya insan davranışı, fəaliyyət, sosial qruplardakı ünsiyyət, o cümlədən həmin qrupların xarakteristikası, bütövlükdə şəxsiyyətin sosial tərəflərini öyrənən sahədir. Yəni, *sosial psixologiyanın obyekti,* insan cəmiyyəti, onun psixoloji

faktları, insanlar arasındakı qarşılıqlı münasibətlərin qanunauyğunluqları və mexanizmləridir. Deməli, biz bu sahəni fərdlərin qrupdakı, cəmiyyətdəki fəaliyyəti, ünsiyyəti və qarşılıqlı münasibətlərinin, rol davranışının reallıqları haqqında elm olaraq öyrənirik.

Əslində, bu reallıqları digər ictimai elmlər: tarix, kulturologiya, etnologiya, politologiya, demoqrafiya və b. da öyrənir. Sosial psixologiyanı həmin elmlərdən fərqləndirən cəhət insan qruplarının, cəmiyyətin daxilinə nüfuz etməsi, oradakı insan münasibətlərini araşdırmasıdır. Ona görə də bu nəticəyə gəlmək olar ki, bu elm sosial-psixoloji faktların fərdiyyətlə, şəxsiyyətlə bağlı olan tərəfləri haqqında elmdir. Bütün bunlar psixologiyada sosial-psixoloji faktlar adlanır.

*Sosial-psixoloji faktlar,* fərdlərin sosial-psixoloji reallıqlarda təzahür edən, müşahidə olunan və ya qeydə alınan psixoloji xüsusiyyətləridir: onların qavrayışı, təfəkkürü, təxəyyülü, hiss və emosiyası, iradəsi, münasibəti, xarakteri və s.

*Sosial-psixoloji qanunauyğunluqlar*, sosial-psixoloji hadisələrin mütəmadi olaraq, sabit şəkildə təkrarlanan, səbəb-nəticə əlaqələridir.

*Sosial-psixoloji mexanizmlər,* qanunauyğunluqların baş verdiyi mexanizmlərdir ki, o, səbəbdən nəticəyə doğru dəyişmələrlə baş verir.

Sosial psixologiyanın vəzifələri genişdir. Bu vəzifələr ümumi və konkret olmaqla 2 yerə bölünür.

*Ümumi vəzifələrə* aşağıdakılar daxildir:

1) başqa elmlərlə əlaqəli şəkildə sosial psixologiya mövzusuna aid problemlərin dərindən öyrənilməsi;

2) müasir dövrdə qloballaşmanın təsiri ilə dəyişmiş sosial şəraitlə bağlı yaranan sosial-psixoloji problemlərin əlaqəli və məzmunlu şəkildə nəzərdən keçirilməsi;

3) yeni sosial-psixoloji hadisələrin öyrənilməsi (etnik, iqtisadi, siyasi, ideoloji və s.);

4) kütləvi şüurda, ictimai münasibətlərdə və ictimai rəydə dəyişikliklərin ictimai-psixoloji tədqiqatlarının aparılması;

5) cəmiyyətdə aparılan islahatların həyata keçirilməsində sosial psixologiyanın artan rolunun təhlili, görəcəyi işlərin müəyyən edilməsi;

6) sosial psixologiyanın tətbiqi və praktiki psixologiya ilə qarşılıqlı əlaqəsi;

7) daxili (respublikanin sosial şəraitinə uyğun olan) sosial psixologiyanın xarici (dünya təcrübəsinə görə) sosial psixologiya ilə müxtəlif istiqamətlərdə qarşılıqlı əlaqəsinin saxlanılması və inkişaf etdirilməsi.

Sosial psixologiyanın konkret vəzifələri isə bunlardır:

- şəxsiyyətin sosial quruluşu və sosiallaşmasının qanunauyğunluqlarını öyrənmək;
- şəxsiyyətin "mən" quruluşunun sosial mühitlə məqsədyönlü əlaqələrini axtarıb tapmaq;
- sosial təfəkkürün inkişaf yollarını müəyyənləşdirmək;
- sosial biliyin məzmununun necə olmasını aydınlaşdırmaq;
- sosial rol və rol davranışı arasındakı əlaqələri müəyyənləşdirmək;
- ünsiyyətin sosial xarakterini aydınlaşdırmaq;
- ünsiyyət mədəniyyətinin inkişaf yollarını göstərmək;

- kommunikasiyanın sosial-psixoloji tərəflərinə aydınlıq gətirmək;
- sosial münasibətlər sisteminin modelini vermək;
- qarşılıqlı münasibətlər anlama, qavrama, biri-birini qəbul etmənin psixoloji xarakterini izah etmək;
- rol münaqişələrinin psixoloji xüsusiyyətlərini öyrənərək həlli yollarını göstərmək;
- kiçik qrup, onun xarakteri, quruluşu və növlərini araşdırmaq;
- qrup fəaliyyətindəki dinamik proseslərin, sosial fasilitasiya, qrup təzyiqi və konformluq məsələlərinin izahını vermək;
- qruplarda liderlik və rəhbərlik məsələlərini müəyyənləşdirmək;
- böyük qruplarda sosial idarəetmənin xüsusiyyətlərini, rəhbərlik üslubunu izah etmək;
- sosial təsir effektlərini izah etmək;
- sosial psixologiyada praktik xidmətin təşkili üzrə istiqamətlər müəyyənləşdirmək və s.

Sosial psixologiya elmi bir sıra mühüm funksiyaları yerinə yetirir. Həmin funksiyalara bunlar daxildir:

1) *ictimai təcrübənin inteqrasiyası* əsasında müəyyən bir sosial qrupda fikirlərin, iradələrin və duyğuların formalaşması;

2) *sosial uyğunlaşma* – müəyyən sosial qrupda üstün olan prinsiplər və normalara uyğun olaraq fərdi biliklərin paylanması, o cümlədən əldə edilməsi;

3) *ictimai korrelyasiya* – fərdin davranışını cəmiyyətdə qəbul edilmiş normalara uyğunlaşdırmaq;

4) *sosial nəzarət* – şəxsi davranışın cəmiyyətin qeyri-rəsmi sanksiyalar sistemi ilə tənzimlənməsi;

5) *psixoloji rahatlıq* – ümumi qəbul edilən normaları pozmadan sosial və psixoloji stressdən azad olmaq;

6) *sosial fəallıq* – insan fəaliyyətinin gücləndirilməsi.

Burada qeyd edilənlər sosial psixologiya elminin mahiyyəti barədə ümumi təsəvvür yaratmaq məqsədi daşıyır. Onun məşğul olduğu məsələlərin ümumi istiqamətlərini aydınlaşdırmağa imkan verir, lakin bu elmi daha yaxından öyrənmək üçün onun sahələrinə də ayrılıqda baxılmalıdır.

## 1.2. Sosial psixologiyanın tədqiqat sahələri

Qeyd etdiyimiz kimi, Sosial psixologiya bir sıra mürəkkəb sosial-psixoloji problemlərin tədqiqi ilə məşğuldur. Həmin sahələrə aşağıdakılar daxildir:

- şəxsiyyətin sosial-psixoloji problemləri;
- qrupların sosial psixologiyası;
- ünsiyyətin psixologiyası;
- qarşılıqlı münasibətlərin psixologiyası;
- qrupdaxili və qruplararası münaqişələr;
- sosial psixologiyanın praktik problemləri və s.

Son illərdə sosial psixologiyada yeni sahələr meydana gəlməkdədir:

1) sosial təsir;

2) sosial təfəkkür və sosial bilik;

3) sosial münasibətlər və s.

Bu sahələr arasında şəxsiyyətin sosial-psixoloji problemləri, qrupların sosial psixologiyası, ünsiyyət və qarşılıqlı təsir prosesinin sosial psixologiyası, sosial psixologiyanın tətbiqi problemləri və b. müasir dövr mədəniyyəti baxımından yeni yanaşmalarla öyrənilir. D.Ma-yersin araşdır-malarında göstərilən problemlərin mahiyyəti, xüsusiyyətləri, təzahür formaları geniş izahını tapır.

Bu sahələrdən bir neçəsinin tədqiqi məsələlərini qısa da olsa nəzərdən keçirək.

Hazırda şəxsiyyət probleminin öyrənilməsi ilə bir sıra elm sahələri məşğuldur. Bunların hamısından fərqli olaraq sosial psixologiyada şəxsiyyət müəyyən sistem, qrup və kollektiv daxilində tədqiq edilir, onun digərləri ilə birgə fəaliyyəti prosesində nəzərdən keçirilir.

Qrupların sosial psixologiyası sosial psixologiyanın ən geniş sahələrindən biri hesab olunur. Burada həm kiçik, həm də böyük sosial qruplar öyrənilir:

1) kiçik qruplarda (mikromühitdə) sosial psixoloji hadisələrin tədqiqi;

2) böyük qruplarda (makromühitdə) sosial psixoloji hadisələrin tədqiqi.

Sosial psixologiyanın daha bir mühüm sahəsini, yuxarıda qeyd etdiyimiz ünsiyyət və qarşılıqlı təsir prosesinin sosial-psixoloji problemləri təşkil edir. Nəhayət, sosial psixologiyanın tətbiqi problemləri də sosial psixologiyanın sahələrindən biri kimi aparılan tədqiqatlarda özünə geniş yer almağa başlamışdır. Burada sənaye, hüquq, təhsil, ailə, kütləvi kommunikasiya və d. sahələrdə sosial-psixoloji araşdırmalar öz əksini tapır.

Göründüyü kimi, sosial psixologiya elmi çoxsaylı problemləri əhatə edir. Onun tədqiqat sahələri kifayət qədər genişdir. Bu sahələri qruplaşdıraraq aşağıdakı qaydada ümumiləşdirmək olar:

· sosial psixologiyanın inkişafı və yeni tədqiqat sahələrinin yaranması;

· elmi-texniki tərəqqi və qloballaşma şəraitində şəxsiyyətin formalaşmasına verilən sosial tələblər;

· sosial-psixoloji inkişafda gender bərabərliyi problemi;

· fərdlərin sosial şəraiti;

· fərdin sosiallaşmasında və inkişafında təhsil sisteminin rolu;

· cəmiyyətin sosial strukturu: sosial institutlar, milli mədəniyyət, mənəvi dəyərlərin qarşılıqlı əlaqəsi və s.

Bunu da nəzərə almaq lazımdır ki, hazırda sosial psixologiya ilə bağlı toplanmış nəzəri və praktik materiallar əsasən son 100 ili əhatə edir. Sosial psixologiyanın XIX əsrin sonunda müstəqil elm kimi yarandığını nəzərə alsaq, hesab etmək olar ki, bu heç də uzun bir tarix deyildir. Buna baxmayaraq, sosial psixoloqların böyük səyi və məhsuldar əməyi sayəsində dünyada bu elm haqqındakı nəzəriyyələr uğurla inkişaf edir.

Sosial psixologiyanın aktual məsələləri onun metanəzəri sahəsi hesab olunur. Sosial psixologiyanın metanəzəri sahəsində problemlər araşdırılarkən bu və d. məsələlər məhz nəzəri mövqedən təhlil edilir. Bu sırada: şəxsiyyət, sosial təfəkkür, sosial bilik, dərketmə, qrup, sosial təsir, qloballaşma, münaqişələr və d. mövzuların sosial təbiətinin öyrənilməsi diqqət mərkəzində durur.




*Şəkil 1.1. Sosial psixologiyanın əsas tədqiqat sahələri*

Bu problemlərin hər birinin də öz komponentləri və fundamental əsasları vardır. Bu komponentlər özləri də ayrılıqda bir sıra altkomponentləri əhatə edir ki, onlar haqqında aşağıda təhlillər aparılacaqdır. Özündə sosial-psixoloji problemləri birləşdirən bu məsələləri əsas və alt komponentlər kimi belə konkretləşdirə bilərik:

- *şəxsiyyətin sosial psixologiyası;*
- *sosial biliyin formalaşması;*
- *təfəkkürün sosial psixologiyası;*
- *dərketmənin sosial psixologiyası;*
- *ünsiyyət və kommunikasiyanın sosial psixologiyası;*
- *qrupun sosial psixologiyası;*
- *qrup münasibətlərinin sosial psixologiyası;*

• *qrup münaqişələrinin sosial psixologiyası;*

•*sosiohumanitar yanaşmalarda insanın mədəni inkişafının öyrənilməsi imkanlarının müəyyənləşdirilməsi.*

Onlardan bir neçəsini nəzərdən keçirək:

• *Şəxsiyyətin sosiallaşması prosesi:* insanla sosial mühit arasında əlaqələrin qurulması, dünyanı anlaması, bu sahədə informasiyanın əldə edilməsi və mənimsənilməsinin nəzəri-metodoloji əsasları.

Hazırda şəxsiyyətin sosiallaşması aktual problemlərdən biridir. Bu proses sosial şəraitdə baş verir. Sosial inkişaf real təcrübədə, insanın yaşına uyğun gələn fəaliyyət sisteminin konkret tipi və növünün səmərəli qurulması, hərəkətlərin məqsədyönlü dərk edilməsi yolu ilə gedir. Fəaliyyətin iki cəhəti: əşyavi-praktik və qarşılıqlı münasibət hər bir yaş mərhələsində dəyişir, yeni məzmun alaraq növbəti fazaya ötürülür.

• *Kiçik qrupların sosial-psixoloji xüsusiyyətləri:* sosial psixologiyanın digər aktual problemi qrupların qarşılıqlı əlaqəsi və münasibətləridir. Bu əlaqə və münasibətlər "sosial qruplar" aspektində öyrənilir. Məsələn, hazırda təhsil sistemində interaktiv metodlardan istifadə edilərkən böyük və kiçik qruplarla iş aparılır. Həmin qruplarda ünsiyyət və münasibətlərin necə tənzimlənməsi sosial psixologiyanın tədqiqat mövzularına aiddir.

• *Yaradıcı fəaliyyətin sosial psixologiyası:* sosial psixologiyada fəaliyyətə özünün motiv, məqsəd, yönəlişlik və yerinə yetirilmə şəraitinə malik olan bütöv quruluş kimi yanaşılır. Sosiallaşma prosesinə də bu qaydada baxılmalıdır, çünki bu amillər inkişafda məqsədyönlülüyü, səmərəliliyi şərtləndirir.

Sosial inkişafın baş verdiyi sosial şəraitdən bəhs edərkən onun ayrıca bütöv bir quruluşa malik olmadığı aydın olur. Fəaliyyət, qeyd edildiyi kimi, müxtəlif komponentlərdən yaranır. Onlardan ən mühümü yaradıcı inkişafdır. Yaradıcı inkişaf və fərdin sosiallaşma prosesinin predmeti olan motiv sosial yönəlişliklə sıx bağlıdır. Bunlar sosiallaşma prosesində formalaşdığına görə daha çox sosial məzmun kəsb edirlər.

• *Biliyin sosial psixologiyası:* bu anlayış 1920-ci ildə Şeller tərəfindən irəli sürülmüşdür. Geniş mənada bu anlayışın genezisi hər iki tərəflə birgə, paralel təhlil olunaraq, müzakirə edilərək formalaşmışdır. Hazırda sosial bilikdə analoji qaydada konstitusiyalaşma və ayrılma gedir. Bunun əsasında biliyin sosial psixologiyası ilə bağlı nəzəriyyələrin ideologiyası yaranır.

• *Dərketmənin sosial psixologiyası:* təfəkkür və onun tərkib elementləri, sosial və psixoloji fəallıq, mənimsəmə, motivasiya, dəyər və d. komponentlərlə qurulur.

• *Sosial təfəkkür***:** bura öyrənmə, mənimsəmə, anlama kimi mürəkkəb proseslərin inkişafının sosial mühitlə, sosial şəraitlə qarşılıqlı əlaqəsi kimi baxılır. İ.Pestalotski, V.Ştern, L.S.Vıqotski və b. ilk dəfə olaraq bu problemin elmi aspektlərini öyrənmişlər. Sosial inkişaf, sosial şərait anlayışlarını pedaqoji-psixoloji elmlərə L.S.Vıqotski "yaxın inkişaf zonası" nəzəriyyəsi ilə gətirmişdir. O, burada uşağın təfəkkür səviyyəsinin ölçülməsini, inkişaf dinamikasının müəyyənləşdirilməsini uşağın yaşadığı və fəaliyyət göstərdiyi sosial mühitlə, xüsusilə onu əhatə edən insanların sosial mədəniyyəti ilə əlaqələndirir. Bu baxımdan digər tədqiqatçılar (İliç, Bernşteyn və b.) da təfəkkürün sosial xarakterini onun inkişaf etdiyi şəraitlə əlaqələndirdilər.

• *Qrup münaqişələri:* bu problem hazırda sosial-psixoloji tədqiqatların başlıca mövzularından biri hesab olunur. Münaqişə cəmiyyətdə gedən dəyişmələrlə, yaranmış siyasi-iqtisadi vəziyyətlə bağlı olaraq müxtəlif sosial qruplarda, o cümlədən ailə, təhsil və əmək qruplarında baş verir. Münaqişələrin yaranması üçün sosial şəraitlə yanaşı, insanın daxili psixoloji vəziyyəti də əsas amil kimi götürülür.

• *Sosial psixoloqların peşə fəaliyyəti*: sosial psixologiyanın digər aktual problemi praktik sahə ilə bağlıdır. Belə ki, sosial psixologiya elminin müddəaları sosial psixoloqlar, müəyyən qismi isə sosial pedaqoqlar tərəfindən praktik olaraq reallaşdırılır. Sosial psixoloq bu elmin aktual problemlərini şəxsiyyət-qrup-kollektiv müstəvisində həll edir. Sosial psixoloq sosial psixologiya, demoqrafiya, hüquq elmləri və s. bələd olanda hər hansı bir problemə sistemli yanaşmaq imkanı əldə edir.

Sosial psixoloq öz fəaliyyətində sosial psixologiyanın uğurlarından bəhrələnməli, təhsilin və tərbiyənin sosial psixologiyası sahəsində aparılan fundamental tədqiqatların nəticələrini öz fəaliyyətində nəzərə almalı, tərbiyənin demoqrafik problemlərini, şəxsiyyətinin formalaşmasında demoqrafik amillərin rolunu ətraflı öyrənməli, iş prosesində digər sahələrin elmi faktlarından da məharətlə istifadə etməlidir.

## 1.3. Sosial psixologiyanın metodoloji əsasları

Sosial psixologiya psixologiya və sosiologiya elmlərinin qovşağında yerləşmişdir. Onun yaranmasında sosi-

ologiya və psixologiya elmləri əsas elmlər rolunu oynayır. Məhz buna görə də, sosial psixologiyanın əsas nəzəri-metodoloji problemlərinin həlli sosiologiya və psixologiya ilə bilavasitə bağlıdır.

Əsas elmlər olan sosiologiya və psixologiyadan ayrılmasına, onların nəzəri bazasında inkişaf etməsinə baxmayaraq hazırda sosial psixologiya müstəqil elm sahəsi kimi tanınır və qəbul olunur. Artıq sosial psixologiya sosiologiyadan, psixologiya və onun ayrı-ayrı sahələrindən fərqlənən bir elm sahəsi kimi fəaliyyət göstərir.

Sosial psixologiya insan psixologiyasının cəmiyyətlə əlaqəsini əks etdirir. Həmin elm sosiologiya ilə bilavasitə əlaqədar olsa da, sosial psixoloqu ayrılıqda ictimai və ya sosial şərait maraqlandırmır. Sosial psixoloqlar insanların bir-biri ilə qarşılıqlı münasibətlərinin xüsusiyyətlərini və ya qrupda sosial-psixoloji iqlimin xarakterini ictimai şəraitin inikas xüsusiyyətlərindən asılı olaraq öyrənirlər. Bu baxımdan, sosial psixologiya belə bir cəhəti əsas götürür ki, ictimai şərait bilavasitə təsir etmir, qrupun və şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri ilə qaynayıb qarışaraq son nəticədə həmin xüsusiyyətlərə təsir göstərir.

Psixologiya elminin başqa sahələrində olduğu kimi, sosial-psixoloji tədqiqatların müəyyən anlayışları və metodları da ümumi psixologiyadan götürülmüşdür. Bununla belə, onların tədqiqi zamanı sosial psixologiyanın predmeti, məqsəd və vəzifələrinin spesifik cəhətləri nəzərə alınmışdır.

Sosial psixologiya sahəsində çalışan mütəxəssislər, haqlı olaraq göstərmişlər ki, sosial psixologiya yarandığı gündən məhz psixoloji bilik sahəsi kimi formalaşaraq inkişaf etmişdir. Buna görə də, onu, sosiologiyanın tətbiqi

sahələrinə aid etmək olmaz. Sosial psixologiya bir bilik sahəsi kimi, yalnız psixologiya elmləri sistemində öyrənilməli və təhlil edilməlidir. O da, əmək psixologiyası və pedaqoji psixologiya kimi psixologiya elminin müstəqil mövqe qazanmış sahələrindən biridir.

Sosial psixologiya psixologiyanın bir sahəsi olub insan şəxsiyyətini, onun fəaliyyətini, sosial mühitlə qarşılıqlı əlaqədə inkişaf qanunauyğunluqlarını, cəmiyyətlə qarşılıqlı təsirlərini öyrənir. Bu elmin meydana gəlməsi XX əsrin 20-ci illərinə təsadüf edir. Ümumilikdə sosial psixologiyanın predmetinə iki aspektdən baxılır: mikro-sosioloji və makrososioloji.

*Makrososial* nəzəriyyələrdə cəmiyyət, mədəniyyət, sosial institutlar, sosial sistem və strukturlara qlobal sosial proseslər kontekstindən yanaşılır. Bununla bağlı O.Kont, H.Spenser, M.Veber, E.Dürkheym, Z.Freyd, H.Blumer, T.Parsons, C.Kelli, C.Rottter, A.Bandura və başqalarının sosioloji və sosial- psixoloji fikirləri öyrənilmişdir.

K.Manheymin bu sahədəki ideyaları öz dövründə Qərb sosioloji fikrinə böyük təsir göstərmişdi. Onun sosial-tarixi araşdırmaları klassik tədqiqatlar kimi qəbul olunur. K.Manheymin sosial dərketmə sahəsindəki fikirləri geniş sahəyə tətbiq etmək, eləcə də kulturologiyanın metodologiyası üçün proqram işləməkdən ötrü geniş potensiala malikdir.

*Mikrososial psixologiya* nəzəriyyəçiləri bu sahədə sosial davranış və onun mexanizmləri, şəxsiyyətlərarası münasibətlər, motivasiya, qrup təsirlərinin stimulları və s. önə çəkirlər. Ona görə də sosial psixologiyanın predmetində iki müxtəlif yanaşma meydana gəldi:

1) onun predmetinə cəmiyyətin bütöv sosial orqanizmi, sosial və sosiomədəni sistemi halında yanaşmaq;

2) kütləvi sosial prinsiplər və kütləvi davranış haqqında elm kimi yanaşmaq.

Birinci yanaşmada, sosioloji tədqiqatlar demoqrafik, iqtisadi və siyasi, ikinci halda sosial-psixoloji, sosial-pedaqoji istiqamətlərdə aparılır, onun nəticələri də bu elmlərlə bağlı olur. Bu mənada təhsildə, mədəniyyətdə aparılan sosial-psixoloji tədqiqatları daha çox mikrososial tədqiqatlara aid etmək olar.

Fərd olaraq hər birimizdə özümüz və yaşadığımız cəmiyyət haqqında kifayət qədər biliklər var. Belə düşünməyə adət etmişik ki, sosioloqların fikirlərinə nə ehtiyac var. Biz lazım olduğu kimi hərəkət edə bilmərikmi?

Bir neçə mənada bu doğrudur. Gündəlik həyatımızda tərəfimizdən yerinə yetirilən bir sıra hərəkətlər sosial razılaşma ilə bağlı öz anlayışlarımızdan yaranır. Hər halda, belə özünüdərketmənin müəyyən sərhədləri var. Sosial psixologiyanın başlıca vəzifələrindən biri onun mövcudluğunu göstərməkdir.

Digər tərəfdən, insanlar sağlam hesab etdikləri düşüncə tərzinə əsaslanaraq özünə və başqalarına aid olan məsələlərdə müxtəlif rəylər söyləyirlər. Bu rəy heç də həmişə obyektiv olmur. Sosial psixologiya sağlam düşüncənin əsasıdır. Sosial psixologiya bizə özümüz, yaşadığımız cəmiyyət, üzvü olduğumuz sosial qrup, ailə, digər cəmiyyətlər haqqında məlumat əldə etməyə imkan verir. Sosial-psixoloji tədqiqat, bir tərəfdən bizim özümüz və başqaları haqqındakı sağlam məntiqə əsaslanan təsəvvürlərimizi dağıdır, digər tərəfdən onları tamamlayır.

Sosial psixologiyanın mövzusunu anlamaq üçün olan nəzəri yanaşmalarına bunlar daxildir:

1) sosial psixologiyanın əsas mövzusu şəxsiyyətdir: komanda mövqeyi, qarşılıqlı münasibətlər, ünsiyyətin xüsusiyyətləri, sosial təsir və s.;

2) sosial psixologiya kiçik və böyük sosial qruplar (millətlər, ölkələr, böyük sosial-demoqrafik qruplar) üçün xarakterik olan məsələləri araşdırır;

3) sosial psixologiyanın mövzusu fərdin sosial mühitdəki mövqeyi və kütləvi proseslərdir.

Tətbiqi sosial psixologiyanın mövzusu psixodiaqnostika qanunlarının öyrənilməsi, psixotexnologiyaların sosial-psixoloji hadisələrdə tətbiqi və məsləhətlərdir.

Sosial psixoloji bilik qrup, kütlə, qruplararası və şəxsiyyətlərarası münasibətlər, şəxsi yönəlişlik, qrup və fərdi maraqlar, stereotiplər, kütləvi proseslər kimi dinamik və ziddiyyətli məsələləri əhatə edən mürəkkəb biliklər sahəsidir.

Tədqiq etdiyi məsələlərin əhatə dairəsindən göründüyü kimi, sosial psixologiya çoxsaylı problemləri əhatə edir. Onların öyrənilməsi üçün ilk növbədə, onun mövzusunu konkret müəyyənləşdirmək tələb olunur. Çünki, qaydalara görə, hər bir elm digərindən predmetinin və metodlarının özünəməxsusluğu ilə seçilir. Bizi burada maraqlandıran məsələ də təhsilin sosial psixologiyasının mövzusunu müəyyənləşdirməkdir.

Müasir Azərbaycan reallıqlarında sosial psixologiya elmi və onun sahələrinin tədqiqat mövzusunun da müəyyənləşdirilməsi üçün bu həqiqətləri axtarıb tapmaq lazım gəlir. Məsələ burasındadır ki, müasir sosial elmlər içərisində həmin həqiqətlər məhz sosioloji tədqiqatlarla

müəyyənləşdirilən sosial faktlardan ibarətdir. Bu faktlar sorğuya cəlb olunmuş sosial qrupun (qrupların) sosial qiymətləndirilməsi, sosial rəyi, yaxud sosial mövqeyi kimi götürülür.

Sosial psixologiya elminə cəmiyyətin sosio-mədəni sisteminin xüsusiyyətləri, kütləvi sosial proseslər və kütləvi davranış haqqında elm kimi yanaşılsa, bu nəticəyə gələ bilərik ki, sosial psixologiya – fərd və cəmiyyətin bir-birinə qarşılıqlı təsirini, qrup münasibətlərini, qloballaşma dövründə milli mədəniyyətlərin inteqrasiyası və bu əlaqələrin inkişafı ilə bağlı olanları öyrənir.

Sosial psixologiya elmi ilə bağlı olan məsələlər sosial əlaqələr və münasibətlərdir. Deməli, sosial-psixoloji tədqiqatların predmet olaraq həmin əlaqə və münasibətlərin subyektləri və onların sosial-psixoloji problemləri götürülməlidir.

Subyektlər sosial əlaqələrdə müxtəlif rollarda çıxış edirlər: qrup üzvü, rəhbər, müəllim, şagird, valideyn və təhsillə bağlı olan sosial institutlar. Ona görə də sosial psixologiyanın metodologiyası belə səciyyələndirilir. *Sosial psixologiya, sosioloji biliyin bir sahəsidir.* Bu elm sosial əlaqə və münasibətlərin subyektlərinin psixi fəaliyyətini, qarşılıqlı münasibətlərin sosial mühitdəki inkişaf qanunauyğunluqlarını, fərdin cəmiyyətlə qarşılıqlı təsirini öyrənir. Fikrimizcə, bu qanunauyğunluqlar sosial problemləri əhatə edən sahələrin hər birində özünəməxsus qaydada baş verir.

Aydın məsələdir ki, insan sosial istehsal vasitəsi ilə öz həyatını zamana görə təmin edir. Beləliklə, sosial istehsalın transformasiyası özündə cəmiyyətin məruz qaldığı dəyişmələri ifadə edir. Bu dəyişmələr sosial dəyərinə görə

zaman baxımından deyil, ictimai dəyərinə, cəmiyyətin həyatındakı roluna, gerçəkliyi özündə əksetdirmə səviyyəsinə görə qiymətləndirilir.

Sosial psixologiyanın psixoloji-pedaqoji aspektlərinə də üstünlük verilir. Bir sıra yanaşmalarda sosial psixologiyanın predmetini bunlar təşkil edir: ünsiyyət və münasibətlərdə yaranan situasiyanın sosial-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, təhlili, proqnozlaşdırılması və layihələndirilməsi. Burada sosial situasiya dedikdə, mədəni mühit nəzərdə tutulur. Mədəni mühit – mədəniyyətin ötürülməsi prosesi və bunun üçün yaradılmış əlverişli şərait kimi başa düşülür.

Sosial-psixoloji tədqiqatlarda başlıca məqsəd insanın sosiallaşma, ictimailəşmə normalarının müəyyən edilməsidir. Bu məqsəd insan fəaliyyətinin ünsiyyətinin və davranışının bütün sahələrinə nüfuz edir, ancaq heç də həmişə öz dövrünün tarixi şəraitinə uyğun gəlmir.

Cəmiyyətdə gedən yeniləşmə özünü ilk növbədə, təhsildə göstərir. İnsanların dərketmə prosesləri onların davranışı, fəaliyyəti və ünsiyyəti ilə qarşılıqlı əlaqədə olduğundan ictimai proseslər fərdlərin həyatına, onlar da öz növbəsində ictimai proseslərə təsir göstərir. Nəticədə dünyagörüşü, qiymətləndirmələr, münasibətlər yeni məzmun alır. Bütün bu məsələləri nəzərə alaraq, sosial psixologiya elminə cəmiyyətin sosio-mədəni sisteminin xüsusiyyətləri, kütləvi sosial proseslər və kütləvi davranış haqqında elm kimi yanaşmalı oluruq.

## 1.4. Sosial psixologiyada tədqiqatın quruluşu və metodları

Sosial psixologiyanın problemləri cəmiyyətin problemləri ilə üzvü surətdə bağlıdır. Bu baxımdan sosial-psixoloji tədqiqatlarda ümumi psixologiyanın metodologiyasına və metodlarına istinad olunur. Psixologiya elminin bu sahədə imkanları isə genişdir. Onun metodologiyasından, metodlarından istifadə edərək sosial psixologiyanın problemlərini öyrənmək mümkündür.

Sosial-psixoloji tədqiqatlar spesifik xüsusiyyətlərə malikdir:

- ailənin və cəmiyyətin inkişaf tələbatını öyrənmək, onun məzmun və xüsusiyyətlərini qiymətləndirmək;
- fərdin cəmiyyətlə qarşılıqlı münasibətini öyrənmək;
- sosial təsirin psixoloji nəticələrini müəyyənləşdirmək;
- fərdin sosial qrupdakı statusunu müəyyənləşdirmək;
- qloballaşma dövründə milli mədəniyyətin qorunub saxlanması yollarını müəyyənləşdirmək.

Ümumiyyətlə, sosial psixologiyanın aktual problemləri çox olduğundan onun öyrənilməsinə də əhatəli tədqiqatlar həsr olunmalıdır.

Mütəxəssislər bu tədqiqatların klassik və müasir növlərini fərqləndirirlər. O cümlədən, sosial-psixoloji tədqiqatlar mahiyyətinə görə fərqləndirlir.

*1. Tətbiqi tədqiqatlar.* Bu, nəzəri sosial-psixoloji problemlərin dərin təhlili yolu ilə əldə edilmiş nəticələrin təcrübədə yenidən öyrənilməsidir. Tətbiqi tədqiqatlar problemlərin öyrənilməsinə yeni yanaşma, yeni nəzəriyyə və yeni yoldur. Tətbiqi istiqamət konkret sosial-psixoloji prob-

lemlərin praktik həllinə yönəldilir. Konkret tədqiq olunan problemlə bağlı təqdimatlar, sosial layihələr hazırlanır.

*2. Keyfiyyət tədqiqatları.* Belə tədqiqatlar obyekti məhdud qaydada seçilmiş sosial-psixoloji problemin keyfiyyət xassələrini öyrənmək üçün aparılır. Onun məqsədi situasiyanı öyrənmək, fərziyyə müəyyənləşdirməkdir.

*3. Kəmiyyət baxımından aparılan tədqiqatlar.* Bu istiqamətdə aparılan tədqiqatlar: “Nə qədər?”, “Hansı əhatədə?”, “Hansı şəraitdə?” kimi suallara cavab verir. Riyazi statistik yolla aparılan belə tədqiqatlar qoyulmuş fərziyyəni təsdiq, yaxud təkzib etməyə imkan yaradır.

Sosial-psixoloji tədqiqatların aparılması iki əsas paradiqmaya istinad edir:

1. *Subyektə yönəlik paradiqma* – hər bir subyektin fəallaşdırılması yolu ilə bütövlükdə qrupun və cəmiyyətin dinamik inkişafının təmin edilməsi.

2. *Cəmiyyətə yönəlik paradiqma* – hər bir subyekti ictimai münasibətlərə, sosial rollara hazırlayaraq onlarda ictimai şüuru möhkəmləndirmək.

Sosial-psixoloji tədqiqatlarda bir sıra yanaşmalar prioritet hesab olunur:

✓ *demoqrafik yanaşma:* subyektlərin ailə problemlərinin, sosial şəraitinin tədqiqi;

✓ *psixoloji yanaşma:* şəxsiyyətin formalaşmasının sosial məsələlərini, eləcə də insanları fərdiyyət, şəxsiyyət və subyekt kimi öyrənərək onların sosiallaşması dinamikasını müəyyənləşdirmək;

✓ *kollektivist yanaşma:* qrup və kollektivlərin, təşkilatların, əlaqə və münasibətlərini, qarşılıqlı sosial-psixoloji təsirini öyrənmək;

✓ *kulturoloji yanaşma:* sosial münasibətlərin mədəniyyət normaları baxımından öyrənilməsi.

Sosioloji tədqiqatların ən sadə yolu müşahidə, müsahibə, intervyu, anket sorğusu və nəzəri təhlildir. Daha mürəkkəb yol öyrənilən hadisələrin struktur elementlərinin sosioloji təhlilidir: statistik təhlil, sosiometriya, korrelyasiya və s. Onlar qrup halında nəzərdən keçirilir.

*Konkret metodlar.* Tədqiqat obyektinin hansısa zaman kəsiyində konkret olaraq hansısa situasiyada təzahür edən xassə və keyfiyyətlərin, onun kəmiyyət və keyfiyyət xassələri haqqında informasiya verir.

*Təsviri metodlar.* Tədqiq olunan problem və onun struktur elementləri haqqında bütöv təsəvvür əldə etmək üçün konkret sosial analizin əhatəli yoludur. Belə metodlar bütövlükdə tədqiqatın metodikasını yaratmağa imkan verir. Onun köməyi ilə aparılan tədqiqatda vəzifələr qoyulur. Əldə edilmiş nəticələr daha yeni tədqiqatlar üçün material verir.

*Analitik metodlar.* Bu, tədqiqatların dərin təhlili yoludur. Bu yolla yalnız öyrənilən problemin struktur elementləri təsvir olunmur, həm də ona təsir göstərən səbəblər, faktorlar, ənənələr və s. izah edilir.

*Eksperiment.* Bu yolla qarşıya qoyulan vəzifələr, irəli sürülən fərziyyələr müstəqil olaraq həll edilir. Sosial-psixoloji fakt tədqiqatçının öz ideyasının, fərziyyəsinin praktikada müstəqil təsdiqi yolu ilə əldə olunur. Eksperiment zamanı hansısa süni şərait yaradılır, yaxud sosial situasiya təbii şəraitdə öyrənilir. Bu baxımdan eksperiment, psixoloji faktın tədqiqatçı tərəfindən müəyyənləşdirilməsi metodudur.

*Mərhələli metodlar*. Eyni proqramla, eyni metodika ilə, ancaq müxtəlif zaman intervalında tətbiq edilən metodlardır.

*Longityudal metodlar***.** Bu metodlar eyni sosial qrupların: ailə, məktəb, ictimai qurumlar və d. uzunmüddətli tədqiqidir. Bu yolla nəsillərdə, cəmiyyətdə gedən dəyişmələr öyrənilir.

Sosial-psixoloji tədqiqat bu ardıcıllıqla aparılır:

a) nəzəri təhlil;

b) fərziyyənin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi;

c) tədqiqatın prosedur qaydalarının işlənib hazırlanması;

d) əməliyyatların təlimat əsasında keçirilməsi;

e) mərhələlər üzrə ardıcıllığın gözlənilməsi;

ə) nəticələrin təhlili, korrelyasiyası və riyazi statistik təhlil.

Sosial qruplarla bağlı aparılan araşdırmalar ardıcıllıqla qurulur:

-araşdırmaya başlamazdan əvvəl onun məqsədi müəyyənləşdirilir;

-bundan sonra araşdırmada marağı olan mütəxəssilərlə müzakirələr keçirilir, görüləcək işlərlə bağlı məqsədəmüvafiq vəzifələr nəzərdə tutulur;

-araşdırmanın obyekti - harada və kimlər arasında aparılacağı aydınlaşdırılır;

- araşdırmanın predmeti – konkret olaraq nələrin öyrəniləcəyi müəyyənləşdirilir;

-fərziyyələr irəli sürülür, əsas istiqamətlər seçilir.

Sosial-psixoloji tədqiqatlar çoxsaylı metodlarla həyata keçirilir. Tədqiqatın aparılmasında mərhələlərin ardıcıllığı ciddi şəkildə gözlənilir. Burada ən əsas məsələlərdən biri

də sualların formalaşdırılması, sorğu bülletenlərinin tərtibidir.

Sorğusuallar qrupudur. Onların hər biri tədqiqatın predmeti ilə məntiqi baxımdan bağlı olmalıdır. Sorğular əvvəlcədən, dəqiq müəyyənləşdirilərək müvafiq mərhələyə daxil edilir. Sorğular həm müəyyənedici, həm tədqiqedici, həm də ümumiləşdirici xassəyə malikdir. Sorğu müxtəlif yollarla aparılır: müsahibə, söhbət, anket, intervyu, test. Sorğunu 4 tipi fərqləndirilir:

- əyani sorğu - müsahibə, söhbət, anket, intervyu;
- poçt (internet) sorğusu - məktub, müraciət, anket;
- telefon sorğusu – müsahibə, sual-cavab, söhbət;
- elektron mətbuat vasitəsilə keçirilən sorğu - suallar, anket.

Sorğuların hazırlanması zamanı bir sıra çətinliklər yaranır. Burada iki əsas problem öz həllini tapmalıdır: sualların düzgün formalaşdırılması, cavabların şərhi.

Tədqiqatda nəticələrinin etibarlı olması üçün hər bir mərhələdə əldə edilmiş faktlar arasında əlaqə yaradılır. Bu əlaqə özü də aralıq əlaqələrlə qurulur. Belə mürəkkəb əlaqə yaratmaq üçün mərhələlər üzrə hərəkət etmək lazım gəlir. Hər bir mərhələ bir və ya bir neçə fakt arasındakı əlaqənin qurulması metodikasına görə xarakterizə olunur. Bunun üçün aşağıdakı mərhələlər üzrə tədqiqat aparılır.

✓ qarşıya məqsəd qoyulur, əsas faktlar müəyyən edilir;

✓faktlar arasındakı asılılıq haqqında fərziyyə irəli sürülür;

✓ fərziyyəni öyrənmək üçün obyekt və predmet müəyyənləşdirilir;

✓ tədqiqatın metodikası işlənilir;

✓ əldə edilmiş psixoloji məlumatların təhlili aparılır.

✓nəticələr statistik yolla işlənərək digər faktlarla korrelyasiya olunur.

## 1.5. Sosial rəyin öyrənilməsi

Sosial rəyin öyrənilməsi müvafiq istiqamətdə aparılır. Onun intensivliyi, inteqrativliyi gözlənilir. Rəylər suallar əsasında müəyyənləşdirilir. Bunun üçün, ilk növbədə sosioloji tədqiqatların istiqamətlərini və tətbiqi prinsiplərini müəyyənləşdirmək tələb olunur. Hazırda təhsilin sosioloji tədqiqatlarında bir sıra prinsiplərə üstünlük verilir.

Hələ Q.Hegelin dövründə ictimai rəyin öyrənilməsinə maraq göstərilirdi. O, ictimai rəydə bir sıra struktur elementlərini ayırd etmişdi:

1) ictimai rəyin mövcudluğunun şərtləri;
2) ictimai rəyin obyekti (məzmunu);
3) ictimai rəyin daşıyıcıları;
4) ictimai rəyin keyfiyyəti qismində çıxış edən mühakimələrin xarakteri;
5) ümumi və xüsusi rəyin uyğunluğu və ziddiyyətləri.

Bununla yanaşı, ictimai rəyin funksiyaları da ayırd edilir:

✓ ictimai münasibətlərin nizamlanması;
✓ tərbiyəedici funksiya;
✓ direktiv funksiya;
✓ qiymətləndirici funksiya;
✓ analitik və konstruktiv funksiya.

İctimai rəy bir sıra kriteriyalara malikdir: *ictimai maraq, diskussiya imkanlarının olması, müvafiqlik, nəticələrin keyfiyyət və kəmiyyət baxımından xarakteristikası.*

İctimai rəydən bəhs edərkən ilk növbədə onun obyekti və subyekti müəyyənləşdirilir. Sosial rəyin subyekti əhalinin

əksəriyyətidir. O, daxili quruluşa malikdir. Subyektin elementləri siniflər, sosial təbəqələr, xalqlar, digər sosial icmalar və ayrı-ayrı şəxsiyyətlərdir. Bu ümumiliyin çərçivəsində ümumxalq fikri, mövqeyi formalaşır.

Sosial rəyin obyekti, bu rəyin yaranmasının səbəbləridir. Obyekt nə qədər çox dərəcədə mahiyyət kəsb edirsə, ictimai rəy də o dərəcədə güclü şəkildə ümumi maraqları və tələbatları ifadə edəcəkdir. Belə ki, müasir şəraitdə ictimai rəyin diqqət mərkəzində duran məsələ ekoloji vəziyyətin yaxşılaşması, dünyanın birliyidir. İctimai həyatı xarakterizə edən ictimai rəyin obyektinin daxili quruluşundan və təşkilindən, yaranma səbəblərindən asılı olaraq faktlar, hadisələr, proseslər haqqındakı mövqelər də fərqlidir. Ona görə də ictimai rəyin öyrənilməsi müasir sosial psixologiyanın mühüm vəzifəsidir.

Əlbəttə ki, belə tədqiqat heç də həmişə sağlam düşüncəyə əsaslanmır. Əldə edilən rəylər sağlam düşüncəyə əsaslandıqda bu nəticələr sosial davranışın öyrənilməsində onu anlamanın mənbəyi ola bilir. Əks halda əldə edilmiş sosial rəy tədqiqat üçün etibarlı və gerçək faktlar verə bilməz.

Sosial rəyin öyrənilməsi müvafiq istiqamətdə aparılır. Onun intensivliyi, inteqrativliyi gözlənilir. Rəylər suallar əsasında müəyyənləşdirilir. Bunun üçün, ilk növbədə sosioloji tədqiqatların istiqamətlərini və tətbiqi prinsiplərini müəyyənləşdirmək tələb olunur. Hazırda təhsilin sosioloji tədqiqatlarında bir sıra prinsiplərə üstünlük verilir.

Hələ Q.Hegelin dövründə ictimai rəyin öyrənilməsinə maraq göstərilirdi. O, ictimai rəydə bir sıra struktur elementlərini ayırd etmişdi:

- ictimai rəyin mövcudluğunun şərtləri;

- ictimai rəyin obyekti (məzmunu);
- ictimai rəyin daşıyıcıları;
- ictimai rəyin keyfiyyəti qismində çıxış edən mühakimələrin xarakteri;
- ümumi və xüsusi rəyin uyğunluğu və ziddiyyətləri.

Bununla yanaşı, ictimai rəyin funksiyaları da ayırd edilir:

✓ ictimai münasibətlərin nizamlanması;
✓ tərbiyəedici funksiya;
✓ direktiv funksiya;
✓ qiymətləndirici funksiya;
✓ analitik və konstruktiv funksiya.

İctimai rəy bir sıra kriteriyalara malikdir: *ictimai maraq, diskussiya imkanlarının olması, müvafiqlik, nəticələrin keyfiyyət və kəmiyyət baxımından xarakteristikası.*

Hazırda cəmiyyətdə bir sıra ictimai, iqtisadi, siyasi, eləcə də bu amillərin təsirindən yaranan sosial problemlər var. Bu problemlərin həlli yalnız dövlətin apardığı siyasətlə deyil, həmçinin bu cəmiyyəti təmsil edən fərdlərin sosial təfəkkürü, mənəvi idealları, dəyərləri və s. ilə bağlıdır. İkincilər bütövlükdə "ictimai rəy"də birləşir. Hər bir cəmiyyət üzvü onun inkişaf istiqamətlərini özünəməxsus tərzdə anlayır və bunun üzərində öz ideallarını qurur. Fəaliyyət motivasiyası, sosial psixologiya buna yönəlir. Göstərilənlərə əsaslanaraq cəmiyyətin həyatının bütün sahələrində, eləcə də təhsildə onun inkişaf istiqamətləri, strategiyası hazırlanarkən ictimai rəy bu və d. dərəcədə nəzərə alınmalıdır.

• İctimai (sosial) rəy nədir və o necə formalaşır?
• Cəmiyyət üzvlərinin şüurunda hansı fikri proseslər gedir və həmin proseslər ictimai rəyə necə təsir göstərir?

• Mətbuatda, təhsildə, mədəniyyətdə aparılan təbliğat ictimai rəyin dəyişməsinə necə təsir göstərir?

• Ümumiyyətlə, Azərbaycan cəmiyyətində bu təbliğat işləri necə qurulub və nəyə hesablanıb?

İctimai fikrin inkişafı hər bir ölkədə baş verən sosial və siyasi hadisələrlə bağlıdır. Sosial psixologiya elmində ictimai rəyin sosial mahiyyətinin tədqiq edilməsi dünyada gedən 3 mühüm proseslə əlaqələndirilir.

• Dünya sənayesində istehsalın artması. Həm dünya bazarları, həm də bu bazarlara ixrac olunan sənaye və kənd təsərrüfatı mallarının keyfiyyəti uğrunda rəqabətin, mübarizənin güclənməsi; yüksək keyfiyyətli, müxtəlif çeşidli malların istehsalı məqsədilə təhsildə yüksək səviyyəli mütəxəssislərə olan ehtiyacın günbəgün artması; buna uyğun olaraq problemi öyrənmək, istehsalı ictimai rəyə uyğunlaşdırmaq məqsədi ilə sosial sorğular keçirmək, reklamların səmərəliliyini artırmaq.

• Cəmiyyətin müxtəlif sahələrinə siyasi müdaxilənin artmasına gətirib çıxaran siyasi proseslərin dinamik inkişafı: demokratik quruluşun möhkəmlənməsi, siyasi partiyaların ictimai rəyə təsir imkanlarının, nüfuzunun artması və siyasi mübarizənin genişlənməsi.

• Kütləvi informasiya vasitələri, xüsusilə televiziyanın imkanlarının artması, ictimai rəyi özünə yönəltmək məqsədilə mətbuatda gedən rəqabət, bunun üçün təbliğatın istər-istəməz ictimai rəyə hesablanması da sosial rəyin öyrənilməsinə güclü təsir göstərir. Eləcə də əhalinin təhsilinin, mədəniyyətinin, siyasi şüurunun artması, onun maraqlar sahəsinin genişlənməsi də sosial rəyin məzmun baxımından dəyişməsinə təsir göstərir.

İctimai rəyin özündə hansı mahiyyət daşıması və cəmiyyətin inkişafında bu rəyin nəzərə alınmasının vacibliyi bu sahədə əsas məsələdir. İctimai rəyin sosial institut olmasını əsaslandırmaq üçün onun mənşəyini aydınlaşdırmaq lazım gəlir. Yalnız bu halda ictimai rəyin sosial mahiyyətini izah etmək olar.

Aparılan təbliğatla cəmiyyətdəki ictimai rəyi bütövlükdə dəyişmək mümkündürmü? Bütün bu suallar sosial psixologiyanın nəzəri tədqiqatlarının istiqamətlərini müəyyənləşdirmək üçün əhəmiyyətlidir, lakin bizi burada maraqlandıran məsələ təhsilin inkişafında sosial rəyin öyrənilməsi və nəzərə alınması yollarının, şərtlərinin edilməsidir. Hesab edirik ki, bu sahədə Azərbaycanın sosial institutları, xüsusilə QHT-lər tərəfindən geniş iş aparılsa da, onların nəticələri ilə tanış olmaq geniş ictimaiyyət üçün əlçatmazdır. Bunlara baxmayaraq, aparılan işlərin keyfiyyəti fərdlərin sosial mühitə münasibəti və sosial rəyi ilə bağlıdır.

## 1.6. Sosial psixologiyanın yaranması və inkişafı

Dünya mədəniyyətinin inkişafı insanlığın tarixi ilə ölçülür. Bu mədəniyyət özündə bir çox sahələri birləşdirir. Onlardan başlıcası elm, daha doğrusu, insanlığın yaratdığı elm sahələridir. Elm sahələri ümumilikdə iki yerə bölünür: sosial elmlər, təbiət elmləri. Sosial elmlərin məhz bu cür adlandırılması təsadüfi deyil, çünki son nəticədə insan qrupuna, onların yaranması və inkişafına, yaratdıqları mədəniyyətə, birgə yaşayış normalarına, qarşılıqlı

əlaqəsinə aid edilən bütün elmlər: fəlsəfə, politologiya, kulturologiya, sənətşünaslıq, tarix, pedaqogika, psixologiya, demoqrafiya və b. insan (fərd) və cəmiyyəti (sosial mühiti), onun faktlarını və inkişaf qanunauyğunluqlarını öyrənir. Bu baxımdan sosial elmlərin predmetini də sosial faktlar təşkil edir.

Sosial elmlər içərisində sosial psixologiyanın özünəməxsus yeri var. XIX əsrin sonu, XX əsrin əvvəllərində dünyada sosial psixologiya istiqamətində ictimai-psixoloji konsepsiyalar meydana gəlməyə başladı. Onun əsas sahələri bunlar idi:

- fərdi psixoloji istiqamət (U. Ceyms, U. Makdouqall, G. Tard, G. Lebon və b.);
- sosioloji istiqamət (E. Durkheym, C. Mid və b.).

Sosial psixologiyanın inkişafının ikinci dövrü XX əsrin 20-ci illərinə, II Dünya müharibəsi illərinə təsadüf edir. Həmin dövrdə Amerika sosioloji düşüncəsinin xarakterik xüsusiyyətlərini bu ideyalar təşkil edirdi:

a) pozitivizm;
b) empirizm.

Sosial-psixoloji nəzəriyyələrin başlıca mövzularını kütlə psixologiyası (Vundt, Vıqotski, Lebon və b.), mədəni və tarixi nəzəriyyələr (Mid, Kuli, Mayers və b.), yönəlişlik nəzəriyyəsi təşkil edir. C.Mid mədəni istiqamətin əsas nümayəndəsi kimi tanınır.

Bu elmin klassik yaradıcıları sırasında O.Kont (1798-1857), H.Spenser (1812-1903), M.Veber (1864 -1920), E.Dürkheym (1858-1917), K.Manheym (1893-1947), Z.Freyd (1856-1939), H.Blumer (1900-1987), T.Parsons (1902-1979) və b. da vardır.

V.Vundtun fikrinə görə, dünya iradələrin uyğunluğu, yaxud iradi vahidlikdir. Bu fikirdə fərdlərin toplusundan, yəni sosial psixologiyanın predmetinə daxil olan kütlə iradəsindən, cəmiyyətdən bəhs olunur. V.Vundt özü də bu qənaətdə idi ki, insanın ruhu özünün mürəkkəbliyi ilə başqalarından fərqlənən iradi vahidlikdir. Əslində, iradi vahidliyi böyük mürəkkəbliyi ilə fərqlənən sosial varlıq kimi təsəvvür etmək lazımdır. Bu, V.Vundtun "*kollektiv vahidlik, yaxud xalq ruhu*" adlandırdığı vahidlikdir. Bu vahidlik, həmçinin vahid iradəni ifadə edir, hansı ki, təhsilin sosial psixologiyasında vahid iradə sosial rollar kontekstində nəzərdən keçirilərək öyrənilir. Nəticə olaraq bunu qeyd etmək lazımdır ki, həmin dövrdə fəlsəfədə gedən bu axtarışlar elmi psixologiyanın yaranmasına, o da nəticə etibarı ilə insan ağlının sosial məzmununun elmi əsaslar üzərində izahına imkan verdi.

Sosial psixologiya elminin əsasında pozitiv fəlsəfə durur. Pozitiv fəlsəfənin yaradıcısı XIX əsrin I yarısında ədəbi, II yarısında fəlsəfi yaradıcılıqla məşğul olmuş fransız filosofu *O.Kont* idi.

O.Konta görə, bütün elmlər haqqında ilk sistemli yanaşmaların, biliklərin mənbəyi fəlsəfə elmidir. O.Kontun nöqteyi-nəzərində fəlsəfə elmi əxlaq, siyasət və dinin əsaslarına xidmət etməlidir. O, özlüyündə mövcud ola bilməz. Onun mövcudluğunu ideyalar vasitəsilə müəyyən etmək mümkündür. İdeyalar dünyanı idarə edir və onu hərəkətə gətirir. Bununla yanaşı, O.Kont hələ öz dövründə bildirirdi ki, cəmiyyətdə hamının qəbul etdiyi ümumi mülahizə yoxdur. Birində bir, digərində digər fikirlər hakimdir. Müasir ictimai həyatda ali anarxiya hakimdir. Fikirlərin bu anarxiyasına son qoymaq üçün hamı tərəfindən

qəbul olunan yeni sosial elm yaradılmalıdır. Hamı tərəfindən qəbul edilən bu sosial elm yaradılan kimi, səssiz-küysüz, ciddi silkələnmələr olmadan yeni sosial era başlayacaq".

H.Spenserin sosial psixologiya (sosial biliklə) ilə bağlı ən mühüm fikirləri ondan ibarətdir ki, o, dünyanı dərkedilən və dərkedilməyənə bölürdü. H.Spenserin nöqteyi-nəzərinə görə, elm təhlillər yolu ilə fərdlərin hissi qavramasını, bu qavramadakı fərqli cəhətləri, eləcə də digər məsələləri araşdırsa da, bütövlükdə hadisələrin real səbəblərini, əlaqə və münasibətləri tam mənası ilə izah etmək gücündə deyil. Bu mənada, materiya, hərəkət və qüvvə görünməz reallığın yalnız simvollarıdır.

H.Spenser sosial mühitdə baş verən konkret hadisələr zamanı insan davranışının obyektiv izahında fəlsəfə ilə müqayisədə psixologiya və sosial psixologiyanın imkanlarının daha geniş olması qənaətində idi. Bu fikirlər onun "Psixologiya haqqında dəlillər", "Əqli, əxlaqi və fiziki tərbiyə" kimi əsərlərində aydınlaşdırılır. Sosial mühitin insan davranışına təsirinin əhəmiyyətini yüksək qiymətləndirən H.Spenser bu sahədə düzgün qurulan tərbiyəyə xüsusi əhəmiyyət verirdi. O, tərbiyə vasitələrinin düzgün seçilməsini, bu prosesdə uşağın fərdiliyinin nəzərə alınmasını əldə edilən nəticələr üçün ən mühüm amillər hesab edirdi. Bu kimi fikirlərinə görə H.Spenserin fəlsəfi görüşləri sonrakı dövrdə tənqidi empirizm və yeni pozitivizm tərəfdarlarının dünyagörüşünə mühüm təsir göstərmişdir.

XX əsrdə təhsilin sosial psixologiyası sahəsində ilk ideyaları, qeyd edildiyi kimi, E.Dürkheym və K.Manheym tərəfindən irəli sürülmüşdür. Həmin ideyalar sosioloji tədqiqat-

lar üçün çoxsaylı mövzular vermiş oldu. Hazırda da dərketmənin sosial psixologiyası sahəsində bu ideyalar öz aktuallığını qoruyub saxlamaqdadır.

E.Dürkheym O.Kont və H.Spenserin ideyalarına istinad etsə də, əslində onların fikirləri ilə tam razılaşmır, həmçinin O.Kontun cəmiyyətin inkişafı ilə bağlı 3 mərhələnin olması qanununu qəbul etmir, onun inkişafında əmək bölgüsünün rolunu yeni tərzdə qiymətləndirirdi.

Sosial psixologiya əhəmiyyətli dərəcədə E.Dürkheymin sosioloji görüşlərinə əsaslanır. Onun nəzəriyyəsində əsas diqqət sosioloji biliyin metodologiyasının inkişafına yönəldilir. Belə ki, E.Dürkheymə görə, sosial psixologiya təbii elmləri dərketmənin metodlarına istiqamətlənməlidir.

E.Dürkheymin sosioloji görüşlərinin mərkəzində "sosial həmrəylik" dayanır. Cəmiyyətin təkamülünü təhlil edərək o, sosial əlaqələrin əsas iki tipini ayırd edir:

1) "mexaniki həmrəylik";

2) "orqanik həmrəylik".

Bununla yanaşı, E.Dürkheym intiharın sosial psixologiyasını da işləyib hazırlamışdır. O, intiharın həlledici səbəbi kimi sosial mühitin xarakterini, onun kollektiv əlaqələrinin dərəcəsini və intensivliyini, sosial inteqrasiyanın mexanizmlərini göstərir. Cəmiyyətdə inteqrasiyanın səviyyəsi nə qədər yüksəkdirsə, intiharın səviyyəsi də aşağı olur: katoliklərdə intihar protestantlarla müqayisədə aşağıdır, şəhərdə kənddən yüksəkdir.

E.Dürkheym hesab edir ki, inamın mənbəyi dinsiz, yaxud müasir müxtəlifliklərdir, ideologiyasız yaşaya bilməyən cəmiyyətin özüdür. Məhz din cəmiyyətin tam dəyərini, insanların itaət obyektini ifadə edir.

Sosial psixologiyanın daha bir klassik tədqiqatçısı K.Manheymdir. Biliyin sosial psixologiyasının yaranması da bilavasitə onun adı ilə bağlıdır.

K.Manheym hesab edirdi ki, bir dövr çərçivəsində sosial-sinfi mövqelərin və güclərin tarixi baxımından mürəkkəbləşmiş müxtəlif sosial "təsadüflər" baş verə, "təfəkkür üslubunun", yaxud "mövqe düşüncəsinin" mövcudluğunu şərtləndirə bilər. Sosial dərketmənin spesifik vəzifəsi "mənəvi qurulmanı" onun daşıyıcılarının sosial mövqeyinə gətirməkdir.

Həm E.Dürkheymin, həm də K.Manheymin ideyaları öz dövründə Qərb sosioloji fikrinə böyük təsir göstərmişdir. Onların tarixi-sosial araşdırmaları klassik tədqiqatlar kimi qəbul olunur. Məsələn, E.Dürkheymin fikirlərini tərbiyənin müasir problemlərinə, K.Manheymin sosial dərketmə sahəsindəki fikirlərini sosial sahələrə tətbiq etmək olar. Eləcə də, kulturologiyanın metodologiyası üçün proqram işləməkdən ötrü bu mənbələr geniş potensiala malikdir.

E.Dürkheym və M.Veberin sosioloji fikirlərinə tənqidi yanaşan T.Parsons onların ideyalarını yenidən işləyərək sosial hərəkətlərin nəzəri sistemini yaratmışdır. T.Parsonsa görə, *sosial hərəkət açıq sistemdir*. Hərəkət edən şəxs məqsədə çatmağa çalışır. Bu hərəkət zamanı o, ətraf mühitin situativ təsirləri ilə üzləşir. Həmin təsirlər özündə dəyişən və dəyişməyən faktorları birləşdirir. Dəyişməyə məruz qalan faktorlardan məqsədə çatmaq üçün istifadə oluna bilər, ancaq dəyişməyən faktorlar hərəkətin əsas şərtini təşkil edir. Öz zamanına görə mövcud olan hər bir açıq sistem uzunmüddətli hadisələrə olduğu kimi, gündəlik problemlərə də təsir göstərərək həm xarici mühitə, həm

də fərdin özünün daxili aləminə yönəlir. Buna 4 mühüm sistem funksiyaları uyğun gəlir:

• *adaptasiya – ətrafa uyğunlaşma;*

• *nümunələrin saxlanılması (latentlik);*

• *müvazinət vəziyyəti və məqsədə yönəlişliyin (məqsədə nailolmanın) qorunmasına kömək;*

• *inteqrasiya – hissələrin daxili qurulması.*

T.Parsons hesab edir ki, insanın xarici mühitdəki hərəkət sistemi fiziki-orqanik təsirlərlə qarşılıqlı əlaqədə olmaqla hərəkətlərin "sonuncu reallığı" kimi baş verir. Bunlar arasındakı mədəniyyət komponentlərindən ibarət olan münasibətlər simvolik mahiyyət daşıyır.

Sosial psixologiyanın psixoanalitik yönümlü inkişafı haqqında danışmamaq olmaz. Belə ki, sosial psixologiyada Z. Freydin kütlə psixologiyası və qrup psixologiyasının mənşəyi haqqındakı fikirləri olduqca maraq doğurur. Onun fikirləri əsasında inkişaf etmiş yeni freydizmin əsas anlayışları sosial psixologiyanı şüur və şüuraltı sahənin sosial mühitlə əlaqəsinə aydınlıq gətirmişdir. Psixoanalizdə insan və qrup modeli, qrupun yaranması və inkişafına özünəməxsus izahatlar verilir.

Amerika sosial psixologiyasında formalaşan əsas nəzəriyyələr isə hazırda dünyada məşhurdur (Bandura, Kelli, Rocers və b.). Davranış haqqında nəzəriyyə Amerika psixologiyasında yaranmış ən aktual nəzəriyyələr sırasındadır. Bu nəzəriyyə insanın sosial mühitdəki rol davranışlarının mahiyyətini açmağa imkan vermişdir. Bu nəzəriyyə və yeni biheviorizm əsasında sosial psixologiyanın bir çox suallarına aydınlıq gətirildi. Onun əsas anlayışlarının və prinsiplərinin əhatə dairəsi

genişləndirildi. Davranışın təkamül mərhələləri aydınlaşdırıldı.

Bu baxımdan, qeyd etmək lazımdır ki, həmin dövrdə psixologiya elmində biheviorizmin elmi müddəalarının yaranması da sosial psixologiyanın inkişafını labüd edirdi. Çünki davranış insanın fəaliyyəti haqqında müəyyən sxem yaratmağa imkan verir. Biheviorizm də məhz bu faktların məzmununu öyrənirdi (C.Uotsonun irəli sürdüyü *"S-R"* formulu nəzərdə tutulur).

Məlum olduğu kimi, biheviorizmdə insanın davranışı onun baş verdiyi situasiya, yəni sosial şərait və insan şəxsiyyətinin qarşılıqlı əlaqəsi ilə izah olunur. Deməli, davranışa sosial təsirlərin olması qaçılmazdır. Sosial psixologiya elmi də məhz insanın həyat və fəaliyyətinin sosial mühitdə öyrənməyə, kütlə psixologiyasının sosial mahiyyətini aydınlaşdırmağa cəhd kimi yarandı və uğurla inkişaf etdi. Bu sahədə XX əsrdə haqqında yuxarıda bəhs etdiyimiz və edə bilmədiyimiz bir çox nəzəriyyələr yarandı.

Nəticələr bunu deməyə əsas verir ki, sosial psixologiyanın yarandığı ilk dövrlərdə aparılan tədqiqatlarda cəmiyyətin ümumi sosial problemlərinin izahına cəhd göstərilirdi. Həmin problemlərə insan cəmiyyətlərinin tarixi inkişaf qanunauyğunluqları, cəmiyyətlərin quruluşu, idarə olunması, sosial rollar və s. daxil idi. Bununla yanaşı, cəmiyyətlərdə baş verən kütləvi hadisələrin sosial xarakteri, mədəniyyətlərlə bağlılığı, ənənəvi və müasir cəmiyyətlərin fərqli cəhətləri, sosial təbəqələr, onların qarşılıqlı əlaqə və münasibətləri də tədqiqat mövzularına daxildir.

İlkin tədqiqatların daha bir əhəmiyyəti sosioloji araşdırmaların aparılmasında ictimai rəyə istinad olunması, problemlə bağlı cəmiyyətin müəyyən təbəqələrinin ümumi

mövqeyinin öyrənilməsi üçün metodların, texnologiyaların yaradılmasından ibarətdir. Bu metodikalar hazırda xeyli təkmilləşdirilərək kompüter proqramları səviyyəsində işlənmişdir.

Əslində, özünün metodoloji əsasına görə sosioloji bilik, həmçinin: "şüursuzluq", "mentallıq", "arxetip" və d. faktorlarla da əlaqələndirilməlidir. Xüsusilə, K.Q. Yunqun "arxetiplər" haqqındakı fikirləri tədqiqatçılara elmi əsas vermiş oldu. Bu anlayışlarla psixologizm arasında əlaqə olsa da, özünün mənşəyi baxımından fərqlidirlər. Psixologizmdə biz mədəniyyət tarixində yaradılanların şərhi, "şüursuzluq", "mentallıq", "arxetip" kimi anlayışlarda isə təfəkkürün, şüurun, dərketmənin tarixi ilə üzləşirik.

Psixoanalitik yanaşmada biliyin sosial psixologiyası ilə bağlı irəli sürülən digər ideya *fərdi və kollektiv şüursuzluq,* hər hansı bilik sistemindəki şəxsiyyət və mental komponentlər, heç bir rasional nəzəriyyədən qidalanmayan irrasional fikirlər haqqındadır.

XIX əsrdə ilk dəfə *Borinq* klassik biheviorizmin (ingiliscə: *bihevior*-davranış sözündən götürülmüşdür) tarixini *Dekarta* qədər izləyərək onun əsaslarını əhatəli şəkildə araşdırdı. Aydın oldu ki, bu cərəyanın mənşəyi məhz Dekartın "*canlı-maşın*" konsepsiyası ilə əlaqəlidir. Biheviorizmin fəlsəfi istiqamətləri ilk dəfə *O.Kont* tərəfindən müəyyənləşdirildi. Bihevioristlər tətəfindən davranışın düsturu yaradılmışdı: $R=f\ (P \leftrightarrows S)$. Burada: *R*-davranış; *P*-şəxsiyyət; *S* -situasiya; *f* -psixoloji faktdır. Bu düstura görə, davranış-şərait (stimul) və şəxsiyyətin təbiətinin qarşılıqlı təsiri (reaksiyası) kimi yaranır.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Amerika biheviorizmi insanın xarici aləmin stimullarına cavab olaraq

yaranan hərəki aktların: verbal və emosional reaksiyaların baş vermə mexanizmini öyrənirdi. Onun ümumi metodoloji əsasında pozitiv fəlsəfənin (Kont, Littre, Mill, Yum, Lüis və b.) prinsipləri dururdu. Həmin fəlsəfəyə görə, elm yalnız müşahidə olunanları şərh etməlidir. Biheviorizmin tezisləri də buradan çıxır ki, psixologiya şüuru deyil, davranışı öyrənməlidir. Bu baxımdan yeni biheviorizmin yaradıcılarından olan C.Uotson da qəti olaraq davranış problemini şüur terminінə daxil etməkdən imtina etmişdi.

*C.B.Uotson* (1878-1958) 1919-cı ildə nəşr olunmuş "*Psixologiya davranış haqqında elmdir*" kitabında bihevorizmin mahiyyətini göstərmişdir. C.Uotson biheviorizmin inkişafını fəaliyyətin neyro-fizioloji əsaslarını dəqiqliklə öyrənməkdə, onun elementar faktlarından tutmuş, sosial təsirlərə qədər müəyyənləşdirməkdə görürdü. Bu baxımdan bihevioristlər davranışı dərindən öyrənməyə başladılar. Yeni biheviorizmin nümayəndələri *Vudvorts, Xoll, Tolmen* bu elmin nəticələrini uğurla təhsil sahəsində tətbiq etdilər. Həmin tədqiqatçılar C.Uotsonun bir sıra yanaşmalarını qəbul etmirdilər. Onlar insan davranışına mexaniki olaraq baş verən nəticə kimi deyil, şüur tərəfindən yaradıcılıqla tənzimlənən akt kimi baxırdılar.

Daha bir tanınmış biheviorist B.F.Skinnerin (1904-1990) düşüncələrinə görə, tədqiqatçılar daha çox orqanizmin davranışının xarici mühitin nəzarəti ilə şərtlənən komponentlərini göstərməyə çalışmalıdırlar. O, davranışın möhkəmləndirilməsinin (özünümöhkəmləndirmənin) izahını verərək şərti möhkəmləndirmənin yaranmasında ilkin və ikinci olan stimulları göstərmişdir. Bunlar aşağıdakılardır:

- ✓ fərqləndirici stimul;
- ✓ sosial möhkəmləndirici stimul;

✓ pozitiv möhkəmləndirici stimul.

Aparılmış bu tədqiqatlar sosial psixologiyada yeni bir sahənin təhsilin sosial psixologiyasının yaranmasına elmi imkanlar yaratmış oldu. Beləliklə də, XIX əsrin sonu, XX əsrin əvvəllərində dünyada təhsilin sosioloji tədqiqatları yeni istiqamət aldı.

Sosial psixologiyanın yaranması və inkişafı dövründə meydana gəlmiş klassik nəzəriyyələr haqqında apardığımız bu qısa təhlil bizə bir sıra nəticələr söyləməyə imkan verir. İlk növbədə, bunu qeyd edə bilərik ki, sosial psixologiya elmi fəlsəfənin insan və cəmiyyət problemlərinə aid olan bir sahəsi kimi XIX əsrə qədər inkişaf etmiş, həmin dövrdə onun tərkibindən müstəqil elm sahəsi kimi ayrılmağa başlamışdır. Bu sahədə pozitiv fəlsəfə mühüm rol oynamışdır. O.Kontun yaradıcısı olduğu həmin cərəyanın nümayəndələri insan davranışının sosial mühitdə başvermə aktlarına yeni qanunlarla yanaşılması ideyasını irəli sürmüşdülər. Buna səbəb, fərdə xas olan təbii davranışın mühitdəki sosial davranışdan fərqlənməsi haqqındakı ilkin elmi faktlar idi.

## 1.7. Sosial psixologiyada müasir nəzəriyyələr

Müasir sosial psixologiyanın nəzəriyyələri sırasında humanist yönüm, Qərb humanist psixologiyasının sosial-psixoloji prinsipləri, onun əsas metodik müddəaları, müəyyən psixoloji yönümlü insanın təsviri geniş araşdırmaların predmeti olmuşdur. Şəxsiyyətlərarası əlaqələrin xüsusiyyətləri (K.Rocers və s.) bu tədqiqatlarda əsas mövzulardandır. Psixoloji təsir prinsipi kimi, intensiv

qrup təcrübəsi əsas götürülür. Bir növ humanist yönümlərə yaxın olan bu yanaşma şəxsiyyətəyönəlik terapiyasının da əsasında durur.

E.Fromm, K.Horni, E.Bernin araşdırmalarında diqqət humanist psixoanalizə yönəldilir. A.Maslou isə özünüreallaşdırmanın təlimini yaratmışdır. Q.Ollport şəxsiyyətin öyrənilməsinə ideoloji yanaşma ilə çıxış edir. R.Mey şəxsiyyət anlayışında fenomenoloji yanaşma irəli sürür. K.Rocers müasir sosial psixologiyada kliyentə yönəlik nəzəriyyənin müəlifi kimi tanınır.

*Sosial-koqnitivizm.* Müasir sosial psixologiyanın daha çox aktual olan nəzəriyyələri sırasında yeni biheviorizm ənənəsinin nümayəndələri və onların araşdırdıqları problemlər, A.Bandura və başqalarının öyrənmə sahəsindəki tədqiqatları, frustrasiya nəzəriyyəsi, aqressiyanın tədqiqatları (Miller, Dollard) da öndə durur. Eyni zamanda, sosial təcrübənin mübadiləsi və şəxsiyyətlərarası münasibətlər nəzəriyyəsi kimi (D.Kelli), bu yanaşmanın ümumi qiymətləndirilməsi haqqındakı yanaşmalar da bu sıradadır.

Hazırda sosial psixologiya nəzəri mənbələrinə koqnitivizm və sosial koqnitivizm daxil edilir. Bu nəzəriyyələrdə sosial münasibətlər, idrak strukturlarının təhlili, sosial qavrayışın formalaşması mexanizmləri və şəxsiyyətdə baş verən dəyişmələr izah edilir. Sosial koqnitivizmdə idrak nəzəriyyələri insan şüuruna konseptual aparat (F.Hayider), kommunikativ aktlar (T.Nyukom), koqnitiv dissonans (L.Festinger), rəqabətlilik (Ç.Osqud və P.Tannenbaum), konformizm (D.Kreç, R.Kraçfild) daxildir. Koqnitiv nəzəriyyələrin müvəffəqiyyətinin sirri onların bilavasitə sosial həyatla

bağlı olaraq öyrənilməsidir. Bu nəzəriyyələrdə sosial psixologiyada əsas mövzu olan fərd mühit arasındakı qarşılıqlı əlaqənin sirrləri açılır. Qarşılıqlı təsirdə sosial-psixoloji yanaşmanın spesifikliyi aydınlaşır.

Koqnitivizm cərəyanının əsasında geştalt psixologiyanın prinsipləri durur. Bu cərəyanın əsas tanınmış nümayəndələri *Albert Bandura və Culian Rotter və b.* hesab olunurlar. Sosial koqnitivizmin əsas məqsədi öyrənmə nəzəriyyəsini sosial elmlərə gətirməkdir. Eksperimental tədqiqatlar göstərmişdir ki, filogenezdə formalaşan insan davranışı nəsillər tərəfindən mənimsənilir, qorunur və modifikasiya olunur. Bu prosesdə fərdlərin keçmiş təcrübəsi iştirak edir.

Sosio-koqnitivistlər sübut edirlər ki, insanın davranışı daxili hadisələrlə (inam, gözləmə, özünüqavrama) ətraf mühit faktorlarının qarşılıqlı təsiri ilə nizamlanır. Onlar klassik geştaltistlərdən və bihevioristlərdən fərqli olaraq insanın davranışına yalnız mexaniki fizioloji proseslərlə tənzimlənən fakt kimi deyil, insanı əhatə edən mühitin bütün amillərinin razılaşması kimi yanaşırlar.

A.Bandura müasir dövr üçün ən aktual problemlərdən biri olan özünüidarəetmənin konsepsiyasını yaratmışdır. Bu konsepsiyaya görə, insanlar öz davranışlarına şüurlu şəkildə nəzarət etməyə qabildirlər və bunu edirlər. Özünüidarəetmənin funksiyası şəxsiyyətin daxili qüvvələri tərəfindən yaradılaraq sosial mühit tərəfindən müdafiə olunur. Beləliklə, onlar xarici mənşəlidir. Daxili təsirlər isə insanın yerinə yetirdiyi hərəkətləri nizamlayır.

A.Bandura əminliklə insan davranışına sosial faktorların təsirinə xüsusi əhəmiyyət verirdi, lakin təəssüflə bildirirdi ki, bu təsirlər həmişə səmərəli olmur. Onun bildirdiyinə

görə, bütün öyrənmələr müşahidələrdən keçərək sosial baxımdan qəbul olunmuş nəticələrə aparıb çıxarır. İnsanlar eynilə əməkdaşlığı, insanpərvərliyi, alicənablığı və problemlərin səmərəli həlli bacarıqlarını öyrədən proseslər vasitəsilə davranışın arzu olunmayan, cəmiyyətə qarşı yönələn formalarını da öyrənə bilərlər. Artıq çoxdan belə hesab edilir ki, kütləvi informasiya vasitələrində, xüsusilə televiziyalarda nümayiş etdirilən zorakılıq tamaşaçılara neqativ təsir göstərir.

A.Banduranın bununla bağlı olaraq bildirdiyi tövsiyələrdə, uşağın qeyri-aqressiv davranışını qiymətləndirmək, hansısa televiziya proqramının yarada biləcəyi təsirlərlə onu xəbərdar etmək, yaxud həmin verilişlərə uşaqlarla birgə baxaraq izahlar vermək, iradlar bildirmək göstərilir.

A.Bandura *özünüsəmərəliliyi* kamil davranışa gedən yol kimi səciyyələndirir. Bu yolda davranışı qurmaq, köklü təcrübəyə əsaslanmaq, verbal əminlik, emosional vəziyyətin yüksəkliyinin vacibliyi göstərilir. Belə ki, insanlar öz həyatını müstəqil şəkildə idarə etməkdə maraqlıdırlar. Təəssüf ki, hər kəs adekvat özünənəzarət bacarıqlarına malik deyildir. Ona görə də hər kəs bacardığı kimi, səmərəsiz həyat sürür. Sosial-koqnitiv nöqteyi-nəzərdən, özünənəzarət insanın sosial mühitlə dəqiq planlaşdırılmış qarşılıqlı münasibətlərində təzahür edir. Bu prosesin necə baş verdiyini öyrənmək üçün özünənəzarətin beş pilləsi ilə tanış olmaq lazımdır:

- davranış formasını müəyyən etmək;
- əsas dəlilləri toplamaq;
- özünənəzarət proqramını işləyib hazırlamaq;
- özünənəzarət proqramını yerinə yetirmək;
- özünənəzarət proqramını başa çatdırmaq.

A.Banduranın bu nəzəriyyəsi şagirdlərdə təlim motivasiyasının zəiflədiyi bir dövrdə olduqca əhəmiyyət kəsb edir. Bu nəzəriyyə sosioloji tədqiqatlar üçün dəyərli mənbə olaraq təhsildə uğurla tətbiq edilir. A.Banduranın sosial psixologiya ilə bağlı ilk geniş əsəri "Sosial öyrənmə və şəxsiyyətin inkişafı" (1963) olmuşdur. Onun son əsərləri sırasında "Öyrənmənin sosial nəzəriyyəsi" (1977), "Təfəkkürün və davranışın sosial əsasları"nı (1986) göstərmək olar.

C.Rotter də fəaliyyəti dövründə təhsilin sosial psixologiyası haqqında bir sıra tədqiqat işləri aparıb, əsərlər nəşr etdirib. 1946-cı ildə onun "Sosial öyrənmə və klinik psixologiya" (1954) əsəri və bir çox məqalələri nəşr olunub. 1972-ci ildə onun C.Çens və C.Fareslə birgə "Şəxsiyyətin sosial-öyrənmə nəzəriyyəsinin xülasəsi" kitabı çapdan çıxıb. Bizə Rotterin "Sosial öyrənmə nəzəriyyəsinin yaranması və inkişafı" (1982) adlı əsəri sonuncu tədqiqat işi kimi məlumdur. C.Rotterin sosio-koqnitiv yanaşmasında əsas fikir davranış potensialından istifadənin mahiyyəti ilə bağlıdır. C.Rotterə görə, möhkəmləndirmənin dəyəri onun praktik nəticələri ilə ölçülür.

Bu nəzəriyyələrin səciyyəvi cəhəti təhsil və şəxsiyyət arasındakı əlaqədədir. Hesab olunur ki, təhsil, fəaliyyət və cəmiyyət bötüvlükdə (əslində) hər bir fərdin inkişafına, onun kamilləşməsinə, öz potensialını, qabiliyyətlərini aşkarlamasına yönəlir. Burada təhsilin məqsədi insanı öz təbiətinə yaxınlaşdırmaq, özünüreallaşdırmasına kömək etməkdir. Bu nöqteyi-nəzərdən, təhsil insanın öz ətrafında yaratmış olduğu obrazlar, sxemlər, dərketmə modelləri, hərəkət (fərdi, koqnitiv) üslubu sistemləşdirən determinantlar mənbəyi, fəaliyyət və ünsiyyət sahəsidir. Onların köməyi ilə

insan özünün cəmiyyətdəki yerini müəyyənləşdirir, özünü təsdiq edir, qiymətləndirir.

Şəxsiyyət və cəmiyyət arasındakı maraqlar təhsil sistemi vasitəsi ilə razılaşdırılır. Cəmiyyət özünün tələblərini şəxsiyyətə təhsil sistemi vasitəsi ilə transformasiya edir. Şəxsiyyət cəmiyyətin birbaşa təsirinə məruz qalan obyekti olmayıb təhsil sistemində sosial subyekt rolunda çıxış edir. Nəticədə təhsil sistemi subyektlərin maraqlarına cavab verən sosial funksiyasını yerinə yetirmiş olur. Ona görə də təhsil sistemi şəxsiyyətin sosial adaptasiyası, onun təfəkkürünün yeniləşərək daha çox sosial məzmun kəsb etməsi, həyat şəraitinin yaxşılaşması, sosial təcrübənin modernləşməsi üçün lazım olan imkanları verməlidir. Müasir şəxsiyyətin müasir təhsil sistemindən əsas tələbi budur.

Biz burada sosial psixologiyanın problemlərindən, istiqamətlərindən, metodlarından və yollarından bəhs etdik. Göründüyü kimi sosial psixologiya onun obyekti ilə bağlı olan digər elmlərlə əlaqəli qaydada inkişaf edir. Bu prosesdə hər bir cəmiyyətin malik olduğu mədəniyyət ən mühüm sosial amil kimi aparılan tədqiqatların mərkəzində durur. Bütün bu cəhət nəzərə alınaraq sosial psixologiyanın tədqiqat mövzularının mədəniyyət faktorları ilə əlaqələndirilməsi məqsədə uyğundur.

***Suallar və tapşırıqlar:***

1. *Sosial psixologiyanın mövzusu nədir, bu elm nəyi öyrənir?*
2. *Sosial psixologiya elminin qarşısına qoyulmuş vəzifələrin təsnifatını aparın.*
3. *Sosial psixologiyanın tədqiqat sahələrinə daxil olan problemlərin şərhini verin.*

*4. Sosial psixologiyanın metodoloji əsaslarında hansı nəzəriyyələr durur?*

*5. Sosial psixoloji tədqiqatın quruluşuni izah edin.*

*6. Sosial psixologiyada hansı tədqiqat metodlarından daha geniş istifadə olunur?*

*7. Sosial rəyin öyrənilməsi texnologiyası haqqında məlumat hazırlayın.*

*8. Sosial psixologiyanın yaranması və inkişafı mərhələləri haqqında qrup layihələri hazırlayın.*

*9. Sosial psixologiyanın müasir nəzəriyyələrinə hansılar daxildir?*

*10.Sosial psixologiyanın müasir problemləri barədə proqnozlaşdırma aparın.*

***Ədəbiyyat:***

*1. Bayramov Ə.S. Müasir sosial şərait və psixologiya elmi qarşısında duran vəzifələr //Azərbaycan məktəbi, 1989, № 7, s. 54-62*

*2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: "Qapp-Poliqraf" Korporasiyası, 2003, 356 s.*

*3. Əlizadə H.Ə. Sosial pedaogikanın aktual məsələləri. Bakı: Səda, 1998, 342 s.*

*4. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Bakı: MBM, 2007, 200 s.*

*5. Vahidov F.Q., Ağayev T.B. Sosial psixologiya. Dərs vəsaiti. Bakı: Təknur, 2008, 334 s.*

*6. Qolenkova Z.T., Akuliç M.M., Kuznetsov V.N. Ümumisosial psixologiya. Dərs vəsaiti. İ.Rüstəmovun rus dilindən tərcüməsi. Bakı: Diplomat, 2007, 492 s.*

*7. Андреева Г.М. Социальная психология. М.: Аспект-пресс, 1999, 375 с.*

*8. Гидденс Э. Социология//www.soc.pu.ru.publikations.*

*9. История философии. Г.Челпановъ, А.П.Нечаевъ. М-П.: изд., В.В. Димков -Бр.Салавевыхъ, 1914, 724 с.*

*10. Коп И.С. Социальная психология//www.soc.pu.ru.pub-*

*likations.*

*11. Манхейм К. Социология знания//www.soc.pu .ru.publikations.*

*12. Майерс Д. Социальная психология. 2002.*

*13. Социология знания // http://pidruchniki.com.*

*14. Социологическая психология. Социология личности// http://www.auditorium.ru*

*15. Спенсер Г. Данные психологии. М.: 1926, 375 с.*

*16.Фрейд З. Психоанализ. Санкт-Петербург, 2001, 420 с.*

*17. Уотсон Дж.Б. Психология как наука о поведении. М.:-Л.: ГИ, 1926, 381 с.*

*18. Холл С. Келвин, Литдсей Г. Теории личности. М.: Апрель-Пресс. 2000, 589 с.*

*19. Хьелл Л., Зиглер Д. Теории личности.Санкт-Петербург, Питер Пресс, 1997, 606 с*

*20. Online biblioteka. http://www. bestlibrary. ru. c. 1.*

*21. Bernstein B. Class, Codes and Control. London, 1975.*

*22. Boules S. and Gintis H. Scoolung in Capitalist Amerika. London, 1976.*

*23. Wilic P. Leaning to Labour: Now Working Class Kids Get Working Class Jobs. London, 1977.*

# II FƏSİL. SOSİAL PSİXOLOGİYADA ŞƏXSİYYƏT PROBLEMİ

## 2.1. Şəxsiyyətin sosial məzmunu

Şəxsiyyət mürəkkəb quruluşa malikdir. O özündə bir neçə yarımquruluşu birləşdirir. Bu quruluşda təbii imkanlar və sosial keyfiyyətlər toplanır. Bu quruluşu

əmələ gətirən komponentlər özləri də bir sıra altquruluşlar yaradır. Həm təbii imkanlar, həm də sosial keyfiyyətlər biri-biri ilə çulğalaşaraq sabit quruluş əmələ gətirirlər. Onları ayırmaq da çətin olur.

Ümumilikdə insanları bir-birindən şəxsi keyfiyyətlərinə görə fərqləndirən cəhətlər çoxdur. Bu cəhətlərin kəmiyyətindən asılı olmayaraq onlar eyni mənbəyə malikdirlər. Şəxsiyyətin struktur komponentlərini təşkil edən elementlərə: meyl, həvəs, təəssürat, xarakter, bunların əsasında formalaşan vərdiş, bacarıq, rəftar, davranış, münasibətlər və bütün bu prosesləri müşayiət edən, nizamlayan iradədir. Bu strukturda hər birinin öz yeri vardır. Onların bir qismini nəzərdən keçirək.

Şəxsiyyətin quruluşunda elə komponentlər də vardır ki, onları həm təbii imkanlara, həm də sosial keyfiyyətlərə aid edə bilərik. Məsələn, tələbatların bir sıra təbii tərəfləri vardır. Fiziki (yemək, yatmaq və d.) təbəbatlar buna aiddir. Ancaq mənəvi və ya mədəni adlandırdığımız (özünəhörmət, özünüreallaşdırma, görüşlər sisteminə malik olmaq və s.) tərəfləri təbii imkanlar üzərində, lakin sosial mühitin mədəni təsiri ilə inkişaf edir. Təbii imkanlara aşağıdakılar aiddir.

## İnstinktlər

İnstinktlər irsi davranışın mürəkkəb formasıdır. Psixologiyada instinktiv qüvvələrin inkişafdakı rolu xüsusi qiymətləndirilir. Belə ki, hər bir insanın ilkin inkişafı instinklərlə bağlıdır. İnstinktlər psixi fəaliyyətə müxtəlif cür təsir göstərir. İnsan psixikasının öyrənilməsi mümkün olmayan tərəfləri məhz instinktlərlə bağlı olanlardır. Bu mənada insanın şüurlu davranışının izah edilməsi mümkün olmayan tərəfləri də instinktlərlə əlaqələndirilir.

Bizim instinktlər adlandırdıqlarımız əslində xarakterin qazanılmış, irsi, əjdadlarımızdan miras qalmış vərdiş və meyllər də ola bilir. İnstinktlər öz təsiri ilə psixoloji hadisələr törədir, onları müşayiət edir, hətta bu hadisələryox olandan xeyli sonra da mövcudluğunu davam etdirir. İnsanı belə instinktiv fəaliyyətə, meyllərə aparıb çıxaran, hərəkətə sövq edən təsəvvür, hiss və emosiyalar şüur tərəfindən özünün izahının tapa bilmir.

**Hisslər**

İnstinktlər və tələbatlar kimi hisslər də filogenetik inkişafın məhsuludur. Bu baxımdan, klassik ədəbiyyatda hisslər: "ruhun səsi", "əjdadların harayı" və d. kontekstdə izah olunur. Hansı amillərlə əlaqələndirilməsindən asılı olmayaraq hisslərin təbiəti və affektiv sferanın əmələ gəlməsindəki rolu xüsusi olaraq qeyd edilməlidir.

Hissi duyğuların necə əmələ gəlməsi sahəsində aparılan ilk psixoloji təlqiqatlar, eləcə də müasir neyrocərrahiyyənin nailiyyətləri bu prosesin fizioloji mexanizmi haqqında eyni nəticələr göstərir. Belə ki, hissi duyğu baş beyin qabığı və digər orqanlar arasında əlaqə yaradılması yolu ilə əmələ gəlir.

Hisslərlə şüurun fərqini instinktiv qüvvələrə tabeolma dərəcəsinə görə izah edənlər də var. Bu nəzəriyyələrin tərəfdarları elə faktlara istinad edirlər ki, bir halda hisslər, digər halda şüur beyin mərkəzlərində daha tez və möhkəm əlaqəyaradır, lakin onlardan hansının daimi üstünlük əldə etməsi mübahisəli məsələdır.

Hisslər təsəvvürlərdən, anlayışlardan və keyfiyyətlərdən çox-çox əvvəl təbii imkanlar şəklində mövcud olduğundan daha güclü təsir göstərmək imkanına malikdir. Eyni zamanda, hisslər sosial təsirlərlə də yarana

bilir. Məsələn, mənəvi hisslər daim xəyali hərəkət və davranış motivinin tərkibində inkişaf etməklə sonralar mənfi keyfiyyətlərin komponentlərindən biri kimi möhkəmlənir, dəyişməz məzmun alır.

Hisslər, insanın filogenetik inkişafı boyu qazanmış olduqlarının qoruyucusudur. Onları fərdi şüur yaratmır. Hisslərin təbiətində gedən ən sadə dəyişmə uzun əsrlərin təcrübəsi olaraq əmələ gələ bilər.

## Tələbatlar

Qeyd etdiyimiz kimi, tələbatlar anadangəlmə mövcud olsa da insanın həyat fəaliyyəti boyu daim yeni tələbatlar yaranır. Mədəni adlandırdığımız bu tələbatlar bilavasitə insanın fiziki və mənəvi təbiətinin qorunmasına, inkişafına xidmət edir. Emosional ünsiyyətin, münasibətin çatışmazlığı bir sıra tələbatların əmələ gəlməsinin qarşısını almaqla psixoloji sağlamlıq üçün təhlükə yarada bilən başlıca amillərdən sayılır.

K.Xorni tələbatların psixoloji xarakterini məmnunluq, təhlükəsizlik və s. kimi səciyyələndirir. Məmnunluq tələbatı fiziki və bioloji ehtiyacları əhatə edir, lakin Xorni hesab etmir ki, bu tələbatların ödənilməsi şəxsiyyətin inkişafında hərtərəfli rol oynayır. Burada başlıca motiv əzizlənmək, sevimli və arzulanan olmaq, kənar təhlükələrdən qorunmaqdır. Məsələn, əgər valideyn öz uşağına səmimi məhəbbət və hərarət verirsə onun əmin-amanlıq tələbatı da ödənilmiş olur. Bu halda şəxsiyyətin müsbət istiqamətdə formalaşması ehtimalı artır.

A.Maslouya görə insan tələbatları arasında möhkəm əlaqə var. Onların hər birinin ödənilməsi şərti digərinin reallaşmasına zəmanət verir: fiziki; təhlükəsizlik və mü-

dafiə; mənsubolma və məhəbbət; özünəhörmət; özünüvaciblik; özünüqiymətləndirmə.

İnsanın məhəbbət və qayğı ilə əhatə edilməyə can atması bu tələbatların onun mənəvi həyatında mühüm rol oynamasının mühüm göstəricisidir.

E.Fromm göstərir ki, azadlığa və təhlükəsizliyə cəhdetmə ilə onları ləngidən qüvvələr arasındakı münaqişə özündə böyük motivləşmiş qüvvələri birləşdirir. Onlar ikinci dərəcəli tələbatlar yararadır. E. Fromm həmin tələbatları aşağıdakı kimi xarakterizə edir:

*İnsanlarla əlaqənin yaradılması.* Başqaları ilə ünsiyyət tələbatının artması onun ödənilməsi üçün insanı yeni fəaliyyət sahələri axtarmağa sövq edir. Bu fəaliyyət heç də həmişə uğurla nəticələnmir. Xüsusilə, öz ideallarına qovuşa bilməyən insanlarda eqoizm, özünəqapanma halları yaranır. Nəticədə əlaqələrin bərpası zərurəti meydana çıxır. Halbuki, bu vəziyyətdə onlar başqalarına etibar etməyə qabil deyillər.

*Dəfetmə tələbatı.* Bütün insanlar özünün digərləri ilə oxşar cəhətlərinə üstün gələrək öz fərdiliyini yaratmağa can atırlar. Məhsuldar fəaliyyətə, yaradıcı və islahatçı xarakterə malik olan, liderlik iddiası ilə yaşayan insanlarda bu tələbat daha güclüdür.

*Soykökünə meyletmə.* E.Fromma görə bu tələbat insanın dünyaya gəldiyi, ana ilə bioloji əlaqənin kəsildiyi andan yaranmağa başlayır. Tədricən dərk edilmiş tələbata çevrilir. Qloballaşan dünyada ənənəvi mədəniyyətə bağlı cəmiyyətlərdə bu tələbat bütün aydınlığı ilə görünməkdədir. Xüsusilə texnogen cəmiyyətlərdə yaşayan insanlar özünün soykökünə, mənşəyinə bağlılıq, sabitlik hisslərini inkişaf etdirməyə üstünlük verirlər.

*Görüşlər sistemi və sədaqət hissi.* Həyatın reallıqlarını, mürəkkəbliyini dəf etmək üçün insanlar özlərinə sabit, əlverişli dayaq axtarırlar, bələdləşmə sisteminin köməyilə onu əldə edirlər. Bu sistem düşdükləri çətinliyə üstün gəlməyə, məqsədyönlü fəaliyyət göstərməyə imkan verir. İnsanda təbiətə və cəmiyyətə obyektiv, rasional münasibətin formalaşmasını təmin edir.

Bundan başqa, şəxsiyyətin təbi imkanlarına onun fərdi quruluşuda daxildir. Həmin fərdi quruluş üzərində fərdiyyət formalaşır. Fərdiyyət - fərdi-tipik xüsusiyyətlər: temperament, xarakter və qabiliyyətlər əsasında inkişaf edir. Sosial təcrübə artdıqca  həyat tərzi, mənəvi keyfiyyətlər, əxlaqi davranış, sosial münasibətlər, intellekt və s. bu kimi komponentlərin fərdi tərəfləri onun məzmununu zənginləşdirir və sabitləşdirir. İnsan şəxsiyyətinin özünəməxsusluğunu səciyyələndirən "şəxsiyyət tipi", "şəxsi keyfiyyətlər","fərdi iş üslubu" kimi fərdiyyətin özünə xas olan sabit quruluşlar əmələ gəlir. Beləliklə, fərdi-tipik xüsusiyyətlər insan təbiətində davamlı, sabit cəhətlər kimi yaranır. Bu xüsusiyyətlər özünü ilk növbədə xarakterdə göstərir.

Bundan başqa, şəxsiyyətin quruluşunda bir çox sosial komponentlər də vardır. Onlara sosial yönümlərə, motivasiyaya, əxlaq və mənəviyyata, rol davranışa  aid olan quruluşlar daxildir ki, biz onlara aşağıda ayrılıqda baxacağıq.

## Meyillər

Bəzi situasiyalarda insanın üzləşdiyi vəziyyətlə əlaqədar olaraq onun psixoloji aləmində dəyişmələr baş verir. Həmin dəyişməni biz ilk növbədə onun ətraf aləmə emosional münasibətində hiss edirik. Həmin anda,

psixofizioloji qanunlara uyğun olaraq mənəviyyatda da bu və digər hadisənin baş verdiyi şübhəsizdir. Bu halda mənəviyyatın müşahidə edilməsi mümkün olan ən real tərəfi - *meyllərdir.* Bu onunla izah edilir ki, insanın mənəvi həyatı ilə bağlı olan bütün bu sadaladığımız proseslərdə az və ya çox dərəcədə meyllər iştirak edir.

A.Lazurskiyə görə meyl dedikdə - psixikada baş verən bu və digər proseslərin dəfələrlə təkrarlanması nəticəsində daxili aləmdə baş verən dəyişmələr və bu dəyişmələrin təzahür xüsusiyyətlərini başa düşmək lazımdır. Fərdiyyət psixologiyasında da meyllər bütövlükdə ruhun vəziyyəti kimi deyil, onun bu və digər tərəfinə xas olan xüsusiyyəti kimi izah olunur. Yəni, orqanizmdə gedən proseslərlə, daxili dəyişmələrlə, eləcə də mühitin təsirləri ilə əlaqədar olaraq meyllər müxtəlif məzmun ala bilir. Eyni zamanda, meyllərin dəyişməyən, sabit tərəfləri də vardır. Məhz bunlar genetik təbiətə malikdirlər. Elə həmin meyllər mənəviyyatın genetik əsaslarını təşkil edir.

Əslində meyl hansısa konkret ruhi proses deyildir. Bu, ruhi prosesin bu və digər tərəfinin: mücərrəd mühakimənin, təsəvvürün, köməkçi anlamanın təzahürü, nəticəsidir. Biz meyllərlə bağlı olan psixi proseslər fonunda müxtəlif mənəvi proseslərin yalnız xarici, fizioloji ifadəsini, müxtəlif təzahürlərini görə bilirik.

Digər tərəfdən, meyl - insanda daxili proseslərin dəfələrlə təkrarlanmasıdır. Bunun əsasında obyektiv və subyektiv amillər durur. Bu amillər müxtəlif şəraitdə yaranan səbəblərlə, daxili və xarici qıcıqlayıcılarla təsir göstərir. Ona görə də biz hansısa meyllərin daha çox inkişafı dedikdə daxili və xarici qıcıqlayıcıların bərabər təsiriylə oyanan meylləri başa düşürük.

# Xarakter

Biz xarakteri insanın ətraf aləmə münasibəti və bu zaman təzahür etdirdiyi emosional reaksiyalarla qiymətləndiririk, lakin yalnız bu yetərli deyildir. Xarakter və mənəviyyat arasındakı əlaqəni tapmaq, onların məzmun eyniliyini müəyyənləşdirmək, fikrimizcə, xarakterin obyektiv qiymətləndirilməsinin ən səmərəli yoludur.

Davranışda ifadə olunan münasibəti insanın xarakteri müəyyənləşdirir. Xarakterin əlaməti münasibətin tərzini şərtləndirir. Bu isə əxlaqi keyfiyyətin xüsusiyyətləri kimi təzahür edir. İnsanın özünə və mühitə münasibətinin əhatə dairəsi genişdir.

- insanın özünün özünə münasibəti
- insanın insanlara münasibəti
- əməyə, zəhmətə münasibəti
- təbiətə münasibəti
- Vətənə münasibəti və s.

İnsanın ətraf aləmlə, xüsusilə insanlarla münasibətləri ünsiyyətdə reallaşır. Bu baxımdan biz insanları ünsiyyətcil və ünsiyyətsiz olmaqla iki qrupa bölürük. Bu, əlbəttə, şərti bölgüdür. Ünsiyyətin elmi təsnifatı genişdir.

Məlumdur ki, hər bir insan anadangəlmə xarakterə malikdir, o yalnız inkişaf edir. Xarakterin hansısa əlaməti meyillərin uyğunluğu olub hansısa şəxsə xas olan münasib, başlıca əlamətlərdir. Xarakter əlamətlərinin ehtimal olunan məxtəlifliyi altında onun bir sıra davamlı xüsusiyyətləri gizlənir. Xarakterin dəyişməsindən bəhs edilərkən bu müxtəliflik arasından şəxsiyyətin öz mənəviyyatı üçün daha münasib olan əlamətə üstünlük verməsi nəzərdə tutulur.

Xarakteri dərindən təhlil etdikdə aydın olur ki, onu meyllər formalaşdırır. Ona görə də xarakterin xüsusiyyətləri içərisində meyllər xüsusi yer tutur. Məhz belə təbii mənşəyinə görə ayrı-ayrı fərdlərin xarakterinə uyğun olaraq hər bir fərdə məxsus olan mənəvi keyfiyyətlərin məzmunu da müxtəlifdir.

Son nəticədə xarakterin bitkin və təbii təsnifatını vermək üçün bütün bunları ümumiləşdirmək lazım gəlir. Belə ki, xarakter əlamətləri fərqləndirilərkən onlara aşağıdakı xüsusiyyətlərinə görə baxılır:

- bu və digər psixi proseslərin sürətinə;
- hafizənin müxtəlif xüsusiyyətlərinə;
- qavrayışa, təfəkkürə və təxəyyülə;
- müvafiq affektlərə malik olmasına;
- hissetmənin intensivliyinə;
- iradi gücə;
- ayrı-ayrı meyllərin intensiv təzahürünə və s.

## Affektiv aləm

İnsanın emosional sferasını əhatə edən affektiv aləm onun ətraf aləm reallıqları haqqındakı təəssüratları və özünün özünə münasibətinin uyğunluğu ilə izah olunur. Bu sfera insan hələ ana bətnində olarkən formalaşmağa başlayaraq şəxsiyyətin emosional vəziyyətini səciyyələndirir. Emosional vəziyyət şəxsiyyətin elə psixoloji halıdır ki, o, emosional təsirlərlə, reaksiyalarla idarə olunur, psixi aləmi bütünlüklə əhatə edir.

Motivlərin mərkəzləşdirilməsində ən çətin məsələ affektiv sferanın tənzimlənməsidir. Motivasiyanın yaranmasında dolayısı, tələbatlar formasında çıxış edən emosionallıq fəallığa zəmin yaradır. Emosionallığın fərdiliyi özünü motivasiya aləmində büruzə verir. Bu, öz ifadəsini

onda tapır ki, insan artıq kifayət qədər diqqət, qətiyyət, mükəmməllik tələb edən iş və tapşırıqları öhdəsinə götürür. Fəaliyyətin nəticələri isə əvvəlki dövrlərlə müqayisədə mürəkkəbliyi, özünəməxsusluğu, məzmunca yetkin şəxsiyyətin fəaliyyət nəticələrinə müvafiqliyilə diqqəti cəlb edir.

Affektiv aləmin məzmunu hisslərin məzmunu ilə bilavasitə bağlıdır. Hissi təcrübənin inkişafının əsas şərtlərindən biri də fəaliyyət müstəqilliyinin olmasıdır. Müstəqillik şəxsiyyətin digər keyfiyyətləri ilə yanaşı onun ümumi inkişafının ayrılmaz hissəsi olan affektiv sferanın genişlənməsinə də təsir göstərir. İnsan nə qədər müstəqildirsə onun fərdi təcrübə, o cümlədən hissi təcrübə əldə etmək imkanları da bir o qədər genişdir. Bu təcrübə fəaliyyət prosesində zənginləşir, özü ilə bərabər affektiv aləmi də zənginləşdirir.

*Assosial hisslərin affektiv aləmə təsiri*. Hisslər məzmununa görə insana müxtəlif cür təsir göstərir. Dəyişən cəmiyyətlərdə affektiv sferanı assosial istiqamətə yönəldən, şəxsiyyətdə deformasiyalar yarada bilən natamamlıq, səriştəsizlik kimi ləngidici hisslər tez-tez əmələ gəlir. Bu zaman insan öz qabiliyyətinə arxayın olmur, öz mühitində qiymətləndirmə səviyyəsinə şübhə ilə yanaşır. Affektiv aləm məzmunca pessimist hala düşür. Göstərilən halda sosial motivlər zəifləyir. Fəallıq aşağı enir. Mənsub olduğu qrupda özünüməhdudlaşdırma, fəaliyyət sahəsindən yayınma meyili əmələ gəlir.

İnsan özünün sosial, iqtisadi, dini, cinsi, fiziki səviyyəsində qeyri-münasibliyin olması qənaətinə gəldiyi zaman da səriştəsizlik hissi yarana bilir. Onun motivasiyası, bilik səviyyəsi şəxsiyyətin mahiyyətinə, ləyaqətinə göstə-

rilən səviyyədə təsir göstərə bilmir. Natamamlıq və səriştəsizlik hissi yaşayan insanda özünə inam hissi itir, güman edir ki, səmərəli fəaliyyət göstərə bilməz.

Belə assosial hisslərə malik olanlar özünü yüksək qiymətləndirməyə meyillidirlər. O, insanların özünə qarşı qayğıkeşliyini, həssaslığını, güzəştli mövqe tutmalarını qiymətləndirmədə əsas şərt olaraq götürür. Bu onu göstərir ki, assosial hisslər yaşayan insan özünə, öz hərəkətlərinə kifayət qədər tənqidi yanaşa bilmir, müqayisə etmir və nəticə çıxarmır.

Beləläri üçün ən acınacaqlı vəziyyət daim müvəffəqiyyət qazanan insanların əhatəsində olmaqdır. Bu proses uzun müddət davam edərsə insan üçün xoşagəlməz hallarla nəticələnir. Öz uğursuzluqları onda mühitə, cəmiyyətə qarşı qərəzçilik, düşmənçilik, barışmazlıq, nifrət kimi mənfi hisslər oyadır. Xarakterdə də assosial əlamətlərin aksentuasiyası güclənir.

Bütövlük, fərasətlilik, əməksevərlik hissləri heç də bütünlüklə insanın mərhələli uğurları, müvəffəqiyyəti, münasibəti ilə deyil, onun sistemli şəkildə müəyyənləşdirdiyi həyat idealının ardınca getməsi, öz enerjisini sosial dəyərli işlərə sərf etməsi, cəmiyyətdəki real mövqeyinə təsir edə biləcək sosial, əxlaqi, mənəvi, psixoloji göstəricilərlə əlaqəli formada yaranır.

## 2.2. Şəxsiyyətin sosial quruluşu

Şəxsiyyətin sosial quruluşunun formalaşması onun yaşadığı sosial mühitdən əhəmiyyətli dərəcədə asılıdır. Bu quruluşun formalaşması təməl şəxsiyyət komponentləri olan meyl və xarakterlə, affektiv aləmlə yanaşı fərdi yönümlərə,

dünyagörüşə və nəticədə mənlik şüuruna, təfəkkür tərzinə əhmiyyətli dərəcədə təsir göstərir. Bu proses daxili aləmin hadisələrinin xarici təsirlərlə mürəkkəb qarşılıqlı əlaqəsi kimi baş verir.

### *Motivasiya*

Motiv insan fəaliyyətinin əsasında durur. R.L.Xon motivasiya sahəsinin inkişafını hər hansı səmərəli fəaliyyətin əsas şərti kimi xarakterizə edir.

Motivlər insanı fəallığa təhrik edən qüvvədir. Bu qüvvə özündə instinktlər, hisslər və tələbatların qarşılıqlı təsirindən yaranan həyat gücünü ifadə edir. Kamil insanın, yetkin şəxsiyyətin fəaliyyəti hansısa subyektiv təəssüratlarla yaranan motivlərlə deyil, daha böyük məqsədlərə yönəlmiş motivlərlə tənzimlənir. Nəticədə onun epizodik uğur qazanmaq üçün ikinci dərəcəli motivləri arxa plana keçir. Hərəkətləri emosional təsirlərdən təmizlənərək daha şüurlu, iradi məzmun alır. Mən idealı formalaşmış insan elə motivlərlə hərəkət edir ki, əvvəki dövrlərdə onlara rast gələ bilmərik. İnsanın belə fəaliyyəti motivləşmiş fəaliyyətdir.

Müəyyən dövrə qədər insanın fəaliyyəti onun həyatında mühüm rol oynayan maraqlar, sosial yönəlişlik, ətrafdakı insanların, mühitin tələblərinə uyğunlaşmaq xüsusiyyətilə diqqəti cəlb edir. Hansı səviyyədə müstəqillik və fərdilik elementlərilə tənzimlənməsindən asılı olmayaraq hərəkətlərini daha çox ətrafdakı insanların pozitiv diqqəti əsasında istiqamətləndirir. Bütün bunlar onu istər ailədə, istərsə də ictimai mühitdə insanların qiymətləndirməsinə diqqətlə yanaşmağa, bu qiymət əsasında hərəkət etməyə vadar edir.

Yüksək tələblərlə, mükəmməl qaydalarla qurulmuş işgüzar, motivləşmiş fəaliyət insana özünütəsdiqetmə, özünüreallaşdırma tələbatlarını ödəməyə, imkan və qabiliyyətlərini təkmilləşdirməyə kömək edir. Gənclik dövründə ictimai fəallığın artması onu özünün motivasiya sisteminə yeni munasibətlə yanaşmağa vadar edir. Həyatda müvafiq uğur qazanmaq, peşəyə sahib olmaq, özünü reallaşdırmaq, özünü təsdiq etmək, cəmiyyətdə müvafiq insanlarla əməkdaşlıq zərurəti üzündən eqoist münasibətdən qaçmaq prioritet maraqlara çevrilir. Bu zəmində özünün situativ maraqlarını arxa plana keçirir. Belə yanaşma gənclik dövrü üçün daha işgüzar xarakter almış sosiallaşma meylinin, şüurlu özünüinkişaf marağının real göstəricisidir.

Şəxsiyyətin fəaliyyət motivləri onun dərketmə maraqları ilə çox bağlıdır. Bu maraqların məzmunundan asılı olmayaraq o, daim özünün motivasiya sisteminə yenidən baxır. Yaranan yeni tələbatlarını necə ödəyəcəyini, maraqlarını necə reallaşdıracağını götür-qoy edir. Hər bir hərəkətinin məqsəd və nəticəsini motivlərə tabe etdirir.

*Motivlərin differensiallaşması.* Yetkin şəxsiyyətin motivasiya sahəsində intensiv qaydada diferensiallaşma gedir. Differensiallaşmış motivlər: mənəvi, əxlaqi, sosial, sərvət, karyera və s. bölünür. Məzmununa görə bu motivlərin böyük bir qismi sosial motivlərə aid edilir. Bir sıra motivlər isə şəxsi maraqlara əsaslanmaqla özündə insanın fərdilik, cinsi, mənəvi, fizioloji tələbatlarini birləşdirir. Bu motivlərin özləri də çoxsaylı motivlərdən yaranır:

- əxlaqi motivlər: mənəvi yönəlişlik, sosial uyğunlaşma, ünsiyyət, qarşılıqlı münasibət, sosial balədləşmə;

- dərketmə motivləri: öyrənmə marağı, həvəskarlıq, iradi-emosional tənzimlənmə, qabiliyyətlərin inkişafı, özünüinkişaf marağının ödənilməsi, ixtiraçılıq meyili, fəaliyyətin planlı təşkili;

- əmək motivləri: yaradıcılıq, rolların yeni sosial statusda icrası, özünü qaydalara tabeetmə, özünənəzarət, ətraf aləmə qayğı, həssaslıq, yeni fəaliyyətə adaptasiya;

- sosial motivlər: yaşlılıq həyatına alışma, sərbəstlik, müstəqillik, özünəxidmət, özünəhörmət, mədəni davranış, sosial qiymətləndirmə və s.

Hər bir motiv özündə insanın təbii tələbatlarının sosial davranışla pərdələnmiş məzmununu ifadə edir. Motivasiyanın inkişafında insan maraqlarının məqsədyönlü istiqamətə yönəldilməsi mühüm şərtdir.

Hələyaxşı diferensiallaşmamış, sosial tələblərin təsiri ilə tənzimlənən motivlər təbii və sosial qüvvələrin təsirinə məruz qalır. Ona görə də belə qənaətə gəlmək olur ki, biz öz motivasiya sahəmizi istədiyimiz kimi formalaşdırmaq imkanlarına tam malik olmaq üçün ciddi şəkildə özünütərbiyəyə diqqət ayırmalıyıq. Motivasiyanın tamamilə nəzarətdə saxlanması şərti xarakter daşıyır.

*İctimai motivlərin yaranması və mərkəzləşməsi.* Yeniyetməliyin sonunda, gənclik dövrünün əvvəllərində insanda ictimai motivlərin yaranması müşahidə olunur. Tələblərə uyğun olaraq tədricən digər motivləri əsas motivə tabe etdirmək, ümumi kontekstdə "dəyərlilik motivi" yaratmaq lazım gəlir.

İnsan hansı motivlər kompleksi ilə fəaliyyətini qurmalı olduğunu özü müəyyənləşdirir. Bu məqsədlə özünün psixoloji tempini, fiziki imkanlarını, xarakterini, qabiliyyətlərini, dünyagörüşünü, sosial təcrübəsini və d.

sosial-psixoloji göstəriciləri üçün münasib motivasiya sistemi yaradır. Şəxsiyyətin həyatda əldə etdiyi ən böyük uğurlardan biri də bu amillə ölçülür. Olduqca mürəkkəb psixoloji qurulmanı ifadə edən bu proses insandan bütün imkanlarını maksimum səfərbər etməyi, ciddi səy göstərməyi, ətrafdakılarda öz bacarığına etibar, inam yaratmağı tələb edir. Davranışın bütün sferaları bu məqsədə istiqamətlənir. Həyatın bütün sahələrində bu motiv aparıcı olur.

Bu motiv həm də insan fəallığının əsasında durmaqla özünüdərketmə, özünüqiymətləndirmə vasitəsinə çevrilir. Onun məzmununda "Mən-konsepsiya"nın bütün elementləri toplanaraq insanın sosial həyatında əldə etmiş olduqlarını ortaya qoyur. O, özünün "Mən" sistemini bu motivlərə yiyələnərək formalaşdırır. Özünün-özünə, insanlara münasibətində həmin sistemin əxlaqi, intellektual və psixoloji mahiyyətini görmək mümkün olur. Bu aspektdə həyat enerjisi şəxsiyyətin "Mən" sistemini: psixi, fiziki və sosial baxımdan tənzimləyərək özünüreallaşdırmaya doğru yönəldir.

Burada söhbət zəngin biliyə, geniş təcrübəyə, iradəyə malik olan, rəqabətə qabil, öz vətənini sevən, onu qorumağa, dünyanın inkişaf etmiş dövlətləri səviyyəsinə qaldırmaq üçün güclü motivasiyaya qadir olan şəxsiyyətlərdən gedir. Belə şəxsiyyət, ilk növbədə, axtarıcılıq, tədqiqatçılıq və yaradıcılıq marağı, qabiliyyəti, nəhayət, özünütərbiyəsi və özünüinkişafı sayəsində formalaşa bilir. (Özünütərbiyə insanın özündə müsbət keyfiyyətləri tərbiyə edib təkmilləşdirməyə və mənfi keyfiyyətləri aradan qaldırmağa yönəldilmiş müntəzəm, məqsədyönlü, şüurlu fəaliyyətidir).

Zaman-zaman şəxsiyyətin digər sosial komponentləri kimi onun mənəvi, əxlaqi keyfiyyətlərinin ölçüləri, normaları da dəyişir, motivasiya da yeni məzmun alır. Müasir tərbiyənin vəzifələri də bu baxımdan yeni məzmun almışdır. Əgər XX yüzillikdə biz beynəlmiləlçilik, əməksevərlik, tabeçilik, intizamlılıq və s. bu kimi ictimai motivlər yaradan keyfiyyətlərin aşılanmasını önə çəkirdiksə hazırda tərbiyənin məqsədi çevik, koqnitiv təfəkkürə, iti ağıla, geniş dünyagörüşə və təcrübəyə, rəqabətə, özünüinkişafa və özünüreallaşdırmaya hazır olan şəxsiyyətlər formalaşdırmaqdan ibarətdir. Bunun üçün hər şey tədqiqatçılıq, yaradıcılıq, müvəffəqiyyət motivlərindən başlanmalıdır.

Müvəffəqiyyət (uğur) motivləri gender xüsusiyyətlərinə malikdir. Gender fərqləri insanın davranışını xüsusi modellərə doğru aparır, gender stereotipləri formalaşdırır. Nəticədə yeni motivlər, maraqlar, ideallar, dəyərlər, dünyagörüşü əmələ gəlir. Sosial mühitin ümumi şərtlərinə baxmayaraq cinsi xüsusiyyətlərdə, müvəffəqiyyət motivinin məzmununda da fərqlər yaranır. Belə ki, oğlanlarda qalibiyyət, uğur, üstüngəlmə, qızlarda isə uğursuzluqdan qaçma, özünüqoruma motivləri yaranır. Bütün bunlar onu söyləməyə əsas verir ki, mühit kişilərdə müstəqillik və müvəffəqiyyət, qadınlarda qorunma motivlərini stimullaşdırır və möhkəmləndirir.

### *Sosial yönümlər*

Şəxsiyyətin öyrənilməsində sosial yönümün müəyyənləşdirilməsi zəruridir. Əgər onun sosiallaşması tələblərə cavab verirsə bu halda şəxsiyyət sosial təcrübəni mənimsəmiş olur.

Hazırda sosial psixologiyada sosial yönümlərin öyrənilməsində "attityud" anlayışından geniş istifadə olunur. Q.Ollport həmin anlayışın izahı məqsədilə bir çox funksiyaları təhlil edir. Onlardan başlıcası bunlardır:

- şüurun xüsusi vəziyyətini ifadə edir;
- reaksiyaya hazırlığı müəyyən edir;
- keçmiş təcrübə əsasında formalaşır;
- davranışa dinamik təsir göstərir.

Göründüyü kimi, Ollport attityuddun keçmiş təcrübədən asılılığını və onun davranışda istiqamətverici rolunu aydınlaşdırır. O cümlədən, L.Gerstou attidyüdun öyrənilməsi üçün şkala təklif edir. Həmin şkala şəxsiyyətin sosial situasiyaya və obyektlərə gizli (latent) münasibətini aydınlaşdırmağa imkan verir.

Attityüd özünün mürəkkəb quruluşuna görə bir çox funksiyaları yerinə yetirir. M.Smit həmin funksiyaları üç komponentli quruluşa görə qruplaşdırır:

*Koqnitiv komponent* – sosial yönəliş obyektinin dərk edilməsi.

*Davranış komponenti* – obyektiv münasibətə müvafiq davranış.

*Affektiv komponent* – obyektin emosional qiymətləndirilməsi, simpatiya, yaxud antipatiya hissinin təzahürü.

Beləliklə, sosial yönüm–dərketmə, qiymətləndirmə və hərəkətə hazırlıq nəticəsində müəyyən olunur. Burada A.N.Leontyevin maraqlı bir fikrini də qeyd etmək yerinə düşərdi ki, sosial yönəlişliyin şərh edilməsi cəhdi şəxsiyyətin motiv və məqsədinə münasibətindən doğur.

### *Dünyagörüşü*

Sosial mühit insanların dünyagörüşünün formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu təsir insanlarla müsbət emosional münasibətlər haqqında təsəvvürlərdən tutmuş yaşadığı mühitin sosial qaydalarına, əxlaq normalarına, milli adət-ənənələrə və onlara riayət etmək marağına, qabiliyyətlərinə qədər bütün sahələri əhatə edir. Həyatın ilk mərhələlərində ətrafdakı insanlar, tərbiyənin ideoloji məzmunu, müxtəlif hadisələrdən yaranan təəssüratlar birləşərək insanın şəxsi mövqeyini, yönəlişliyini və nəticədə dünyagörüşünü yaradır.

Dünyagörüşün formalaşması şəxsiyyətin sosial keyfiyyətinin dərin köklər üzərində qurulmasını, əxlaqi, iradi xassələrin möhkəmləndirilməsini tələb edir. Mühit, insanın yaşadığı cəmiyyətin siyasi durumu, cəmiyyətdə sosial ədalət prinsipinin gözlənilməsi şərti dünyagörüşün formalaşması üçün əsas təsiredici amildir. İnsanın mənəvi tələbatlarının ödənilməsi, fəaliyyətinin haqq-ədalət prinsipilə istiqamətləndirməsi dünyagörüşün məzmununu şərtləndirir. Nəticədə sağlam dünyagörüş formalaşır. Bu, fəallığın əsasında durmaqla insana öz idealını müəyyənləşdirməyə imkan verir.

Dünyagörüşü və "mənlik şüuru" arasında sıx əlaqə var. Mənlik şüuru insanın özünü bir şəxsiyyət kimi tanıması, dərk etməsi prosesinin əsas mahiyyətini təşkil edir. Şüurun bu səviyyəsi senzitiv dövrdə (10-15yaş) formalaşdığından tədqiqatçılar onlara böyük həssaslıqla yanaşmağın vacibliyini vurğulayırlar. Rocers bu prosesi "Mən konsepsiya"nın formalaşması nəticəsi kimi izah edir. Şüurun bu səviyyəsi insanın tələbat və

qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münasibətini özündə birləşdirir.

İnsan xarakterinin və mənlik şüurunun formalaşmasının sosial-psixoloji şərtlərinin etnogen amillərlə bağlanması ilə bağlı da kifayət qədər fikirlər var.

İnsanda ictimai əxlaqın, mənlik şüurunun ən yüksək göstəricisi kimi vətəndaşlıq məsuliyyəti və vətənpərvərlik hissi göstərilir. Özünün şəxsi və ictimai vəzifəsini, borcunu dərk etmək mənlik şüuru ilə ictimai şüurun vəhdətindən yaranır. Gənclər artıq bilirlər ki, vətənpərvər olmaq-özünü və soykökünü, yaşadığı torpağın dəyərini, xalqın tarixini bilməklə, qiymətləndirməklə bitmir. Bu dəyərlərin qorunmasında o da cavabdehdir. Məhz bu cavabdehlik onların xarakterində cəsarət, əməksevərlik, ləyaqət, qeyrət, namus, alicənablıq, prinsipiallıq kimi davamlı keyfiyyətlərin inkişafına gətirib çıxarır. Bütün bunlar əxlaqi idrakın məhsulu olmaqla fəaliyyətdə özünü göstərir.

Q.Ollport mənlik şüurunun formalaşması mərhələsi olan yeniyetməliyi "propriativ cəhdetmə" kimi səciyyələndirir. Göstərir ki, insanın əsas məqsədi özünə karyera qurmağın yolların müəyyənləşdirməkdir. Ona görə də propriuma aid olanlar: hisslər, emosiyalar, qabiliyyətlər, motivlər, ümumiyyətlə insan təbiətinin inkişaf xəssəsinə malik pozitiv olan hər şey yeniyetməlikdə bu istiqamətə yönəlir. O, şəxsiyyətin bütün sahələrini əhatə edir. Şüurun bu səviyyəsi insanın tələbat və qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münasibətini özündə birləşdirməklə "mənlik şüuru"nun məzmununu tam əhatə edir.

## Mənəviyyat

Müasir psixologiyada mənəviyyat proleminin aktuallığı, hər şeydən əvvəl, cəmiyyətdə meydana gələn yeni ictimai-iqtisadi münasibətlər, təfəkkür tərzi və gənc nəslin tərbiyəsinin yeni məzmunda təşkili zərurəti ilə bağlıdır. Bu baxımdan, mənəviyyat problemi dövrün ictimai, iqtisadi və siyasi təsirlərindən yaranan özünəməxsusluğu ilə səciyyələnir.

Respublikanın müstəqillik qazanması insanların həyatında uzun illər ərzində formalaşmış ictimai-iqtisadi münasibətləri kökündən dəyişmiş, bu dəyişikliklər fəlsəfi, psixoloji, pedaqoji fikirlərə milli dəyərlər kontekstindən yanaşma tələbi yaratmış, nəticədə tərbiyənin sosial bazasında: dövlətin təhsil siyasətinin məzmununda, cəmiyyətdə və ailədə problemə fərqli yanaşmalar əmələ gəlmişdir. Bu ziddiyyətlərin müsbət həlli mənəviyyat probleminə mütərəqqi prinsiplərlə yanaşmanı zəruri edir.

Psixologiya elminin aparıcı cərəyanlarının nümayəndələrinin mənəvi inkişaf probleminə münasibəti birmənalıdır. Onlar mənəvi keyfiyyətlərin formalaşmasına şəxsiyyətin inkişafının mühüm tərəfi kimi yanaşırlar. Həmçinin, istər klassik, istər müasir psixologiyada mənəvi olanlar şəxsiyyətin əsas keyfiyyətləri, fərdi-psixoloji xüsusiyyətlərin mənəvi-etik cəhətləri kimi izah edilir.

Fərdin inkişafının psixofiziologiyası və psixogenetikası qanunauyğun formada inkişaf edir. Bu inkişaf makro və mikrogenetik dəyişikliklərlə müşayiət olunur. Həmin dəyişikliklər ontogenetik inkişafın özünühərəkət problemi ilə bağlıdır. O, göstərir ki, psixi inkişafın hər bir mərhələsi özündən əvvəlkini əvəz edir və bu təkrarlanan əməliyyatlar xarici səbəblərdən daha çox daxili səbəblərlə

şərtlənir. Bu baxımdan, mənəvi olanları, hər şeydən əvvəl, fərdin genotipində axtarmaq lazımdır.

İnsanda mənəvi keyfiyyətlərin formalaşması onun sosiallaşması prosesində baş verən mühüm psixoloji hadisədir. Bu keyfiyyətlər hər bir fərdin sosial-mədəni inkişafında cəmiyyətin mənəvi təcrübəsində özünün daxili tələblərinə uyğunlaşdıraraq mənimsədiyi, qəbul etdiyi xassələr kimi başa düşülür. Onların məzmununu isə "xeyir və şər" anlayışı səciyyələndirir.

Q.Ollport "xeyir" anlayışına daxil olan keyfiyyətləri "standart profilə uyğun gələn", "cəmiyyət üçün yararlı olan" (nomotetik) keyfiyyətlər kimi xarakterizə edir. Bu keyfiyyətlərin formalaşdırılması hər bir tarixi inkişaf mərhələsində tərbiyə və özünütərbiyənin mühüm vəzifələrindən biri olmuşdur.

Ə.Ə.Əlizadə hesab edir ki, insanın şəxsi keyfiyyətləri çox olsa da o, özünütərbiyə ilə məşğul olarkən hər hansı keyfiyyətin deyil, məhz yüksək qiymətləndirdiyi keyfiyyətlərin formalaşmasına xüsusi diqqət yetirir. Bu baxımdan, mənəvi keyfiyyət şəxsiyyətin sosial dəyərinin, cəmiyyət üçün yararlılıq səviyyəsinin mühüm göstəricisidir, çünki bu keyfiyyətlər yalnız davranışda etik mənzərə yaratması, sosial normalarla uzlaşması ilə xarakterizə olunmur. Onlar şəxsiyyətin xarakterinə, maraqlarına, dəyərlərinə və ideallarına təsir göstərən psixofizioloji, psixogenetik amildir. Mənəvi keyfiyyət özündə insanın sosial, fərdi-psixoloji, fizioloji, etik imkanlarını birləşdirməklə onun şəxsiyyətini bütövləşdirir, sabitləşdirir, fərdiləşdirir. E.Fromm, K.Xorni, K.Rocers, və b. davranışın variativliyinin mənbəyini də mənəvi keyfiyyətlərlə izah edirlər.

## Əxlaqi şüur

Əxlaqi şüur dünyagörüşünün vacib tərəfi kimi inkişaf edir. İctimai əxlaqın formalaşmasında başlıca hadisə vətənpərvərlik hissinin mənəvi dəyərə, xarakter əlamətinə çevrilməsidir.

Özünün şəxsi və ictimai məsuliyyətini, ləyaqətini, qürurunu, xoşbəxtlik və borc problemini dərk etmək əxlaqi şüurun vətənpərvərliklə bağlı olan tərəfləridir. Məsələn, mənlik şüuruna yöyələnmiş insan -yeniyetmə artıq bilir ki, vətənpərvər olmaq – özünü və soykökünü daha yaxşı dərk etmək, özünümüəyyənləşdirmə tələbatını ödəmək, şəxsi cavabdehliyini artırmaq, vətən qarşısındakı xidmətlərinin nədən ibarət olduğunu anlamaq deməkdir. Təhsil və şəxsi təhsil yolu ilə vətənpərvərlik anlayışının mahiyyətini öyrənmək, bu anlayışla özünüreallaşdırma arasında əlaqəni tapmaq və özünəməxsus şəkildə bu əlaqəni qurmaq, milli ləyaqət, milli qürur hissləri ilə orqanizm, mənəviyyat arasındakı əlaqənin zəruriliyini dərk etmək lazımdır. Bu hazırkı şəraitdə gənclərin həyat fəaliyyətinin başlıca motivi olmalıdır.

M.Seyidov azərbaycanlıların söykökünün özünəməxsus cəhətlərini belə izah edir ki, Azərbaycanlıların söykökü deyərkən biz mərdlikləri, qoçaqlığı ilə çevrəyə səs salan xalqın soy kökündə duranları, onların ilkin biçimlənməyə doğru yönəlmiş görüşlərini, inamlarını, fikir konsepsiyasını, düzümünü, bunları yaradan mürəkkəb durumu, mifik təfəkkür və onunla bağlı ictimai görüşlərini göz qabağına gətiririk.

Vətənpərvərlik hissi vətəndaşlıq hissi ilə qarşılıqlı şəkildə inkişaf edir. Vətəni dəyərləndirən insan öz həmvətənini onun ən qiymətli dəyəri kimi qəbul etməlidir.

Müasir gəncliyin mənəvi aləmində vətənpərvərliklə bağlı olaraq xarakterdə formalaşdırılmalı olan keyfiyyətlərin əsas motivi: Azərbaycanın müstəqilliyinin qorunması, onun iqtisadiyyatının inkişaf etdirilməsi, mədəni irsin qorunması, milli dəyərlərə hörmət və sayğıdır.

Gözəllik, ülvilik, səmimiyyət, inam, sədaqət insani hisslərin, emosiyaların, təsəvvürlərin, nəhayət əxlaqi hərəkətlərin və əxlaqi idrakın mənbəyidir. İnsan öz həyatını gözəllik, simmetriya, harmoniya qanunlarına əsasən yaradır, bu qanunların köməyi ilə dərk edir, mənimsəyir.

Həyatın, reallıqların, təbiətin dərk olunması öz arzularını reallaşdırmaq üçün istifadə olunmasıdır.

**Əqidə**

Əqidə hər bir insanın anadangəlmə tələbatları, meylləri, xarakteri və münasibətləri zəminində, yaşadığı mühitdə bərqərar olmuş ictimai şüurun onun «Mən»inə təsirinə reaksiya olaraq mənəviyyatın dəyişməz, sabit tərəfi kimi formalaşır. Bu, daha çox ictimai şüurla mənlik şüuru arasındakı vəhdətdən yaranan və sosial tipli insanlara xas mənəviyyat komponentidir.

Əqidənin məzmunu da pozitiv və neqativ ola bilir, lakin biz burada daha çox pozitiv məzmunlu əqidəni nəzərdə tuturuq. Pozitiv əqidə daşıyan insanlar öz fəaliyyətini bir sıra sosial dəyərli problemlərin həllində iştirak etməyə yönəldirlər. Onlar həyatın mənasını rahat yaşamaqda, maddi tələbatlarının ödənilməsi üçün çalışmaqda deyil, mənəviyyatla bağlı olan ülvi hisslərini inkişaf etdirməkdə: milli-mənəvi dəyərlərin qorunmasında, insanlığa, bəşəriyyətə, millətə və xalqa xidmətdə, onun yüksəlişini təmin etmək üçün mübarizə aparmaqda

görürlər. Onların fəaliyyətində aşağıdakılar üstünlük təşkil edir.

• Milli qürur, milli ləyaqət hissini qoruyub saxlamaq, onu hər şeydən uca tutmaq;

• Mənsub olduğu millətin iqtisadi, sosial inkişaf sahəsindəki maraqlarını qorumaq, bunun üçün fəallıq göstərmək;

• Milli mədəniyyətin, milli sərvətlərin qorunmasını, müdafiəsini şəxsi maraqlardan üstün tutmaq;

• Özünü daim inkişaf etdirərək mənsub olduğu millətin adına layiq insan kimi formalaşmaq;

• "Vətən" anlayışı ilə bağlı olan hər şeyə müqəddəslik kimi yanaşmaq, onların mühafizəsi və müdafiəsi qayğısına qalmaq;

• Siyasi mədəniyyətə malik olmaq;

• Özündə liderlik qabiliyyətlərini inkişaf etdirmək;

• Öz əxlaqını, davranışını, ünsiyyət və münasibətini milli mənəvi dəyərlərlə, bəşəri normalarla tənzimləmək;

• Humanizm, tolerantlıq, sinergizm, plüralizm kimi demokratik dəyərləri mənimsəmək, onlara sadiq olmaq;

• Mənəvi təmiziyini, bütövlüyünü qoruyub saxlamaq, Vətənlə, onun gələcəyi ilə bağlı ideallarına sadiq olmaq.

## 2.3. Şəxsiyyətin sosiallaşması

Sosiallaşma - insan fərdinin təbii-genetik imkanları ilə bağlı olub onun yaşadığı ictimai mühitin mədəni normaları ilə tənzimlənir. Bu baxımdan sosiallaşma - fərdin sosial inkişafının gedişində, ünsiyyət və fəaliyyət prosesində fəal şəkildə mənimsədiyi ictimai dəyərlər, mənəvi-əxlaqi keyfiyyətlər, davranış və nitq mədəniyyəti,

adət və vərdişlərin kompleksi kimi başa düşülür. Məhz sosiallaşma prosesində insan fərddən şəxsiyyətə çevrilir.

Şəxsiyyətin sosiallaşması özündə onun müəyyən sosial şəraitdə formalaşma prosesi ilə bağlı məsələləri birləşdirir. Bu mərhələlər üzrə insan sosial təcrübə əldə edir, oriyentasiyaya sahib olur, özünün davranış sistemini seçiciliklə müəyyənləşdirir. Davranış normalarını yaşadığı mühitdə qəbul edilmiş normalara münasib olaraq tənzimləyir. Bunlar şəxsiyyətin sosiallaşmasında qəbul edilmiş sosial normaların fərqliliyini göstərir.

1. *İlkin sosiallaşma və ya adaptasiya mərhələsi* (anadan olandan yeniyetməliyə qədər uşaq sosial normalara tənqidi yanaşmadan onları qəbul edir, adaptasiya olunur, uyğunlaşır, təqlid edir).

2. *Fərdiləşmə mərhələsi* (başqaları arasında özünü ayrıd etmək, ictimai normalara tənqidi yanaşmaq mərhələsi). Yeniyetməlikdə "dünya və mən"in fərdiləşməsi, özünümüəyyənləşdirməsi aralıq sosiallaşmaya bənzəyir. Hələlik dünyagörüşü və şəxsiyyətin xassələri davamsız olur. Gənclikdə (18-25 yaş) konseptual sosiallaşma özünün davamlılığı ilə xarakterizə olunur.

3. *İnteqrasiya mərhələsi* (cəmiyyətdə özünün yerini tapmaq, onun üzvü olmaq arzusu yaranır). İnteqrasiya o zaman uğurla baş verir ki, insanın xassəsi şəxsiyyətin davamlı xassələri əsasında qurulduqda cəmiyyətdə ictimai qrup tərəfindən qəbul olunur. Əgər qəbul olunmursa, aşağıdakı vəziyyət yaranır:

- özünün fərqliliyini qorumaq və insanlarla, cəmiyyətlə aqressiv qarşılıqlı münasibətlərin əmələ gəlməsi;
- özünü dəyişmə, "başqaları kimi olmaq";
- konformizm, xarici razılaşma, adaptasiya.

4. Sosiallaşmanın *əmək mərhələsi* insanın yaşlılıq dövrünü, onun əmək fəaliyyətini bütövlükdə əhatə edir. İnsan yalnız sosial təcrübə qazanmır, həm də onu mühitlə fəal qarşılıqlı əlaqələr zəminində özünün fəaliyyəti prosesində istehsal edir.

5. Sosiallaşmanın *əmək fəaliyyətindən sonrakı mərhələ* yaşlılıq dövrünə təsadüf edir. Bu dövrdə sosial təcrübənin istehsalı baş verir. Onun gənc nəslə ötürülməsi prosesi gedir.

Şəxsiyyətin formalaşmasının daha detallı təhlili aparıcı fəaliyyət üzrə də müəyyənləşdirilir. Bu mərhələlərdə psixi proseslərin keyfiyyəti dəyişir, proseslərarası əlaqələr artır, ünsiyyət və münasibətlərin məzmunu dəyişir.

**Şəxsiyyətin sosiallaşması mərhələləri**

Cədvəl 2.1.

| *Mərhələlər* | *Aparıcı fəaliyyət* |
|---|---|
| 1. Körpəlik (0-1) -“dünyaya etimad” dövrü | yaşlılarla emosional ünsiyyət |
| 2. Erkən uşaqlıq (1-3)-“müstəqillik” dövrü | əşyavi fəaliyyət |
| 3. Məktəbəqədər uşaqlıq (3-6-7) - “təşəbbüs seçimi” dövrü | oyun |
| 4. Kiçik məktəbli yaşı (6-11) - “ustalıq” dövrü | təlim fəaliyyəti |
| 5. Yeniyetməlik (11-14)-özünün cəmiyyətdəki yerini müəyyənləşdirmə dövrü | yaşıdlarla ünsiyyət |
| 6. Gənclik (14-18) | tədris-peşə fəaliyyəti |
| 7. Yetkin gənclik (18-25) - “insanlarla | əmək fəaliyyəti, |

| | |
|---|---|
| yaxınlıq" dövrü | peşə təhsili |
| 8. Yetkinlik dövrü | |

İnsanın sosiallaşması onun bütün həyatı boyu davam edən uzunmüddətli prosesdir. Hər bir yaş mərhələsində sosiallaşmanın məzmunu, intessivliyi, mənimsənilən sosial normaların kəmiyyət və keyfiyyəti, istiqaməti dəyişir. Bu prosesin əsasında meyillər, tələbatlar, motivlər, maraqlar və d. psixoloji faktorlar durur. Ə.Ə.Əlizadə insanın sosiallaşması ilə onun şəxsiyyəti arasındakı əlaqənin mahiyyətini aydınlaşdıraraq yazır: "Amerika psixoloqu C.Mid "Mən"in quruluşunda iki "Mən"i - fərdi "Mən"i və sosial "Mən"i fərqləndirirdi. Müəllifin fikrincə, "Mən" mahiyyətcə bu iki vəzifədən qaynaqlanan sosial prosesdir. C.Mid müəyyənləşdirmişdi ki, insan ancaq başqa adamın mövqeyində dayananda özünü "Mən" kimi dərk edə bilir. O, ancaq bu yolla mənlik şüuruna yiyələnir".

İnsan şüurunun və şəxsiyyətinin sosial keyfiyyətləri sosial qruplar daxilində formalaşır. Ç.Kulinin konsepsiyasında fərdin sosiallaşmasında həlledici rol ailənin, uşaq kollektivinin, qonşu birliklərin və d. üzərinə qoyulur. Bu qruplar qeyri-rəsmi, intim, qarşılıqlı münasibətlər baxımından etibarlı qruplar hesab olunur. Bununla yanaşı, Ç.Kuli hesab edir ki, uşağın dərketməsi və özünüdərketməsində onu əhatə edən insanların fikirləri, mövqeyi, ilkin kollektiv, valideynlər, dostlar, qonşular aparıcı təsir imkanlarına malikdirlər. Fərd üçün ətrafdakı insanların fikirləri ona görə vacibdir ki, onların diqqəti sayəsində fərddə "Mən"in, ya da insan "mən"inin güzgüsü hesab edilən "mən" hissi formalaşır. Bu hiss fərdi əhatə edən insanların təsirləri ilə yaranaraq inkişaf edir.

Sosial psixologiyada ilk dəfə olaraq K.Levinin irəli sürdüyü “sahə nəzəriyyəsi”ində sosiallaşmanın nəzəri ideyası geniş şəkildə açıqlanır. Öz nəzəriyyəsində K.Levin sosial psixologiyanın insan həyatındakı rolunu öyrənərək belə nəticəyə gəlmişdir ki, şəxsiyyətin xüsusiyyətləri ilə mühitin xüsusiyyətləri daim qarşılıqlı əlaqədədir. Davranış, bir tərəfdən şəxsiyyətin, digər tərəfdən ətraf mühitin - funksiyası kimi baş verir. Uşaq ailəsiz, məktəbsiz və d. sosial qruplarsız mövcud olmadığı kimi, eləcə də bu ictimai institutlar fərdlərlə, qruplarla qarşılıqlı əlaqəsiz mövcud deyillər. Bütün şəxsiyyət və mühit komponentlərinin qarşılıqlı fəaliyyətini, birliyini K.Levin həyati və ya psixoloji məkan adlandırır. Həmin nəzəriyyəyə görə, sosial davranışın qanunları psixoloji və sosial təsirlərin determinantlarının dərk olunması ilə əlaqəlidir.

Şəxsiyyətin sosiallaşması aktual problemlərdəndir. Bu, sosial şəraitdə baş verir. Sosial inkişaf real təcrübədə, insanın yaşına uyğun gələn fəaliyyət sisteminin konkret tipi və növünün səmərəli qurulması, hərəkətlərin məqsədyönlü dərk edilməsi yolu ilə gedir. Fəaliyyətin iki cəhəti: əşyavi-praktik və qarşılıqlı münasibət hər bir yaş mərhələsində dəyişir, yeni məzmun alaraq növbəti fazaya ötürülür.

E.Erikson şəxsiyyətin sosiomədəni inkişafı nəzəriyyəsində mərhələlər üzrə insanın psixososial inkişafının təhlilini vermişdir. O, insanın ilk psixososial inkişaf mərhələlərini diqqətlə araşdıraraq bu qənaətə gəlmişdir ki, “Mən -eyniyyət”in psixososial mövcudluğuna yaranan şübhələr onun özünün quruluşundakı çatışmazlıqlarla deyil, daxili  və rolların qarışması ilə bağlıdır. Burada insana dayaq, kömək olaraq cəmiyyətin ona münasibətini, necə yanaşılmasını əsas götürmək olar.

Amerika hindularının yeniyetmələrinin sosial davranışını araşdıran E.Erikson etnik eyniliyin inkişaf xüsusiyyətlərini də öyrənmişdir. Onun tədqiqatda xüsusi diqqət yetirdiyi problem yeniyetməlik dövründə yaşanmış sosial-emosional təcrübənin identifikasiyanın formalaşmasına təsirini müəyyənləşdirmək olmuşdur.

E.Eriksonun qənaətinə görə, müasir Amerika cəmiyyətindəki gənclərin ən çox qarşılaşdıqları problem "Mən kiməm?", "Mən yaşlılar aləminə necə daxil oluram?" sualları ilə bağlıdır.

A.Bandura əminliklə insan davranışına sosial faktorların təsirinə xüsusi əhəmiyyət verirdi, lakin təəssüflə bildirirdi ki, bu təsirlər həmişə səmərəli olmur. "Əbəttə ki, bütün öyrənmələr müşahidələrdən keçərək sosial baxımdan qəbul olunmuş nəticələrə aparıb çıxarır. Həqiqətən də, insanlar eynilə əməkdaşlığı, insanpərvərliyi, alicənablığı və problemlərin səmərəli həlli bacarıqlarını öyrədən proseslər vasitəsilə davranışın arzu olunmayan, cəmiyyətə qarşı yönələn formalarını da öyrənə bilərlər. Artıq çoxdan belə hesab edilir ki, kütləvi informasiya vasitələrində, xüsusilə televiziyalarda nümayiş etdirilən zorakılıq tamaşaçılara neqativ təsir göstərir".

A.Bandura bununla bağlı olaraq bir sıra tövsiyələr verir. Məsələn, uşağın qeyri-aqressiv davranışını qiymətləndirmək, hansısa televiziya proqramının yarada biləcəyi təsirlərlə onu xəbərdar etmək, yaxud həmin verilişlərə uşaqlarla birgə baxaraq izahlar vermək, iradlar bildirmək.

A.Banduranın bu nəzəriyyəsi şagirdlərdə təlim motivasiyasının zəiflədiyi bir dövrdə olduqca əhəmiyyət kəsb edir. Bu nəzəriyyə sosioloji tədqiqatlar üçün dəyərli mənbəə olaraq təhsildə uğurla tətbiq edilməkdədir.

C.Rotter də fəaliyyəti dövründə təhsilin sosiologiyası haqqında bir sıra tədqiqat işləri aparıb, əsərlər nəşr etdirib. Bu nəzəriyyələrin səciyyəvi cəhəti təhsil və şəxsiyyət arasındakı əlaqədədir. Hesab olunur ki, təhsil, fəaliyyət və cəmiyyət bötüvlükdə (əslində) hər bir fərdin inkişafına, onun kamilləşməsinə, öz potensialını, qabiliyyətlərini aşkarlamasına yönəlir. Burada təhsilin məqsədi insanı öz təbiətinə yaxınlaşdırmaq, özünüreallaşdırmasına kömək etməkdir. Bu nöqteyi-nəzərdən təhsil insanın öz ətrafında yaratmış olduğu obrazlar, sxemlər, dərketmə modelləri, hərəkət (fərdi, koqnitiv) üslubu sistemləşdirən determinantlar mənbəyi, fəaliyyət və ünsiyyət sahəsidir. Onların köməyi ilə insan özünün cəmiyyətdəki yerini müəyyənləşdirir, özünü təsdiq edir, qiymətləndirir.

Şəxsiyyət və cəmiyyət arasındakı maraqlar təhsil sistemi vasitəsi ilə razılaşdırılır. Cəmiyyət özünün tələblərini şəxsiyyətə təhsil sistemi vasitəsi ilə transformasiya edir. Şəxsiyyət cəmiyyətin birbaşa təsirinə məruz qalan obyekti olmayıb təhsil sistemində sosial subyekt rolunda çıxış edir. Nəticədə təhsil sistemi subyektlərin maraqlarına cavab verən sosial funksiyasını yerinə yetirmiş olur. Ona görə də təhsil sistemi şəxsiyyətin sosial adaptasiyası, onun təfəkkürünün yeniləşərək daha çox sosial məzmun kəsb etməsi, həyat şəraitinin yaxşılaşması, sosial təcrübənin modernləşməsi üçün lazım olan imkanları verməlidir. Müasir şəxsiyyətin müasir təhsil sistemindən əsas tələbi budur.

***Suallar və tapşırıqlar:***

1. *Şəxsiyyət sosial məzmunu izah edin.*

*2. Şəxsiyyət sosial quruluşu hansı amillər üzərində inkişaf edir?*

*3. Şəxsiyyət sosial quruluşunun formalaşması şərtlərini göstərin.*

*4. Şəxsiyyətin sosial quruluşunun modelini hazırlayın.*

*5. Şəxsiyyətin sosiallaşmasının mahiyyətini izah edin.*

*6. Şəxsiyyətin sosiallaşması necə baş verir?*

*7. Şəxsiyyətin sosiallaşmasına hansı amillər təsir göstərir?*

*8. Şəxsiyyətin sosiallaşması şərtlərini göstərin.*

*9. Şəxsiyyətin sosiallaşması üçün sosial mühitə verilən tələblər haqqında layihə hazırlayın.*

*10. Psixologiyada şəxsiyyətin sosiallaşması haqqında sosio-mədəni nəzəriyyələri şərh edin.*

***Ədəbiyyat:***

*1. Ağayev Ə.Ə., Rzaeva Y.T., Hüseynova T.M., Vahabova T.Ə.. Sosial pedaqoqika. Bakı, 2008, 332 s.*

*2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-poliqraf, 2003, 345 s.*

*3. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. Bakı: Gənclik, 1998, 520 s.*

*4. Əliyev R.I. Şəxsiyyət və onun formalaşmasının etno--psixoloji əsasları. Bakı: Araz, 2000, 195 s.*

*5. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s.*

*6. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı: Renessans, 2003, 258 s.*

*7. Vahidov F.Q., Ağayev T.B. Sosial psixologiya. Dərs və-saiti. Bakı: Təknur, 2008, 334 s.*

*8. Qolenkova Z.T., Akuliç M.M., Kuznetsov V.N. Ümumi sosial psixologiya. Dərs vəsaiti. İ.Rüstəmovun rus dilindən tər-cüməsi. Bakı: Diplomat, 2007, 492 s.*

*9. Буева Л.П. Социальная среда и сознание личности. М.: МГУ, 1968, 268 с.*

*10. Волков Ю.Г. Социология. М.: МГУ,2004, 220 с.*
*11. Крайг Г.Д. Психология развития, С-П.: Питер, 2000, 692 с.*
*12. www.coolreferat.com*
*13. www.dissercat.com*
*14. www.referat.ru*

# III FƏSİL
# SOSİAL MÜHİT VƏ “MƏN”

## 3.1. Fərdin sosial mühitlə qarşılıqlı əlaqəsi

Dünya elmlərinin formalaşmasında əhəmiyyətli yer tutan Şərq və Qərb fəlsəfəsində fərdin mühitlə qarşılıqlı əlaqəsi müxtəlif istiqamətdə izah olunur. Bu əlaqənin şəxsiyyət və cəmiyyət arasındakı mürəkkəb münasibətlərin əsasında durması fikri isə hər iki yanaşmada birmənalı olaraq qəbul edilir. İrəli sürülən müddəalara görə, insan fərdiyyəti mühitlə yalnız sosial əlaqələr zəminində deyil, bioloji əlaqələrlə də təmas qurur, bu yolla harmonik şəkildə inkişaf edir. İnsan fərdiyyətinin digər canlılardan fərqi daha çox özünüinkişaf və özünüyaratma imkanına malik olması ilə əlaqələndirilir. Bütövlükdə hər bir insanın inkişafı onun xeyirə, yaxud şərə doğru can atmasından, dünyanın yaranışının təkamülündə insan cəhdlərinin istiqamətindən asılı olur.

Dünyada maddi və mənəvi olan hər şey özünün başlanğıc mənbəyindən yaranaraq inkişaf edir. Bu inkişafın gedişində məzmunu dəyişsə də təbiətini qoruyub saxlamağa çalışır. İnsan fərdiyyəti də belə təbii xüsusiyyətlərə

malikdir. Həmin xüsusiyyətlərdən başlıcası onun psixososial təbiəti ilə bağlı olanlardır. Hazırda elmi mənbələr bu müddəanın doğruluğunu təsdir edir.

Aparılan tədqiqatlarda etikanın, əxlaq və hüququn da miqyası artırılır. Məsələn, artıq elmdə mənəviyyat və biologiyanın qarşılıqlı əlaqəsi araşdırılır. Bütün bunları nəzərə alaraq fərdin mühitlə qarşılıqlı əlaqəsində başlıca olaraq iki mühüm vəzifə öz həllini tapmalıdır:

- fərdi inkişaf fəallıq üçün lazım olan  müsbət gücün toplanmasına yönəldilir;

-toplanmış güc onun daxili tələbatlarının və mühitin tələblərinin balanslaşdırılmış razılığı ilə səmərəli sahəyə sərf edilir.

Mühitin və insan fərdinin əlaqəsini şərtləndirən amillər təbiətdəki elementar hissəciklərdən başlayaraq cəmiyyətin sosial sahələrinə qədər bir çox məsələləri əhatə edir. V.Vundt, V.Ştern, V.Bexterev və b. elmdə ilk dəfə olaraq bu hərəkətin mənbəyini fərdin mühitlə qarşılıqlı əlaqəsində yaranan "Psixi enerji" anlayışı ilə əlaqələndiriblər. Onlar psixi enerjinin inkişafı və toplanmasından bəhs edərkən insan fəallığının zəruriliyini önə çəkirlər. Göstərirlər ki, insan özünün təkamülünə yalnız kosmik qanunlara uyğun olaraq hərəkət etdikdə nail ola bilər. İnsan fəallığının yönəldiyi sahə müxtəlif ola bilər: elm, təhsil, siyasət, iqtisadiyyat və s. Hansı sahəyə yönəldilməsindən asılı olmayaraq insanın fəaliyyəti Kainatın enerjisi ilə tənzimlənir. Dünyanın yaranışı belə qurulub.

Psixi enerji maqnit xassəsinə malikdir. Bu xassə özünü cəlbetmə və itələmə formasında göstərir. Məhz bu xassə insanların fəaliyyətində və ünsiyyətində mühüm rol oynayır. Eyni peşəyönümlü, eyni əqidəli, meylli insanların so-

sial qruplarının: siyasi partiyalar, cəmiyyətlər, təşkilatlar, birlik və assosiasiyaların yaranmasının kökündə də enerji problemi dayanır. Bu problem tarix boyu müxtəlif fəlsəfi, psixoloji, ədəbi-bədii cərəyanların yaranmasına səbəb olmuşdur.

İnsanın qəbul etdiyi informasiyanın özü də enerji təbiətlidir. Deməli bizim mühitlə əlaqəmiz enerji informasiya mübadiləsi əsasında baş verir. Bu enerji informasiyanın nədən ibarət olmasını onun orqanizmdə,davranışda, fəaliyyətdə, hərəkətlərdə, münasibətlərdə əmələ gətirdiyi dəyişmələrdə axtarmaq lazım gəlir.

İnsan yer aləminin ən fəal varlığıdır. Kainatda baş verən bütün hadisələr: kosmik dəyişmələr, maqnit qasırğaları, partlayışlar, ulduzların, bürclərin hərəkəti, havanın axını, yerdəki təbii fəlakətlər və s. insan orqanizminə təsir göstərir. Belə qəbul etmək olar ki, bu təsir qarşılıqlıdır. Yəni, insan orqanizmində hər bir saniyə ərzində baş verən enerji çevrilmələri, hüceyrə və toxumaların kimyəvi dəyişmələri də öz növbəsində Kainatın enerjisinə təsir edir. Bu təsirə o cümlədən, bizim sosiumdakı hərəkətlərimiz, davranışımız, fəaliyyətimiz zamanı ayrılan enerji də qoşulur.

Bu təhlillər belə nəticə yaradır ki, şəxsiyyət, hər şeydən əvvəl insan bədənidir. İnsan bədəni qanunauyğun şəkildə bir-biri ilə assosiativ əlaqəsi olan somatik sistemlərin, diferensiallaşmış proseslərin baş verdiyi orqanizmdir. Nəzəri baxımdan bu orqanizm Yer kürəsinin quruluşuna, zaman, məkan, hərəkət kateqoriyalarına uyğun olaraq yaradılmışdır. Bu yaradılış ən yeni psixologiyada enerji informasiya fenomeni ilə əlaqələndirilir. Şəxsiyyətin quruluşunda mühüm yer tutan bu amil onun mühitlə, eləcə

də cəmiyyətlə münasibətlərinin ahəngdar şəkildə tənzimlənməsində nizamlayıcı funksiyanı yerinə yetirir. İnsanın mühitlə əlaqəsi də bu zəmində qurularaq inkişaf edir.

## 3.2. Fərdi şüurun sosial təfəkkürə təsiri

Sosial təfəkkür fərdi şüurdan yaranır. Əvvəlcə insan özünün fərdi xüsusiyyətlərinə uyğun olaraq dünyanı anlamağa, onunla sosial əlaqələr yaratmağa çalışır. Sonra mühitin təsiri ilə özünün fərdi şüurunu daha da genişləndirir. Ona görə də fərdi şüurda, bir tərəfdən fərdin özünü malik olduğu, genetik hafizədən, fərdi xüsusiyyətlərdən, konstrukt sistemlərindən yaranan fikirlər, təsəvvürlər, təəssüratlar, xatirələr, şüuraltı informasiyalar, digər tərəfdən, cəmiyyətin ona göstərdiyi təsirlərdən əmələ gələn sosial təhriklər, zövq, qiymətləndirmə, yönəlişlik və d. birləşir.

Fərdi şüur özündə "vahidliyi" ifadə edir. Həqiqət şüurun əsas "vahidlərindən" biridir. Digər "vahidlik" şəxsi mənadır. Bu vahidliklər münasibətlərin ikinci sistemini əmələ gətirir. Bu sistem subyektin yaşadığı sosial şəraitə münasibətindən yaranır. Münasibətlər sistemində subyektin mənimsənilmiş biliklərə, eyni zamanda, ümumiyyətlə münasibəti aydınlaşır. Həmin münasibət fəaliyyətin motivasiyası ilə tənzimlənir.

Hər bir insan, məlumdur ki, aldığı informasiyaya yalnız onların obyektiv mahiyyəti baxımından deyil, özünün həyat ideallarına və dəyərlərinə uyğunluğu baxımından yanaşır. Əgər əldə etdiyi yeni informasiya onun üçün

əhəmiyyətlidirsə, informasiya ilə bağlı aşağıdakı şərtlərlə fəaliyyət göstərir:

a) yerinə yetirilən hərəkətin ümumi obrazının olması;
b) özünün əşyavi-sosial normalarına uyğunluğu;
c) özünün dünyaya subyektiv münasibəti;
d) həmin situasiya və gələcək həyatı üçün əhəmiyyəti.

Bunlar insanın dünyaya real münasibətinin şüurdakı məzmununu əks etdirir. Fərdi şüurun məzmunu bununla ifadə olunur.

Şüurda əsas vahidliyin mahiyyətinin aydınlaşdırılması sosial yönəlişliyin səbəbini başa düşməyə kömək edir. Yönəlişliyin şüurun vahidliyi ilə qarşılıqlı münasibətlərini başa düşmədən fəaliyyəti nizamlamaq, bu prosesdə yerinə yetirilən hərəkətlərin stimullarını,tələbat, istək və maraqların mahiyyətini aydınlaşdırmaq mümkün deyil.

Digər tərəfdən, bu məsələləri öyrənmək sosial mühitdəki fəaliyyətin motivasiyasını aydınlaşdırmaq üçün də vacibdir. Bütün bu məsələlər sosial təfəkkür sahəsində aparılan tədqiqatların başlıca mövzusudur.

*Sosial təfəkkür* subyektin yaşadığı mühitin təsiri altında formalaşan təfəkkür tərzini, onun təhliletmə xüsusiyyətlərində ifadə olunan sosial qiymətləndirmə və sosial gözləmə elementlərini özündə birləşdirən sosial-psixoloji anlayışdır.

Sosial təfəkkürə öyrənmə, mənimsəmə, anlama kimi mürəkkəb proseslərin inkişafının sosial mühitlə, sosial şəraitlə qarşılıqlı əlaqəsi kontekstində baxılır. İ.Pestalotski, V.Ştern, L.S.Vıqotski və b. ilk dəfə olaraq bu problemin elmi aspektlərini öyrənmişlər.

Sosial təfəkkür hazırda müasir sosial-koqnitiv psixologiyanın əsas mövzularından biridir. Burada, koqnitiv

inkişafın ən mühüm komponentləri olan təfəkkür əməliyyatlarının strukturu intellektual bacarıqlar, metaidrak məsələləri kontekstindən araşdırılır, ağılın keyfiyyətləri səciyyələndirilir. Mahiyyət onunla izah edilir ki, *hafizədə informasiyanın təmsilçiliyi real həyatın dəqiq surəti deyildir, əslində bu informasiyanın uyğunlaşdırılması və binanın konstruksiyası, ümumiyyətlə, dünya haqqındakı biliklərin yenidən qurulması-əqli nəticədir*.

Sosial təfəkkür həm də yaradıcı fəaliyyətlə bağlıdır, çünki məhz onların yaradıcı fəaliyyətdə əldə etdikləri faktlar biliyin və təfəkkürün sosial məzmununu izah etməyə, onu istiqamətləndirməyə kömək edir.

Sosial təfəkkürün ən yaxşı izahı bədii yaradıcılıq nümunələrində öz əksini tapır. Bəzən biz adi bir rəsm əsərinə tamaşa edərək bir çox suallarımızı cavablandıra bilirik. Kiçik bir hekayə indiyə qədər bizə aydın olmayan məsələlərə izah verir. Sadə bir şer parçasında baş çıxara bilmədəyimiz düyünlər açılır.

## 3.3. Sosial bilik sosial dərketmənin əsası kimi

Bilik real aləmin obyekt və hadisələrinin, onlar arasındakı əlaqə və asılılıqların beyində inikasıdır. Sosial psixologiyada bilik iki istiqamətdə səciyyələndirilir:

a) materialın məzmunu, biliklərin növü və quruluşu;

b) subyekt tərəfindən bu məzmunun mənimsənilməsi və nəticələrin tətbiqi.

Sosial bilik real təfəkkür, real dərketmə və sosial mövqe əsasında formalaşan, insanın cəmiyyətlə şüurlu əlaqəsini nizamlayan intellektual sistemdir. Sosial bilik problemi

sosial psixologiyanın elə bir sahəsidir ki, burada insanın mühitdə özünü və dünyanı dərk etməsinin, sosial təfəkkürünün xüsusiyyətləri öyrənilir.

Qrupları, cəmiyyəti əmələ gətirən fərdlərin sosial təfəkürünü, sosial biliyini təhlil edərək onu hansı istiqamətdə inkişaf edirməyin yolları meydana çıxır. Sosial bilik və reallıqlar arasındakı uyğunsuzluqların öyrənilməsinə olan ehtiyac aydınlaşır. Bu sahədə aparılan araşdırmalarda sosial biliyin müxtəlifliyi, mürəkkəbliyi, eləcə də eynilikləri və oxşarlıqlarıüzə çıxır.

Sosioloji mədəniyyətdə olduğu kimi, sosial bilik sosial təhlilin istiqamətləri, prinsip və metodologiyası əsasında yaranır. Onunla uyğunluq təşkil etməklə sıx şəkildə üst-üstə düşür. Bu sahədə aparılan araşdırmalarda bir qədər müxtəlifliklər və mürəkkəbliklər, eləcə də eyniliklər və oxşarlıqlar üzə çıxır. Məsələn, bəzən müxtəlif mövqedə olan müşahidəçilər bir situasiyanı eyni təsəvvür edə bilərlər. Eyni zamanda oxşar situasiyalar onlar tərəfindən kəskin fərqlərlə qəbul edilə bilər. Ona görə də mütəxəssislər hesab edirlər ki, sosial dərketmənin mahiyyəti bu sahədəki metafiziki illüziyadan imtina etməlidir. Əvəzində sosial reallıqların dərk olunmasında fərdlərin sosial təfəkürünü və sosial biliyini təhlil etmək lazımdır.

Bu anlayışın genezisi geniş mənada bir çox elmlərdə, o cümlədən sosial psixologiyada müxtəlif tərəflə birgə müzakirə edilərək formalaşmışdır. Hazırda sosial bilikdə analoji qaydada konstitusiyalaşma və ayrılma gedir. Bunun əsasında sosial biliklə bağlı nəzəriyyələr ideologiyası yaranır. Bundan başqa, sosial bilik ideyası fəal şəkildə "təhsilin sosiologiyası" anlayışı ilə assimilyasiya olunur. Nəticədə müasir pedaqogikanın bir sıra istiqamətləri əsa-

sında konkret təhsil, tərbiyə, sosiallaşma texnologiyaları toplanır.

***Sosial dərketmə*** təfəkkür və onun tərkib elementləri, sosial və psixoloji fəallıq, mənimsəmə, motivasiya, dəyər və d. komponentlər əsasında qurulur. Psixoloji-pedaqoji tədqiqatlar təlim fəaliyyətində dərketmə proseslərinin iki tərəfini ayırd etməyə imkan verir:

*a) koqnitiv dərketmə;*

*b) affektiv dərketmə.*

Cəmiyyətin dərketmə fəaliyyətində konkret, konseptuallaşmış koqnitiv sisteminin yaranması, yeni informasiyanın dərk edilməsi onun tərəfindən dünyanı əhatə edən informasiyaları mənimsəmə imkanları ilə müəyyən olunur. Bu baxımdan, mənimsənilmiş biliklərin məzmunu cəmiyyətin özünün ictimai şüuru ilə müəyyən olunur. İctimai şüur isə, fərdi şüurdan qaynaqlanır. Onların hər ikisi qarşılıqlı əlaqədə inkişaf edir.

Digər tərəfdən, mənimsəmə fəaliyyətin yönəlişliyindən və motivasiyadan da asılıdır. Subyekt(lər) tərəfindən mənimsəmənin fərqləndirici xüsusiyyəti yönəlişliyin mühüm rolu ilə izah olunur. Yönəlişlik öyrənmənin intensivləşməsi üçün inkişafetdirici təsirə malikdir. Çox zaman yönəlişlik ya öz-özünə, ya da təlimatın yerinə yetirilməsi zamanı yaranır. Deməli, cəmiyyətdə hansı biliklərin mənimsənilərək dərk olunması üçün onu münasib istiqamətə yönəltmək lazımdır. Çünki yönəlişlik şərti reaksiyaların başvermə mexanizmini əhəmiyyətli dərəcədə həm asanlaşdırır, həm də sürətləndirir. Bu prosesin əksinə də baş verməsi mümkündür. Yəni, yönəlişlik, hərəkətlərin gedişindən asılı olaraq şərtləndirməni çətinləşdirə və ləngidə bilir.

Bir çox hallarda insanda baş verən şərti reaksiyalar yönəlişliyin təsiri ilə daha az davamlı və daha çox dəyişkən olur. Onun gücündən asılı olaraq insan özü-özlüyündə tapşırılan hərəkətləri yerinə yetirərkən təzahür edən qıcığa münasibətini dəyişir.

Fəaliyyətdə yeni materialın dərk edilməsi onun mənimsəmə imkanları və xüsusiyyətləri təfəkkürün və dərketmənin sosial məzmunu ilə müəyyən olunur. Bu baxımdan yaradıcı fəaliyyət mənimsəmənin sosiologiyasından başlanır. Mənimsənilmiş bilik, bacarıq və vərdişlərin keyfiyyəti də subyektlərin sosial təfəkkürünün məzmunu ilə şərtlənir, çünki bilik real aləmin obyekt və hadisələrinin, onlar arasındakı əlaqə və asılılıqların beyində yalnız mexaniki olaraq deyil, baş verən sosial hadisələr, sosial situasiyanın təsirləri fonunda inikasıdır. Sosial dərketməni bu məzmunda qəbul etmək lazımdır.

## 3.4. Sosial rol və rol davranışı

Sosial rol sosial statusla bağlıdır. Onların hər ikisi insan davranışının normalarıdır. Sosial status subyektin şəxsiyyətlərarası münasibətlər sistemindəki mövqeyini ifadə edir. Bu mövqedə uşağın hüquq və vəzifələri, imtiyazları ifadə olunur. Onları cəmiyyət, tərbiyə mühiti, mədəniyyət müəyyənləşdirir. Rol davranışını isə sosial normalar, həmçinin uşağın fərdi xüsusiyyətləri sintezləşir.

Şəxsiyyətin rol nəzəriyyələri fərdin mənsub olduğu qrupa aid olan sosial funksiyalarını və rol davranış nümunələrini necə mənimsəməsi xüsusiyyətlərini izah edir. Bu sahədə daha geniş yayılmış nəzəriyyələr C.Midə və R.Lintona məxsusdur. O cümlədən, A.Bandura, C.Rotter

tərəfindən rolların mənimsənilməsi konsepsiyasına həsr edilmiş "öyrənmə nəzəriyyələri" də yaranmışdır. Digər bir istiqamət rolların sosial-mədəni təbiəti haqqındadır (Darendorf, Kelli). Bu kontekstdə rol münaqişələri, rolların inteqrasiya və dezinteqrasiyası, şəxsiyyətin rol quruluşu kimi problemlər də araşdırılıb. Aydın olub ki, sosial rollar bir sıra sosial funksiyaları yerinə yetirməklə məzmununa görə müxtəlifdir: psixoloji və ya şəxsiyyətlərarası (liderlik, üstünlük, qəbul olunmayan, autsayder); sosial (peşə üzrə, demoqrafik); fəal və ya aktual; latent (gizli); konvensional (rəsmi); kortəbii, spontan.

Sosial rol - sosial statusdan və mövqedən asılı olaraq sosial mühitdə yerinə yetirilən hərəkətlərlə cəmləşmiş davranış normalarının uyğunluğudur. Sosial rol özünün quruluşuna görə obyektiv və şablon ola bilər. Bu, xarakterin tipindən və mühitin təsirlərindən asılı olaraq yaranan davranış formalarıdır.

Sosial rolun qaydaları xaricində qaydasız davranış əmələ gəlir. Buna psixologiyada bir sıra davranış formaları aid edilir (deviant, delikvent, aqressiv, dezadaptiv, assosial davranış və d.). Bu davranış formalarının hər biri özündə müxtəlif səbəblərdən və müxtəlif formalarda pozulmuş davranış nümunələrini birləşdirir. Hər bir rol öz məzmununa malikdir: fəaliyyət şablonları, bilik, bacarıq və qabiliyyətlər, başqalarının işlərinə reaksiya və s. Şəxsiyyət öz hərəkətlərinin məntiqini sosial gözləmə və normalar baxımından əlaqələndirə bilər. Şəxsiyyətin xassələri heç də həmişə sosial rolların norma və funksiyaları ilə səsləşmir. Buna səbəb sosial rol və şəxsiyyətin təbii quruluşu arasındakı uyğunsuzluqlardır. Ona görə də

mənbələrdə (C.Mid, Ç.Kuli, Ə.Əlizadə və b.) sosial rolun müəyyən quruluşa malik olduğu bildirilir:

· İnsan davranışının cəmiyyət tərəfindən yaradılmış modeli;

· İnsanın özünü necə aparması haqqındakı təsəvvürlər sistemi;

· İnsanın statusa uyğun olaraq real müşahidə edilən davranışı.

Bu komponentlər arasında ziddiyyət olduqda rol münaqişələri baş verir. Rol münaqişələri özləri də iki yerə bölünür: rollararası münaqişə; roldaxili münaqişə.

Rol münaqişələri fəaliyyət subyekti olan bütün insanlar üçün xasdır. C.Kuli, C.Mid kimi Qərb sosial psixologiyasındakı araşdırmalar maraq doğurur. Onların nöqteyi-nəzərinə görə, insanın özü haqqındakı sosial müəyyənliyi qrupda başqa insanlarla qarşılıqlı təsir sistemi vasitəsi ilə əldə edilir. Qrupun gücü onun bütün iştirakçılarının gücünə bərabər deyil. Qrupun müxtəlif üzvləri qarşılıqlı təsirdə rol adlanan müxtəlif funksiyaları yerinə yetirirlər. Qrupda razılıq ona göstərilmiş rol daxilində davranış qaydalarını gözləmələrə uyğun yerinə yetirməsi ilə təmin olunur. Burada da şəxsiyyətdaxili münaqişələrin mənbəyi gizlənir. Şəxsiyyətin müxtəlif rol mövqeləri ilə ziddiyyətlərin yaranması nəticəsində aşağıdakı sahələr üzrə rol münaqişələrinə gətirib çıxarır:

- adəti sosial rolların yerinə yetirilməsində çətinliklər;
- bir neçə rolun eyni vaxtda reallaşdırılmasının mümkün olmaması;
- vaxt çatışmazlığı;
- sosial rollarla bağlı qiymətləndirmələrin dəyişməsi;
- rollararası əlaqənin itməsi;

- öz işini yüksək səviyyədə yerinə yetirmək tələbatının zəifləməsi.

Reallıqda hər bir fərd bir deyil, bir neçə rolu yerinə yetirir. Amma, əgər biz uşaqlardan danışırıqsa, onlara, hələlik yalnız bir rolun davranış qaydalarını mənimsəmək lazımdır: "yaxşı uşaq (oğlan və ya qız) rolu". Bu rolun özünün də sosial mühitə, onun mədəniyyətinə və uşağın fərdi quruluşuna uyğunlaşdırılmış rol davranış komponentləri vardır:




Şəkil. Rol davranışı formalaşdıran təbii və sosial amillər

- uşağın mənsub olduğu etnik qrupun adət-ənənələri, dəyər və normalar;
- uşağın yaşadığı sosial mühitin tələbləri;
- ailənin təhsil səviyyəsi və həyat tərzi;
- uşağın cinsi və fərdiyyəti.

Rol və davranış arasında sıx əlaqə var. Rol davranışı sosial rolun fərd tərəfindən mənimsənilmiş modellər

əsasında, özünün bioloji və psixoloji quruluşuna uyğun şəkildə yerinə yetirilməsidir. Sosial rolun mənimsənilməsi sosiallaşma prosesinin tərkib hissəsidir. Bu məqsədlə cəmiyyətdə standart normalar müəyyənləşdirilmişdir. Bu zaman uşaq sosial standartları mənimsəyir, özünənəzarətə sahib olur. "O, özünün "Mən"ini və həyat fəaliyyətini inteqrasiya edir, öz hərəkətlərinə əxlaqi qiymət verir, həyatda öz yerini tapır. Uşaqlar rol davranışdan müxtəlif sosial situasiyalara adaptasiya vasitəsi kimi istifadə edirlər".

Sosial rola sahib olmaq üçün inkişaf edən davranış refleksiya ilə sıx bağlıdır. Refleksiyanın yaranmasında hələ erkən ontogenezdən şərti reflekslərin möhkəmlənməyə başlaması, yeni-yeni şərti reflekslərin yaranması mühüm əhəmiyyət kəsb edir. Şərti reflekslərin yaranması ilə bağlı olan əlaqələr müvafiq qıcıqlayıcının təsiri ilə qurulur. Təsir itdikdə şərti refleks sönür, lazım gəldikdə yenidən qurulur. Belə yenidənqurulma uşaq orqanizmindəki özünümüdafiə sisteminin proqramı ilə tənzimlənir. Həmin ardıcıllıqla orqanizmlə ətraf aləmin qıcıqlayıcıları arasında reflektor əlaqələr tənzimlənir. Deməli, refleks - sosial mühitin təsiri ilə uşaq orqanizmində oyanan mexanizm olmaqla onun özünüdərketməsində, fəaliyyətini mühitin tələblərinə adekvat tənzimləməsində ilkin faktorlardan biri kimi çıxış edir. Orqanizm və mühit arasındakı əlaqəni nizamlayır

Sosial rol fəaliyyət (oyun, əmək, təlim) və ünsiyyətdə (yaşlı və həmyaşıdlarla) reallaşır. Rolun təsvirində hər bir sosial qrupa xas olan xüsusiyyətlər önə çəkilir. Eləcə də, bu xüsusiyyətlərə fərdin özünün xassələri əlavə olunur. Ona görə də uşaq tərəfindən sosial rolun qəbul edilməsi üçün bu rolla bağlı təcrübə və fərdiyyətin özünüinkişaf yolu tutması

çox vacibdir. Yəni, sosial rolları yalnız sağlam psixikaya malik olan uşaqlar lazım olan səviyyədə mənimsəyə bilirlər. Bu baş vermədikdə, sosial rolun hər hansı xassəsinin identifikasiyası mümkün olmadıqda uşaq və mühit arasında münaqişəli vəziyyət yarana bilir. Münaqişənin baş verməməsi üçün uşaq rol davranışa alışdırılmalıdır. Məhz rol davranışla bağlı üzləşdiyi situasiyalarda uşaq rol münaqişələrinə, gərginliklərə və onların həlli yollarına bələd olur, ünsiyyət çətinliklərinə üstün gələrək birgə fəaliyyətdə iştirak edir.

Rol davranışın formalaşmasında vərdiş və bacarıqların rolu böyükdür. Uşaq adəti davranışı reallaşdırarkən daha düzgün hərəkət edir. Düzgün davranış vərdişlərinin formalaşdırılması kifayət qədər çətin olsa da, davranış qaydaları "şüursuz" səviyyədən şüurlu səviyyəyə keçdikdə onu qaydalara uyğunlaşdırmaq da asan olur. Çox zaman, xüsusən başqası tərəfindən müşahidə olmadıqda uşaq nəyi necə etməli olduğunu, özünü necə aparmaq lazım gəldiyini bilir, sadəcə onun icra mexanizmlərini praktik fəaliyyətə köçürməkdə çətinlik çəkir.

Pedaqoji lüğətdə "davranış mədəniyyəti" başqa insanlarla mədəni davranmaq kimi izah olunur. "Əxlaqi davranış" anlayışı "mədəni davranış" anlayışına çox yaxındır. "Davranış mədəniyyəti" anlayışı isə insanların birgə yaşayışının (əməkdə, məişətdə, başqa insanlarla ünsiyyətdə), gündəlik insan münasibətlərinin mahiyyətini ifadə edir. Burada yüksək əxlaqilik, mənəvilik, estetiklik və etiklik əsas götürülür. Davranış mədəniyyətinə bunlar daxildir: ünsiyyət manerası, etiket, hərəkətlərin mülayimliyi, həyatın müxtəlif sahələrində fəaliyyətin mükəmməlliyi, həmçinin

səmiyyət üçün xeyirli olan davamlı normaların uyğunluğu başa düşülür.

Mədəni davranış əxlaqi hisslərlə, təsəvvürlərlə bağlı olub onları möhkəmləndirir. Məktəbəqədər yaşlı uşaqların mədəni davranışı özündə aşağıdakı komponentləri birləşdirir: fəaliyyət mədəniyyəti, ünsiyyət mədəniyyəti, mədəni-gigiyenik adət və vərdişlər.

## 3.5. Gender rolları

Əgər intellektual səviyyəsinə görə irqlər, sosial qruplar arasında fərqlər varsa və bu insanın sosial inkişafına təsir göstərirsə, belə fərqlər gender sahəsində də ola bilər. Bu sahədə sosioloji eksperiment XX əsrin 60-cı illərində Lakiforniyanın Farrinqton məktəbində ibtidai siniflərdə aparılmışdır. Məktəbdə aparılan tədqiqatda iki: ağ amerikalı və meksika mənşəli amerikalılardan ibarət olan sınanılanlar iştikak edirdilər.

Eksperiment göstərdi ki, ağ irqə mənsub olan iştirakçılar professional və inzibati-idarəetmə, meksikalılar isə kənd təsərrüfatı işlərinə meyillidirlər Ona görə də ağlara daha çox elmi qaydalar, meksikaklılara isə tarlada işləmək üçün vacib olan fiziki hazırlıq öyrədilirdi. Meksikalılar onlarla keçirilən oyunlarda liderlik mövqeyinə iddia etmirdilər.

Pedaqoji kollektiv bu proqrama hörmətlə yanaşaraq onu etnik qruplar üzrə ideal hesab edirdilər, lakin bu davamlı olmadı. Proqramın tətbiqi qruplar arasında etnik eyniliklərin deyil, gender xüsusiyyətlərinin daha üstün fərqlərə malik olduğunu aşkara çıxardı.

Əslində, gender fərqləri məktəblərdə tətbiq olunan gizli proqramlarda həyata keçirilir. Bu fərqlərdə şagirdlərin geyimlərinə verilən tələblərdən tutmuş bir sıra təlim tapşırıqları da nəzərə alınır.

Oğlan və qızların cinsi xüsusiyyətləri L.Y.Verb, D.N. İsayev, Ə.Ə.Əlizadə, İ.S. Kon, A.Q. Xripkova və d. tədqiqatçılar tərəfindən araşdırılmışdır. Onlar cinsi fərqlərin psixoloji xüsusiyyətlərini sosiometriya vasitəsilə öyrənməyə cəhd göstərmiş, şagirdlərin status və seçimlərini cinsi xüsusiyyətlərlə izah etmişlər. Bəzi psixoloqların fikrincə, Azərbaycandakı indiki tədris sistemi, proqram baxımından oğlan, metodika baxımından isə qız psixologiyasının tələblərinə cavab verir. Bunu təsdiqləyən fakt kimi hələ aşağı siniflərdən dərslərdə qızların oğlanlara nisbətən fəallığını misal göstərmək olar. Yuxarı siniflərə keçdikcə oğlanların fəallığı daha da azalır. Onlar öz enerjisini daha çox tənəffüslərə sərf edirlər.

Əslində, bütün mədəniyyətlərdə qadına və kişiyə xas olan bioloji fərqlər sosial gözləmələr çərgəsində durur. Həmin fərqlər qadın və kişinin hüquqlara, imkanlara və səlahiyyətlərə malik olduğunu özündə ifadə edir. Bu gözləmələr müxtəlif cəmiyyətlərdə xeyli fərqlənmələrinə baxmayaraq, aralarında oxşarlıqlar var. Belə ki, qadınları təhsil, mədəniyyət, səhiyyə, iqtisadiyyat və digər sahələrə cəlb etmədən, qadın təşkilatları, birlikləri, cəmiyyətləri yaratmadan gender problemlərini həll etmək mümkün deyildir.

Gender dedikdə sosial rollarla tənzimlənən davranış və gözləmə modelləri nəzərdə tutulur. Bu modellər həm qadınlar, həm də kişilər haqqında təsəvvürlərlə bağlıdır. Kişilərlə qadınlar arasındakı sosial münasibətlərin modeli

olan gender problemlərini bir sıra sahələr üzrə araşdırmaq lazım gəlir:

- şəxsiyyətlərarası (ailədaxili) münasibətlərdə;
- sosial siniflər arasında;
- dövlət, ictimai və özəl təşkilatlardakı ierarxiyada;
- seçkili orqanların cinsi kəmiyyət fərqlərində və s.

Problemin həlli yolu olaraq genderin müəyyən edilməsi, kişi və qadın mənşəyinin, fəaliyyətinin, davranışının, nəhayət şəxsiyyətinin bir-birindən asılılığının öyrənilməsi tələb olunur. Bunun üçün bəzi araşdırmaları nəzərdən keçirək.

XVII əsrdə insan şəxsiyyəti ilə bağlı məsələlərə yeni yanaşmalar əmələ gəldiyindən, insan azadlığı çağırışları güclәndiyindən qadınların şəxsiyyətinə münasibət də qismən dəyişməyə başlamışdı. Avropada qadın-kişi bərabərliyi meyli ilk dövrlər özünü ədəbiyyatda göstərdi.

Tarixən qadın probleminə yanaşmalarda onların bioloji funksiyaları önə çəkilir. Ə.Ə.Əlizadə yazır: Gender sosializasiyası əsrin gündəmində vüqarla səslənir, lakin dövrün özünün psixopedaqoji reallıqları var. Onların mənası bərqərar olmuş, qılıncdan da kəsərli ənənə qayda-qanunları ilə qaynaqlanır: uşaq dərgilərində qızlar bir qayda olaraq məişət qayğıları fonunda təsvir olunurlar, oğlanlar isə "hazırın-naziri" kimi təqdim olunurlar. Bu oğlan və qızlar, BMT-nin qeyd etdiyi kimi (1991), böyüyəndə, ev-eşik sahibi olanda da elə ənənə obrazları ilə yaşayırlar, başqa sözlə, onların kişi və qadın gender rolları ənənvi davranış gözləmələri ilə formalaşır. Gender rolları epoxadan asılıdır – problemin sosial-psixoloji təsnifi belədir".

Təsərrüfat-məişət işlərində iştirakı, rolu baxımından azərbaycanlı qadınlarda mütəhərriklik, hərəkətlilik çox olduğundan ruhi və fiziki sağlamlıqları qənaətbəxş olub, dünyaya sağlam övladlar gətirib, sağlam nəsil yetiriblər. Müxtəlif mədəniyyətlərdə bu məsələyə münasibəti öyrənərkən maraqlı faktlar meydana çıxır. Misir fəllahları, Suriya bədailəri, Əlcəzair ərəbləri (qadınları) su səhəngindən bədən pozasının formalaşmasında məharətlə istifadə etmişlər. Hind rəqsləri qadın bədəninin yalnız fiziki kamilliyinin deyil, mental bədənin müdriklik və kamillik imkanlarının nümayişidir. Azərbaycan mədəniyyətində qadın gözəlliyi, bədən konfiqurasiyası, mütənasibliyi su səhəngini tutma qaydası, onunla birgə hərəkət bacarığı ilə müqayisə olunur. Səhəng fiziki və ruhi kamilliyin vəhdətini ifadə edir. Folklorda su səhəngi ilə hərəkətlərlə birgə harmoniya, elastiklik, plastiklik, yeriş, gəziş, maneraları formalaşır.

Problemə belə yanaşma XIX əsrin sonlarına qədər dünyada ən çox inkişaf etmiş sayılan Avropa cəmiyyəti üçün də xas idi. Tədqiqatçılar qadınların xüsusiyyətlərini evdarlığa, uşaq doğmağa, tərbiyə etməyə, ərə qulluq bacarıqlarını mənimsəməyə hazırlıq nöqteyi-nəzərindən şərh edirdilər. Kişilər həm də qadın intellektinin dərinliyinə, genişliyinə şübhə ilə yanaşıblar. Onlara yalnız müəyyən miqdarda bilik, mədəniyyət verməklə kifayətlənməyi lazım biliblər. Məsələn, Spenser "Biologiyanın əsasları" əsərində bu fikirlərlə çıxış edir ki, fiziki iş qadınları daha doğumlu edir.

İddialara görə, qadınların fəallaşmasından nəticə çıxarmaq üçün müdrik olmaq gərək deyil. Fərziyyələr var ki, əgər vəziyyət belə davam edərsə, qadınların intellektu-

al fəaliyyətə marağı son nəticədə kişiləri uşaq sahibi olmaq üçün genetika mühəndislərinə müraciət etməyə məcbur edəcək. Ona görə müasir tədqiqatçıları problemlə bağlı düşündürən məsələlərdən biri də qadınlar arasında öz cinsinin xüsusiyyətlərindən imtina edərək maskulinizasiya meylinin müşahidə edilməsi hallarıdır. Belə ki, müasir dövrdə kişilərə müqayisədə qadınlar rol ziddiyyətlərindən əziyyət çəkirlər. Xüsusilə qadınların ana-arvad kimi liberal rollarla karyera, yaxud digər məqsədlərə nail olmaq arasında seçim problemlərinə daha çox təsadüf edilir. Onlar mütəmadi olaraq “Ya karyera, ya ailə” tələbi ilə üzləşirlər. Bu seçim son nəticədə qadının yaşadığı cəmiyyətin daşıdığı mədəniyyətin mahiyyətinə görə həll olunur.

Bu sahədə Amerika tədqiqatçısı Karen Xorninin araşdırmaları məsələyə aydınlıq gətirməyə imkan verir. K.Xorni qadınlarla kişilər arasındakı fərqləri sosiomədəni təsir kontekstindən izah edir. Onun iddiasına görə qadınlar kişilərlə müqayisədə bütün hallarda daha çox natamamlıq hissi keçirirlər. Çünki onların həyatı kişilərdən iqtisadi, siyasi və psixososial baxımdan asılıdır. Tarixən qadınlara ikinci dərəcəli varlıqlar kimi yanaşıldığından onlar kişilərin üstünlüyünü qəbul etməli olmuşlar. Sosial sistemlər, bu sistemlərdəki kişi dominantlığı daim qadınları asılı vəziyyətə salmışdır.

K.Xorni sübut edir ki, qadınlar maskulinizasiyaya tədqiqatçıların iddia etdikləri kimi, kişi cinsinə hərislik, yaxud onlara xas olan xüsusiyyətlərə həsədlə yanaşdıqlarından deyil, özünütəsdiq cəhdinə görə meyl edirlər. O, qadınların maskulinizasiya problemlərinə yenidən baxaraq bu meylləri hakimiyyətə, imtiyazlara canatma baxımından qiymətləndirir. Dünya mədəniyyətində qadınların kişi ol-

maq arzusu-güc, qoçaqlıq, müstəqillik, məvəffəqiyyət, seksual azadlıq, partnyor seçmək hüququ kimi keyfiyyətlərdə ifadə olunur. Bu, qadının sosial varlıq və şəxsiyyət olaraq imtiyazlara sahib olmaq arzusunun təzahürüdür. Bu arzu gender probleminin əsasında durur. Müasir cəmiyyətdə müşahidə olunan rol dəyişmələri, cinslərarası münasibətlərin yumşalması isə gələcəkdə gender probleminin uğurla həll olunacağından xəbər verir.

Beləliklə, qadının cəmiyyətdəki sosial mövqeyi kişilərin ona münasibətindən bilavasitə asılıdır. Təbiət qadına nəsilartırma, evdarlıq, ailəyə qayğı göstərmək xüsusiyyətlərini verib, lakin qadın həm də şəxsiyyətdir. Azərbaycanda uzun əsrlər "islam qaydaları" adı altında qadınların azad fəaliyyətinə qoyulan ifrat qadağalara, sosial təsirlərə baxmayaraq onların şəxsiyyətində hələ islama qədər, qədim mədəniyyətdən formalaşmış "Mən"in azadlığı meyli qorunub saxlanmışdır. Onlarda özünümüdafiənin özünəməxsus xüsusiyyətiləri əmələ gəlib.

Müasir dövrdə qadınların sosiallaşması prosesində bu özünümüdafiə xüsusiyyətlərinin yeni məzmunda formalaşdırılması zəruridir. Çünki bu xüsusiyyətlər onların qapalı fəallığına hesablanıb. Kommunikativ mədəniyyət, bir şəxsiyyət olaraq müstəqil özünütəsdiq təcrübəsi kifayət deyil. Bunun üçün hansı şərtlərin lazım gəldiyini mütəxəssislər müəyyənləşdirməlidirlər. Bu həm də ona görə vacibdir ki, hər bir cəmiyyətin gender problemi həm də etnik mənşəyə, özünəməxsus sosial-psixoloji quruluşa malikdir. Etnik xüsusiyyətlər etnik qrupların spesifik xüsusiyyətləri kimi təzahür edir. Bu xüsusiyyətlər hər bir cəmiyyət üçün özünəməxsusdur.

Beləliklə, cəmiyyətdə ictimai münasibətlərin dəyişməsi fərdiyyətin ən mühüm göstəricilərinin - milli və cinsi fərqlərin nəzərə alınmasını da tələb edir. Çünki bu fərqləri nəzərə almadan insanlar arasındakı əlaqələri, münasibətləri nizamlamaq mümkün deyil. Münasibətlərin normal, reallığa uyğun olaraq, dövrün ictimai-iqtisadi vəziyyətilə münasib qaydada tənzimlənməsi üçün dünyada gender probleminin xeyli aktuallaşdığı bir dövrdə qadınların cəmiyyətdə roluna və real vəziyyətinə də diqqət yetirmək lazım gəlir.

Hazırda Azərbaycanda həyata keçirilən gender siyasətinin əsasında qadınların sosial fəallığı dayanır. Sosial fəallığın əsası kişinin qadına verdiyi müstəqillikdən, ona ailədə yaradılmış şəraitdən başlanır. Bunlar cəmiyyətin inkişafına təsir göstərən amilləri: mənəviyyat, ağıl və intellektin gender xüsusiyyətlərinin, imkanlarının öyrənilməsini zəruri edir. Bu sahədə gender tədqiqatlarının aparılması bir çox məqamlara aydınlıq gətirə bilər.

***Suallar və tapşırıqlar:***

*1. Sosial mühit və "Mən" arasındakı əlaqələr haqqında şəxsi mülahizələr yürüdün.*

*2. Sosial mühit "Mən"in formalaşmasına necə təsir göstərir?*

*3. Fərdin mühitlə qarşılıqlı əlaqəsi hansı yollarla qurulur?*

*4. Sosial təfəkkür nədir?*

*5. Sosial təfəkkür və sosial bilik arasındakı əlaqəni izah edin.*

*6. Sosial rol haqqında layihə hazırlayın.*

*7. Sosial rollara aid qrup treninqi keçirin.*

*8. Rol davranışın insan həyatındakı əhəmiyyətini izah edin.*

*9. "Gender rolları" anlayışının mahiyyətini izah edin.*

*10. Gender rollarını səciyyələndirin.*

*11. Gender rollarının etnopsixoloji xüsusiyyətlərinə nələr daxildir?*

***Ədəbiyyat:***


*1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 2003, 534 s.*

*2. Bayramov Ə.S. Gənclərin özünütərbiyəsi haqqında. Bakı: Birləşmiş nəşriyyat mətbəəsi, 1961, 40 s.*

*3. Əliyev R. I. Psixologiya. Bakı: Nurlan, 2007, 352 s.*

*4. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixo-pedaqogikaya giriş. Bakı: ADPU -nun mətbəəsi, 2008, 479 s.*

*5. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı: Səda, 1998, 342 s.*

*6. Əmrahlı L.Ş. Təhsilin sosiologiyası//Təhsilin sosioloji problemləri, TPİ, 2010, s. 4-104*

*7. Məmmədova R.O. Ailədaxili münaqişələr və kiçikyaşli məktəblilərin psixi inkişafina onun təsiri // diss... psixol. elm. üzrə fəl dokt. Bakı, BDU, 2016, 152 s.*

*8. Ананасенко Г.Л. Эволюция биоэнергетики и здоровье человека. СПб.: Метрополис, 1992, 123 с.*

*9. Брунер Д. Психология познания. М.: Прогресс, перевод К.И. Бабанского, 1977, 441 с.*

*10.Заржицкая О.А. Понятие «социализация телесности» в психологии// Психология и школа, 2007, № 3, с. 3-24*

*11.Зимбардо Ф., Ляйппе М. Социальное влияние // СПб.: Питер, 2011, 448 с.*

*12.Кравченко А.И. Культурология. М.: Академический проект, 2003, 495 с.*

*13.Кули Ч. Социальная самость //Американская социологическая мысль.М.: МГУ, 1994, с. 316-329*

*14.Лазурский А. Науки о характерах. М.: 1906, 354 с.*

*15.Мид М. Культура и мир детства. М.: Прогресс, 1988, 236 с.*

*16. Теория поля Курта Левина//Теории личности. Келвин С. Холл, Линдсей Г.М.: Апрел Пресс, 2000, с. 289- 335*

*17. Bandura A., Ross D.A. Transmission of aggression through the imitation of aggressive models // Journal of Abnormal and Social Psychology, 1961, 63, p. 575-582*

*18. http://www.wikipediya*

*19. http://www.online biblioteka*

*20. http://www.bestlibrary.ru*

# IV FƏSİL. SOSİAL PSİXOLOGİYADA ÜNSİYYƏT PROBLEMİ

## 4.1. Ünsiyyətin sosial xarakteri

Ünsiyyət həyatımızın vacib tələbatıdır. Məkanından və zamanından asılı olmayaraq, insan doğulduğu andan başlayaraq daim ünsiyyətdə olur. Bu prosesin inkişafında cəmiyyət və ətraf mühitin oynadığı rol olduqca böyükdür. Ünsiyyətsiz cəmiyyət mövcud olmadığı kimi, cəmiyyətsiz də ünsiyyətin mövcudluğunu təsəvvür etmək mümkün deyil. Məhz ünsiyyət vasitəsilə yaşadığımız cəmiyyətdə sosial bir varlıq kimi müntəzəm olaraq ailə üzvləri ilə, ailədən kənarda yaşayan doğmalarımızla, dostlarla, məktəb və iş yoldaşlarımızla, küçədə, nəqliyyatda, mağazada və başqa yerlərdə tanıdığımız və tanımadığımız adamlarla ünsiyyətə girir, əlaqələr qururuq. Beləliklə, ünsiyyət prosesində sosiallaşırıq, mədəni normalara, dəyərlərə sahib oluruq.

Ünsiyyət insanın sosial mühitlə əlaqə qurmaq ehtiyacından yaranır. Ona tələbat çox zaman məqsəd, fikir,

fəaliyyət, üst-üstə düşən mənafe birliyindən irəli gəlir. Ünsiyyət prosesinin aktuallaşması yeniyetməlik və gənclik dövrlərində həyatın ən önəmli mərhələlərini təşkil edir. Çünki bu dövrdə əksər fərdlər daha fəal şəkildə ünsiyyətə can atır, daha çox danıqan olurlar. Bu prosesdə şəxsiyyət kimi inkişaf edərək formalaşırlar.

Ünsiyyət prosesində insanın daxili gözəlliyi üzə çıxır. Bununla yanaşı, insanlar ünsiyyət prosesində özlərinin aktuallaşdırma tələbatını ödəmək imkanı əldə edirlər. Belə ki, hər kəs informasiya mübadiləsi yaratmaqla məlumatın ötürülməsi və qəbul edilməsində iddialı tərəf kimi çıxış edir. Bu mənada ünsiyyət insanın dolayısı ilə özünü ifadə etməyə, aktuallaşdırmağa çalışması prosesidir. Bu səbəbdən də ünsiyyət prosesi cəmiyyətdəki mövqeyimizi təyin edən ən mühüm faktordur.

Ünsiyyət iki və daha çox insan arasında münasibət yaradan psixososial prosesdir. İnsanların öz münasibətlərini aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədi ilə öz səylərini əlaqələndirməyə, birləşdirməyə yönəldilmiş qarşılıqlı təsirinə ünsiyyət deyilir. Yəni, ünsiyyət – duyğu, düşüncə və məlumatların müxtəlif yollarla başqalarına köçürülməsidir. Nə demək istədiyimizi başqasına (və ya başqalarına) söyləmək, onların da nə söylədiyini dinləmək, qavramaq və anlamaq prosesidir. Ünsiyyətin sosial mahiyyəti aşağıdakılarla izah edilir:

1) ünsiyyət psixososial tələbatdan yaranır;
2) ünsiyyət iki və daha çox şəxs arasında baş verir;
3) ünsiyyət insanlar arasında informasiya mübadiləsi olmaqla bərabər qarşılıqlı təsir prosesi, real gerçəkliyi əks etdirmək vasitəsidir;

4) ünsiyyət dinamik proses olmaqla onun müxtəlif forma və vasitələri vardır.

Ünsiyyətin sosial-psixoloji mahiyyəti onun məzmununda ifadə olunur. Ünsiyyətin *məzmunu* dedikdə fərdi təmas zamanı bir insandan digərinə ötürülən informasiya nəzərdə tutulur. Məhz öz məzmunundan asılı olaraq insanların ünsiyyəti müxtəlif xarakter daşıyır.

Ünsiyyətin məzmununu, hər şeydən əvvəl, insanın daxili motivasiya və emosional vəziyyəti haqqında məlumat təşkil edə bilər. Bu zaman insanlar bir-birinə mövcud tələbatları, emosional vəziyyətləri (razılıq, narazılıq, sevinc, kədər, qəm, əzab və s.) haqqında məlumatları çatdırır ki, bu cür informasiyalar bir adamdan başqalarına ötürülməklə şəxsiyyətlərarası tənzimetmə rolunu oynaya bilər.

Ünsiyyətin məzmunu ətraf mühit, orada baş verən hadisələr haqqında məlumatlardan da ibarət ola bilər. Bu zaman ünsiyyətdə olan insanlar bir-birlərinə mövcud təhlükə, həyati əhəmiyyətə malik olan amillər haqqında məlumat verə bilərlər.

Ünsiyyətin *məqsədi*-insanda müvafiq fəallığın nə üçün, nəyin xatirinə həyata keçirilməsindən ibarətdir. Bu baxımdan insanların ünsiyyətə girməsinin məqsədi geniş və çoxsahəlidir. İnsanların ünsiyyətə girmə məqsədinə onların dünya, təlim və tərbiyə, şəxsi və işgüzar qarşılıqlı əlaqələrin yaradılması və s. haqqında obyektiv məlumatın verilməsi və ya alınmasını daxil edirlər (M.Ə. Həmzəyev).

***Ünsiyyətin növləri.***

Ünsiyyətin bir sıra növləri vardır. Məzmun, məqsəd və vasitələrindən asılı olaraq ünsiyyətin bir sıra növləri ayırd edilir.

*1. Məzmununa görə:*

- maddi ünsiyyət (əşyalar və fəaliyyət məhsullarının mübadiləsi yolu ilə);
- koqnitiv ünsiyyət (bilik mübadiləsi);
- kondision ünsiyyət (psixi və fizioloji vəziyyətin mübadiləsi);
- motivlərlə bağlı ünsiyyət (təhriklərin, motivlərin, maraqların, tələbatların mübadiləsi);
- işgüzar fəaliyyətlə bağlı ünsiyyət (iş, əməliyyat, bacarıq və vərdişlərin mübadiləsi).

*2. Məqsədinə görə:*

- bioloji;
- sosial.

*3. Vasitələrindən asılı olaraq:*

- vasitəli;
- vasitəsiz;
- verbal;
- qeyri-verbal.

Vasitəli ünsiyyət - vasitəçilərin köməyi ilə həyata keçirilir. Bu zaman ünsiyyət aləti kimi partnyorlar arasında onları bir-biri ilə əlaqələndirən vasitəçidən istifadə olunur. Hazırda ünsiyyətin kommuniksiya vasitələri ilə reallaşan bu növü geniş yayılıb: telefon, kompüter, radio, televizor, kitablar, mədəniyyət obyektləri, vasitəçilik edən üçüncü şəxs və d. aid etmək olar.

Ünsiyyət nitq vasitəsi ilə baş verir. Biz başqalarını dinləyir, onların yazdığını oxuyur, öz fikirlərimizi yazmaq və danışmaqla ifadə edirik. Beləliklə, ünsiyyət zamanı dörd nitq bacarığından istifadə edirik: dinləmə, danışma, oxu, yazı. Dinləmək və oxumaq bacarığı başqalarını anlamaq, məlumat almaq üçündür. Danışmaq və yazmaq

bacarığı isə düşündüklərimizi başqalarına çatdırmağa kömək edir. Dinləyərkən və danışarkən istifadə edilən söz və cümlələr səslərlə ifadə olunur. Ona görə də dinləmə və danışma şifahi nitqə aid olan bacarıqlardır. Hərflərlə ifadə olunmuş mətnləri isə oxuyuruq və ya yazırıq. Odur ki yazı və oxu bacarıqları yazılı nitqə aid edilir. Bu prosesdə nitqlə yanaşı idrakın digər sahələri: duyğu, qavrayış, hafizə, diqqət, təfəkkür və emosiyalar da iştirak edir. Əgər bunların hər hansı biri nitq prosesinə qoşulmazsa, onun mənalılığı itir, qrammatik quruluşu, orfoepiya qaydaları pozulur. Nəticədə ünsiyyət də pozulur.

Ünsiyyət prosesində informasiya mübadiləsinin aparılması həm də müxtəlif funksiyaların yerinə yetirilməsini də təmin etmiş olur.

- *Təmasqurma funksiyası* – ünsiyyətdə olan tərəflərin informasiya mübadiləsi üçün qarşılıqlı əlaqə gözlənilməklə təmas yaradılır.
- *İnformasiya funksiyası* – məlumat (fikir) mübadiləsindən ibarətdir.
- *Təhrikedici funksiya* – bu və ya digər işi yerinə yetirməklə tərəf müqabilinin fəallığa yönəldilməsidir.
- *Əlaqələndirmə funksiyası* – birgə fəaliyyətin təşkili zamanı yerinə yetiriləcək işlərin qarşılıqlı əlaqəsinin yaradılmasıdır.
- *Anlama funksiyası* – yalnız məlumatın mənaca düzgün qavranılması və anlaşılması deyil, tərəf müqabilin bir-birini (məqsədlərini, yönəlişliklərini, həyəcanlarını, vəziyyətlərini və s.) anlamadan ibarətdir.
- *Amotiv funksiya* – tərəf müqabilində emosional təəssürat yaratmaq, eyni zamanda bunun köməyi ilə özünün

həyəcan və vəziyyətini dəyişdirməkdir (“emosiyaların mübadiləsi”).

• *Münasibətlərin yaradılması funksiyası* – rol, işgüzar, şəxsiyyətlərarası əlaqələr sistemində özünün yerini dərk etməkdir.

• *Təsir göstərmək funksiyası* – tərəf müqabilinin vəziyyətini, niyyətini, fikrini, təsəvvürünü, tələbatlarını, fəallığını, davranışını və s. dəyişdirməkdir.

Ünsiyyət informasiyanın verilməsi və qəbul olunması vəzifəsini, başqa sözlə informasiya mübadiləsi funksiyasını yerinə yetirir. Məhz buna görə də, təsadüfi deyildir ki, informasiya mübadiləsini ünsiyyətin əsas cəhətlərindən biri kimi qəbul edirlər, lakin ünsiyyət zamanı insanlar yalnız informasiya mübadiləsi ilə məhdudlaşmır, eyni zamanda bu prosesdə davranışın qarşılıqlı tənzimlənməsinə də təsir göstərirlər. Ünsiyyət bu funksiyanı yerinə yetirməklə insanlar arasında səmərəli qarşılıqlı münasibətlərin yaranmasına, qarşılıqlı münasibətləri tənzim etməyə xidmət edir.

Ünsiyyətin affektiv-kommunikativ funksiyasının əhəmiyyəti də az deyildir. Bu funksiya insanların emosional sferasına aid olub, onlarda emosional vəziyyətin determinantı, şərti kimi özünü göstərir.

B.F.Lomov ünsiyyətin funksiyaları içərisində onun kommunikativ funksiyasını xüsusi olaraq vurğulayır:

- məlumati – kommunikativ funsiya;
- tənzimedici- kommunikativ funksiya;
- affektiv- kommunikativ funksiya.

Ünsiyyət çoxcəhətli, çoxplanlı proses olduğuna görə onun digər özünəməxsus funksiyalarından da söhbət açmaq olar. Ünsiyyətin bu cür mühüm funksiyalarına bir-

gə fəaliyyəti təşkil etmək, insanların bir-birlərini, qarşılıqlı münasibətləri formalaşdırmaq və inkişaf etdirmək və s. funksiyalarını aid etmək olar.

Ünsiyyət həyat tələbatlarından doğur və demək olar ki, insanın ictimai həyatının gedişini tənzim edir. Həyati faktlar göstərir ki, ünsiyyət eyni zamanda psixi proseslərin təzahüründə özünəməxsus tərzdə iştirak edir. Ünsiyyət psixi proseslərin dinamikasına, təzahürünə təsir göstərir və onları daha da mütəhərrik edir.

Ünsiyyət eyni zamanda şəxsiyyətin formalaşmasına da müəyyən tərzdə istiqamət verir. Demək olar ki, şəxsiyyətin təşəkkülü müəyyən mənada ünsiyyət prosesinin məhsuludur. Ümumi psixologiya baxımından ünsiyyət probleminin maraqlı cəhətlərindən biri də ondan ibarətdir ki, insanın özünü dərk etməsi, öz "mən"inə nəzər salması, özünü başqaları ilə müqayisə edərək qiymətləndirməsi belə ünsiyyət prosesinin məhsulu kimi qəbul edilir.

## 4.2. Ünsiyyət informasiya mübadiləsi kimi

Ünsiyyət olmadan insanların birgə fəaliyyəti həyata keçirməsi mümkün deyildir. İnsanlar birgəfəaliyyət zamanı daim bir-biri ilə informasiya mübadiləsi aparır, bir-birinə qarşılıqlı təsir göstərir, bir-birini qavrayır və anlayırlar. Başqa sözlə, ünsiyyətə girirlər. İnsanın hər cür fəaliyyətində ünsiyyət zəruri şərt kimi özünü göstərir. Ona görə də sosial psixologiyada ünsiyyətə həm də insanlar arasında emosional əlaqələrin yaranması və inkişafı prosesi kimi baxılır.

Müasir sosial psixologiyada ünsiyyətin üç mühüm tərəfi, cəhəti qeyd olunur:

1) ünsiyyət informasiya mübadiləsi kimi və yaxud ünsiyyətin kommunikativ tərəfi;

2) ünsiyyət qarşılıqlı təsir prosesi kimi və ya ünsiyyətin interaktiv tərəfi;

3) ünsiyyət insanların bir-birini qavraması, anlaması kimi və yaxud ünsiyyətin perseptiv tərəfi.

Ünsiyyətin özünəməxsus məzmunu, məqsədi və vasitələri mövcuddur (R.S.Nemov).

Tədqiqatçılar ünsiyyəti insanların bir-birini anlaması başa düşməsi prosesi (S.L.Rubinşteyn), fikirlərin təəssüratların başqalarına verilməsi prosesi (L.S.Vıqotski), insanların başqalarına olan tələbatı (Y.L.Kolominski) və s. hesab etmişlər.

Ünsiyyət prosesində insanlar nəinki mühit haqqında məlumat əldə edir, eyni zamanda müxtəlif adət və vərdişlərə yiyələnir ki, bunlar da real varlığın dərk edilməsinə xüsusi istiqamət verir. Deməli, ünsiyyət, hər şeydən əvvəl, obyektiv varlığın dərk edilməsini təmin edən əsas şərtdir.

Ünsiyyət insanlar arasında birgəfəaliyyət təlabatından doğan təmasın çoxplanlı inkişaf prosesdir. Heç bir insan birliyi oradakı adamlar arasında təmas yaradılmadan birgə fəaliyyəti həyata keçirə bilməz. Onların arasında qarşılıqlı anlama baş verməz.

Ünsiyyətin daha bir forması formal davranışla bağlı olub qeyri-səmimiliyə əsaslandığı üçün məntiqsiz ünsiyyət kimi qəbul edilir. Formal ünsiyyətdən başqalarında özü haqqında olduğundan daha yüksək fikir, yaxşı təəssürat formalaşdırmaq, sosial qiymətləndirmənin daha ideal

dəyərləndirmələrinə nail olmaq üçün istifadə olunur. Ünsiyyətin formal tərəflərindən istifadə edərək özünə kifayət qədər karyera quran insanlar çoxdur.

Ünsiyyətin elə formaları da var ki, bir tərəf fəal, digər tərəf passiv olur. Biri danışır, digəri dinləyir. Biri komanda verir, digəri itaət edir. Biri məlumat verir, digəri bu məlumatla hərəkət edir. Belə birtərəfli ünsiyyət o zaman mümkündür ki, hər iki tərəfi qane etmiş olsun. Deməli burada hər iki tərəfi razı salan məqamlar var – informasiyanı vermək və almaq: istiqamətləndirmək və idarə olunmaq tələbatlarının ödənilməsi.

Ümumiyyətlə, ünsiyyət tərzi davranışı mənalandırır, aydınlaşdırır. Əgər kimsə insanlarla ünsiyyət qura bilmirsə, mümkündür ki, bu, həmin şəxsin davranış mədəniyyəti, motivləri, maraqları ilə bağlı olsun. Ümumiyyətlə, bəzi insanlar başqaları ilə əlaqə qurmaqda çətinlik çəkir, yaxud ümumiyyətlə bunu bacarmırlar. Burada bizi maraqlandıran da ünsiyyətin və ünsiyyətsizliyin səbəbləri onun mənəviyyatla əlaqəsidir. Çünki bəzən bu səbəblər insanın mənəviyyatından qaynaqlana bilir.

## 4.3. Ünsiyyət və kommunikasiya

Kütləvi kommunikasiya haqqında nəzəriyyələrin yaranması 1952-ci ildə başlayıb. Bu nəzəriyyələrdə KİV. informasiya ötürücüsü kimi təqdim olunurdu. Belə ki, informasiyaların yayılması ilə məşğul olan vasitələrin vəzifəsi onu mənbəyindən alaraq lazım olan ünvanlara ötürməkdir. Bir sözlə, KİV- informasiya ötürmə kanalıdır.

Hazırda bu vəzifələr informasiyaların yayılmasında transmissiya modelinə əsaslanır. KİV haqqındakı nəzəriy-

yələrdə onun psixolojiləşdirilməsi də xüsusi prinsiplərdən biri olaraq qəbul edilir, çünki kommunikasiya insana xasdır. Onun insanlara təsiri də mütləq nəzərə alınmalıdır.

Q.Beytson, P.Vaslavik, C.Bivin, C.Ceksonun birgə tədqiqatlarında kommunikasiya probleminə, ilk növbədə qarşılıqlı təsir kimi yanaşılır. Qeyd olunur ki, kommunikasiya, sadəcə informasiyanın ötürülməsi və qəbuledilməsi olmayıb, həm də iştirakçılar arasında hansısa ümumiliyin, qarşılıqlı əlaqə dərəcəsinin yaradılmasıdır. Q.Beytson "Ağılın ekologiyası əsərində yazır: "İnsanlar kommunikasiyada müxtəlif sahələrdən götürülmüş bir çox məntiqi tiplərdən istifadə edirlər. Onlar moduslardır (modus mövcud olmaq və ya hərəkət etmək vasitəsi, ölçüsü, obrazı, növü, sillogizmin müxtəlifliyidir). Belə moduslara oyun, fantaziya, ritual, metafora və d. misal göstərmək olar. Hətta, ən aşağı quruluşlu canlılarda belə oyuna və buna bənzər hansısa davranışı paylaşan siqnal mübadiləsi gedir. Bu siqnallar, yəqin onların ixtisaslaşdıqları məlumat olmayıb daha yüksək məntiqi tipə aiddir".

Q.Y.Boxonov və b. müasir kommunikasiyaya sosial proses kimi baxırlar. Belə bir qənaət yaranıb ki, kommunikasiyanın hər bir subyekti həm informasiyanı qəbul edən, həm də onu göndərəndir. Hər bir kommunikativ proses özündə hazırkı (konkret ünsiyyət situasiyasını) və keçmişi (yaşanmış təcrübəni) birləşdirməklə gələcəyə yönəlir.

İnformasiyaların kodlaşdırılması onun birindən digərinə ötürülmə tərzindən ibarətdir. İnformasiya insanlar tərəfindən müəyyən məsafədən, hiss üzvləri vasitəsilə ötürülərək qavranılır. İnsanda dil və başqa işarələr sistemi vasitəsi ilə informasiya mübadiləsinə daha çox yer verilir. Ünsiyyətin kommunikativ tərəflərinə ünsiyyət zamanı ötürü-

lən informasiyaların kodlaşdırılmasında, ötürülməsində, işlənməsində və açılmasında ehtiyac yaranır. Elmi-texniki tərəqqi bu cür vasitələrin daha mütərəqqi formalarının aşkara çıxmasına imkan yaratmışdır.

Məsələn, qlobal internet sistemi istədiyin adamla əlaqə yaratmağa, maraqlandığın mövzuda məlumatları əldə etmək üçün ünsiyyətə girməyə imkan verir. Müasir texniki ünsiyyət vasitələri ictimai həyatın bir çox sahələrində müvafiq məsələləri daha səmərəli şəkildə həll etmək baxımından əlverişlidir. Bununla belə, kommunikasyanın bir sıra tərəfləri də vardır ki, onlar ünsiyyətdə birtərəflilik yaradır. Belə birtərəfliliyi biz virtual ünsiyyətdə görə bilərik.

Verbal kommunikasiya vasitələri ilə birlikdə qeyri-verbal ünsiyyət vasitələri də vardır ki, bu, insanların birgə fəaliyyəti üçün zəruri olan informasiya mübadiləsini təmin edir. Virtual ünsiyyətin özü qeyri-verbal kommunikasiyanın növlərindən biri hesab olunur. Doğrudur, son illərdə virtual ünsiyyətin özündə də verbal imkanlar yaranıb. İnsanlar votsap və skayp vasitəsi ilə virtual ünsiyyətə girə bilirlər. Ancaq belə kommunikasiya heç də canlı ünsiyyəti əvəz edə bilmir. O, qeyri-verbal komunikasiyanın bir sıra çatşmazlıqlarını qoruyub saxlayır.

Qeyri-verbal kommunikasiya mürəkkəb proses olub müxtəlif amillərlə, ilk növbədə, şəxsiyyət amili ilə şərtlənir. Müəyyən edilmişdir ki, introvertlərə, nisbətən ekstravertlər qeyri-verbal kommunikasiyanın kodlarını daha dəqiq açıqlayırlar. Bu prosesdə gender fərqləri də mühüm rol oynayır. Qeyri-verbal kommunikasiyanın kodlarını qadınlar kişilərə nisbətən daha yaxşı oxuyurlar. Həmçinin araşdırmalar onu da göstərir ki, qadınlar çox

vaxt qeyri-verbal siqnallardakı yalanı kişilərə nisbətən dəqiq ayırd edə bilmirlər. Buna səbəb kimi qadınların hisslərə asanlıqla aldanmaları göstərilir.

## 4.4. Ünsiyyət mədəniyyəti

Hər bir insan öz fərdiyyətini ifadə edə bildiyi qədər və bildiyi tərzdə mədəni insandır. Məhz ünsiyyətin mədəni səviyyəsinə görə hər bir fərd hamı tərəfindən qəbul olunan və ya sevilməyən birisi ola bilər. Nəzakətlilik, təmkinlilik, mehribanlıq, xeyirxahlıq, tərəf-müqabili dinləmək bacarığı və başa düşmək arzusu, onun zövqünə, fikirlərinə, ovqatına hörmətlə yanaşmaq, sevinc və kədərini anlamaq, dərdinə şərik olmaq - bunlar ünsiyyət mədəniyyətinin əlifbasıdır.

Hazırda cəmiyyətdə ünsiyyət prosesində mövcud olan problemlər də az deyil. Əvvəlcə onu qeyd etməliyik ki, ünsiyyət mədəniyyətin bir növüdür və bir qayda olaraq, nitq vasitəsilə təzahür edir. Gözəl ünsiyyət qurmaq bacarığı həm də yüksək mədəni keyfiyyətlər tələb edir. Gündəlik həyatda, ictimai yerlərdə, oxuduğumuz və ya çalışdığımız məkanlarda rastlaşdığımız insanlarla ünsiyyət qurarkən gözəl nitq, danışıq mədəniyyəti həmçinin, gözəl davranış nümayiş etdirmək lazımdır. İstifadə edilən sözlərin mənasına, vurğusuna, səsin tonuna diqqət yetirilməlidir. Qarşıdakı insanın mövqeyinə hörmətlə yanaşmaq da ünsiyyət mədəniyyətinin mühüm tələbidir.

Göründüyü kimi, ünsiyyət mədəniyyəti insanın digər bütün mənəvi keyfiyyətləri içərisində daha çox diqqəti cəlb edir və dinləyənlərdə haqqımızda müəyyən təəssürat yaradır. Ancaq təəssüf ki, bugünkü cəmiyyətimizdə bu məsələyə bir qədər laqeyd yanaşma mövqeyi müşahidə

olunmaqdadır. Mövcud ünsiyyət problemlərindən danışdığımız zaman, əlbəttə ki, ən xoşagəlməz cəhətlərdən biri kimi öncə ana dilimizə olan biganə münasibəti qeyd etməliyik.

Ünsiyyət mədəniyyətinin inkişafında kitabların, yəni mütaliənin, ünsiyyət dairəsinin geniş olmasının da xüsusi mühüm əhəmiyyəti vardır. Mütaliə nə qədər geniş olarsa, ünsiyyət dairəsi nə qədər geniş olarsa, ünsiyyətin sosial məzmunu da zəngin olar.

İnsanların əxlaqi və mənəvi dəyərlərində olduğu kimi rəftar və davranışında da fərqlər var. Bu, fərdiyyət psixologiyasının mühüm sahəsidir. Cəmiyyətin normal idarə olunması üçün qoyulmuş qanunlar, qaydalar, normalar, tələblər hamı tərəfindən eyni tərzdə gözlənilməlidir. Bu, ilk növbədə insandan davranış mədəniyyəti tələb edir. İnsanlar arasındakı ünsiyyət verbal və qeyri-verbal yolla baş verir. Qeyri -verbal ünsiyyət vasitələrinin müxtəlif tipləri var.

*Mimika* (yun. – mimos: təqlid, simanın dəyişməsi) sifət əzələlərinin dinamik ifadəsi kimi təzahür edir. Sifətin lokal mimika sahələrinə qaş, göz, yanaq, dodaqlar, çənə, yanaqlar, alın daxildir.

Müəyyən edilmişdir ki, mimikanın müvafiq olaraq yeddi emosiyanı ifadə edən yeddi əsas sifət konfiqurasiyası var. Sifətin ən ifadəli əlamətləri dodaqla qaş sahəsində yerləşir. Bu əsas mimika sahəsidir.

Mimika həm də insan sifətinin təkrarolunmaz fərdiliyini əks etdirir. Onun əsas funksiyası sifətin ekspressiyalarında insanın emosiya və hisslərini ifadə etməkdir.

*Gözlərin təması* da son zamanlar qeyri-verbal ünsiyyətə şamil edilməkdədir, çünki gözlərin də özünəməxsus

“dili” və "əlifbası" vardır. Anatomik baxımdan gözlər nə qədər müxtəlif olsa da, onların kodları, başqa sözlə, psixosemantikası baxışların mənasında, ötürülən dalğaların təsirində açıqlanır.

Ünsiyyətin başlıca akustik vasitəsi *intonasiyadır*. Ünsiyyət prosesində qarşılıqlı təsirin əsas gücü bilavasitə onun intonasiyasında əks olunur. Bu baxımdan intonasiyanın ekspressiv-emosional funksiyası önə çəkilir. İntonasiyanın bu funksiyası xüsusi məntiqi vurğu, pauza və s. kimi akustik vasitələrlə qaynaqlanır.

*Konfiqurasiya* – “bədən hərəkətlərinin dili” kimi özünü göstərir. İnformasiya mübadiləsində onun kodları jestlər vasitəsilə açıqlanır. Belə ki, normal insanların xarici nitqi, lal-karların jestləri kimi bədənin dili də sözlərdən, frazalardan, ifadə və işarələrdən ibarətdir. Barmaqların evcik forması qətiyyətliliyin, döşdə çarpazlaşmış əllər-qapalılığın jestidir. Səmimilikdə şüuraltı olaraq danışıq zamanı barmaqlar aralanır. Qeyri-səmimilikdə ovuc görmə sahəsindən gizli, cibdə, yaxud qolların arasında saxlanır. Yalan danışan adam əllərini gizlətməyə çalışır. Nəticə gözlədikdə əllər bir-birinə sürtülür. Qulaqların ardını qaşımaq inamsızlığı ifadə edir. Qapalı adamlar müdafiə mövqeyi tuturlar, həmişə özlərini bu pozada rahat hiss edirlər. “Əllər qoynunda” pozasıdır. Mənaca özünü mühitdən təcridetmə, özünəqapılma, “öz içində yanma” kimi izah edilir.

*Proksimika* (lat. proximity-yaxınlıq deməkdir) insanın şəxsi məkan kimi ünsiyyət prosesində özünəməxsus rol oynayır. İnsan bu məkanı özününkü hesab edir, onu fiziki bədənin davamı sayır. Ünsiyyət prosesində kimisə özümüzə yaxın buraxaraq qolumuza girməsinə imkan

veririk. Başqa birini özümüzə bu qədər yaxın buraxmırıq. Şəxsi məkanın hüdudları ünsiyyət prosesində subyektiv olaraq belə müəyyən olunur. Bu yolla "yaxınlıq-uzaqlıq", "istilik-soyuqluq" kimi psixoloji məkann emosional parametrləri müəyyənləşir.

A.Piz psixoloji məsafənin zonalarını aşağıdakı kimi müəyyənləşdirmişdir:

1. İntim zona (15 sm-dən 46 sm-ə qədər) xüsusi bufer zonasıdır. Bu zonaya ancaq ən yaxın emosional təmasda olan adamlar nüfuz edə bilərlər. Yad adamın bu zonaya daxil olması kəskin emosional reaksiyalarla müşayiət olunur.

2. Şəxsi zona (46 sm-dən 1,2 m-ə qədər) dostlar üçün optimal ünsiyyət sahəsidir .Bu sahədə dostların bir-birinə toxunması mümkündür.

3. Sosial ünsiyyət zonası (1, 2 m-dən 3,6 m-ə qədər) işgüzar ünsiyyət üçün səmərəli məsafədir.

4. Kütləvi zona (3,6 sm-dən daha cox) ictimai yerlərdə bir-birini tanımayan adamlar arasında ünsiyyət üçün səmərəli məsafədir. İnformasiya mübadiləsində qeyri -verbal ünsiyyət vasitələrinin rolu əvəzsizdir. Gözlərin təması, isti və ya soyuq baxışlar ünsiyyət məqamında çox şeylər deyir. Ünsiyyət zamanı əllərin hərəkətinin öz dili, öz əlifbası vardır.

Ünsiyyət həm də refleksiyadır. Ünsiyyətin təsiri subyektin nitqinin də fəal iştrak etdiyi reaksiyası ilə müəyyən edilir. Qarşımızdakı insanın bədən dilindən, onun daxili duyğularını, düşüncələrini, necə reaksiya vermək istədiyini anlamaq mümkündür.

Qarşımızdakı insanın reaksiyası gözlədiyimiz reaksiyadan fərqlidisə, bu ünsiyyəti davam etdirərək anlamaq

mümkündür. Bu bizə qarşımızdakı insandan istədiyimiz və gözlədiyimiz reaksiyanın nə ola biləcəyini aydınlaşdırmaq üçün lazımdır. Çünki yalnız nə söylədiyimiz deyil, necə söylədiyimiz də reaksiyanın mahiyyətini açır.

İnsanın özünü dəyişdirməsi başqa insanları dəyişdirməsindən daha asandır. Ünsiyyət prosesində hər iki tərəfdə müəyyən dəyişmələr gedir. Bu səbəbdən əsas məsələ ünsiyyətdə istifadə olunan sözlər, vasitələr (ya da texnoloji vasitələr) deyil, arzu olunan nəticələrdir.

Göründüyü kimi, ünsiyyət sosial həyatın, insanlarla birgə, onların yaratdıqları mədəni mühitdə baş verən fəaliyyətin xüsusi bir növü ünsiyyət fəaliyyətidir. Fəaliyyətin digər növlərindən fərqli olaraq bu proses insanlar arasında, yaxud onların obrazları, "Simvolik" fərdlər arasında baş verir. Məsələn, təklikdə oynayan uşaq xəyalən özünə xəyali yoldaş seçir. Onunla "söhbət" edir. Fikirlərini bölüşür, mübahisəyə girir. Yaxud, əzizini itirmiş, uzaq düşmüş yaşlı bir adam onun şəklini qarşısına qoyaraq, yaxud xəyala dalaraq onunla ünsiyyət qurur.

Necə baş verməsindən asılı olmayaraq, ünsiyyət prosesində insanlar arasında fikir, bilik, rəy, təcrübə və hisslər mübadiləsi gedir, onlar bir-birinin inam və əqidəsinə təsiri olan müxtəlif tipli məlumatları əsasən başqaları ilə ünsiyyət prosesində əldə edir, öz bilik və təsəvvürlərini başqalarına aşılayırlar.

*Diskussiya mədəniyyəti.*

Ünsiyyət mədəniyyətinin əsas göstəricilərindən biri də dikussiya mədəniyyətidir. Diskussiya mədəniyyətinin formalaşdırılması yolu aşağıdakı keyfiyyətləri özündə formalaşdırmaqdır:

- pluralizm, sinergizm, humanizim kimi demokratik dəyərləri mənimsəmək;

- ictimai-siyasi bilikləri artırmaq;

- diskussiya texnologiyalarını mənimsəmək;

- müxtəlif mövzularda dikussiyalara qoşulmaq;

- öz mövqeyini münasib formada qəlibləşdirərək konkret fikirlərlə təqdim etməyi bacarmaq;

- öz opponentlərinin fikirlərinə alternativ fikir qoymağı öyrənmək;

- onların rəyinə hörmətlə yanaşaraq qarşılıqlı ittihamlara, təhqirlərə yol verməmək, açıq dialoqa girmək;

- informasiya texnologiyalarına yiyələnməklə fikir mübadiləsi aparmaq sahəsində zəngin təcrübə toplamaq.

İnsanda ünsiyyət mədəniyyəti tərbiyə etmək, onda uğurlu qarşılıqlı münasibətlərin perspektivli tərəflərinin tərbiyə edilməsi prosesidir. Bunun yolu yeni ünsiyyət normalarını müəyyənləşdirmək, mövcud normalardan istifadə etməklə tədricən daha optimal, əlverişli normalara yiyələnməkdən ibarətdir. Bu proses sistemlilik, ardıcılıq, f.aliyyət və davranışla vəhdətin gözlənilməsini tələb edir. Yalnız bu halda ünsiyyət mədəni mahiyyət kəsb edir. Ünsiyyət mədəniyyəti insanda hələ uşaqlıqdan formalaşdırılır. Əks halda bunun üçün vacib olan vərdiş və bacarıqları inkişaf etdirmək çətin olur. Ona görə də ünsiyyət mədəniyyətinə dinamik şəkildə inkişaf edən mürəkkəb proses kimi baxılır.

**Suallar və tapşırıqlar:**

*1. Sosial psixologiyada ünsiyyət anlayışı necə izah olunur?*

*2. Ünsiyyətin hansı növləri vardır?*

*3. Qeyri-verbal ünsiyyətin növlərini şərh edin.*
*4. Ünsiyyət və sosiallaşma arasında hansı asılılqlar vardır?*
*3. Ünsiyyətin sosial xarakteri hansı xüsusiyyətləri ilə şərtlənir?*
*4. İnformasiya mübadiləsində ünsiyyət hansı funksiyaları yerin yetirir?*
*5. Müasir kommunikasiya sistemlərində ünsiyyət hansı vasitələrlə baş verir?*
*6. Ünsiyyət mədəniyyətinə nələr daxildir?*
*7. Ünsiyyət mədəniyyətində nitq və jestikulyasiyanın rolunu izah edin.*

***Ədəbiyyat:***

1. *Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-poliqraf, 2003, 345 s.*
2. *Cavadov R.Ə., Tağıyeva G.V. Ekstremal şəraitlərdə psixoloji xidmət. Ali mətkəblər üçün dərslik. Bakı: ADPU-nun mətbəəsi, 2006, 258 s.*
3. *Əfəndiyeva Ü.A. Ünsiyyət və qarşılıqlı münasibətlər məktəbə psixoloji hazırlığın əsası kimi. Bakı: MBM, 2007, 224 s.*
4. *Əliyev R. İ. Psixologiya. Bakı: Nurlan, 2007, 352 s.*
5. *Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 196 s.*
6. *ƏmrahlıL.Ş., RzayevaN.T. Uşaq psixologiyası. Dərs vəsaiti. Bakı: 2010, 358 s.*
7. *Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Bakı: MBM, 2007, 200 s.*
8. *İsmayılova M.C. Tərbiyənin ünsiyyət üslubunun məktəbəqədər yaşlı uşaqların qarşılıqlı münasibətinə təsiri //*

*Psix. elm. nam. alimlik dərəcəsi almaq üçün dissert. Avtoreferatı, Bakı: 1999, 26 s.*

*9. Həmzəyev V.Ə., Əmiraslanova S.F. Ünsiyyətin psixologiyası. Dərs vəsaiti. 2007, 180 s.*

*10.Hüseynov Ş., Şiriyev F., Muradov C. Psixolinqvistika. Bakı: Bakı universiteti, 2003, 211 s.*

*11.Гордеев В.И., Александрович Ю.С. Качества жизни, СПб: Речь, 2001, 190 с.*

*12.Вердербер Р., Вердербер К. Психология общения.СПб.: Прайм-Еврознак, 2003, 318 с.*

*13.Лоуэн А. Психология тела: биоэнергетический анализ тела. М.: Институт Общегуманитарных Исследований, 2000 , 256 с.*

*14.Методика ДДЧ. М.: КСП, 1997, 320 с.*

*15. Пиз А., Пиз Б. Новый язык телодвижений. М.: Экзмо, 2009, 442 с.*

*16. Роберт Д. Фокусы языка. СПб: 2001, 21 с.*

*17. Рубинский Л.И., Соловьева А.Е. Психология самовоспитания. М.: Просвещение, 1982, 141 с.*

*18.Сафьянов В.И. Этика общения. М.: Знание, 1991, 63 с.*

*19. http://www.serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/14-nsiyy-t-m-d-niyy-ti*

*20. http://www.psixologiya.net/.../7-0ns304yy399t-ps304xolog304yasi-m*

# V FƏSİL
# SOSİAL PSİXOLOGİYADA QRUP ANLAYIŞI

## 5.1. Qrup sosial-psixoloji fenomen kimi

Sosial psixologiya bir çox problemlərlə yanaşı, həm də qrup davranışı, qrup münasibətləri, idarəetmə, liderlik, rəhbərlik  və s. haqqında elmdir. Sosial psixologiyanı digər sosial elmlərdən fərqləndirən cəhət də qrupa, cəmiyyətə bütöv orqanizm kimi yanaşması, insan davranışını, fəaliyyət və ünsiyyətini sosial şəraitdə, qrup münasibətlərində öyrənməsidir.

İnsanlar arasındakı sosial əlaqə və münasibətlər sosial psixologiyada “sosial qruplar” aspektində araşdırılır. Həmin tədqiqatlarda diqqət çəkən problemlərdən biri də təhsil qrupları, məsələn, ümumtəhsil və ixtisas məktəblərində qrup işinin təşkili məqsədilə yaradılan kiçik və böyük qruplarda şagirdlərin qarşılıqlı əlaqələrinin sosial-psixoloji xüsusiyyətlərinin öyrənilməsidir. Ə.S.Bayramov və Ə.Ə.Əlizadə sosial qrupların mahiyyətini aşağıdakı kimi izah edirlər: “Sosial qrup mədəniyyət meyarları, sərvət meyilləri, həyat fəaliyyəti və ya şəraiti ilə bir-birinə bağlı olan insanların nisbətən səbatlı birliyidir. Bu birliyin özünəməxsus məkan və zaman ölçüləri var”.

K.Levin, D.Mayers, V.D.Parıgin, Q.M.Andreyeva, Ə.S. Bayramov, Ə.Ə.Əlizadə, və b. sosial qrupları 3 yerə bölürlər:

- böyük sosial qruplar (tərkibi 200-300 nəfərdən çox olan qruplar);

- orta sosial qrupları (tərkibi 40-50 nəfərdən 200-300 nəfərə qədər);

- kiçik sosial qruplar (tərkibi 2 nəfərdən 4-50 nəfərə qədər).

Bu təsnifatlaşdırmada böyük, orta və kiçik qruplara xas olan bir sıra əlamətlər, xüsusiyyətlər, eləcə də d. komponentlər nəzərə alınır. Sosial psixologiyada ümumilikdə qrupların kəmiyyət tərkibi barədəki mübahisələr isə hələ də öz həllini tapmamışdır.

Sosial qrupların kəmiyyət baxımından ən böyüyü - böyük sosial qruplardır. İ.M.Markovskaya bildirir ki, böyük sosial qruplar ərazi, sinfi və müxtəliflik demoqrafik əlamətlərinə görə ayırd edilir. Böyük sosial qruplar bütövlükdə cəmiyyət, millət, xalq, əhali və d. geniş anlayışlarda öz ifadəsini tapır.

G.G.Diligenskinin qeydlərinə görə, bu anlayış altında tamamilə fərqli qaydaları olan, hansısa ümumi prinsiplərə görə tədqiq edilməsi çətinliklər yaradan qruplar başa düşülür”. Böyük qrupları differensiasiya etmək üçün G.G.Diligenski qrupun dərketmə obyekti qismində olanları götürməyi məqsədəuyğun sayır. Bu mənada böyük qrup cəmiyyət miqyasında funksiyalaşır”.

Orta qruplar qismən azsaylı insan qruplarını (yüzlərlə) əhatə edir. Status-rollar bir-biri ilə status səviyyəsindəki tanışlıqla məhdudlaşır, sosial əlaqələr funksional baxımdan tənzimlənir. Orta sosial qrupların strukturu hüquqi baxımdan qeydə alınmış normalara əsaslanmaqla qeyri-formal əlaqənin inkişaf etməsi imkanlarını məhdudlaşdırır. Təşkilatın qruluşuna görə bu əlaqələr rəsmi əmək, təhsil əlaqələri üzrə tənzimlənir. Orta qruplara müəssisə, firma, məktəb, institut və d. təşkilatların insan resursları daxildir.

Kiçik sosial qruplara ailə, məktəb və kiçikhəcmli əmək, idman, eləcə də d. sosial qruplar aid edilir ki, bu barədə geniş məlumat veriləcəkdir.

Sosial qrupların idarə olunması, onlara rəhbərlik məsələlərinin öyrənilməsi üçün ilk növbədə bu qrupların xüsusiyyətlərini müəyyənləşdirmək lazım gəlir.

L.Q.Poçebut və V.A.Çiker problemin həlli üçün sosial qrupların təsnifatını aparmağı məqsədəuyğun hesab edirlər. Onlar müəyyən etmişlər ki, sosial qrupların xarakteri hər şeydən əvvəl həmin qrupların təmsil olunduğu təşkilatın (sosial institutun) funksiyaları ilə bağlıdır. Bu bizə sosial qrupları struktur-funksional baxımdan təhlil etməyə imkan verir:

*1) sosial-demoqrafik tip*: burada qrup üzvlərinin cinsi, yaş, etnik tərkibi, təhsil səviyyəsi, iş stajı və s. amillər əsas götürülür;

*2) professional tip*: bu tip təşkilatın xüsusi ixtisas sahələrinə olan ehtiyacı ilə müəyyənləşir. Məlum olduğu kimi, oxşar əməliyyatları yerinə yetirən insanlar daha tez əlaqəyə girir, ünsiyyət qurur, fikir mübadiləsi aparırlar. Bu, həm də onların eyni maraqlara, dəyərlərə, ideallara sahib olmalarından irəli gəlir;

*3) funksional tip*: burada əməyin bölgüsü, birgə fəaliyyət zamanı bütün iştirakçıların real hərəkətlərini koordinasiya etmələri nəzərdə tutulur. Buna uyğun olaraq təşkilatın quruluşunda 4 bölmə ayırd edilir:

- adminstrativ personal (rəhbərlər);
- istehsalçı personal (işçilər);
- xidməti personal (sistemin işləməsini təmin edən xidməti heyət);

- mühəndis-texniki personal (yeni texnika və texnologiyaların işlənib hazırlanmasnda məsul olan heyət);

*4) sosial-istehsalçı tip*: bu təşkilat vəzifəsi cəmiyyətin tələbatlarını ödəmək üçün onun tələblərinə uyğun məhsul hazırlamaqdır, hansı ki, təhsil qrupları da bu tipdə təmsil olunurlar;

*5) sosial-iqtisadi tip*: həmin tipin vəzifəsi əhalinin iqtisadi ehtiyaclarını ödənilməsini təmin etməkdir;

*6) sosial-texniki tip*: bu tipli təşkilatların fəaliyyəti istehsal proseslərini texnoloji təminatı, yeni texniki imkanların axtarıb-tapılması, konstruksiyalaşdırılmasıdır;

*7) idarəetmə tipi*: bu tipli təşkilatların vəzifələri əməyin təşkilinə, keyfiyyətinə, istehsalçı və istehlakçı arasındakı münasibətlərin hüquqi tənzimlənməsinə nəzarət etməkdir.

Bu təşkilat tiplərinin hər birinin öz funksiyaları vardır:

- idarəetmə funksiyası;
- psixoloji-pedaqoji funksiya;
- sosial-mədəni funksiya;
- sosial-məişət funksiyası.

Sosial psixologiyada təşkilatların fəaliyyətinin səmərəliliyi də ayırd edilir: nəticəyönümlü, istehsalçı, məhsuldar, gəlirli, ekoloji, enerjili.

İ.M.Markovskaya sosial qrupların xüsusiyyətləri və onların təşkil olunmasını mürəkkəb proses kimi səciyyələndirir. Onun qənaətinə görə qrupların təşkili sosial-tarixi bir prosesin, ictimai inkişafın nəticəsidir.Məsələn, təcrübə də göstərir ki, məktəbdə müəllimlər həm qrupların yaradılmasında, həm də bu qruplarda işin səmərəli təşkilində, qrup üzvlərinin birgə fəaliyyətdə məhsuldar nəticələrə nail olmalarında xeyli çətinliklərlə üzləşirlər.

Son 15 ildə müxtəlif istiqamətlərdə aparılan araşdırmalarda sosial qrupların funksiyaları da müəyyən edilmişdir. Ə.S.Bayramov və Ə.Ə.Əlizadə həmin funksiyaları belə səciyyələndirirlər:

- sosializasiya funksiyası;
- instrumental funksiya;
- ekspressiv funksiya;
- müdafiəedici funksiya.

Sosial psixologiyanın tədqiq etdiyi insan qruplarının içərisində təhsil qrupları çoxluq təşkil edir. Bu elmin təhsil qrupları ilə əlaqəsi bilavasitə onun obyekti və predmeti ilə bağlıdır. Burada konkret olaraq təhsilin sosiologiyası üçün ayırd edilməli olan problemlər: təhsil prosesi ilə bağlı olan sosial əlaqələr, münasibətlər və bütövlükdə təhsilin sosial mühiti, qruplarda birgə fəaliyyətdir.

Sosial qruplardakı qarşılıqlı münasibətlərin başlıca amili ortaq dəyərlərdir. Dəyərlər elə normativ standartları özündə birləşdirir ki, o konkret situasiyada birgə, yaxud ayrılıqda hərəkət edən fərdin xüsusiyyətlərindən asılı olmayaraq onun arzu olunan davranışıdır. Bu dəyərlər vahidlik, yaxud vahidlər sinfi (sosial qrup) üçün spesifik kontekstdə olan normalardan, arzuolunan davranışdan fərqlənir. Fərdin dəyərləri ilə vahidlər sinfinin dəyərləri yalnız onların ümumi, ictimai maraqlarında üst-üstə düşür (Parsons).

İnsanın öz tələbatlarını ödəmək üçün münasibətlər sisteminə girərək bu sahədəki təcrübəsini möhkəmləndirməsi əsrlər boyu insan cəmiyyətində ciddi qaydalarla möhkəmləndirilmiş, fərdə davranışını və sosial münasibətlərini nizamlamağa imkan verən rollar və statuslarla bağlıdır. Həmin sosial rollar və statuslar cəmiyyətdə mövcud

olan daha mürəkkəb və mühüm sosial əlaqələrlə tənzimlənən sosial institutlarda formalaşır.

T.Haymen və Stauffenin referent qruplar nəzəriyyəsində insan şəxsiyyətinin ailədən tutmuş siniflərə qədər müxtəlif sosial birliklərə aid olmasına baxılır. Referent – insanın mənsub olduğu, hazırda və gələcəkdə də mənsub olmaq istədiyi qrupdur. T.Haymen və Stauffenin belə qrupları aşağıdakı istiqamətlərə görə təhlil etməyin mümkün olduğunu göstərirlər: həyat tərzi, gələcək arzular, gəlir, status. Onlar iki tipə bölünür:

✓ öz qiymətləndirmələrindəki standartlara görə fərqlənən komparativ tip;

✓ fərdin normativ davranışına münasibətdə nizamlayıcı rol oynayan, şəxsiyyətin müxtəlifliyini şərtləndirən normativ tip.

Real şəraitdə qruplararası münasibətlərin dinamikasının dəyişməsi cəmiyyətin bütün sahələrilə eyni tərzdə getmir, lakin ümumi cəhətlər də kifayət qədərdir. Dəyişən cəmiyyətlərdə baş verən ictimai-iqtisadi proseslər ona aparır ki, əvvəlki quruluşun istehsal və istehlak tələblərinə uyğun gələn müəssisələr, ya öz işini dayandırır, ya da istiqamətini dəyişdirir. Bu proses sənaye, kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət, səhiyyə və d. sahələrdə, ictimai birliklərdə təmsil olunanların şəxsiyyətində də dəyişmələr yaradır. Belə situasiyalarda qrup münasibətlərinin tənzimlənməsi üçün bir sıra tələblər meydana çıxır:

a) fərd özünü mənsub olduğu, təmsil etdiyi qrupun stabil, davamlı üzvü kimi hiss etməli, bu qrupa situativ maraqlar, epizodik hallarda yaranan tələbatlar baxımından deyil, davamlı maraq və meyllərlə, dəyərlərlə, motivlərlə

bağlı olmalı, həmin qrupun təmsilçisi olduğuna görə fəxr etməlidir;

b) hər bir insan təmsil etdiyi qrupun digər üzvünün maraqlarını qorumaq üçün özündə mənəvi cavabdehlik hiss etməli, qrup maraqlarını şəxsi maraqlarından aşağı tutmamalıdır.

## 5.2. Qruplarda qarşılıqlı münasibətlər

Müasir insanların qarşılıqlı münasibətləri sosial mühitin müxtəlif sahələri ilə onların seçici və şüurlu əlaqələrinin bütöv bir sistemini ifadə edir. Münasibətlər insana xarici aləmin obyekt və hadisələrinin yalnız zahiri deyil, həm də mahiyyəti ilə yaxından tanış olmaq imkanı verir. Bu kontekstdə o mühitin gerçəkliklərini dərk edir, hadisələr arasındakı səbəb nəticə əlaqələrini öyrənir. Bütün bunlar son nəticədə insana yaşadığı cəmiyyətdə sosial bələdləşmə imkanı verir. O, öz davranışını nizamlaya bilir.

Münasibət - insanların bir-birini qavramasının və dərk etməsinin mühüm sahələrindəndir. Bu proses özündə ayrılıqda psixoloji və sosioloji amilləri deyil, daha çox psixososial amilləri birləşdirir. Hər iki amillərin qarşılıqlı təsiri insan münasibətlərini sabitləşdirərək fərdin mühitlə sosial əlaqələrinin möhkəmləndirilməsinə kömək edir.

Münasibət anlayışı bötüvlükdə özünün mürəkkəbliyi ilə diqqəti cəlb edir. Xüsusən dəyişən cəmiyyətlərdə, ictimai-iqtisadi münasibətlərin dəyişərək yeni istiqamətdə və yeni məzmunda inkişaf etdiyi bir şəraitdə bu mürəkkəblik daha da artır.

Münasibət anlayışı, həm də ayrı-ayrı subyektlərin fərdi-psixoloji xüsusiyyətlərinin, sosial rollarının, onların

yaşadığı ictimai mühitdə mövcud olan iqtisadi münasibətlərin qarşılıqlı əlaqəsini, vəhdətini də özündə ifadə edir. Fərdi-psixoloji xüsusiyyətlər, tələbatlar, davranış tərzi, aural, mənəvi, fiziki təsir, motiv və məqsədlər, yönəlişlik qarşılıqlı münasibətlərin yaranmasının əsasında durur.

Psixoloqlar müasir şəraitdə həmçinin, arxetipik və stereotipik təsirlərin də qarşılıqlı münasibətlərə təsirinin nəzərə alınmasını vacib bilirlər. Onlar iddia edirlər ki, ünsiyyət vasitəsilə reallaşan qarşılıqlı münasibətlər "sosial persepsiya" yolu ilə nizamlanır.

Müasir insanların qarşılıqlı münasibətləri sosial mühitin müxtəlif sahələri ilə onların seçici və şüurlu əlaqələrinin bütöv bir sistemini ifadə edir. Münasibətlər insana xarici aləmin obyekt və hadisələrininyalnız zahiri deyil, həm də mahiyyəti ilə yaxından tanış olmaq imkanı verir. Bu kontekstdə o mühitin gerçəkliklərini dərk edir, hadisələr arasındakı səbəb nəticə əlaqələrini öyrənir. Bütün bunlar son nəticədə insana yaşadığı cəmiyyətdə sosial bələdləşmə imkanı verir. O, öz davranışını nizamlaya bilir.

Ayrı-ayrı fərdlərin qarşılıqlı münasibətləri ümumilikdə cəmiyyətin sosial -psixoloji mühitini müəyyənləşdirir. Bu, qəbul olunmuş faktdır ki, fərd digər insanlarla qarşılıqlı münasibətlərlə tənzimlənən ünsiyyət və birgə fəaliyyət prosesində formalaşaraq inkişaf edərək şəxsiyyətə çevrilir.

İnsanların qarşılıqlı münasibətləri öz dövrünün ictimai-iqtisadi münasibətlərindən qaynaqlanır. Hər birtarixi-ictimai mərhələdə özünəməxsus məzmun kəsb edir. Münasibət, tərəflərin sosial yönümü kimi özünü göstərir. Onun nəticələri şəxsiyyətin maraqlarında, tələbatlarında və ideallarında daha məzmunlu olur.

Belə nəticəyə gəlmək mümkündür ki, münasibətlər, mürəkkəb psixoloji qurulmadır. Bu səbəbdən cəmiyyətdə mövcud olan sosial qruplardakı insan münasibətləri özünəməxsus tərzdə formalaşır. Bir qrupda qəbul olunmuş, sosial normaya çevrilmiş qaydalar digər qrupda qəbul edilmir, yaxud qismən qəbul edilir. Buna səbəb qrup üzvlərinin fərdi-psixoloji xüsusiyyətləri, maraqları, sosial statusu, sərvət meylləri və d. şəxsiyyət komponentləri arasındakı fərqlərdir.

İnsanın-insanla və nəhayət, cəmiyyətlə münasibətini nəzərdən keçirmək üçün onun bir-sıra komponentlərini təhlil etmək lazımdır. Çünki münasibət insanın başlanğıc xüsusiyyəti olmayıb sosial təcrübəsinin, fərdi inkişafının nəticəsində əmələ gələn hərəkət, davranış, kommunikativ bacarıq, əxlaq normaları çərçivəsində münasib qaydada həyata keçirilən prosesdir.

Psixikanın inkişaf səviyyəsinə, sosial mühütin tələblərinə, şəraitinə, fərdin tələbatlarının ödənilmə səviyyəsinə uyğun olaraq münasibətlər də formalaşır, yeniləşir və dəyişir. Psixoloji inkişafınyalnız müəyyən mərhələsində insan davamlı münasibət qura bilir. İnsan münasibətləri sosial əlaqələrlə tənzimlənən ünsiyyət prosesində reallaşır. Səmərəli, hər iki tərəfi razı salan ünsiyyət cəmiyyətlə sosial əlaqələr sistemində özünəməxsus yer tutmaqla nəticələrin də səmərəliliyini şərtləndirir.

Bununla yanaşı, şəxsiyyətin strukturunda ünsiyyət özü də mühüm yer tutur. O, insanın daxili mövqeyinin, dünyagörüşünün, mənlik şurunun, mənəvi ideallarının formalaşmasında, özünü reallaşdırmasında və özünü dərketməsində sosial tənzimetmə funksiyasını yerinə yetirir.

Sosial psixologiyada münasibət anlayışının mahiyyəti iki mövqedən izah edilir:

- insanın insanlarla və əşyalarla obyektiv əlaqəsini;
- onun müxtəlif hadisələrdə başqa insanlara və obyektlərə qarşı özünəməxsus mövqeyini ifadə edir.

Dəyişən cəmiyyətlərdə baş verən ictimai-iqtisadi proseslər ona aparır ki, əvvəlki quruluşun istehsal və istehlak tələblərinə uyğun gələn müəssisələr ya öz işini dayandırır, yaxud istiqamətini dəyişdirir. Bu proses sənaye, kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət, səhiyyə və d. sahələrdə, ictimai birliklərdə təmsil olunanların şəxsiyyətində də dəyişmələr əmələ gətirir. Özünüdərketmənin çətinlikləri aydınlığı ilə meydana çıxır.

Aparıcı proseslərin dəyişməsi ilə yaranan münasibət tipi bir insan qrupunun digər insan qrupu ilə münasibətində də dəyişmə yaradır. Burada qruplararası münasibətlərin tənzimlənməsindəki ənənəvi meyarlar yenilərilə əvəz olunaraq bütövlükdə hüquqi-iqtisadi-mənəvi baxımdan tənzimlənir. Belə yenidən qurulma prosesi psixoloji gərginliklərlə, münaqişələrlə, qarşıdurmalarla müşayiət olunur. Təşkilatların, qrupların idarə edilməsində yeni metodların, məsələn iqtisadi yeniliklərin tətbiqi zamanıləngidici amillər meydana çıxır. Real şəraitdə qruplararası münasibətlərin dinamikasının dəyişməsi cəmiyyətin bütün sahələrilə eyni tərzdə getmir, lakin ümumi cəhətlər də kifayət qədərdir.

Cəmiyyətdə aparıcı ictimai-siyasi proseslər iqtisadi həyatın bütün sahələrinə, eləcə də kollektivlərə, qruplara, bu qruplardakı differensiasiya, inteqrasiya proseslərinə təsir göstərir. Bu baxımdan cəmiyyətdəki dəyişmələr, ictimai şüurda, fərdlərin mənlik şüurunda dəyişmələr əmələ gətirir. İnsan qruplarındakı differensiasiya və inteqrasiyanın

motivi dəyişir. Əvvəllər daha çox hüquqi-mənəvi (əxlaqi) normalarla tənzimlənən bu münasibətlər dəyişən cəmiyyətin tələblərinə uyğun olaraq hüquqi-iqtisadi-sosial (sərvət meylləri və sinergizm) baxımından tənzimlənir, dəyərlilik səviyyəsi bu aspektdən qiymətləndirilir. Bu proses tamamilə yeni məzmunda və yeni prinsiplərlə davam edir.

1. İstehsalın dəyişməsi iri dövlətlərin bu ölkəyə marağını artırır, yeni bazar uğrunda mübarizə güclənir.

2. Hər bir dövlət yeni bazarı öz maraqlarına uyğun olaraq, özünəməxsus dəyərlərlə tənzimləməyə çalışır.

3. Yeni bazarın "alıcıları" (yerli xalq -istehlakçılar) və "satıcıları" (istehsalçı ölkələr) arasında dəyər mübarizəsi gedir.

4. Bu mübarizədə iki tərəf fəal mübarizə subyektləri kimi diqqət mərkəzində olur: əhali və yerli inhisarçı-məmurlar.

Həmin əlaqələrdə üstünlük təşkil edən münasibət tipi qrup üzvlərinin qarşılıqlı əlaqəsinin motivindən birbaşa asılı olur. Eyni zamanda, bu münasibət tipi onların birgə fəaliyyətinin məqsədinə (istehsal olunan məhsula: sənaye, kənd təsərrüfatı, bilik, elm, incəsənət və d.) görə müəyyənləşir. Belə situasiyalarda qrup münasibətlərinin tənzimlənməsi üçün bir sıra tələblər meydana çıxır.

1. Fərd özünü mənsub olduğu, təmsil etdiyi qrupun stabil, davamlı üzvü kimi hiss etməli, bu qrupa situativ maraqlar, epizodik hallarda yaranan tələbatlar baxımından deyil, davamlı maraq və meyllərlə, dəyərlərlə, motivlərlə bağlı olmalı, həmin qrupun təmsilçisi olduğuna görə fəxr etməlidir.

2. Hər bir insan təmsil etdiyi qrupun digər üzvünün maraqlarını qorumaq üçün özündə mənəvi cavabdehlik

hiss etməli, qrup maraqlarını şəxsi maraqlarından aşağı tutmamalıdır.

Bu xüsusiyyətləri özündə formalaşdıra bilməyən insan qrup tərəfindən qəbul olunmur. Digər tərəfdən, özünüdərketmədə bu kimi keyfiyyətləri əxz edə bilmədikdə fərdin özündə passivlik əmələ gəlir.

Bizim bütün rəftar və münasibətimiz ətrafdakılar tərəfindən müşahidə olunaraq qiymətləndirilir. Davranışda psixi xüsusiyyətlərimiz, tələbat, görüş, zövq, adət və istəklərimiz, özünüqiymətləndirməmiz təzahür edir. Bu baxımdan davranış insanla ətraf aləm arasındakı qarşılıqlı münasibətlərin ən incə tərəflərinin ifadəsidir.

Cəmiyyətdə insanlar arasındakı münasibətlərin demokratik məzmununu təmin etməyin ilk və əsas şərti onlar arasında "bərabər hüquqluluq problemi"nin həlli ilə izah olunur. Bu sahədə dövlətin ideoloji strategiyasını müəyyənləşdirənlərin üzərinə böyük məsuliyyət düşür. Əgər insan və cəmiyyət arasında mövcud münasibətlər pozulmuşdursa, deməli, yeni tipli münasibət qaydasına keçmək, cəmiyyəti yeni tələblər və qaydalarla idarə etmək lazımdır. Hazırda bu qaydalar "demokratik dəyərlər" anlayışında ümumiləşdirilir.

## 5.3. Qrup münasibətlərində rol münaqişələri

Qrup münasibətlərinin təhlili göstərir ki, bu münasibətlər ümumilikdə iki qrupa bölünür: konstruktiv və destruktiv münasibətlər. Qrup üzvlərinin konstruktiv münasibətləri bir sıra tələb və normalarla tənzimlənir:

- cəmiyyətin əxlaqi-mənəvi prinsipləri, norma və tələbləri;

- bu amillərlə tənzimlənən sosial əlaqələr;

- qrup üzvlərini eyni məqsəd ətrafında birləşdirən ümumi maraqlar;

- qrup üzvlərinin yüksək kommunikativ bacarıqları;

- qrup münasibətlərini tənzimləmək üçün təhsil müəssisələrinin normativ sənədlərdə göstərilmiş, praktikada tətbiq olunan qaydalar və s.

Bu amillərin hər birinini əlverişliliyi, qarşılıqlı əlaqəsi, bir-birini tamamlaması təhsil qruplarında konstruktiv qarşılıqlı münasibətlərin tənzimlənməsi sistemli tədqiqatların aparılmasını tələb edir.

Qarşılıqlı münasibətlərdə baş verən rol münaqişələrinin öyrənilməsi üçün əvvəlcə onların xarakterini aydınlaşdırmaq lazım gəlir. Bunun üçün həm münaqişənin tərəfləri, həm baş verdiyi situasiya, həm də onun inkişaf dinamikası və həlli yolları aydınlaşdırılmalıdır.

Hər bir münaqişə özünəməxsusdur. Ona görə də sosial psixologiyada qarşılıqlı münasibətlərdə baş verən rol münaqişələrinin kateqorial əsasları öyrənilməli və onun subyektiv hallarına bu baxımdan yanaşılmalıdır.

Qarşılıqlı münasibətlərdə insanları bir-birinə bağlayan bir neçə amil var:

a) fizioloji bağlılıq (ər-arvad);

b) bioloji bağlılıq (valideyn-övlad);

b) psixoloji bağlılıq (sosial qruplar).

Fizioloji və bioloji bağlılığın əsasında emosional bağlılığa cəhdetmə, əhəmiyyətli şəxslər tərəfindən qorunmaq, müdafiə olunmaq durur. Fizioloji və bioloji bağlılıqdan

yaranan tələbatlar ödənilmədikdə aşağıdakı vəziyyətlər yaranır:

- özünəinamsızlıq, köməksizlik hissi;
- müdafiəyə, köməyə, qəyyumluğa tələbat;
- emosional yaxınlıq tələbatı;
- məhəbbət və qəbul olunmaq;
- mümkün tənhalıqdan, imtinadan yaranan həyəcan.

Psixoloji bağlılığın zəifləməsindən yaranan göstəricilərə bunlar aid edilir:

1) koqnitiv (özünün zəif, digərlərinin imkanlı və güclü olması kimi qavranılması fonunda yaranan gücsüzlük hissi);

2) motivasiya (başqaları tərəfindən qorunmağa tələbat);

3) emosional (müstəqil davranış tələb edən, xüsusilə xarici qiymət almayan situasiyalarda yaranan həyəcan, yaxud qorxu hissi);

4) davranış (başqalarına təsir göstərmək üçün güzəşt, kömək axtarışı, rəğbətləndirmə).

Bu asılılıqlarla bağlı olan tələbatların hansı səviyyədə ödənilməsi insanın qarşılıqlı münasibətləri üçün mühüm şərtdir. Əksinə, bu asılılıqlar nə qədər qalırsa, münaqişələri dərinləşir, çünki insan daim azadlığa doğru can atır. Bu komponentlər arasında ziddiyyət olduqda münaqişələri baş verir.

Sosial psixologiyada rol münaqişələrinin ilk fundamental tədqiqatçılarından biri K. Levindir. O, münaqişələrin bir sıra xüsusiyyətlərini fərqləndirmişdir:

a) münaqişə insanda fəaliyyətsizliyə, passivliyə maraq yaradır;

b) münaqişə vəziyyətində insan şüursuzluğa cəhd edir, bu vəziyyətə qalmağa üstünlük verir;

c) münaqişə vəziyyətində nailolma və təhlükəsizliyə cəhd zəifləyir.

Əgər münaqişə iki və daha çox subyekt arasında baş verirsə bu halda o, şəxsiyyətlərarası münaqişə adlanır. Şəxsiyyətlərarası münaqişələrin bir çox növləri vardır. Onlardan biri də rol münaqişələridir. Rol münaqişələri o zaman yaranır ki, kimsə qarşı tərəfin ondan gözlənilən rolu və ya rolları (ana, qardaş, müəllim, işçi, dost, sevgili və s.) düzgün icra etmir.

Rol münaqişələri iki yerə bölünür:

1) rollararası münaqişə;
2) roldaxili münaqişə.

Rol münaqişələri fəaliyyət subyekti olan bütün insanlar üçün xasdır.

Rol münaqişələri yalnız ayrı-ayrı fərdlər arasında deyil, sosial qruplarda da baş verir. Burada da münaqişələrin xarakteri şəxsiyyətlərarası və rol münaqişələrinə yaxındır.

Münaqişəli situasiyalarda tərəflər subyekt qismində çıxış etdikdə özünün şəxsi maraqlarını təmsil etmiş olurlar. Bu zaman rol münaqişəsi daha kəskin xarakter alır. Əksinə, əgər tərəflər subyektiv mövqedən çəkilərək ümumi maraqlar naminə rəyə gəlmək istəyində olsalar, belə münaqişəni həll etmək də asanlaşır.

Digər halda, fərd özünün daxilində özü ilə münaqişəyə girir. Bu, psixologiyada şəxsiyyətdaxili münaqişə adlanır. Belə hallar da olur ki, münaqişə qruplar, cəmiyyətlər, dövlətlər, hətta regionlar, arasında da yaranır. Bu məsələlər sosial psixologiyanın xüsusi bir sahəsi olub, "siyasi münaqişlər" nöqteyi-nəzərindən tədqiq olunur.

C.Kuli, C.Mid kimi Qərb sosial psixologiyasındakı araşdırmalar maraq doğurur. Onların nöqteyi-nəzərinə görə,

insanın özü haqqındakı sosial müəyyənliyi qrupda başqa insanlarla qarşılıqlı təsir sistemi vasitəsi ilə əldə edilir. Qrupun gücü onun bütün iştirakçılarının gücünə bərabər deyil. Qrupun müxtəlif üzvləri qarşılıqlı təsirdə rol adlanan müxtəlif funksiyaları yerinə yetirirlər. Qrupda razılıq ona göstərilmiş rol daxilində davranış qaydalarını gözləmələrə uyğun yerinə yetirməsi ilə təmin olunur. Burada da şəxsiyyətdaxili münaqişələrin mənbəyi gizlənir. Şəxsiyyətin müxtəlif rol mövqeləri ilə ziddiyyətlərin yaranması nəticəsində aşağıdakı sahələr üzrə rol münaqişələrinə gətirib çıxarır:

- adəti sosial rolların yerinə yetirilməsində çətinliklər;
- bir neçə rolun eyni vaxtda reallaşdırılmasının mümkün olmaması;
- vaxt çatışmazlığı;
- sosial rollarla bağlı qiymətləndirmələrin dəyişməsi;
- rollararası əlaqənin itməsi;
- öz işini yüksək səviyyədə yerinə yetirmək tələbatının zəifləməsi.

Sosial qruplarda münaqişələrin yaranması üçün əsaslı sosial səbəblərə bunlar daxildir:

- əhalinin yaşayış səviyyəsinin aşağı olması;
- sosial əlaqələrin yenidən, yeni tərzdə qurulması;
- cəmiyyətdə rəqabət mühitinin yaranması və getdikcə dərinləşməsi;
- cəmiyyətdə maddi vəziyyətinə görə əhalinin yeni sosial təbəqələrinin yaranması nəticəsində təhsil müəssisələrinə uşaq və şagird qəbulu ilə bağlı çətinliklər;
- uşaq, yeniyetmə və gənclərin əlverişli sosiallaşmasına cavabdeh olan ənənəvi sosial institutların rolu, statusu, vəzifə və öhdəliklərinin hazırda əhəmiyyətli də-

rəcədə dəyişməsi, buna müvafiq olaraq onların alternativ nümunələrin yaranması prosesinin zəif getməsi və s.

Bütün bunlar sosial qruplarda qurulan sosial əlaqələrdə müxtəlif xarakterli, irili-xırdalı münaqişələrin yaranmasına səbəb olur. Münaqişələrin xarakteri qrupların tərkibindən asılı olaraq dəyişir.

Sosial qruplarda yaranan münaqişələrin həlli üçün özünəməxsus yanaşma tələb olunur. Birinci növbədə, respublikanın mədəni mühitinə, etnik tərkibinə uyğun yollar axtarılmalıdır. Digər tərəfdən, münaqişələrin mənşəyinin araşdırılması, onların avtoritar üsullarla deyil, demokratik yollarla aradan qaldırılması mühüm tələblərdən biridir. Bu isə münaqişələrin sosiol-psixoloji istiqamətdə də öyrənilməsini zəruri edir.

***Suallar və tapşırıqlar***:

*1. Sosial münasibətlərin mahiyyətini aydınlaşdırın.*

*2. Qrup anlayışını izah edin.*

*3. "Kiçik qrup" nədir, onun səciyyəvi xüsusiyyətləri hansılardır?*

*4. "Kiçik qrup"lar haqqındakı nəzəriyyələr haqqında müzakirə aparın.*

*5. Kiçik qruplarda dinamik proseslər hansı amillərlə əlaqələndirilir?*

*6. Kiçik qruplarda fasilitasiya yaradan soial şəraiti səciyyələndirin.*

*7. Qrup təzyiqi hansı səbəblərdən baş verir?*

*8. Qarşılıqlı münasibətlərin sosial xarakterini şərh edin.*

*9. Qarşılıqlı münasibətlərdə rol münaqişələri hansı səbəblərdən baş verir?*

*10. Qarşılıqlı münasibətlərdə rol münaqişələrinin qarşısını almaq yolları haqqında layihələr hazırlayın.*

***Ədəbiyyat:***

*1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-poliqraf, 2003, 345 s.*

*2. Əfəndiyeva Ü.A. Ünsiyyət və qarşılıqlı münasibətlər məktəbə psixoloji hazırlığın əsası kimi. Bakı: MBM, 2007, 224 s.*

*3. Əliyev R. İ. Psixologiya. Bakı: Nurlan, 2007, 352 s.*

*4. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Bakı: MBM, 2007, 200 s.*

*5. Həmzəyev V.Ə., Əmiraslanova S.F. Ünsiyyətin psixologiyası. Dərs vəsaiti. 2007, 180 s.*

*6. Hüseynov Ş., Şiriyev F., Muradov C. Psixolinqvistika. Bakı: Bakı universiteti, 2003, 211 s.*

*7. Şimiyev H.V. Münaqişələr nəzəriyyəsində qərar qəbuletmənin əsas prinsipləri//Bakı Universitetinin Xəbərləri, Fizika-riyaziyyat elmləri seriyasi, 2014, №2, s.50-59*

*8. Mustafayev A.M. Birgə fəaliyyət şəraitində şəxsiyyətlərarası qavrayışın dinamikası//psixol. üzrə fəldok. avtoreferatı. Bakı: 2004, 22 c.*

*9. Гордеев В.И., Александрович Ю.С. Качества жизни, СПб: Речь, 2001, 190 с.*

*10. Духновский С.В. Психологическое сопровождение подростков в критических ситуациях. Учебное пособие. Курган: Изд-во Курганского Гос. Ун-та, 2003, 124 с.*

*11. Козлов В.В. Интегративная психология: Пути духовного поиска, или освящение повседневности. М.: Психотерапия, 2007, 528 с.*

*12. Конопкин О.А. Осознанная саморегуляция как критерий субъектности// Вопросы психологии, 2008, № 3, с. 22-35.*

*13. Mac Kinnon D.W. Creativity: f multi-faceted phenomenon URL // hipp: www. rsad. Edu*

*14. Neisser U. Cognitive Psychology. N. - Y: Appleton, 1967, 351 p.*

15. *http://www.nauka-pedagogika.com*
16. *http://www.alexandria.org.ua*
17. *http:// www.azps.ru*
18. *http://www.vashpsixolog.ru*

# VI FƏSİL
# KİÇİK QRUP, ONUN XARAKTERİ, QURULUŞU VƏ NÖVLƏRİ

## 6.1. "Kiçik qrup" anlayışı və onun quruluşu

İnsan dünyanın ən dəyərli varlığıdır. Bu səbəbdən müxtəlif elmlərdə insanın öyrənilməsi həmişə maraq doğurmuş və diqqət cəlb etmişdir. Psixologiyanın tədqiqat obyekti olan insan ictimai varlıq kimi nəzərdən keçirilir. Xüsusilə, ümumi psixologiyanın mühüm sahəsi olan sosial psixologiyada insan qrup daxilində, digər insanlarla qarşılıqlı əlaqədə öyrənilir.

Son dövrlərdə şəxsiyyətin kiçik qrupun üzvü kimi tədqiq olunmasına diqqət artmışdır. Belə demək doğru olar ki, kiçik qrup problemi sosial psixologiyada ən geniş araşdırılan məsələlərdən biridir.

Kiçik qrupların araşdırılmasına başlayarkən həll edilməli ilk suallardan biri belədir: kiçik qrup nədir, onun əlamətləri və sərhədləri necədir? Q.Andreyeva bu anlayışın məzmununu aşağıdakı kimi açıqlayır: "kiçik qrup dedikdə, tərkibi azsaylı olan qruplar nəzərdə tutulur. Onun üzvləri bir-birinə ümumi ictimai fəaliyyətlə bağlıdırlar. Bu da öz növbəsində qrup üzvləri arasında birbaşa emosional münasibətlərin yaranmasına səbəb olur". Bu, qrup haqqında dəqiq ifadə olunmuş və tez bir zamanda təsəvvür yaradan fikirdir.

Başlanğıc anlayışın “qarşılıqlı təsir” olduğu interaksionistik istiqamətdə kiçik qrup qarşılıqlı təsirlərin həyata keçirildiyi sistem kimi götürülür. Q.Andreyevanın fikrində istifadə etmiş olduğu “ümumi ictimai fəaliyyət” fikri məhz interaksionistik mənada təfsir edilir. Hər bir qrupda üzvlərin ümumi fəaliyyətdə və ya sadəcə qarşılıqlı təsir prosesində olmasından asılı olmayaraq onun müəyyən elementləri - qrup üçün ən vacib amillərdən olan norma və dəyərlər yaranır.

Qrup cəmiyyətin sosial strukturunun komponentidir. Kiçik qrup isə qrupun geniş yayılmış formalarındandır. Kiçik qrup dedikdə ailə, məktəb sinfi, işçi briqadası və s. nəzərdə tutulur. Psixoloqları bu anlayış həmişə maraqlandırmışdır. Kiçik qrupun insan həyatında rolu ona görə gündən-günə artır ki, cəmiyyətdə hər zaman qrup şəklində qəbul olunan qərarlara, qrup tərəfindən yaradılan yaradıcılıq işlərinə ehtiyac vardır.

Avropa və Amerika psixologiyasında kiçik qrup daha çox laborator şəraitdə öyrənilmişdir. Sosial psixoloqlar sınanılanları seçir və laborator qrup yaradırlar. Bu qrup qarşısında məqsədlər qoyulur və daha çox koqnitiv xarakterli maneələr yaradılır. Bu yolla psixoloqlar kiçik qrupda insanlar arasında qarşılıqlı münasibətlərin qanunauyğunluqlarını öyrənməyə çalışırlar. Rusiya psixoloqları kiçik qrupu laborator deyil, təbii şəkildə öyrənməyə üstünlük verirlər ki, bu zaman əldə olunan informasiyalar real situasiyalarda araşdırıldığından sınanılanın davranışı təbii olur. Bu zaman sınanılan idarə olunmur.

Ümumi sosial fəaliyyətdə qrup şəklində iştirak bu qrupu həmin fəaliyyətin subyekti kimi təfsir etməyə imkan

verir. Bu təfsirə kifayət qədər aydınlıq gətirilməsi üçün yuxarıda göstərilən fikirdə ən əsas və dəyərli hissə seçilməlidir: kiçik qrup - ictimai münasibətlərin birbaşa şəxsi əlaqələr şəklində özünü göstərdiyi qrupdur.

Bu fikirdə kiçik qrupun əsas əlamətləri özünü göstərir. Belə ki, kiçik qrup ictimai münasibətləri vakuumda deyil, müəyyən sistemdə real şəkildə həyata keçirir. Kiçik qrup konkret ictimai fəaliyyətin subyekti rolunda çıxış edir və sosial strukturun bir hissəsidir. Yuxarıdakı fikirdə kiçik qrupların böyük qruplardan fərqli əlamətləri də öz əksini tapır: kiçik qruplarda ictimai münasibətlər bilavasitə şəxsiyyətlərarası münasibətlər formasında özünü göstərir.

Kiçik qrupu kontakt qrupla da qarışdırmaq olmaz. Onların fərqli cəhətləri var. Kiçik qrup insanlar arasında sadəcə əlaqələr deyil (təsadüfən bir yerə toplanmış insanlar arasında belə əlaqələr ola bilər), birgə fəaliyyətə əsaslanan ictimai əlaqələrin reallaşdığı qrupdur. Kontakt qruplarda isə vəziyyət başqa cürdür. Burada insanlar (qrup üzvləri) arasında təsadüfi əlaqələr olur, qrup fəaliyyətinin xüsusi məqsədi olmur.

Vacib məsələlərdən biri də kiçik qrupun kəmiyyət xarakteristikası ilə bağlıdır. Sadəcə, "kiçik qrup üzvlərinin sayı çox olmayan qrupdur" demək, bəsit yanaşmadır. Psixoloji ədəbiyyatlarda kiçik qrupun aşağı və yuxarı həddi haqqında kifayət qədər diskussiyalar aparılmışdır. Tədqiqatların çoxunda kiçik qrupun üzvlərinin sayı 2-7 arasında (2-dən 7-ə qədər) tərəddüd edir.

Bu istiqamətdə araşdırma aparan mütəxəssilərdən 71%-i kiçik qrupun aşağı həddi kimi 2 rəqəmini qeyd etmişdir. Bu say geniş yayılmış fikirlə üst-üstə düşür. Belə

ki, bir çox psixoloqlar ən kiçik qrupların iki nəfərdən ibarət "diadlar" olduğunu hesab edir.

Bəziləri (U.Cems) belə hesab edirlər ki, kiçik qrup diadlardan başlayır, digərləri isə (Y.Şepanski, K.E.Danilin, A.U.Xaraş) ehtimal edirlər ki, kiçik qrupun aşağı həddi iki deyil, üç nəfərdir. Buna müvafiq olaraq da kiçik qrupun başlanğıcını "triadlar"ın (3 nəfərdən ibarət qrup) təşkil etdiyini qəbul edirlər. Belə nəticəyə gəlirik ki, diad və ya triadların hansısa birinin xeyrinə güclü fakt söylənilməzsə, mübahisə sonsuzadək davam edə bilər.

K.Verderber kiçik qrupun yuxarı həddi üçün münasib kəmiyyət kimi 5-7 nəfəri göstərmişdir. O, belə hesab edir ki, üzvlərin sayı çox olduqda qarşılıqlı münasibətlər toru həddən artıq mürəkkəbləşir və müzakirələr çox vaxt aparır.

Daha sonrakı araşdırmalara nəzər salsaq, kiçik qrupun yuxarı həddini göstərən rəqəmlərin dəyişdiyini müşahidə etmək olar: 10, 15, 20 və s. Sosiometriya metodunun müəllifi C.Moreno kiçik qrupa aid bəzi araşdırmalarında məktəb sinfindən söhbət getdikdə 30-40 nəfərlik qrupu kiçik qrup kimi göstərmişdir. Hal-hazırda da pedaqoji psixologiyada məktəb sinfi kiçik qrup kimi qəbul olunmaqdadır.

Qrupların təhlili yolu ilə bu problemi qismən də olsa, həll etmək olar. Əgər kiçik qrup fəaliyyətin subyekti kimi qəbul olunursa, o zaman ona kəskin yuxarı hədd qoymaq məntiqə uyğun gəlmir. Başqa sözlərlə desək, əgər ictimai münasibətlər sistemində konkret neçəsə nəfərdən ibarət qrup yaradılıbsa və o, müvafiq fəaliyyəti yerinə yetirməyə qadirdisə, o zaman məhz elə bu sayı kiçik qrupun "yuxarı" həddi kimi qəbul etmək olar.

Bu, problemin spesifik və daha çox əsaslandırılmış həllidir. Beləliklə kiçik qrup birgə fəaliyyətin həyata keçirildiyi və üzvlərinin sayı empirik yolla müəyyən olunan qrupdur: ailəni kiçik qrup kimi araşdırdıqda həm üç, həm də on iki nəfərdən ibarət olan ailə nəzərdən keçirilir. Eyni zamanda işçi qrupları da qrup şəklində birgə fəaliyyəti həyata keçirirlərsə, bu zaman həm beş, həm də qırx nəfərdən ibarət qrup kiçik qrup kimi qəbul olunmalıdır.

## 6.2. Kiçik qrupların növləri

Sosial psixologiyada kiçik qrupların üç əsas təsnifatı məlumdur. Onlardan birincisi, kiçik qrupların "birinci" və "ikinci" qruplara bölünməsi, ikincisi, kiçik qrupların "rəsmi" və "qeyri-rəsmi" kimi təsnifatı, üçüncüsü, "üzvlük" və "referent" qrupların ayırd edilməsidir.

Kiçik qrupların "birinci" və "ikinci" qruplara bölünməsi psixologiyada ilk dəfə Ç.Kuli tərəfindən təklif olunmuşdur. Ç.Kuli ailəni, dostları, yaxın qonşuları "birinci" qrupa aid etmişdir. Onun fikrincə, "birinci" qruplarda insanlar bilavasitə ünsiyyətə girirlər, lakin bu əlamət əsas götürüldükdə "birinci" qrup kiçik qrupla eyniləşdirilmiş olur. Bu zaman isə təsnifat öz mənasını itirir. Belə ki, əgər kiçik qrupun əsas xüsusiyyəti kimi birbaşa əlaqə göstərilirsə, onun daxilində elə həmin əlamətə əsasən başqa qruq ayırmaq məqsədəuyğun hesab olunmur.

Onun fikrinə görə "ikinci" qruplarda əlaqə dolayı yolla, ünsiyyət vasitəsi ilə baş verir. Bir çox psixoloqlar Ç.Kulinin təsnifatında qeyd etdiyi "ikinci" qrupların ümumiyyətlə kiçik qrupların tərkibinə aid olunmasını düzgün hesab etmirlər. Çünki burada ünsiyyət birbaşa deyil, dolayı

yolla baş verir. Bu isə kiçik qrupa xas xüsusiyyət deyil. Qeyd olunan çatışmazlıqlara görə müasir psixologiyada bu təsnifatdan praktik olaraq istifadə edilmir.

İkinci təsnifatın müəllifi E.Meyodur. O, Xotornda apardığı eksperimentlərin nəticəsində qrupların “rəsmi” və “qeyri-rəsmi” olaraq təsnifatını irəli sürmüşdür. E.Meyonun fikrinə əsasən, “rəsmi” qruplarda normalara əsasən bütün üzvlərin vəzifə və hüquqları əvvəlcədən rəsmi şəkildə müəyyənləşdirilir. Burada vəzifələrə əsasən üzvlər arasında münasibətlər də şaquli olur. Məktəb sinfini, idman komandasını rəsmi qruplara aid etmək olar.

E.Meyo rəsmi qrupların daxilində qeyri-rəsmi qrupları da ayırd etmişdir. Onun fikrincə, bu qruplar özbaşına əmələ gəlir, nə status, nə də rollar rəsmi müəyyənləşdirilmir, qarşılıqlı münasibətlər sistemi isə qeyri-rəsmi qruplarda şaquli deyil. Qeyri-rəsmi qruplar çox vaxt rəsmi qrupların tərkibində formalaşır. Məsələn, məktəb sinfinin tərkibində bir-birinə oxşar maraqlarına görə yaxın olan dostlar birləşərək qruplaşırlar. Qeyri-rəsmi qruplar həm də öz-özünə, rəsmi qrupun tərkibində olmayaraq formalaşa bilər.

Tamamilə fərqli rəsmi qruplara aid olan yaxın dostların qrupunu, çimərlikdə voleybol oynamaq üçün bir komandada birləşən insanlar qrupunu rəsmi qrupdan kənarda yaranan qeyri-rəsmi qruplara aid etmək olar. Bəzən qeyri-rəsmi qruplarda az müddətə də olsa, qrup üzvlərinə vəzifələr təyin edilir. Bu isə rəsmi qruplar üçün xarakterik xüsusiyyətdir. Buna görə də qrupların rəsmi və qeyri-rəsmi olaraq ayırd edilməsi nisbi xarakter daşıyır.

E.Meyonun təsnifatı yalnız kiçik qrupları öyrənməyə deyil, həm də insanlar arasında rəsmi və qeyri-rəsmi münasibətləri araşdırmağa imkan vermişdir. Bunun

sayəsində isə rəhbərlik, idarəetmə problemləri daha ətraflı öyrənilməyə başlanıldı.

Üçüncü təsnifat Q.Xaymen tərəfindən irəli sürülmüşdür. Q.Xaymen ilk dəfə olaraq psixologiyaya “referent qrup” anlayışını daxil etmişdir. Öz eksperimentlərində (Q.Xaymen öz tədqiqatını tələbə qruplarında aparmışdır) Q.Xaymen müəyyən etmişdir ki, kiçik qrupun bəzi üzvləri heç də həmişə rəsmi üzvləri olduqları qrupun normalarına uyğun davranmırlar. Onlar başqa qrupun norma və dəyərlərini qəbul edirlər. Bu qrupu Q.Xaymen “referent qrup”, şəxsin rəsmi şəkildə üzv olduğu qrupu isə “üzvlük qrup” adlandırmışdır.

Üzvlük qrup ilə referent qrup arasındakı fərqli cəhətləri Q.Xaymendən sonra Amerikan psixoloqu M.Şerif ətraflı şəkildə araşdırmışdır. M.Şerif referent qrupu “hesabat sistemi” anlayışı ilə bağlı şəkildə öyrənərək bildirmişdir ki, bu sistem insana öz statusunu başqalarının statusu ilə müqayisə etmək üçün lazımdır. Daha sonra isə Q.Kelli referent qrup anlayışı üzərində işləmiş, onun 2 funksiyasını ayırd etmişdir. Bu funksiyalar aşağıdakılardır:

- Normativ funksiya
- Müqayisəedici funksiya

Q.Kelli hesab edirdi ki, referent qrup fərdə, ya öz davranışını onunla müqayisə etmək üçün etalon kimi, ya da öz davranışını qiymətləndirmək üçün normativ kimi lazımdır. Hazırda psixoloji ədəbiyyatlarda referent qrup anlayışı iki mənada işlədilir: bəzən referent qrup üzvlük qrupun əksi kimi göstərilir, bəzən isə referent qrup üzvlük qrupun tərkibində formalaşan qrup kimi götürülür. İkinci halda referent qrup şəxs üçün “dəyərli ünsiyyət dairəsi”

kimi qəbul olunur, buraya üzvlük qrup içərisindən ünsiyyət baxımından xüsusi əhəmiyyətli şəxslər daxil edilir. Referent qrupda şəxsiyyətlərarası qarşılıqlı münasibətlər E.V.Şedrinanın müəllifi olduğu referentometriya metodu vasitəsilə öyrənilir.

Kiçik qrupların üzvlük və referent qruplara bölünməsinin yeniyetmələrin davranışının öyrənilməsində də olduqca mühüm rolu vardır. Referent qrupun təsiretmə mexanizmi yeniyetmələrin ziddiyyətli davranışının ilkin səbələrini müəyyənləşdirməyə kömək edir. Belə ki, üzvlük qrup fərd üçün öz cəlbediciliyini itirir, fərd öz davranışını başqa qrupun normaları ilə tənzimləyir.

## 6.3. Kiçik qrupların sosiometrik təhlili

Kiçik qrup anlayışı Qərb sosial psixologiyasında daha çox üç istiqamətdə: sosiometrik, sosioloji və qrup dinamikası məktəbində araşdırılmışdır. Kiçik qrupun sosiometrik istiqamətdə araşdırılması C.Morenonun adı ilə bağlıdır. C.Moreno insanın həyatında makrostrukturu və mikrostrukturu fərqləndirmişdir. C.Moreno belə hesab edir ki, bütün gərginliklər, sosial insanın mikrostruktur və makrostrukturunun bir-birinə uyğun gəlməməsi, şəxsin psixoloji münasibətlərini əks etdirən simpatiya və antipatiya sisteminin makrostruktur çərçivəsinə sığmaması ilə bağlıdır. Bu zaman əsas məsələ mikrostrukturu makrostrukturla uyğunluq səviyyəsinə gətirməkdən ibarətdir.

Sosiometriya metodunun vasitəsilə kiçik qrupda şəxsiyyətlərarası qarşılıqlı münasibətlər öyrənilir. Sosiometriya metodunun tətbiqi nə qədər asan olsa da, bu

metodika öz istifadə olunma sahəsinə görə bir o qədər də geniş yayılmışdır. Bu istiqamətdə kiçik qrupun araşdırılması məhdud xarakter daşıyır. Belə ki, burada şəxsiyyətlər arasında yalnız emosional əlaqələr araşdırılır. Qrupda emosional münasibətlərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir, lakin burada bütün mümkün qarşılıqlı münasibətlər sıxışdırılaraq yalnız emosional münasibətlər üzə çıxarılır. Buna baxmayaraq sosiometriya metodu psixologiyada kiçik qrupu öyrənmək üçün ən çox istifadə olunan vasitələrdən biri hesab olunur. Sosiometriya metodu ilə kiçik qrup daxilində emosional münasibətləri öyrənərkən başqa bir problem də üzə çıxır: sosiometrik seçmələrin motivi aydın olmur.

Kiçik qrupu sosioloji istiqamətdə E.Meyo araşdırmışdır. E.Meyo məhsuldarlığın artırılması məqsədilə qeyri-rəsmi qruplardan necə istifadə olunmasına dair tədqiqatlar aparmışdır. Şirkətlərdən biri işçilərinin əmək məhsuldarlığının aşağı düşməsi faktı ilə qarşılaşmışdır və araşdırmalar nəticə vermədikdə 1928-ci ildə E.Meyo buraya dəvət olunmuşdur. İlk öncə E.Meyo əmək məhsuldarlığına təsir edən amilləri müəyyənləşdirmək üçün eksperiment təşkil edərək işıqlanmanın məhsuldarlığa təsirini öyrənməyə başlamışdır.

Ümumilikdə Xotorn eksperimentləri 1924-cü ildən 1936-cı ilə qədər davam etmişdir. E.Meyo tərəfindən yaradılmış eksperiment və kontrol qruplarında iş şəraiti fərqli şəkildə təşkil olunmuşdur: eksperimental qruplarda işıqlanma daha güclü idi və nəticədə əmək məhsuldarlığında artım müşahidə olunmuşdur. Kontrol qruplarda isə işıqlanma sistemində heç bir dəyişiklik edilməmişdir və

nəticədə əmək məhsuldarlığında heç bir artım qeyd olunmamışdır.

Eksperimentin növbəti mərhələsində işıqlanmanın bir qədər də yüksəldilməsi məhsuldarlıqda yeni artıma səbəb olmuşdur, lakin bu zaman kontrol qrupda işıqlanmada hər hansı bir dəyişikliyin olmamasına baxmayaraq işçilərin əmək məhsuldarlığında artım qeyd olunmuşdur. Üçüncü mərhələdə isə eksperiment qrupunda işıqlanma sistemində dəyişiklik olunmamış, lakin məhsudarlıqda qeyd olunan artım davam etmişdir. Bu mərhələdə kontrol qrupda da eyni proses müşahidə olunmuşdur.

Bu gözlənilməz nəticələr E.Meyonu eksperimentdə modifikasiya işləri aparmağa və bir neçə əlavə araşdırmalar aparmağa məcbur etdi: indi yalnız işıqlanma sistemində dəyişiklik olunmamış, eyni zamanda iş şəraitində dəyişiklik həyata keçirilmişdir (əmək haqqı qaldırılmış, işçilərə həftədə iki dəfə istirahət günü və iş zamanı əlavə fasilələr verilmiş, işçilərdən bəzilərinə ayrıca otaq verilmişdir və s.). Bütün bu dəyişikliklər tətbiq edildikcə buna müvafiq olaraq əmək məhsuldarlığında artım qeyd olunmuşdur, lakin sonra eksperimentin şərtlərinə uyğun olaraq dəyişikliklərin hamısı təxirə salmışdır. Bu zaman əmək məhsuldarlığında geriləmə müşahidə olunsa da, məhsuldarlıq ilk vaxtda olduğundan yüksək olaraq qalmışdır.

E.Meyo belə ehtimal etmişdir ki, onun nəzərə almadığı başqa hansısa dəyişən vardır. O, belə qənaətə gəlmişdir ki, sınanılanların eksperimentdə iştirak etməsi özü elə bu dəyişəndir. Mövcudluğunun vacibliyini dərk etmək, təşkil olunmuş işdə iştirak etmək, özünə qarşı diqqət nəticə etibarilə yaradıcılığa, o da öz növbəsində əmək

məhsuldarlığının yüksəlməsinə səbəb olmuşdur. Hətta subyektiv mənfəətin olmaması da buna mane olmamışdır. E.Meyo bunu xüsusi sosiobillik hissinin – “qrupa aidlik” tələbatının yaranması ilə əlaqələndirmişdir. Başqa bir ehtimal da vardır. Belə ki, E.Meyo hesab edir ki, ola bilsin onun eksperiment üçün seçdiyi işçilər qeyri-rəsmi qrupda yüksək statusa malik şəxslərdir və onlar başqa işçilərə təsir edə bilmişlər. Beləliklə, məhz E.Meyonun Xotorn eksperimentlərindən sonra biznesdə “şəxsiyyətlərarası münasibətlər” anlayışı irəli sürülmüşdür.

## 6.4. Qrup fəaliyyətində dinamik proseslər

Qrupun necə inkişaf etməsi, bu inkişafda hansı mərhələləri keçməsi, hər bir mərhələdə hansı proseslərin baş verməsi də vacib məsələlərdəndir. Həmin məsələlər sosial psixologiyada “qrup dinamikası” adı altında öyrənilir. “Qrup dinamikası” anlayışı elmdə müxtəlif mənalarda işlədilir. İlk növbədə, bu anlayış sosial psixologiyada K.Levin və onun davamçıları tərəfindən kiçik qrupun araşdırılmasının əsas istiqamətlərindən birini bildirir. İkinci mənada bu anlayış kiçik qrupu araşdırarkən istifadə olunan metodlar toplusunu nəzərdə tutur. O da qeyd olunmalıdır ki, bu metodlar toplusu məhz K.Levin məktəbi tərəfindən yaradılmışdır.

Kiçik qrupun dinamikası proseslərinə qrupun formalaşması yolları, qrupdaxili təzyiq, qrupda liderin seçilməsi məsələləri və s. daxildir. Qrupun kollektivə çevrilməsi məsələsi də qrup dinamikası proseslərinə aid edilir. Bu məsələlərin hər biri haqqında ayrılıqda müəyyən məlumatlar verilməlidir.

Kiçik qrup ictimai həyatın müxtəlif sahələrində mövcud olduğu üçün onun formalaşması yolları da fərqlidir. Kiçik qruplar daha çox xarici faktorların təsiri ilə yaranırlar. Məsələn, hansısa sosial institutun və ya təşkilatın inkişafı naminə onun nəzdində kiçik qrup yaranır. Daha geniş mənada demək olar ki, kiçik qrup ictimai əmək bölgüsü tələbatından dolayı yaranır və ümumiyyətlə cəmiyyətə xidmət edir. Necə ki, yeni məhsulun yaradılması ilə əlaqədar yaradıcı briqada təşkil olunur, təhsil sistemində yeni şagirdlərin gəlməsi ilə əlaqədar məktəb sinfi, hansısa bölgədə və ya idarədə idmanın inkişafı ilə əlaqədar olaraq idman komandası yaradılır və s. Göstərilən hallarda kiçik qrupun yaradılmasına səbəb onun üzvləri ilə bağlı olmayıb, daha geniş sosial sistem olan ictimaiyyətin tələbatları ilə əlaqəlidir.

Kurt Levinin adı ilə bağlı olan "qrup dinamikası" sahəsindəki tədqiqatlarda kiçik qrup anlayışı və onunla bağlı anlayışlar yeni psixoloji istiqamətdə araşdırılmışdır. K.Levin Almaniyadan Amerikaya köçərək burada institutlardan birində qrup dinamikasını öyrənən mərkəz yaratmışdır. Bu mərkəz sonralar Miçiqan Universitetinin nəzdinə köçürülmüş və hal-hazırda da orada fəaliyyətini davam etdirməkdədir. Bu mərkəzdə araşdırmaların aparıcı istiqamətini K.Levin tərəfindən yaradılmış "sahə nəzəriyyəsi" təşkil edir.

Sahə nəzəriyyəsinin əsas ideyasını sosial davranışın qanunlarını psixoloji və sosial enerji anlayışlarının dərk olunmasında, onun determinasiyasında axtarmağın lazım olduğu fikri təşkil edir. K.Levinin bu araşdırmalarının nəticələri "sahə nəzəriyyəsi"ndə ümumiləşir. Sahə nəzəriyyəsində öyrənilən digər əsas məsələlər: qrupun

formalaşması şərtləri, digər qruplarla qarşılıqlı münasibətlər, qrup normalarının və məqsədlərin formalaşması, qrupda liderlik problemi və s. təşkil edir.

İnsanların sosial davranışına hansı tələbatların təsir etdiyi sualına cavab axtaran qrup dinamikası məktəbinin nümayəndələri qrupdaxili problemini qrup şəklində fəaliyyətin səmərəliliyi, qrupdaxili rəqabət problemi ilə uyğun şəkildə araşdırmışlar. K.Levinin yaratdığı qrup dinamikası məktəbinin əsas araşdırdığı məsələlər mövzumuzla bilavasitə bağlı olduğundan bu barədə daha ətraflı məlumat vermək məqsədəuyğundur.

K.Levin hesab edir ki, biz hər hansı bir qrupu yalnız öz xüsusiyyətlərinə, əlamətlərinə malik olduqdan sonra qəbul edə bilərik. Onun fikrincə, qrupun xüsusiyyətləri onun elementlərinin (üzvlərinin) xüsusiyyətləri ilə deyil, elementlər arasındakı münasibətlər ilə şərtlənir. Belə ki, yaradılan qrup üzvləri arasında münasibətlər ümumilikdə qrupun fəaliyyətinə təsir edir. E.Kassirer xüsusi olaraq qeyd edir ki, münasibətlərin davamlı olması (elementlərin davamlı olmasından fərqli olaraq) daha səmərəlidir. Yəni, qrupun üzvlərinin dəyişməsi mümkündür, lakin münasibətlər stabil qalmalıdır. Bu xüsusiyyətə diqqət yetirmək lazımdır. Belə ki, kiçik qruplarla iş zamanı şagirdlərə qrup üzvləri dəyişdikdə də, əməkdaşlıq etməyi bacarmağı öyrətmək lazımdır. Bu şagirdlərin özünü nizamlaması ilə bağlıdır. Şagirdlər istəklərinə uyğun olmadıqda belə qrup üzvləri ilə əməkdaşlıq etməlidirlər.

K.Levin bir neçə insanın bir yerdə fəaliyyətini heç də həmişə qrup olaraq qəbul etmir. Onun fikrincə, eyni şərtlər altında fəaliyyət göstərdikdə məhsuldarlığın dəyişməməsi adi haldır, lakin hansısa şərti (ən azı bir mühüm şərti)

dəyişdirdikdən sonra məhsuldarlıq stabil qalarsa, həmin insanları qrup adlandırmaq olar. Çünki bu zaman "məhsuldarlıq əmsalı" dəyişikliklərə müqavimət göstərir. Bu, qrupa xas əlamətdir.

Dərs zamanı yaradılan kiçik qruplarda bunu praktik olaraq tətbiq etmək faydalıdır. Yəni, daimi qruplarla yanaşı, fərqli qruplar da yaratmaq lazımdır ki, şagirdlər müxtəlif qruplarda yüksək əməkdaşlığa nail olmağı bacararsınlar və müvəffəqiyyət əldə edə bilsinlər. Təhsil qruplarında qrup dinamikasının bu xüsusiyyətini bilmək nəticələrin səmərəliliyini artıran mühüm amildir. Ona görə də pedaqoji təmayüllü ixtisas məktəblərində qrupların dinamikasını şərtləndirən məsələlərin öyrənilməsi olduqca vacibdir.

## 6.5. Sosial fasilitasiya

Kiçik qrup anlayışı haqqında daha aydın təsəvvür yaratmaq üçün psixologiya elmində kiçik qrupun araşdırılması tarixinə nəzər salmaq lazımdır. Bu sahədə ilk araşdırmalar XX əsrin 20-ci illərində ABŞ-da aparılmışdır. Bu araşdırmalar zamanı psixoloqları maraqlandıran başlıca məsələ fərdin tək, yoxsa başqa insanların iştirakı zamanı fəaliyyətdə daha yüksək nəticə göstərdiyini öyrənməkdən ibarət olmuşdur. Tədqiqatlarda insanlar qrup şəklində öyrənilməmiş, sadəcə insanların bir-birinin fəaliyyətinə təsiri araşdırılmışdır.

Sosial psixologiyada qrup üzvlərinin səmərəli birgə fəaliyyətini səciyyələndirən bir sıra anlayışlar var. Onlardan biri də "sosial fasilitasiya" anlayışıdır (lat. socialis-ictimai, facilitare-yüngüləşmək deməkdir). Q.M. Andreyeva bu anlayışı "başqalarının iştirakı ilə fəaliyyət göstərmək" ki-

mi izah edir. "Sosial fasilitasiya" anlayışının mahiyyəti budur ki, birgə fəaliyyət zamanı başqalarının iştirakı digərinin də hərəkətlərini stimullaşdırır.

D.Mayers sosial fasilitasiyaya dair araşdırmaları nəzərdən keçirərək bu qənaətə gəlir ki, qrup insanlara oyadıcı, ehtiraslandırıcı, fəallaşdırıcı təsir göstərə bilir. Eksperimentlər nəticəsində həmçinin əks effekt başqa şəxslərin iştirakının fərdin fəaliyyətinə ləngidici təsiri də müəyyən olunmuşdur. Bu effekt öz növbəsində psixologiyada sosial inhibasiya adı almışdır. Qeyd olunmalıdır ki, psixologiyada daha çox sosial fasilitasiya fenomeni tətbiq olunmaqdadır və ümumiyyətlə bu araşdırmaların elmə verdiyi ən böyük nailiyyət məhz sosial fasilitasiya anlayışı hesab olunur.

İkinci mərhələdə insanların sadəcə bir-birinə təsirinin öyrənilməsindən şəxslərin qrup tərkibində öyrənilməsinə keçilmişdir. Araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, eyni tapşırıqlar fərdi iş formasına nisbətən qrup daxilində daha tez, korrektiv və az səhvlər olmaqla həll olunur. Belə ki, eyni tapşırığın həm qrup, həm də fərdi formada həlli üçün orta vaxt müəyyən olunmuş, sərf edilən vaxtın müqayisəsi aparılmışdır. Əldə olunmuş nəticələr qrupla işin xeyrinə olmuşdur. Daha dəqiq təhlilində müəyyən olunmuşdur ki, nəticələr həm də fəaliyyətin xarakterindən asılıdır. Bu zaman, xüsusilə bir fakta diqqət yetirilməlidir: qrup fəaliyyətinin əsas parametri qrup üzvlərinin, sadəcə "iştirak"ı deyil, onların qarşılıqlı fəaliyyətdə olmasıdır.

Üçüncü mərhələdə kiçik qrupların araşdırılması daha da şaxələnmişdir. Artıq yalnız qrupun fərdə təsiri deyil, eyni zamanda kiçik qrupun xarakterik xüsusiyyətləri: onun

strukturu, qrup üzvlərinin qarşılıqlı münasibəti tipləri, qrupun ümumi fəaliyyəti öyrənilməyə başlanmışdır.

Beləliklə, *fasilitasiya başqalarının iştirakı ilə fəaliyyət göstərmək* mənasını ifadə edir. Sosial fasilitasiya anlayışının mahiyyəti budur ki, *birgə fəaliyyət zamanı başqalarının iştirakı digərinin də hərəkətini stimullaşdırır və asanlaşdırır.*

Məsələn, müəllimin fasilitator kimi fəaliyyət göstərməsi təhsil müəssisələrindəki şagird qruplarında, real təcrübə üçün nəzərdə tutulur. Halbuki, müəllimin məktəb qruplarında sosial fasilitator kimi fəaliyyətinin nəzəri-sosioloji təhlilinin nəticələrinə görə, hazırda ümumtəhsil məktəblərində çalışan pedaqoqların heç də hamısı bu işin öhdəsindən lazımınca gələ bilmirlər.

Aparılmış tədqiqatlarda həm müəllimlərin özünüqiymətləndirmələri, həm də şagirdlərin attidyüdlərində nəticələr qənaətbəxş deyil. Müəllimlər fasilitator fəaliyyəti ilə bağlı biliklərə malik olsalar da onu reallaşdırmağa o qədər də maraq göstərmirlər. Bu səbədən şagirdlərin əksəriyyəti öz müəllimlərinin ünsiyyətini və rəhbərliyini ya avtoritar, ya da liberal üslub kimi qiymətləndirirlər.

Məktəb psixoloqu müəllimlərin fasilitator-bələdçi funksiyasını necə yerinə yetirmələri haqqında onların özləri ilə sorğu aparmaqla, eləcə də şagirdlərin attidyüdlərini öyrənməklə müəyyənləşdirə bilər. Bu attidyüdlər psixoloqa müəllimlərdə fasilitator fəaliyyətinin hansı tərəflərinin inkişafına daha çox ehtiyacın olduğunu müəyyənləşdirməyə imkan verəcəkdir. Həmin məsələlərə bunlar daxil edilə bilər:

- müəllimin pedaqoji fəaliyyətdə fəal, enerjili və işgüzar, yoxsa, passiv olması;

- müəllimin həvəsləndirici, yoxsa loyal olması;
- müəllimin dioloji, yoxsa monoloji ünsiyyət üslubuna üstünlük verməsi;
- şagirdlərlə əlaqədə qarşılıqlı etimada, alicənablığa və avtoritar münasibətə əsaslanması.

Müəllimlərdə fasilitator bacarıqlarını artırmaq üçün məktəb psixoloqunun özü onlara bələdçilik edir. O halda məktəb psixoloqu müəllimlər üçün fasilitatora çevrilir. Bu sahədə məktəb psixoloqları müstəsna təsiredici imkanlara malikdirlər. Bunun üçün psixoloq müəllimlərdə apardığı işdə aşağıdakıları əsas götürür:

• müəllim və şagirdlərin birgə əməkdaşlığını, onların qarşılıqlı hörmət və etibarını artırmaq;
• müəllimlər tərəfindən şagirdlərin olduqları kimi qəbul edilməsi və onların daim dəstəklənməsi;
• müəllimlər tərəfindən şagirdlərin qabiliyyətlərinin inkişafının, təfəkkürünün stimullaşdırılması;
• şagirdlərdə öyrənmə motivasiyasının yaradılması;
• onların sinif mühitinə, müəllimlə səmimi münasibətlərə uyğunlaşdırılması.

Həmin işlərdə əsas məqsəd müəllimi bunlara istiqamətləndirməkdir:

*1. Şagirdlərdə öyrənmək və problemi həll etmək həvəsini saxlamaq üçün onlara psixoloji dəstək verilir:* şagirddə uğursuzluq qorxusu, inamsızlıq hissi aradan götürülür, dərs boyu onların idrak fəallığı saxlanılır.

*2. Problemin şagirdlər tərəfindən müstəqil tədqiq edilməsi və həlli üçün bütün imkanlar yaradılır:* onun cavablarını yaxşı və ya pis qiymətləndirməkdən imtina olunur, problemin həllində istənilən cəhdi yaradıcı fikir kimi

qəbul edilir, şagirdlərə psixoloji dəstək verilərək onlara hörmət və etibarla yanaşılır.

Müəllimlərə fasilitator funksiyasını öyrətmək üçün bir sıra iş nümumələrindən: seminar, treninq, oyun və psixoloji dramalardan istifadə edilir. İş prosesində müəllimlərdəki lazımsız komplekslər də korreksiya olunur. Bunun üçün psixoloq aşağdakılara əməl etməlidir:

- aydın dil ifadələrindən istifadə edir, müzakirədə və qrup işində iştirak etmələrinə görə onlara öz minnətdarlığını bildirir, pozitiv münasibət və hörmət təzahür etdirir;
- danışanlara diqqətlə qulaq asır, hər bir müəllimə öz fikrini söyləməyə imkan yaradır, bütün qrupun iştirakçılarını diqqətlə dinləməyə hazır olduğunu nümayiş etdirir;
- müəllimlərlə birlikdə işləyib hazırladığı qaydalara riayət edir, treyninq zamanı şagirdlərlə davranış nümunələri göstərərək özünün fasilitator modelini nümayiş etdirir;
- müəllimlərə hörmətlə müraciət edir və onların gözlərinə baxır, fərdi münasibət qurur, həvəsləndirir, daha yaxşı psixoloji bacarıqlara malik olduğuna inandırır;
- müəllimlərdə yeni təfəkkür tərzi yarada biləcək konstruktiv fikirlərə geniş yer verir, onları dəstəkləyir, əhəmiyyətli tərəfləri ilə bağlı həyati nümunələr göstərir;
- müəllimlərin fərqli fikirləri ilə maraqlanır, yalnız liderlərin və ən fəalların deyil, bütün iştirakçıların nöqteyinəzərinə eyni dərəcədə diqqətlə yanaşır;
- hər hansı bir fikrin açıq tənqidinə, inkar olunmasına, mənfi qiymətləndirilməsinə, məzəmmətə imkan vermir, müəllimlərin öz mövqelərini və qərarlarını dəyişmələri üçün düzgün məqam seçir: müəllimin şəxsi fikrini əks etdirən mövqeyə üstünlük verir, lakin bu zaman alternativ mövqe

ortaya qoyaraq müəllimə ən doğru olanı seçim imkanı yaradır,

- lazımsız olaraq müəllimin fəaliyyətini şişirtmir;
- müəllimlərin fikirləri ilə razı olmadıqda, bunu müzakirə edərək ortaq mövqe əldə olunur.

Müəllimlərə onların icra etməli olduqları psixoloji funksiyalar haqqında məlumat verilir, metod və vasitələri öyrədilir.

## 6.6. Qrup həmrəyliyi

Konformluq anlayışının sonrakı araşdırılması M.Doyç və Q.Cerard tərəfindən aparılmışdır. Onlar belə nəticəyə gəlmişdirlər ki, qrup təzyiqi yalnız çoxluq tərəfindən həyata keçirilməyib eyni zamanda, azlıq tərəfindən də həyata keçirilir. M.Doyç və Q.Cerard qrup təzyiqinin iki tipini ayırd etmişlər:

1. Normativ qrup təzyiqi - bu zaman təzyiq çoxluq tərəfindən həyata keçirilir və onun fikri qrup üzvləri tərəfindən norma kimi qəbul olunur.

2. İnformasional qrup təzyiqi – bu zaman təzyiq azlıq tərəfindən qeydə alınır. Qrup üzvləri onların (azlığın) fikrini sadəcə informasiya kimi qəbul edir və azlığın fikrini qəbul edib etməməklə bağlı seçim imkanı hər bir üzvün öz əlində olur (33, 106).

Qrup həmrəyliyi qrupdaxili şəxsiyyətlərarası münasibətlərdən bilavasitə asılıdır. Qrup üzvləri arasındakı münasibətlər qarşılıqlı simpatiya üzərində qurularsa, qrup birliyi müşahidə olunar. Sosiometriyada xüsusi olaraq "qrup həmrəyliyi indeksi" təklif olunmuşdur.

Başqa bir yanaşma L.Festinger tərəfindən irəli sürülmüşdür. L.Festinger qrup həmrəyliyini qrup daxilində olan

münasibətlərin saflığı ilə və sadəliyi ilə analiz etmişdir. Hərfi mənada, bu yanaşmada qrup həmrəyliyi qrupun üzvlərinin hamısını bir yerdə saxlamaq üçün lazım olan güc, enerji kimi nəzərdən keçirilmişdir. K.Levin məktəbinin L.Festingerin baxışlarına təsiri bu yanaşmada xüsusi nəzərə çarpır: yuxarıdakı fikirdə “enerji” anlayışı dedikdə, ya qrupun fərd üçün cəlbedici olması, ya da qrupun öz üzvlərinin arzu və istəklərini həyata keçirməklə onları məmnun salması nəzərdə tutulur. İstər cəlbedicilik, istərsə də məmnunluq hər ikisi münasibətlərin emosional aspektinə söykəndiyindən bu konsepsiya tam öz təsdiqini tapmır.

Qrup həmrəyliyinin öyrənilməsi üçün başqa yanaşma da mövcuddur. T.Nyukoma “razılıq” anlayışı vasitəsilə qrup həmrəyliyini araşdırmağa cəhd etmişdir. O, C.Moreno və L.Festingerin yanaşmalarından fərqli fikir irəli sürmüşdür. T.Nyukoma qrup həmrəyliyini qrupun üzvləri üçün dəyərli olan cisim və hadisələrlə bağlı onların oxşar fikirlərinin olması və onların inkişaf etdirilməsi ilə bağlamışdır. Oxşar fikirlərin inkişafı, yəni razılığın əldə olunması sonralar fərdin fəaliyyət sahəsindəki gərginliyin aradan götürülməsi kimi izah olunmuşdur. Mövcud gərginliyin götürülməsi isə mütəxəssislərin fikrincə, fərdin emosional reaksiyaları sayəsində baş verir.

Qrup həmrəyliyinə dair bir çox eksperimentlər aparılmışdır. Onlardan xüsusi olaraq qrup məqsədlərinə yer ayırmış A.Beyvelasın eksperimentləri qeyd olunmalıdır. A.Beyvelas tərəfindən qrupun aşağıda göstərilən məqsədləri ayırd edilmişdir:

1. Qrupun operasinal məqsədləri – kommunikasiya funksiyasını daşıyan optimal sistemin yaradılması.

2. Qrupun simvolik məqsədləri hər bir qrup üzvünün fərdi fikir və məqsədlərinin qrup üçün keçərli, əsas olmasıdır.

A.Beyvelasın fikrincə, qrup həmrəyliyi yuxarıdakı həm birinci, həm də ikinci məqsədlərin reallaşdırılması xarakterindən asılıdır.

Qrup həmrəyliyi, birliyi öyrənilərkən bəzən qrup üzvlərinin əməkdaşlığı anlayışı ilə qarışdırılır.

Beləliklə, aydın olur ki, kiçik qrup bizim sosial həyatımızın ayrılmaz hissəsidir. İqtisadiyyatın güclü olması üçün əmək məhsuldarlığı yüksək olmalıdır. Buna görə də sahibkarlar rəhbərlik etdikləri işçi qrupuna təsir etməyin yollarını bilməlidirlər. Kiçik qruplarda fəallıq göstərmək, əlaqələr yaratmaq, özünü reallaşdırmaq mədəniyyətinin əsası isə ailədə və məktəbdə qoyulur.

Sosial psixologiyanın əsas məsələlərindən biri kiçik qrupun həyatında baş verən prosesləri təhlil etməkdən ibarətdir. Q.Andreyeva hesab edir ki, bu proseslər iki nöqteyi-nəzərdən təhlil olunmalıdır:

1. Birincisi, kiçik qrupda ünsiyyətin və qarşılıqlı təsirin qanunauyğunluqları nöqteyi-nəzərindən. Müəllifin fikrincə, kiçik qrupda xüsusi kommunikativ, interaktiv və perseptiv əlaqələr mövcud olur.

2. İkincisi, kiçik qrupun şəxsiyyətə təsiretmə mexanizmi qrup normalarının, dəyərlərinin mənimsənilməsi, qrupun fərddə yaratdığı ustanovkalar və s. nöqteyi-nəzərindən təhlil edilir. Bununla bərabər, fərdin də qrupa necə təsir etməsi öyrənilməlidir.

## 6.7. Qrup təzyiqi və konformluq

Qrupun öyrənilməsi zamanı digər vacib məsələ yeni üzvün qrupa daxil olması zamanı həmin qrupun norma və dəyərlərini mənimsəməsi ilə əlaqədardır. Bununla yanaşı, eyni anda bir neçə şəxsin qrupa daxil olması zamanı qrup normaları, dəyərləri və məqsədlərinin mənimsənilməsində hansı fərqli cəhətlərin olması öyrənilməli olan məsələlərdəndir. Bunların öyrənilməsi zamanı sosial psixologiyada yeni anlayış qrup təzyiqi anlayışı meydana çıxır. Qrup təzyiqi anlayışı hal-hazırda sosial psixologiyada konformizm fenomeni (konformizm sözü ingilis dilində "konform" sözündən götürülmüşdür və hərfi mənada "tabe olmaq", "uyğunlaşmaq" mənalarını verir) adlandırılır.

Güzəran təcrübəsində konformizm anlayışına nağıllarda rast gəlmək mümkündür. Azərbaycan bədii ədəbiyyatında bir çox nağıllarda belə hallara təsadüf olunur. Dünya ədəbiyyatında da bununla qarşılaşmaq olar (Andersonun nağılı). Müasir dövrdə bu fenomen mənfi anlamda işlədilir ki, bu da araşdırmalara maneçilik törədir. Bu anlayışın siyasətdə "vəziyyəti ilə barışmaq", "statusca böyük olanlara tabe olmaq" mənalarında istifadə olunması problemi bir qədər də çətinləşdirir. Belə anlaşılmazlığı aradan qaldırmaq üçün sosial psixologiyada "konformizm" anlayışından deyil, "konformluq" və "konformist davranış" anlayışından istifadə olunmaqdadır. Son dövrlərdə bu istiqamətdə yeni bir anlayışdan - "sosial təsir" anlayışından tez-tez istifadə olunur. Konformluq anlamının əksi olaraq psixologiyada "müstəqillik", "qrup təzyiqinə davamlılıq" və s. anlayışlarından istifadə olunur.

Konformluq anlamına oxşar anlayışlar kimi “həmahənglik”, “uyğunluq” və s. anlayışlarını göstərmək olar.

Konformluq özünü fərdin fikrinin qrupun fikri ilə üst-üstə düşməməsi səbəbindən konfliktin yarandığı və bu konfliktin qrupun xeyrinə həll olunduğu bütün situasiyalarda göstərir. Mütəxəssislər xarici və daxili konformluğu ayırd edirlər. Xarici konformluq o zaman müşahidə olunur ki, qrupun fikri fərd tərəfindən sadəcə zahirən qəbul olunur. Sonra fərd qrupa müqavimət göstərməyə davam edir, qrupun onun fikri ilə hesablaşmasını tələb edir. Daxili konformluq zamanı fərd həqiqətən də çoxluğun fikrini mənimsəyir, onlarla həm zahirən, həm də daxilən razılaşır. Psixoloqların bəziləri məhz daxili konformluğu əsl, həqiqi konformluq hesab edirlər. Daxili konformluq konfliktin qrupun xeyrinə həll olunmasının göstəricisidir.

Konformluq anlayışının öyrənilməsi zamanı onun başqa bir tərəfi neqativizm eksperimental şəkildə aşkara çıxarılmışdır. Qrup fərdə təzyiq edərkən bəzən o, ilk vaxtdan müqavimət göstərir, özünün tam müstəqil olduğunu nümayiş etdirmək üçün bütün qrup standartlarının əksinə çıxır. Belə hallar neqativizm anlayışı ilə göstərilir. İlk baxışda elə görünə bilər ki, neqativizm konformluğun tamamilə inkar olunmasıdır. Əslində isə bir çox tədqiqatlarla sübut olunmuşdur ki, neqativizm heç də həqiqi müstəqillik olmayıb, konformluğun xüsusi formasıdır. Belə ki, əgər fərd özünə qrupun bütün fikirlərinə qarşı çıxmağı məqsəd seçirsə, o yenə də faktiki olaraq qrupdan asılıdır. Çünki bu zaman fərd qrup normalarını bilməli, qrup üzvlərinin tipik davranış tərzi ilə

tanış olmalıdır ki, onların əksini özü üçün etalon və məqsəd seçə bilsin. Bu isə artıq qrupdan, onun qərarlarından, dəyərlərindən asılılıq deməkdir. Buna görə də konformluğun əksi neqativizm deyil, müstəqillik hesab olunur.

İlk dəfə konformluq modeli 1951-ci ildə psixoloq S.Aş tərəfindən onun eksperimentlərində nümayiş olunmuşdur. Bu eksperimentlərin ünvanına ciddi tənqidlər səslənsə də, psixologiyada onlar klassik eksperimentlər hesab olunmaqdadır. Həmin eksperimentdə bir qrup tələbəyə xəttin uzunluğunu ölçmək təklif olunurdu. Buna görə hər bir sınanılana sağ və sol əlində olmaqla iki kart verilir. Sol ələ verilmiş kartda bir, sağ tərəfdəki kartda isə üç düz xətt var idi ki, onlardan sadəcə birinin uzunluğu sol əldə olan kartdakı xəttlə eyni idi. Sınanılandan sağ əlindəki kartdan sol əlindəki kartda verilmiş xətlə uzunluğuna görə bərabər olanını göstərmək təklif edilir. Eksperiment fərdi qaydada keçirilərkən bütün sınanılanlar düzgün cavab vermişlər.

Eksperimenti qrup şəklində keçirdikdə sınanılanların bir çoxu əvvəlkindən fərqli olaraq səhv cavab vermişlər. Belə ki, eksperimentin əsas məqsədi "düzəltmə qrup" vasitəsilə qrup təzyiqinin fərdin fikrinə göstərdiyi təsiri müəyyənləşdirməkdən ibarətdir. Bu məqsədlə eksperimentator əvvəlcədən bir nəfərdən başqa ("sadəlövh suyekt"dən) bütün sınanılanlarla söhbət aparır. Söhbətin məzmunu ondan ibarət olur ki, onlar bilərəkdən suala səhv cavab verməli idilər. Yəni, sol əllərindəki kartdakı xəttə uzunluqla bərabər olmayan, ya ondan böyük, ya da ondan kiçik xətti seçməli idilər. Ən sonda "sadəlövh subyekt" cavab verirdi. Vacib məsələ onun öz fikrindən daşınması, yoxsa öz fikrini dəyişməməsi ilə bağlı idi. S.Aşın apardığı

eksperimentlərdə "sadəlövh subyekt"lərin 37%-i, yəni üçdə bir hissəsi konformlu davranış nümayiş etdirərək səhv cavablar vermişlər. Eksperimentin sonunda aparılan müsahibədə hətta konformlu davranmayan tələbələr də bildirmişdirlər ki, onlar üçün qrupun fikrinə qarşı çıxmaq çox çətin idi, onlar səhv seçim etdiklərini düşünmüşlər.

S.Aşın eksperimental metodikası sonralar bir çoxları tərəfindən modifikasiya olunmuşdur (R.Kraçfildin metodikası), lakin məzmun demək olar ki, dəyişməz olaraq qalmışdır. Bu ekperimentin əsas xüsusiyyətlərindən biri laboratoriya şəraitində xüsusi olaraq eksperiment üçün "düzəltmə qrup"ların təşkil oluunmasıdır. Bəzi psixoloqlar məhz bu amilə istinadən S.Aşın eksperimentinin nəticələrini real həyata tətbiqinin mümkün olmadığını söyləyirlər. Onların fikrincə, "düzəltmə qrup" real sosial qrup olmadığından bu nəticələr həyati situasiyalarda özünü təsdiq etdirə bilməz.

Bəzi mütəxəssislər belə hesab edirlər ki, şəxs üçün əhəmiyyətli tapşırıq onun real həyatdakı fəaliyyəti ilə bağlı məsələlərdən götürülməlidir. Əks təqdirdə isə bu, heç də şəxsin ("sadəlövh subyekt"in) real həyatda, onun üçün əhəmiyyətli məsələlərdə qrup təzyiqinə qarşı konformlu davranış nümayiş etdirəcəyini göstərmir. Bir çox insanlar düz xəttlərin uzunluğundakı fikir ayrılığına görə rəhbərliklə konfliktə girməzlər. A.V.Petrovskinin fikrincə, S.Aşın eksperimentində sadəcə iki variant konformlu və qeyri-konformlu davranış verilmişdir ki, bu da məqsədə uyğun deyil. Bu səbəbdən A.V.Petrovski iki deyil, üç davranış tipinin olması fikrini irəli sürür:

1. Qrupdaxili təlqin - qrupun fikrinin konfliktsiz qəbul olunması.

2. Konformluq - daxilən fikirlər fərqli olsalar da, zahirən şəxs qrupla razılaşır.

3. Kollektivizm - şəxsin qrup normalarını, standartlarını dərk etməsi və öz təfəkkürünə əsaslanaraq davranması.

Sınanılanların müsahibələrinə, əldə olunmuş nəticələrin təhlilinə əsasən eksperimentatorlar tərəfindən bir çox asılılıqlar, konformluğun səviyyəsini artıran və ya azaldan, fərdi xüsusiyyətlərin birbaşa təsir etdiyi amillər müəyyən olunmuşdur: konformluğun səviyyəsinin yüksək olması halında şəxsiyyətin intellektual səviyyəsinin aşağı olması, özünü dərketmənin inkişaf etməməsi, özünü qiymətləndirmənin aşağı olması və s. Eyni zamanda, “düzəltmə qrup”un laborator şəraitdə təşkil olunması “sadəlövh subyekt” üçün onun fikirlərinin nə qədər dəyərli olmasını müəyyən etməyə imkan vermir. Bundan başqa, sınanılanlara verilən tapşırığın onlar üçün nə dərəcədə əhəmiyyətli olması nəzərə alınmalıdır.

**Suallar və tapşırıqlar:**

*1. “Kiçik qrup” anlayışını izah edin.*
*2. Kiçik qrupun quruluşunu təsvir edin.*
*3. Kiçik qrupların hansı növləri var?*
*5. Üzvü olduğunuz tələbə qrupunun sosiometrik təhlilini aparın.*
*6. Qrup fəaliyyətində dinamik proseslərin gedişini izah edin.*
*7. “Sosial fasilitasiya” anlayışı haqqında layihə işləyin.*
*8. Qrup həmrəyliyi anlayışı nəyi ifadə edir?*
*9. Qrup təzyiqi hansı hallarda yaranır.*
*10. “Konformluluq” anlayışı nəyi ifadə edir?*

***Ədəbiyyat:***

1. *Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial Psixologiya. Bakı: "Qapp-Poliqraf" Korporasiyası, 2003, 356 s.*

2. *Əlizadə Ə.Ə. Uşaqlarda kollektivçilik hissinin tərbiyəsi. Bakı: 1963, 50 s.*

3. *Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı-1991, Maarif, 296 səh.*

4. *Petrovski A.V. Ümumi psixologiya. (Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev və İ.Ə.Seyidovun tərcüməsi). Bakı: Maarif, 1982, 494 s.*

5. *Veysova Z. Fəal/interaktiv təlim. Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNİCEF, 155 s.*

6. *Андреева Г.М. Социальная психология. М.: Аспектопресс 1999, 375 с.*

7. *Волков А.М., Волкова Н.В.. Деятельность: структура и регуляция: Психологический анализ. М.: МГУ, 1987, 216 с.*

8. *Дойч М., Джерарад Г. Психология влияния. М.: Питер, 2004, 212 с.*

9. *Кричевский Р. Л., Дубовская Е. М. Социальная психология малой группы.М.: ПРИОР, 2001, 174 с.*

10. *Левин К. Динамическая психология. М.: Сенсор, 2001, 572 с.*

11. *Лютова С.Н. Социальная психология личностьи. М.: Просвещение, 2002, 179 с.*

12. *Майерс Д. Социальная психология. СПб.: Речь, 2002, 567 с.*

13. *Почебут Л.Г., ЧикерВ.А.Организационная социальная психология. СПб.: Речь, 2002, 298 с.*

14. *Cassirer.E. Substance and funktion. Chicago, 1923, 188 p.*

15. *Hayes N. Psychology. London, 1999, 276 p.*

16. *Lewin K., Lippitt R., White R.K. Paterns of aggressive behaviour in exprementally created "social climates" // Journal of Social Psychology. 1939. №3, p. 271-299.*

17. www.allbest.ru
18. www.az.wikipedia.org
19. www.detskiysad.ru
20. www.eidos.ru
21. www.gazetamim.ru
22. www.koob.ru

# VII FƏSİL
# BÖYÜK QRUPLAR VƏ ONLARIN İDARƏ OLUNMASI

## 7.1. Böyük qrupların sosial-psixoloji xüsusiyyətləri və təsnifatı

Böyük qrup say baxımından məhdudlaşdırılmayan sosial birlikdir. Onun ayrıca davamlı dəyərləri, davranış normaları, sosial-nizamlayıcı mexanizmləri vardır. Belə qruplara siyasi partiyalar, etnik qruplar, istehsal birlikləri, ictimai təşkilatlar və d. daxildir. Böyük qruplar birdən-birə meydana çıxsalar da, onların formalaşması uzun bir mərhələdən keçir. Yönəldiyi istiqamət kütləvi hal alır. Kütlə və kütləvi hərəkatlar, məlum olduğu kimi, bir qayda olaraq müəyyən siyasi qüvvələrin kütlənin düşüncə tərzinə təsiri altında yaranaraq kütləvi ictimai fəallığa çevrilə bilir. Belə qruplara aşağıdakıları göstərmək olar:

1. Siniflər, sosial təbəqələr.
2. Etnik birliklər (xalq, millət).
3. Yaş qrupları (uşaqlar, yeniyetmələr, gənclər, yaşlılar).
4. Peşə fəaliyyəti üzrə birləşmiş qruplar (təhsil, tibb, hərbi, idman və d.).
5. Mənəvi-dini bağlılığı olan qruplar (inanclı insanları birləşdirən təriqətlər).

Uzunmüddətli fəaliyyət göstərən böyük sosial qruplar cəmiyyətin ictimai münasibətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bəzən başladığı hərəkatla cəmiyyətdə mövcud olan ictmai-siyasi quruluşu, hakimiyyətləri belə dəyişə bilir.

Hər bir böyük sosial qrup özünün quruluşuna malikdir. Bu qruplar davamlı təşkilatlar formalaşdıraraq eyni məqsəd ətrafında birləşirlər.

Böyük qrupların, cəmiyyətlərin yaranmasının özünəməxsus psixoloji prinsipləri vardır. Buna sosial psixologiyada qrup eyniliyi (identiklik) deyilir. Qrupu müəyyən edən xüsusiyyətlərin mahiyyəti ümumiyyətlə, mərkəzdən nizamlanır. Bu xüsusiyyətlərdən hər hansı birinin zəifləməsi onun ətrafında birləşənlərin mərkəzdən uzaqlaşmasına səbəb olur. Hər bir böyük sosial qrupun digər böyük qrupların xüsusiyyətlərindən fərqli olan mərkəzləşmə funksiyası yalnız həmin sosial qrupun mərkəzləşmə səbəblərinə aiddir.

Böyük sosial qrupların əlamətləri:

- ərazi;
- əxlaq;
- ənənələr;
- dil.

Bu cür əlamətlər, nəsildən-nəslə ötürülən uzun müddət davamlı olaraq yayımlanan ictimai (xüsusi) praktikada mövcuddur. Bir çox əsrlər boyu xalqın qazandığı təcrübə, öz milli xarakterini formalaşdırır. Hər bir insanın mülkiyyətinə çevrilir. Bu vəziyyət müəyyən həyat tərzinin formalaşması üçün əsas rolunda çıxış edir. Eyni zamanda, burada tələbatların, həyatın, ünsiyyət dairəsinin, maraqların və dəyərlərin xüsusi bir sistemi də vardır.

Böyük sosial qrupların əlamətləri bir qrup insanı birləşdirən xüsusi bir psixologiyaya malikdir. Hər bir insan üçün həyatın gerçəyi obyektiv şərtlərdir. Ətraf mühitin insana təsiri nəticəsində onun mənsub olduğu sosial qrupun tipik nümayəndəsi formalaşır.

Hər hansı bir cəmiyyətin əsas strukturu –cəmiyyəti müəyyən sistemlərə bölən sosial sinfi xarakterə malikdir: ictimai istehsalda bu istehsal vasitəsi ilə əlaqədar olaraq, ictimai əməyin təşkili və maddi mükafat səviyyəsinə görə münasibətləri nizamlayır.

Böyük sosial qrupun xüsusiyyətləri onu əmələ gətirən ictimai təbəqənin strukturunu əhatə etmədən tamamlanmır. Cəmiyyətdə belə təbəqə kimi əsasən ziyalılar hesab edilir.

Müasir sosial təbəqələşmə nəzəriyyələri cəmiyyətin formalaşması yalnız iqtisadi əsaslarla deyil, şəxsi mülkiyyət, gəlir, peşə, həm də prestij, güc və səlahiyyət sahəsi, imic və həyat tərzi kimi hesab edir. Bu modeldə üç səviyyə fərqlənir: ali (yuxarı sinif), orta (orta sinif), aşağı (aşağı sinif). Orta sinif bütün cəmiyyətin ən çox sayda və sabitliyidir.

Böyük sosial qrupların növləri:

• Qrupun ilk növü ictimai əhəmiyyətli bir əlamət, məsələn, demoqrafik (kişilər və qadınlar, gənclər və yaşlılar) birləşən cəmiyyətin obyektiv tərəfidir.

• Qrupun ikinci növü cəmiyyətin subyektiv tərəfidir ki, bu da məhkumluq və ya sədaqətlə (partiyalar, ictimai hərəkatlar, dini cəmiyyətlər) birləşir.

Böyük sosial qrupların növləri cəmiyyətin psixologiyası da fərqlidir. Böyük sosial qruplar, bir qayda olaraq, bütövlükdə cəmiyyət miqyasında mövcuddur.

Müəyyən bir fəaliyyətlə əlaqəli funksiyaları yerinə yetirmək üçün yaradılan sosial qrupları götürək. Məsələn, orta məktəb şagirdləri rəsmi hədəf sosial qrup (üzvlərinin məqsədi - təhsil) kimi hesab edilə bilər.

Yaşayış yerinə yaxın əsasında qurulan münasibətləri əsasında formalaşan ərazi (yerli) sosial qruplar. hər bir dövlətin təsiri sahəsində aid xüsusi əlaqələr (ümumi dil, adət-ənənələri, mədəniyyət və şəxsiyyət) ilə bağlı fərdlərin və qrupların toplusu - ərazi cəmiyyətin xüsusilə mühüm forması etnik qrupdur.

Cəmiyyət - əsas nəzəri və ya empirik tədqiqatların obyekti olan ən böyük sosial qrup.

Sosial qrup kimi adətən böyük qruplar arasında əsas yer tutan, sosial sahələr üzrə təhsili olan ziyalılar, dövlət qulluqçuları, əqli və fiziki əmək nümayəndələri, şəhər və kəndlərin əhalisinin əsas hissəsi:

Ziyalılar xüsusi təhsil tələb edən təcrübəli zehni işlə məşğul olan peşəkar bir qrupdur. Cəmiyyətdə ziyalıların rolu aşağıdakı funksiyaların yerinə yetirilməsi ilə müəyyən edilir:

- material istehsalının elmi, texniki və iqtisadi dəstəyi;
- istehsalın peşəkar idarə edilməsi, bütövlükdə cəmiyyət və onun ayrı-ayrı strukturları;
- mənəvi mədəniyyətin inkişafı;
- sosiallaşma;
- əhalinin zehni və fiziki sağlamlığının təmin edilməsi.

Ziyalılar elmi, sənaye, pedaqoji, mədəni və bədii (yaradıcı peşə nümayəndələri), tibbi, idarəetmə, hərbi və s. fərqlənirlər. Zehni və fiziki əmək qabiliyyəti insanlar maddi məzmun və iş şəraiti baxımından, təhsil səviyyəsi, ixtisasları və mədəni və gündəlik ehtiyacları baxımından cəmiyyətin digər qruplarına nümunə olurlar.

Şəhər əhalisi və kənd əhalisi yaşayış yerində fərqlənir. Onların fərqliliyi miqyasda, əhalinin mərkəzləşməsində,

istehsalın inkişaf səviyyəsində, mədəni, məişət istifadə, nəqliyyat, kommunikasiya obyektləri ilə doymuşdur.

Böyük sosial qruplar özündə ümumi məqsədləri və rolu ümumi təşkilati strukturları birləşdirir, lakin o, ayrı-ayrı insanlara bağlı deyil. Bu halda, ümumi məqsəd qarşılıqlı iştirak edən hər bir iştirakçının digər iştirakçılar tərəfindən əldə olunmasına müsbət təsir göstərdiyinə nail olmaqdır. Belə bir əməkdaşlığın olması böyük sosial qrupların üzvü olan insanların qarşılıqlı münasibətləri üçün əsas şərtdir.

İnsanların böyük qruplardakı qarşılıqlı münasibətləri öz dövrünün ictimai-iqtisadi münasibətlərindən qaynaqlanır, hər bir tarixi-ictimai mərhələdə özünəməxsus məzmun kəsb edir. Münasibət, tərəflərin sosial yönümü kimi özünü göstərir. Onun nəticələri şəxsiyyətin maraqlarında, tələbatlarında və ideallarında ifadəsini tapır. Belə aydın olur ki, qarşılıqlı münasibətlər mürəkkəb psixoloji qurulmadır. Bu səbəbdən cəmiyyətdə mövcud olan sosial qruplardakı insan münasibətləri, o cümlədən təhsil qruplarındakı qarşılıqlı münasibətlər özünəməxsus tərzdə formalaşır. Bir qrupda qəbul olunmuş, sosial normaya çevrilmiş qaydalar digər qrupda qəbul edilmir, yaxud qismən qəbul edilir. Buna səbəb, qeyd edildiyi kimi, qrup üzvlərinin fərdi-psixoloji xüsusiyyətləri, maraqları, sosial statusu, sərvət meylləri və d. şəxsiyyət komponentləri arasındakı fərqlərdir.

Kütlə psixologiyasına görə, insanların hədəfləri həmişə eynidir, amma adətən onlar yayılmırlar və onların kəsişməsində kəskin bir qarşılıqlı əlaqə yaranır. Ağırlıq fenomeni situasiyasında kortəbii kütləvi davranış, kollektiv davranış baş tutur. Mənəvi rezonans mexanizminə

kütləvi hadisələr zamanı müxtəlif növ kütləvi davranışlar, şayiələr, moda, kütləvi siyasi hərəkatlar və s. daxildir.

Kütləvi hadisələri tədqiq etmək sosial psixologiyanın maraq dairəsindədir. XIX əsrdə yaradılan iki müstəqil məktəb çərçivəsində onların sistematik tədqiqatı başlamışdır. Xalqların psixologiyası (M.Lazarus, H.Şteyn-tal, V.Vundt) və kütlə psixologiyası (G. Lebon, G. Tard, S. Şlegel, Pareto): Almaniya, Fransa, İtaliya alimləri. XIX əsrin sonu Rusiyada - M.G.Mixaylovski (subyektiv sosio-logiya), V.M.Bexterev (kollektiv refleksoloji), A.L.Çijev-ski (geliopsixologiya-kütləvi psixoz) tərəfindən tədqiq edilmişdir. Hazırda kütləvi hadisələr böyük qruplar, siyasi psixologiya, psixoloji maarifləndirmə, marketinq psixologiyasının, təhsil psixologiyasının əsas mövzusudur.

## 7.2. Böyük qrupun idarə olunmasının metodologiyası

İdarəetmə məqsədə uyğun qərarlar qəbul etməyə, idarə olunan obyekti təşkil etməyə, ona nəzarət etməyə, tənzimləməyə yönəldilmiş fəaliyyət, düzgün informasiya əsasında işin təhlili və onun yekunlaşdırılmasıdır. Bioloji, texniki, sosial sistemlər idarəetmə obyekti ola bilərlər. Sosial sistemlərin növlərindən biri ölkə, şəhər, rayon və s. miqyasında fəaliyyət göstərən sistemlərdir (təhsil, səhiyyə, mədəniyyət və d.).

İdarəetmənin mahiyyətini aşağıdakı prinsiplər əks etdirir:

- kollegiallıqla vahid rəhbərliyin əlaqələndirilməsi;
- idarəetmədə dövlət və ictimai əsasların əlaqə-ləndirilməsi;

- idarəetmədə elmilik, nəzəriyyə ilə praktikanın qırılmaz qarşılıqlı əlaqəsi;

- idarəetmədə planlılıq;

- idarəetmədə sistemlilik və komplekslilik;

- idarəetmədə səmərəliliyə, yekun nəticələrə nail olmaq meyili;

- idarəetmədə mərkəzləşmənin və mərkəzdənqaçmanın (əksmərkəzləşdirmənin) əlaqələndirilməsi;

- idarəetmədə demokratikləşdirmə və humanistləşdirmə.

İdarəetmə sisteminin strukturunda dörd səviyyəli idarəetmə vardır.

I səviyyə – dövlət orqanı və ya kollektiv tərəfindən seçilmiş məktəb direktoru, məktəb şurasının, şagird komitəsinin, ictimai təşkilatların rəhbərləri. Bu səviyyə məktəbin inkişafının strateji istiqamətlərini müəyyən edir.

II səviyyə – rəhbər və onun müavinləri, əməkdaşlar, ictimai faydalı əməyin təşkili üçün məsul şəxslər, inzibati-təsərrüfat işləri üzrə köməkçilər, həmçinin özünüidarədə iştirak edən orqanlar və birliklər.

III səviyyə – sistemi əmələ gətirən müəssisələrin əməkdaşları özləri prosesi idarəetmə funksiyasını yerinə yetirirlər.

*IV səviyyə* – qarşılıqlı təsir obyekti olan şəxslər burada eyni zamanda öz inkişafının subyekti kimi çıxış edirlər.

Yuxarıda göstərilən iyerarxik sxemdən görünür ki, idarəetmənin hər aşağı səviyyəli subyekti yuxarı səviyyəli idarəetmə üçün idarəetmənin obyektidir.

Böyük qrupları idarəetmə sisteminin təşkilinin başlıca vəzifələrindən biri həmin vəzifələrin formalaşdırılması, təşkilatın fəaliyyətdə olması məqsədinin

müəyyənləşdirilməsidir. Bu zaman idarəetmənin məqsəd və iş prinsipləri müəyyənləşdirilməli, fəaliyyətin nəticələri açıqlanmalı və rəqabətə dözümlülüyü dəqiqləşməlidir.

*İdarəetmədə müəyyən qanunauyğunluqlar var.* İdarəetmə qanunları cəmiyyətin qeyri-tipik qanunları hesab edilir. İdarəetmənin qanunauyğunluqları ictimai istehsal sahəsində istifadə olunaraq, bir sıra xüsusiyyətlərə malikdir: insan qruplarının tələbatlarının və ya ictimai tələbatın üzə çıxarılması, tələbatların davamlılığı, yaxud təkrar olunması, idarəetmə obyekti və ya subyektinin bir-birindən kəmiyyət asılılığı, hadisələr arasında əlaqələrin üzə çıxarılması.

*İdarəetmə prinsipləri*

İdarəetmə nəzəriyyəsinin əsas prinsiplərinin tətbiqi idarəetmənin effektivliyini təmin edir, az xərclər və resurslarla effektiv nəticələr əldə etməyə imkan yaradır.

XIX əsrin 90-cı illərində menecment sahəsində yeni idarəetmə prinsipləri formalaşmağa başladı.Yeni prinsiplər inzibati qaydaları sosial-psixoloji qaydalarla əvəz etdi. Bununla da insanlara sosial-psixoloji qaydalar insani münasibətlərin üstünlüyünü təmin etdi.

*İdarəetmənin müasir prinsipləri*

1. Adaptivlik – xarici mühitdə baş verən dəyişikliklərə vaxtında reaksiya verilməsi və idarəçilikdə onların nəzərə alınması.

2. Əməli əməkdaşlıq – şagird, valideyn və pedaqoji kollektiv arasında əməli ünsiyyət, xüsusən onlarla rəhbərlər arasında xoş münasibətlərin qurulması.

3. Xoş münasibətlər- hərtərəfli effektiv münasibətlərin (kommunikasiya) qurulması.

4. Loyal münasibət – bütün işləyənlərə menecerlər tərəfindən loyal münasibətlər, normal insani münasibətlərin qurulması.

5. Motivləşmənin təmin olunması – insanlarla elə iş metodları tətbiq etməkdir ki, onlar öz işlərindən razı qalıb, fərəh hiss etsinlər.

6. Məsuliyyət hissinin olması – təhsil müəssisəsində çalışanların və təhsil alanların hər biri məsuliyyət hiss etsin bu da korporativ mədəniyyətin formalaşmasına imkan yaradar.

7. Paternalizm – kollektivin məişət şəraitinin yaxşılaşması üçün rəhbərlərin qayğı göstərməsi.

8. Perspektivlik – təhsil müəssisəsinin gələcəkdə dəqiq yeri, rolu və iş şəraitinin strateji plana uyğun təsəvvür edilməsi və həyata keçirilməsi.

9. Özünüinkişaf – şəxsi işlərin keyfiyyəti və şəxsiyyətin daima təkmilləşməsi.

10. Razılaşdırılma – menecerlərin ayrı-ayrı qruplarının fəaliyyətində bilavasitə iştirakı razılaşmaların əldə edilməsi şərtidir.

11. Nailiyyətlərin əldə edilməsində iştirak – hər bir işçinin əldə edilmiş nailiyyətlərdə rolunun olması onların maddi maraqlarının yaranmasına şərait yaradır.

12. Düzlük – insanlara düz münasibət, ictimai mənəviyyatın normalarına (qaydalarına) əməl olunması.

13. Etik münasibət – əməli etik qaydalara və təhsil müəssisəsinin daxili fəlsəfəsinə riayət edilməsi.

*İdarəetmə prosesi (texnologiya).* İdarəetmə prosesi (texnologiya) iki müstəqil məna kəsb edir. Menecmentin bir bölməsi olub, informasiyaların araşdırılması, qərarların hazırlanması və texniki vasitələrlə həyata keçirilməsi

prosesidir. Bu proses texnologiya kimi idarəetmə əməliyyatlarının, qəbul edilmiş qərarların ardıcıl, məqsədyönlü həyata keçirilməsidir. İdarəetmə prosesi (texnologiya) təşkilatı proqramlar, qəbul edilmiş qərarlar vasitəsilə həyata keçirilir.

*İdarəetmə qərarları*. İdarəetmə qərarları menecerin fəaliyyət sahəsidir. Onun vasitəi ilə menecer problemləri həll edir, sosial-iqtisadi sistemin normal fəaliyyətini müəyyənləşdirir. Bu, idarəetmə prosesinin uyğun mərhələsi olub, əmək fəaliyyətinin məqsədyönlülüyünün təmin edilməsi və əməkdaşların fəaliyyətinin razılaşdırılması ilə nəticələnir. Qərar qəbul etmə prosesi məqsədin qoyuluşu, qərar layihələrinin hazırlanması və razılaşdırılması, qəbul edilməsi, həyata keçirilməsi və nəzarətin təşkili deməkdir. Qərar qəbul etmə prosesinin modelləşməsi nəticələrin kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilməsi deməkdir. Qərar qəbul etmə prosesindən professional şəkildə istifadəolunması (tətbiqi) menecerə imkan yaradardı ki, qərarların qəbul olunmasında ziddiyyət aradan qalxsın, razılaşmalar əldə edilsin və nəhayət, qəbul edilmiş idarəetmə qərarları, təcrübə və biliklərin kollektiv tərəfindən istifadə olunması təmin edilsin.

Mühüm idarəetmə qərarları qəbul edilməsində effektiv nəticənin əldə edilməsi üçün menecerin təcrübəsi, rəhbərlik etdiyi sahəni bilməsi, müasir texnologiyalardan istifadə etmə bacarığının olması böyük əhəmiyyət kəsb edir.

Qərar qəbul etmə prosesinin modelləşdirilməsində modelin aşağıda göstərilən əsas elementləri haqqında məlumata malik olmaq vacibdir:

- problemli situasiya qərar qəbul edilməsini tələb edir;
- qərar qəbul edilməsinə vaxt tələb olunur;
- obyekt haqqında alınmış informasiyaların qiymətləndirilməsinə ehtiyac yaranır;
-qərarın həyata keçirilməsi üçün resurslar lazım olur;
- xarici və daxili mühit faktorları nəzərə alınmalıdır;
- qərarın alternativ variantları olmalıdır;
- qəbul edilmiş qərarların yerinə yetirmə nəticələrinin qiymətləndirmə kriteriyaları olmalıdır.

Hazırlanmış model obyektin xüsusiyyətlərinə və stukturuna uyğun olmalı və həyata keçiriləcək vəzifələrin xüsusiyyətlərini nəzərə alınmalıdır.

## 7.3. Böyük qruplarda idarəetmənin strukturu

Böyük qruplarda idarəetmənin strukturu aşağıdakı kimi müəyyənləşir.

*Təşkilatı struktur* – idarəetmə bölmələrinin bir-biri ilə əlaqəli olması və bütöv tərkibdə birləşməsidir.

*Funksional struktur* – idarəetmə funksiyalarının rəhbərliklə və ayrı-ayrı bölmələr arasında bölünməsidir.

*Rollar üzrə struktur* – kollektivin istehsalatda yaradıcı prosesdə kommunikativ və əxlaqi prosesdə iştirakıdır.

*Sosial struktur* – kollektivi sosial göstəricilərə uyğun, o cümlədən yaşa, cinsə, ixtisas və kvalifikasiyaya, milli mənsubiyyətə, təhsilə və d. görə xarakterizə edir

*Ştat üzrə struktur* – bölmələrin və vəzifələrin tərkibi, vəzifə maaşlarının miqdarı və əmək haqları fondu. İdarəetmə hissəsi təşkilatın strukturunun müstəqil bir

hissəsi olub idarəetmə aparatından və istehsal bölmələrindən ibarətdir.

*İdarəetmə (səviyyə) pilləsi* – idarəetmə bölmələrinin birliyi olub onların rəhbər bölmələrdən məsafə baxımından uzaqda olmasıdır.

*İdarəetmə aparatı* – idarəetmə sistemində idarəedici əməkdaşlar kollektivi olub, bölmələrin fəaliyyətini koordinasiya etmək hüququna malikdir.

Təşkilatı struktur idarəetmədə mühüm əhəmiyyətə malikdir. Təşkilatı strukturun quruluş prinsipləri aşağıdakı kimi xarakterizə olunur:

- *çeviklik* – bu pedaqoji prosesdə baş verən dəyişikliklərlə əlaqədar islahatların aparılmasıdır;
- *mərkəzləşmə* – təhsil müəssisənin şöbə və ayrı-ayrı bölmələrində əməkdaşların funksiyalarının mərkəzləşməsi və müəyyən funksiyaların operativlik naminə aşağı bölmələrə ötürülməsidir;
- *ixtisaslaşma*- hər bir bölməyə müəyyən idarəetmə funksiyalarının verilməsidir;
- *hüquq və məsuliyyət vahidliyi;*
- *qənaətcillik* – minimal xərclə idaəetmə strukturunu saxlamaqdır.

*İdarəetmənin funksiyaları*

Böyük qrupların idarə edilməsi prosesi 3 əsas funksiyaya görə ayırd edilir:

1. İdarəetmə proseslərinin məzmununu əks etdirən funksiyalar.
2. İcra olunan işin məzmununu əks etdirən funksiyalar.
3. Fəaliyyətin məzmununu əhatə edən funksiyalar.

İdarəetmə proseslərinin məzmununu əks etdirən

funksiyalar qrupu müəyyən mərhələlərə bölünməklə, məzmuna görə əsas funksiyalar hesab edilir. Əsas idarəetmə funksiyaları proqnozlaşdırma, təşkiletmə, tənzimetmə, koordinasiya, informasiyanın toplanması və təminatı, operativ rəhbərlik, nəzarət və uçotdur.

İcra olunan işlərin məzmununa görə idarəetmə funksiyaları müxtəlif olur. Bunlar ümumi, xüsusi və köməkçi funksiyalara ayrılır.

*Proqnozlaşdırma* idarəetmə funksiyasının bir hissəsidir. Proqnozlaşdırma ilə idarəetmənin başlıca məqsədi sistemdə baş verəcək dəyişiklikləri əvvəlcədən görməkdən, real vəziyyəti, təhsil haqqında uzun müddətli qərarları düzgün qiymətləndirməkdən ibarətdir. Proqnozlaşdırma idarə olunan sistem haqqında dərin elmi mühakimə vasitəsidir. Proqnozlaşdırma idarəetmənin məqsədləri üçün istifadə edilir.

Proqnozlaşdırma özündə təhsil sisteminin gələcək qlobal problemlərini və mürəkkəb məsələləri də əhatə edir. Proqnozlaşdırmanın hansı formalarından istifadə olunmasının düzgün müəyyən edilməsinin böyük əhəmiyyəti vardır.

Təhsilin idarə edilməsinin funksiyalarından biri də *təşkiletmədir.* Bu funksiya təlim-tərbiyə prosesinin həyata keçirilməsi istiqamətlərinin təşkilində mühüm rol oynayır. İdarəetmə nəzəriyyəsi, idarəetmə texnikası və idarəetmə metodları ilə birlikdə idarəetmənin təşkili idarəetmə elminin mövcud 4 ünsüründən, bölməsindən birini təşkil edir. Bəzi mütəxəssislər təşkiletməni idarəetmə elminin predmeti hesab edirlər. İdarəetmə orqanlarının təşkilatçılıq qabiliyyəti, təlim-tərbiyə sahəsindəki iş fəaliyyəti təşkiletmə hesab edilir.

Təhsilin idarə edilməsinin əsas funksiyalarından biri də *koordinasiyadır.* "Koordinasiya" latın sözü olub, hər hansı bir hadisənin razılaşdırılmış, müəyyən uyğunluğa gətirilməsi mənasında işlənilir. Koordinasiya funksiyası ən çox planlaşdırma funksiyası ilə əlaqəlidir. Koordinasiya təhsil sahəsində bütün fəaliyyət və səylərin əlaqələndirilməsini tələb edir. Bu, ayrı-ayrı işlərin, onların mərhələlərinin əlaqələndirilməsi ilə bağlıdır. Koordinasiya sistemin üzvlərinin, sistemin iştirakçılarının, kollegial idarəetmə orqanlarının fəaliyyətinin əlaqələndirilməsini özündə əks etdirir.

Koordinasiyalı fəaliyyət onun təşkilatı formalarının seçilməsi və tətbiq edilməsi ilə əlaqədardır. Koordinasiya əlaqə formalarının təlim-tərbiyə proseslərində düzgün həyata keçirilməsi demokratik mərkəziyyət, təhsili idarə edən orqanlar arasında əlaqə, təhsil müəssisəsində ümumdövlət miqyaslı proseslər kimi idarə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi ilə bağlıdır.

## 7.4. Böyük qrupların idarə olunması metodları

İdarəetmə metodu-idarəçilik fəaliyyətinin icra edilməsi vasitəsidir. İdarəetmə metodları çoxcəhətli və müxtəlifdir. Həmin metodlar qlobal və lokal məzmuna malik olmaqla öz konkret məzmununa, onların idarəetmə obyektinə, adamlara təsiretmə xarakterinə, təşkilati formalarına və s. görə fərqlənirlər.

Təhsilin idarə edilməsində metodlar idarə olunan obyekt və proseslərin, hadisələrin xarakterindən, məzmunundan asılı olaraq seçilir.

İdarəetmə metodu idarəetmə subyektinin müəyyən məqsədi təmin etmək, ona nail olmaq və təsir göstərmək vasitələrinin, imkanlarının, qüvvələrinin məcmusundan ibarətdir. Hər hansı vəzifənin, tapşırığın, sərəncamın, təlimatın həlli yolları və onların yerinə yetirilməsi də metod sayılır.

Bu vasitə ilə məqsədə çatmaq üçün təhsil iştirakçılarını fəallaşdırmaq, istiqamətləndirmək, tənzim etmək, təşkil etmək mümkün olur. İdarəetmə metodları mahiyyətinə görə idarəetmə fəaliyyətinin mühüm vasitəsi hesab olunur, idarəetmənin subyekt tərəfini əks etdirir, müəyyən olunmuş qaydalar və prinsiplər üzrə təcrübədən istifadə edilir.

Təhsilin idarəedilməsi metodları idarəetmənin təşkilinə, təlim-tərbiyə prosesinin ahəngdarlığına və səmərəliliyinə çox böyük təsir göstərir. Bu metodlar işləri həyata keçirən kollektivin fəaliyyətinə, onların yaradıcılıq, işgüzarlıq, səriştəlilik fəallığının yüksəlməsinə, səfərbər olmasına, fəaliyyət proqramının vaxtında yerinə yetirilməsinə kömək edir.

İdarəetmə metodları sistemi vəzifələrin hansı vasitə və yollarla həyata keçirilməsini müəyyən edir. İdarəetmə metodları mahiyyətinə görə idarəetmə fəaliyyətinin mühüm vasitəsi hesab olunur, subyekt tərəfini müəyyən edir, müəyyən olunmuş qaydalar və prinsiplər əsasında işdə istifadə edilir.

İdarəetmə nəzarət metodları aşağıdakılardan ibarətdir:

1. Əhatə dairəsi və işləmə yerinə görə.
2. Həyata keçirilmə tərzinə görə.

Əhatə dairəsi və işləmə yerinə görə nəzarət metodlarını üç qrupa ayırmaq olar: ümumi metodlar, xüsusi

metodlar və spesifik metodlar. Bu metodlar müxtəlif şəkillərdə həyata keçirilir.

İcra tərzinə görə nəzarət metodlarını aşağıdakı qruplara ayırmaq olar: şifahi, yazılı, əməli təcrübi, qrafik və testlə yoxlama.

Ümumi metodlar nəzarətin bütün sahələrini əhatə edir. Ümumi metodlara aiddir: müşahidə, müsahibə, anketləşdirmə, statistik təhlil, hesabat və məlumatların dinlənilməsi, sənədlərin araşdırılması.

*Müşahidə metodunun* aşağıdakı növləri həyata keçirilir: müşahidəsi, müxtəlif tədbirlərin müşahidəsi, sistemdə fəaliyyət göstərən bütün təşkilatlar tərəfindən keçirilən toplantıların müşahidəsi.

*Müsahibə metodundan* tətbiq olunan hər hansı nəzarət formasının həyata keçirilməsində istifadə edilir və digər metodlarla, o cümlədən, müşahidə metodları ilə uzlaşdırılır. İdarəetmədə müsahibə metodları daha geniş tətbiq edilir və onun bütün sahələrini əhatə edir.

*Anketləşdirmə* əsasən sosioloji tədqiqat metodu olub, müəssisələrdə məhdud dairədə işlənir və vəziyyəti müəyyənləşdirməkdə işə kömək edir.

*Statistik təhlil* metodu, nəzarət formasının məqsədinə uyğun olaraq faktlara əsaslanmaqla müəyyən nəticələr çıxarmağa imkan verir. Statistik təhlil bütün nəzarət formalarında həyata keçirilir və digər metodlarla qarşılıqlı şəkildə tətbiq edilir.

*Hesabat və məlumatların dinlənilməsi* nəzarət üçün xarakterik olan və onun bütün sahələrini əhatə edən ümumi metodlar qrupuna aiddir.

Rəhbərlərin yarımillik və illik hesabatlarının dinlənilməsi və təhlili müəssisəsinin işinin bu və ya digər

sahəsində real vəziyyəti aşkar etməyə kömək edir. Müəssisədə müxtəlif sahələrə cavabdeh olan şəxslərin hesabat və məlumatlarını dinləməklə, ilkin təsəvvür əldə olunur. Bunun əsasında nəzarətin əhatə dairəsini, forma və müddətini müəyyənləşdirməyə imkan yaranır.

Xüsusi metodlar nəzarətin bütün sahələrini əhatə etmir. Belə metodlar nəzarət üçün xarakterik olmaqla qarşıya qoyulmuş məqsədə nail olmağa kömək edir.

*Təşkilati təsir metoduna aşağıdakılar daxildir:*

- təşkilati reqlamentləşdirmə;
- təhsil müəssisəsi haqqında nizamnamə;
- müəssisədə təşkilatçılıq və idarəçiliyin quruluşu;
- müəssisədəki kollegial idarəetmə orqanlarının əsasnaməsi;
- iştirakçılarının vəzifə təlimatları;
- təşkilati işi planlaşdırma, layihələşdirmə və təqdimetmə;
- metodiki təlimat, göstəriş və təkliflər.

*Sərəncam təsiri metoduna daxildir:*

- sərəncam təsiri;
- direktiv, qərar, əmr, sərəncam və şifahi tapşırıq;
- təsirin operativ müzakirə forması;
- qərarın operativ müzakirəsi;
- tapşırıqların nəticələrinin ümumiləşdirilməsi.

*Qərarların qəbul edilməsi aşağıdakı tələbləri ödəməlidir:*

- qərarların dövlət siyasi, sosial və iqtisadi siyasətinə uyğunluğu;
- qərarların Azərbaycan Respublikası Konstitusiyasının mövcud qanunlara və digər direktiv və normativ aktlara uyğunluğu;
- qərarların elmi xarakter daşıması;

- qərarların ümumdövlət mənafeləri ilə yanaşı, yerli şəraitin xüsusiyyətlərini özündə əks etdirməsi;
- hər bir idarəetmə orqanının yalnız özünün səlahiyyəti çərçivəsində qərar qəbul etmələri;
- qərarların müəyyən olunmuş qaydada, kollegial halda və zəruri halda qəbul edilməsi;
- qərarların obyektiv informasiyalara əsaslanması;
- qərarların konkretliyi;
- qərarların müəyyən nüfuza malik olması, adamların ona inamı;
- qərarların ayrı-ayrı obyektlər üzrə differensiallaşdırılması;
- qərarların dilinin, üslubunun aydın və yığcam olması.

*Sosial metodlar aşağıdakılardır:*

- kollektivin əmək qabilliyi və peşə səriştəliliyi səviyyəsinin müəyyənləşdirilməsi;
- ixtisasın artırılması və bilik səviyyəsinin yüksəldilməsi;
- əmək şəraitinin yaxşılaşdırılması və sağlamlığının mühafizə edilməsi;
- mənəvi stimullaşdırma;
- ictimai fəallığın inkişaf etdirilməsi və ictimai rəy.

*Psixoloji metoda daxildir:*

- Azərbaycan Respublikasının təhsil qanunundakı prinsiplər əsasında demokratik rəhbərlik üslubu;
- müəssisə rəhbərliyinin sosioloji-psixoloji cəhəti;
- psixoloji iqlim və işin səmərəliliyi;
- münaqişənin sosioloji-psixoloji cəhətləri;
- liderlik davranışı və onun diaqnozlaşdırılması;
- rəhbərlik-tabeçilik münasibətlərinin optimallaşdırılması;

- sosial psixologiya və təhsil iştirakçıları arasındakı münasibətlərin təşkili;
- əməkdaşların psixologiyası ilə tanışlıq;
- başqasının fikrinə hörmət etmə;
- tənqidə və özünütənqidə, eləcə də aşkarlığa şərait yaratmaq;
- rəhbər işçilərinin zəif psixoloji hazırlığının aradan qaldırılması;
- əmək və ictimai fəallığının stimullaşdırılması.

*Optimallaşdırma metoduna daxildir:*

- kriteriyaların müəyyənləşdirilməsi;
- şəraitin nəzərə alınması;
- imkanlı variantın seçilməsi (seçmənin məqsədi, seçmə şərtləri və seçmə mexanizmi).

## 7.5. İdarəetmədə liderlik və rəhbərlik problemi

Sosial psixologiyada "rəhbərlik" və "liderlik" anlayışları bilavasitə "idarəetmə" anlayışı ilə qarşılıqlı əlaqədə öyrənilir. Bu anlayışlar özünün sosial-psixoloji mahiyyətinə görə yeni bir anlayış deyildir. Rəhbərin idarəetmə üçün xarakterik olan ümumi xüsusiyyətlərinə iqtisadi, sosial-psixoloji, texniki-təşkilati və hüquqi sahələri də aid edilərək aşağıdakı cəhətləri göstərilir:

*İqtisadi.* Özündə istehsalın idarə edilməsi prosesini əks etdirir ki, nəticədə qarşıya qoyulmuş məqsədə səmərəli nail olmaq üçün maddi və əmək ehtiyatlarının birgə əlaqəsini təmin edir.

*Sosial-psixoloji.* Qarşıda duran məqsədə çatmaq üçün firmanın işçiləri ilə rəhbərlik arasında qarşılıqlı münasibət və sosial funksiyaların icrası daxildir.

*Təşkilati-texniki.* Bura mövcud şəraitə düzgün qiymət vermək; məqsəd və vəzifələrin seçilməsi; seçilmiş məqsədə çatmaq üçün müvafiq strategiyanın məqsədyönlü şəkildə işlənib hazırlanması; səmərəli layihələşdirmə və işin təşkili; fəaliyyətə rəhbərlik və nəzarət; işçilərin sosial-təşkilati və psixoloji motivlərinin təminatı, eləcə də iş icraçılarının maddi maraqlandırılması daxildir.

*Hüquqi.* Dövlət, siyasi və iqtisadi institutların quruluşu, qanun üzrə apardıqları siyasəti əks etdirir.

İdarəetməni növü və ardıcıllığına görə üç mərhələyə ayırırlar. Bunlar strateji idarəetmə, operativ idarəetmə və nəzarətdir.

Strateji idarəetməyə - idarəetmənin məqsədini dəqiqləşdirmək; fəaliyyətin amillərini nəzərə almaqla proqnozlaşdırılması; perspektiv planlaşdırma daxildir.

Operativ idarəetməyə - strateji idarəetmə fəaliyyəti üzrə tədbirləri həyata keçirmək daxildir. Həmin fəaliyyətə: müvafiq idarəetmə quruluşunu yaratmaq və lazımi ehtiyatları əldə etmək; yeni idarə quruluşu şəraitində rəhbərliyin sərəncam vericilik xüsusiyyətlərini saxlamaq aid edilir.

Nəzarət mərhələsində əldə edilmiş nailiyyətlərin təhlili, yeni idarəetmə mərhələsi üçün ilkin məlumat kimi çıxış edir.

Səmərəli sayılan idarəetmə yuxarıda göstərilən bütün idarəetmə prosesi növlərinin və pillələrinin vahid iqtisadi, texniki-təşkilati, sosial-psixoloji istiqamətdə həyata keçirilməsini tələb edir.

İdarəetmənin psixologiyasında rəhbərlik məsələləri öndə durur. Burada ümumi psixologiya, sosial psixologiya, şəxsiyyətlərarası münasibətlər, pedaqoji fəaliyyət və ünsiyyət, yaş psixologiyası, gender məsələləri, əmək psixologiyası, hüquq psixologiyası kimi bir çox sahələr əhatə olunur. Təhsil müəssisələrinə rəhbərliyin təşkili tarixən daha çox pedaqoji psixologiya ilə bağlı olub. Hazırda isə rəhbərlik məsələləri sosial psixologiya, sosiologiya, kulturologiya, menecment psixologiyası, siyasi psixologiya elmləri tərəfindən qarşılqılı əlaqədə yaranan əhatəli qaydada öyrənilir.

Müvafiq qaydada, idarəetmə sistemində əsas qüvvə - rəhbərdir. Bu baxımdan rəhbərlərin idarəetmə üslubu fərdiyyət psixologiyasında istifadə edilən müasir psixodiqanostik metodların köməyi ilə öyrənilməli, onların tələbat, motiv, maraq və məqsədlərinin məzmunu təhlil olunmalıdır. Bu spesifik xüsusiyyətləri ayırd etməklə rəhbər işçilərin fəaliyyətinin zəruri şərtlərini müəyyənləşdirmək mümkündür. Eyni zamanda, bu yolla idarə edənlərin koqnitiv imkanlarının: əqli proseslər, qərar qəbulu, icraya nəzarət və s. məsələlərin psixoloji səviyyəsini aşkar etmək mümkündür.

Rəhbərlik idarə edənlərin idarə olunanlara təsir göstərmək, onların fəaliyyətini istiqamətləndirmək, nizama salmaq, dövlətin, cəmiyyətin, nəhayət qrupun maraqların uyğun olaraq insanların qarşılıqlı münasibətlərində mədəni, sosial və hüquqi qaydalarla tənzimlənən sosial əlaqə formasıdır. Bu əlaqə fizioloji, sosial-psixoloji, etnik, iqtisadi-siyasi təsirlərdən əmələ gələn özünəməxsus komponentlərlə qurulur. Həmin əlaqələrdə iqtisadi-siyasi və mənəvi-psixoloji amillərin uyğunluğu xüsusi

əhəmiyyət kəsb edir. Onların əsasında idarəetmənin psixologiyası dayanır.

"Liderlik" və "rəhbərlik" anlayışları oxşar, lakin fərqli quruluşuna görə təhlil olunur. Onlar yaxın olsa da müxtəlifdir. Burada iki əsas qanunauyğunluq var: liderliyin spesifik tipologiyası və rəhbərliklə liderlik rolları arasındakı münasibətlər.

Liderliyin bir neçə tipologiyası var. Bu tipologiya qrupların xüsusiyyətlərinə görə aparılır. Məsələn, R.Laykert liderliyin 4 sistemini (üslubunu) təklif edir.

- İstismarçı-avtoritar sistem. Bu üslubda olan rəhbərlər avtokratın ifadəli xarakteristikasına malikdirlər.
- Xeyirxah-avtoritar sistem. Onlar tabelikdə olanlarla avtoritar münasibətləri saxlamaqla qərar qəbulunda iştirak etməyə imkan verirlər. Motivasiya mükafatlandırma və cəzalandırma ilə yaradılır. Bu sistemə malik olan rəhbərlər xeyirxah - avtokrat tipinə uyğun gəlirlər.
- Konsultativ sistem. Burada rəhbərlər tabe olanlara etibar edirlər. Rəhbər və tabe olanlar arasında ikitərəfli ünsiyyət və konsultativ əlaqələr var. Mühüm qərarlar yuxarıda qəbul olunur, ancaq tabe olanlara bir çox konkret qərarların qəbulu həvalə edilir.

B.D.Parıgin liderin rolunu üç kriteriyaya görə ayırd edir:

1. Fəaliyyətin məzmununa görə: lider-ilhamverici və lider-icraçı.
2. Fəallıq üslubuna görə: avtoritar və demokratik lider.
3. Fəaliyyətin xarakterinə görə: universal və situativ lider.

L.İ.Umanski liderliyin 3 kriteriya əsasında kombinasiya edilən 6 tipini ayırd edir: təşkilatçı, təşəbbüskar,

erudit, emosional əhval-ruhiyyənin generatoru, bacarıqlı və emosional cəlbedici lider.

Hər iki yanaşma iki əsas liderin iki əsas tipini özündə birləşdirir: instrumental və emosional. Birincisi şəxsi qabiliyyətlər əsasında qrup işində ayırd edilir. İkincisi qrup üçün münasib olan, onlar arasında yaxşı qarşılıqlı münasibətlərin yaranmasına kömək edən şəxsi keyfiyyətlərə görə.

F.P.Tonkix liderliyin daha bir neçə tipini də müəyyənləşdirmişdir.

*Diaqnost* - layihənin və mürəkkəb situasiyaların güclü və zəif tərəflərini görərək qiymətləndirir. Başqlarının səhvlərinə qarşı dözümlüdür.

*Fanatik* - özünün elmi işinə bağlıdır, başqalarından da bu cür münasibət tələb edir, kəskindir.

*Pioner* - təşəbbüskardır, perspektiv problemlərə, başqalarının stimulaşdırıcı fəaliyyətinə tez bələdləşir. Gələcəyi parlaqdır, vicdanlıdır, yığımcıldır, erudisiyalıdır, rəhbərliyə meyillidir, çətinlikləri sevmir.

*Erudit*- dərin hafizəsinə, detallara yüksək diqqətinə görə fərlənir. Özünün erudisiyasını nümayiş etdirməyi sevmir. Öz mühakimələrində vicdanlı, pedantik, ancaq qətiyyətsiz olmağa üstünlük verir.

Texnik - həll edə bilməyəcəyi problemləri öhdəsinə götürmür. Kolleqalarının davranışındakı xırdalıqlara anlayışlı yanaşır, vicdanlı və zarafatcıldır.

Müstəqil – yalnız özünə arxayındır, kollektiv elmi işlərə skeptik yanaşır.

İdarəetmə psixologiyasında iki kriteriyanın birləşməsi yolu ilə daha beş idarəetmə üslubu da ayırd edilmişdir.

- Birləşmiş idarəetmə (“yoxsulluq qorxusu”). Rəhbər yalnız işdən qovulmamaq üçün bəs edəcək qədər minimum səviyyədə səy göstərir, iş görür və başqalarından da bunu gözləyir.
- Şəhər ətrafı klub ruhunda idarəetmə (“istirahət evi”). Rəhbər tabe olanlarla dotluq münasibətlərinə mərkəzləşərək məsələlərin daha münasib icra olunmasına cəhd göstərmir.
- Hakimiyyət tabeolma (“dominantlıq”). Rəhbər təşkilatda yaxşı münasibətlərin qorunub saxlanmasına az diqqət ayırır, daha çox səmərəli fəaliyyəti təmin edir.
- Təşkilati idarəetmə (“təşkilat”). İşdə lazım olan keyfiyyəti təmin etməkdən ötrü rəhbər səmərəlilik və yaxşı əxlaqi əhval-ruhiyyəyə üstünlük verir.
- Qrup idarəetməsi (“komanda”). İcraçılar şüurlu olaraq təşkilatın məqsədinə yönəlirlər. Rəhbər buna eyni vaxtda işin səmərəliliyinə və tabe olanlara diqqət ayırmaqla nail olur. Bu rəhbərin daha uğurlu üslubudur. Belə üslub yaxşı insan münasibətlərində və təşkilatın funksiyalaşmasında yüksək nəticələri təmin edir.

İdarəetmə təcrübəsində rəhbərliyin və liderliyin eyni şəxsdə birləşdirilməsi optimal variant hesab olunur. Əgər rəhbərliyin mövqeyi işgüzar liderin mövqeyi ilə düşürsə, bu mümkündür. Rəhbərin rolunun emosional liderin rolu ilə üst-üstə düşməsi isə neqativ faktor hesab edilir.

Təşkilatçı - qeyri-rəsmi qrupların rəsmi strukturudur. Onu optimal obrazda qurmaq üçün lider kimi ayırd edilən insanların rəbər vəzifəyə irəli sürülməsi lazım gəlir.

Rəhbərlik və liderlik idarəetmə nəzəriyəsində daha çox inkişaf etmiş istiqamətdir. Bu sahədə çoxlu tədqiqatlar aparılır.

## 7.6. İdarəetmədə rəhbərlik üslubu

Son illərdə təhsil sistemində “fərdilik”, “yaradıcı fərdiyyət”, “fərdi üslub”, “pedaqoqun şəxsi üslubu”, “rəhbərlik üslubu” kimi anlayışlar meydana gəlmişdir. Həmin anlayışların hər birinə pedaqogikada ayrılıqda baxılsa da, ümumilikdə iş üslubuna fərdiliyin səciyyəvi əlaməti kimi yanaşılır. Burada bizi maraqlandıran konkret anlayışlar isə sosial elmlərdə tez-tez rast gəldiyimiz və menecmentin fəaliyyətində əsas səmərəlilik göstəricilərindən biri sayılan və məhz pedaqoqlara xas olan fərdi üslubdur. O baxımdan biz fərdi üslubu: pedaqoqa, o cümlədən rəhbərə, təhsil menecmentinə xas olan pedaqoji hərəkətlərin, rəftar və münasibətlərin, ünsiyyətin, idaretmə yanaşmasının və tərzinin özünəməxsus xüsusiyyəti kimi nəzərdən keçirəcəyik.

Artıq sosial elmlərdə müəssisə rəhbərlərinin iş üslubunun səmərəlilik dərəcələrini təyin edən amillər məqsədyönlü şəkildə ayırd edilir. Bu amillər rəhbərin fərdi iş üslubundan başlayaraq daşıdığı dəyərlərə, istinad əsaslandığı prinsiplərə qədər bir sıra sahələri əhatə edir. Səmərəliliyin yüksək səviyyəsi isə, ilk növbədə rəhbərinin həyati məqsədi, fəaliyyət motivi, şəxsiyyətinin oriyentasiyası, eləcə də onun sosial mövqeyinin cəmiyyətin dəyərlər sistemi və mənəvi ideallarına uyğunluğu ilə müəyyənləşir.

Birgə təşkil edilən fəaliyyətin nəticələrində maraqlı faktlar ortaya çıxmışdır. Aydın olub ki, temperament, xarakter və qabiliyyətlərin məcmusu olan fərdilik əsasında inkişaf edən rəhbərlik üslubu müəssisə rəhbərinin uğurlu fəaliyyətinin başlıca şərtidir

Araşdırmalarda aydın olub ki, heç də həmişə bu qarşılıqlı əlaqədə nümunəvi ünsiyyət əmələ gəlmir. Müəlliflər bunun səbəbini yalnız ünsiyyətdə olanların fərdi xüsusiyyətlərində deyil, həm də ünsiyyət şəraitində axtarırlar.

Əslində, rəhbərlik üslubunu formalaşdıran amillərin əhatə dairəsi çox genişdir. Burada əsas söhbət qrup rəhbərinin səmərəli olan fərdiyyətinin və üslubunun formalaşmasından gedir. Bir tərəfdən üslubu insan yaradır, digər tərəfdən, o hansısa fəaliyyətin, eləcə də fəallığın üslubu, məsələn, yazı üslubu, şəkilçəkmə üslubu, dərketmə üslubu, rəhbərlik və idarəetmə və d. sahələrdəki üslub kimi meydana çıxır. Ancaq nəzərə almaq lazımdır ki, üslub və idarəetmə qabiliyyəti bir-birinə yaxın olduğu qədər də fərqli anlayışlardır. Əgər üslub fərdin sosial fəaliyyəti zamanı onun seçmiş olduğu hərəkət tərzi, üsul və vasitələrlə müəyyən edilirsə, qabiliyyət fəaliyyətin nəticəsində əldə edilmiş uğurlar, həmin uğurların kəmiyyəti və keyfiyyətinin əsas göstəriciləri ilə müəyyən edilir.

“Fərdilik” anlayışını şərtləndirən bir sıra məqamlar aparılmış silsilə tədqiqatlar əsasında ayırd edilmişdir:

- fərdiliyin psixoloji anlamı şəxsiyyətin quruluşu haqqındakı təsəvvürlərə əsaslanmaqla onun psixofizioloji vahidliyini əhatə edir, ancaq burada fərdiliyə daha çox sosial həyatda təzahür edən əhəmiyyətli xassələr məna verir;
- fərdilik ayrıca hərəkətlərdə və fəaliyyət üslubunda təzahür edərək özünün daxili mənasını, şəxsi mənasını və mahiyyətini aydınlaşdırır;
- şəxsiyyətin inkişafının yüksək səviyyəsi, əsas xassəsi olan fərdilik onun şəxsi mənasını, yönəlişliklərini, dəyərlərini reallaşdıran bütövlükdür.

Təhlillər göstərir ki, rəhbərin işi həm də onun idarə olunanlara təsir göstərmək təcrübəsinə yiyələnməsindən, kollektivin fəaliyyətini idarə etməsindən asılıdır. Burada rəhbərin emosional vəziyyəti mühüm təsiredici qüvvəyə malikdir. Belə şəraitdə qurulan birgə fəaliyyətdə yaranan ixtisas təcrübəsi daha keyfiyyətli olur.

Rəhbərin pedaqoji fəaliyyətində fərdi üslubun formalaşmasında başlıca yet tutan bir sıra komponentlər də vardır. Rəhbərin fərdi üslubunun müəyyənləşdirilməsi istiqamətində onun bir sıra xüsusiyyətləri: tempi, hərəkətin sürəti, çevikliyi, icra tərzi və s. əsəb sistemi ayırd edilir. Göründüyü kimi, rəhbərlik üsubu fərdi üslubdan qaynaqlanır. İnsanın öz fəaliyyətinə, onun nəticələrinə münasibəti fərdi üslubun formalaşmasına təsir göstərən amillər sırasındadır. Bu münasibətdə fərdin intellektual, emosional, iradi cəhətləri birləşir. Rəhbərin fərdi üslubunun inkişafına onun pedaqoji mövqeyi də təsir göstərir. Yekunda rəhbərlik üslubu və onun psixoloji komponentləri ilə bağlı bunlar qeyd edilir:

- üslub əsasında rəhbərin fərdiyyətinin təbii quruluşu, sinir sisteminin xüsusiyyətləri və refleksivliyi dayanır;
- rəhbərlik üslubu pedaqoqun xarakterinə uyğun formalaşdığından ətraf mühitə münasibətinin fərdi-tipik cəhəti əsas götürülür;
- rəhbərlik üslubunun əsas komponentlərindən olan qabiliyyətlər pedaqoji fəaliyyətin səmərəlilik göstəricisi kimi çıxış edir;
- davranış manerası, rəğbətəndirmə və cəzalandırma, eləcə də təlim metodlarının seçilməsi, pedaqoji ünsiyyət üslubu, idarə edilənlərin hərəkətini qiymətləndirmək, onun səmərəli fəaliyyətinə diqqət yetirmək, bir sözlə,

bütövlükdə professional fəaliyyətdə sosial-psixoloji vasitələrdən istifadə tərzi rəhbərlik üslubunun sosial-psixoloji komponentlərinə daxildir.

Rəhbərlik üslubunun qabiliyyətlərlə oxşar tərəfləri də vardır. Təcrübədən də məlumdur ki, eyni mühitdə formalaşan insanlar müxtəlif yaradıcılıq imkanlarına malik olurlar. Bu, imkanlar insanın fərdi qabiliyyətləri ilə bağlı olur. Qabiliyyət onun əsasında insanın bilik, bacarıq və vərdişlər əldə edə bildiyi psixi xüsusiyyətdir. Fərdi üslubun qabiliyyətlə bağlı tərəfi üslubun məhz qabiliyyətlərə istinad etməsidir. Çünki, hər bir şəxs özü üçün iş üslubu müəyyənləşdirərkən, formalaşdırarkən, inkişaf etdirərkən əsasən qabiliyyətlərə əsaslanmalı olur. Qabiliyyət də, üslub da özünü fəaliyyət prosesində göstərir. Qabiliyyət və üslubun qarşılıqlı vəhdətində yaranan səmərəli fəaliyyət imkanı hisslərdən, duyğulardan başlayaraq, intellektə qədər psixi inkişafın bütün mərhələlərində fərdi xüsusiyyətlər kəsb edir. Nəticədə yaşın müvafiq səviyyəsində (6-12 yaş ərəfəsində) hər bir insanda fərdi iş üslubunun yaranması baş verir. Bir sözlə, üslubsuz fəaliyyət olmadığı kimi, üslubsuz fərdiyyət də yoxdur.

Rəhbərlik üslubunun əsas komponentlərindən biri də pedaqoji ünsiyyət üslubudur. Ünsiyyət üslubunun özü də fəaliyyət prosesinin tərkibində, onun elementi kimi çıxış edir. Ünsiyyətin mərkəzində tərəflərin psixoloji, fizioloji, mənəvi və digər fenomenləri durur. İdarəetmədə işgüzar və şəxsi ünsiyyət bir-birindən ayrılmazdır. Rəhbər işçilərə yalnız tapşırıq vermir, nəzarət etmir, tələblər qoymur, həm də köməklik göstərir, dəstək olur, apardığı işin düzgün istiqamətdə olmasına diqqət yetirir. Yeri gəldikdə onların sağlamlıq durumu, emosional vəziyyəti, əhval-ruhiyyəsi,

daxili həyəcan və qayğıları da təcrübəli rəhbərin nəzərindən qaçmamalıdır.

Məktəbəqədər təhsil müəssisəsində rəhbərlik üslubunun formalaşmasına təsir göstərən amillər sırasında bacarıqların da mühüm rolu var. Rəhbərlik üslubunda diaqnostik, konsultativ və psixoterapevtik bacarıqların olması vacib sayılır. Bu bacarıqlar sosial qruplara rəhbərlik prosesində onların şəxsiyyətinin əsas göstəriciləri kimi çıxış edir. Rəhbərin pedaqoji (burada menecmentlik) bacarıqları hazırda onların müvafiq sahələr üzrə yerinə yetirmələri tələb olunan funksiyaları ilə bağlı olaraq aktuallaşmışdır. Rəhbərlərin peşəkar keyfiyyətlərinin uyğunsuzluğu aşağıdakı səbəblərlə izah olunur:

- vəzifə səlahiyyətlərinə rəsmi yanaşması;
- öz səlahiyyətləri üzrə diaqnozlaşdırılaraq müvafiq tədbirlərin görülməsi sahəsində ondan yuxarıdakı rəhbərliyə məlumat verilməməsi;
- üzləşdikləri qeyri-rəsmi maneələr;
- rəhbərin özünün tabeçilik qaydalarını demokratik prinsiplər əsasında tənzimləməməsi və s.

Apardığımız təhlillər əsasında məktəbəqədər təhsil müəssisəsi rəhbərinin rəhbərlik üslubunun sosial- psixoloji mahiyyətini xarakterizə edən bir sıra məsələləri qeyd etmək olar:

- rəhbərlik üslubu onun şəxsiyyətindəki "rəhbər-Mən" quruluşunun sosial-psixoloji pedaqoji tərəflərinə əsaslanır;
- rəhbərlik üslubunun məzmunu özünüfəallaşdırmanın, özünütəhsilin imkan və xüsusiyyətlərindən, peşə hazırlığının keyfiyyətindən, təşkilatçılıq bacarıqlarından asılıdır.

İdarəetmə təcrübəsində rəhbərliyin və liderliyin eyni şəxsdə birləşdirilməsi optimal variant hesab olunur. Əgər

rəhbərliyin mövqeyi işgüzar liderin mövqeyi ilə üst-üstə düşürsə, bu mümkündür. Rəhbərin rolunun emosional liderin rolu ilə üst-üstə düşməsi isə neqativ faktor hesab edilir. Rəhbərlik üslubları 3 aspektdə nəzərdən keçirilir: avtokratik, liberal və demokratik.

•Avtokratik rəhbərlik üslubuna xas olan xüsusiyyətlər avtoritar rəhbərlik üslubu üçün də səciyyəvidir.

•Avtoritar rəhbər nisbətən həlim rəftar edir, nəticə etibarilə qərarı özü qəbul etsə də, başqalarının rəyini öyrənir, hər hansı məsələni onlarla birlikdə müzakirə edir.

•Liberal rəhbər öz vəzifələrini rəsmi surətdə yerinə yetirir, lakin kollektivin həyatı ilə maraqlanmır, özünü qonaq kimi aparır.

•Demokratik rəhbər kollektivin "böyük yoldaşıdır". O yoldaş kimi özünə və başqalarına eyni gözlə baxır. Onlarla dialoqa girir, mübahisə etməyi xoşlayır.

Göründüyü kimi, təşkilatların, qrupların idarə edilməsində yeni metodların, yeniliklərin tətbiqi zamanı ləngidici amillər də meydana çıxır. Bu zaman rəhbər özünün idarəetmə üslubuna yenidən baxmalı, onun üstün və zəif cəhətlərini ayırd etməlidir. Yalnız özünü iradəetmə tərzində dəyişmə yaradaq qrupları səmərəli qaydada idarə etmək mümkündür. Bu baş vermədikdə idarəetmədə çətinliklər yaranır. Qrup özünə yeni rəhbər və ya lider axtarşına başlayır.

***Suallar və tapşırıqlar:***

1. *Böyük qrupların sosial-psixoloji xüsusiyyətlərini fərqləndirin.*
2. *Böyük qrupların təsnifatını aparın.*
3. *Böyük qruplar haqqında layihələr hazırlayın.*
4. *Üzvü olduğunuz böyk qrupun sosial psixoloji xüsusiyyətləri hansılardır?*

*5. Böyük qruplar necə idarə olunur?*

*6. Böyük qrupların idarə olunması məsələləri hansı nəzəriyyələrdə öz əksini tapır?*

*7. Boyük qrupların idarəedilməsinin quruluşunu səciyyələndirin.*

*8. Böyük qrupların idarə olunması metodları hansılardır?*

*9. İdarəetmədə lider və rəhbərin fərqini ayırd edin.*

*10. İdarəetmədə rəhbərlik üslublarına hansılar daxildir?*

***Ədəbiyyat:***

*1. Abutalıbov R.R., Məmmədov S.M., Quliyev S.M. İdarəetmənin əsasları. YEK Producfion, 2013, 220 s.*

*1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial Psixologiya. Bakı: "Qapp-Poliqraf" Korporasiyası, 2003, 356 s.*

*2. Əlizadə S.H. Müəllimin məktəbdə rəhbərlik üslubunun sosial-psixoloji məsələləri //diss...psixol.üzrə fəl.dok. Bakı: 2015, 159 s.*

*3. Təhsilin sosioloji problemləri. Bakı: Mütərcim, 2010, 304 s.*

*4. Kəlbəliyev Ə. Təhsili idarəetmənin əsasları. Bakı: Nurlan, 2006, 85 s.*

*5. Məmmədzadə R., Abdullayev A., Kərimova E. və b. Menecment, marketinq və təhsilin iqtisadiyyatı. Bakı: Müəllim, 2015, 464 s.*

*6. Армстронг М., Бэрон А. Управление результативностью.Система оценки результатов в действии. М.: Альпина Паблишер, 2011, 250 с.*

*7. Бабосов, Е.М. Социология управления: учеб. пособ. 2-е изд., стереотип. Минск : ТетраСистемс, 2001. 288 с.*

*8. Боссиди Л. Искусство результативного управления. М.: Альпина паблишерз, 2010, 279 с.*

*9. Друкер П.Ф. Эффективное управление. М.: АСТ, 2004, 288 с.*

*2. Левин К. Динамическая психология. М.: Сенсор, 2001,*

*572 с.*

*10. Литвиненко Э. Управленческая команда: как ее создать? // Народное образование, 2004, №4, с. 115-122*

*11. Марков М. Теория социального управления М.: 1978, 447 с.*

*3. Почебут Л.Г., Чикер В.А. Организационная социальная психология. СПб.: Речь, 2002, 298 с.*

*12. Рубцов С. В. Целевое управление в корпорациях. М.: Экономика, 2001, 204 с.*

*4. Семечкин Н.И.* Психология социальных групп. *Москва: Директ-Медиа, 2014, 324 с.*

*13. Синк Д.С. Управление производительностью: планирование, измерение и оценка, контроль и повышение: М.: Прогресс, 1989, 528 с.*

*14. Управление изменениями. Под ред. Л. Уотсон и др. М.: Прогресс, 1994, 234 с.*

*15. Fayol F.H. Administration industrielle et générale. Paris: Dunod et Pinat,1917, 174 p.*

*16. http://socyus.ru/navigatsiya/teylor.html. Теория рационализации Ф.Тейлора*

*17. http://www.allbest.ru/Содержание и принципы уп*

*18. равления*

*5. https://studme.org/74068/psihologiya/stihiynye_gruppy_massovye_dvizheniya*

# VIII FƏSİL
# SOSİAL TƏSİR, QLOBALLAŞMA VƏ ETNOMƏDƏNİYYƏTLƏR

## 8.1. Qloballaşmada sosial təsir effektləri

Sosial psixologiya elmində "sosial təsir" fenomeni ilə bağlı olaraq bir sıra fundamental tədqiqatlar aparılmış, problem bir neçə istiqamətdə (daha çox kütlə psixologiyası, sosial təsir, psixoloji təsir, sosial mühitin insan psixikasına təsir vasitələri, sosial təsirin psiologiyası və d.) öyrənilmişdir. Bu sahədə araşdırmalar aparmış sosial psixoloqlara və sosioloqlara F.Zimbardo, M.Lyapple, R.Çaldini və b. misal göstərmək olar. İnsanın sosiallaşmasında, birgə fəaliyyətində, özünüinkişafında sosial təsirin mühüm amil olduğunu nəzərə alaraq hazırkı dövrün tələbləri baxımından problemə konkret nöqteyi-nəzərdən yanaşmalıyıq. Bunun üçün bir sıra suallara cavab axtarılmalıdır:

1) "təsir" fenomeni nədir, onun psixoloji mahiyyəti nədən ibarətdir?

2) sosial təsirdə tərbiyənin rolu nədən ibarətdir?

3) kimlər informasiya sisteminin təsirinə daha çox məruz qalırlar?

Əvvəlcə sualın cavabını axtaraq.

Qeyd etdiyimiz kimi, sosial təsirin bir sıra xassələrini aydınlaşdırmış F.Zimbardo, M.Lyapplenin təhlillərində onun müxtəlif psixoloji məsələləri aydınlaşdırılır:

- təsirlər ailəmi;
- davranışa təsir;

- davranış vasitəsilə ustanovkaya təsir;
- təsirin şüur və şüuraltı ilə bağlılığı və s.

R.Çaldiniyə görə, davranış heç də həmişə situasiyaya uyğun gəlmir. Çünki, hətta ən yaxşı stereotip və xassələr də həmişə yaxşı işləmir. Ancaq biz onların mükəmməl olmadığını etiraf edirik. Stereotiplər olmasa, biz sanki qeyd edərək, qiymətləndirərək, yoxlayaraq donub qalarıq. Nə qədər ki, həyatımızı dolduran stimullar mürəkkəbləşir, bu halda real düşünmək və hərəkət etmək qabiliyyətimizdən asılı oluruq.

Bu təhlillər o anlama gəlir ki, insana olan (kənar) sosial təsirlərə verilən reaksiyalar heç də həmişə bu təsirlərin məzmununa adekvat olmur. Bizim təsirə münasibətimiz bir çox amillərdən, xüsusilə altşüurdan, keçmiş təcrübədən, stereotip və arxetiplərdən, həmçinin təsirin yaratdığı sensor təəssüratlardan asılı olur. Halbuki, sosial münasibətlərdə qarşılıqlı təsirə rasional yanaşılmalı, düşünülmüş qaydada reaksiya verilməlidir.

Sual yaranır: "Bəs kimlər sosial təsirə daha çox məruz qalaraq onların qarşılıqlı münasibətlərində, bu da öz növbəsində mədəniyyətdə dəyişmələr yaradır?"

Psixoloji nəzəriyyələrdə problemə münasibət sosial qruplarda qarşılıqlı münasibətlər şəraitində psixika, fəaliyyət, davranış, nəhayət şəxsiyyətin inkişafı baxımından araşdırılır. Bunlardan psixoanaliz, biheviorizm, geştaltizm, şəxsiyyətəyönəlik, koqnitiv və sosial koqnitiv nəzəriyyələri qeyd etmək olar. Həmin nəzəriyyələrin (Freyd, Adler, Yunq və b.) əsas mahiyyəti ondan ibarətdir ki, hər bir fərd hələ kiçik yaşlardan başlayaraq ailədə sosial rolları yerinə yetirir. Bu prosesdə ailədəki insanlarla qarşılıqlı münasibətlərdə olaraq özünün informasiya

tələbatını ödəyir, tələbatlarını ödəmək üçün yeni informasiyaya yiyələnir, yeni sosial rollar mənimsəyir. Beləliklə, özünün ailədəki və cəmiyyətdəki roluna müvafiq münasibətlər sisteminə sahib olur.

Digər tərəfdən, o, məhz yeni informasiyalar sayəsində müntəzəm olaraq özündə ictimai təcrübənin müxtəlif nümunələrini formalaşdırır. Özünü mühitə uyğunlaşdırır. Beləliklə o, bir sıra mərhələdən keçərək, insanlarla qarşılıqlı münasibətlərini daha da təkmilləşdirərək yeni sosial təcrübə əldə edir, davranışını nizamlayır.

Dünyada istər fərdlərin, istərsə də cəmiyyətin sahib olduğu mədəniyyətin ilk tədqiqtaçıları sosioloqlar olmuşdur (Ç.Kuli, D.Mid, D.Mayers və b.). Bu araşdırmalardan aydın olmuşdur ki, şəxsiyyətin inkişafının əsas məqsədi öz imkanlarını, qabiliyyətlərini, bilik və bacarığını reallaşmaqdır. Həmin prosesdə sosial təsirlərin rolu danılmazdır, lakin bu təsirlər həmişə inkişaf üçün əhəmiyyətli olmur. Ona görə də bəşəriyyətin inkişafı dövründə olduğu kimi, hər bir fərdin inkişafında da sosial təsirlərə seçici yanaşılır. Ümumilikdə isə, cəmiyyətdə baş verən hər hansı bir dəyişiklik, insanın yeni sosial münasibətlərə qoşulması onun şəxsiyyətinə, fəaliyyət istiqamətinə, ünsiyyətinə təsir göstərir.

Sosiomədəni istiqamətin nümayəndələri (A.Adler, K.Xorni və b.) sosial təsirlər içərisində "tərbiyə" amilini önə çəkirlər. Onların qənaəti belədir ki, insan doğulduğu andan sosial təsirlərlə üzləşir. Bunun yolu tərbiyədir.

A.Adlerin qənaətinə görə, sosial maraq sosial əhatədə inkişaf edir. Başqa insanlar, hər kəsdən əvvəl ana, ondan sonra ailənin digər üzvləri inkişaf prosesinə yardım edirlər, lakin məhz ana həyatın ilk illərindən başlayaraq

ona daha çox təsir edərək sosial maraqların inkişafına səy göstərir.

K.Yunqun analitik nəzəriyyəsində şüuraltı amillər, xüsusilə, arxetiplər psixi inkişafın məzmununu müəyyənləşdirən mühüm şərtlərdən biri kimi qəbul edilir. K.Q.Yunq bu amillərin istər fərdlər, istərsə də təmsil etdiyi insan qrupuna təsirini aydınlaşdırır.

E.Erikson tərbiyənin əsasını cəmiyyətin mənəvi dəyərləri, məşğul olduqları fəaliyyət sahəsi və başlıcası, iqtisadi durumdan asılı olduğu qənaətinə gəlmişdir. Onun fikrincə, iqtisadi sistem və mədəniyyətin sintezi tərbiyədə başlıca rol oynayır. Cəmiyyətin mənəvi dəyərləri isə iqtisadi, psixoloji və əxlaqi bazaya əsaslanmaqla fərdin ictimai davranışı mənimsəməsinin səbəbi olur.

Biheviorizmdə münasibətlərin psixikaya təsiri davranışda öyrənilir. Belə ki, onlar inkişafda valideynlərin uşağa mənfi təsirinin nəticələri haqqındakı faktlara istinad edərək sosial amillərin rolunu ikincidərəcəli amil kimi qiymətləndirirlər. C.Uotson, B.Skinner, A.Bandura və b. məsələyə məhz bu baxımdan yanaşırlar.

Təhlillərdən belə məlum olur ki, inkişafda olan insanın daxili aləmi ətraf aləmin təsirlərinə seçici yanaşır. Yalnız özünü qane edənləri mənimsəyir. Hər bir şəraitdə yalnız ənənələrə görə deyil, həmçinin özünün şəxsiyyətinə, eləcə də kənar təsirlərə uyğun olaraq davranış nümayiş etdirir. Bu halda ona öyrədilənlərin konkret nümunələrlə təsdiqlənməsini, ona göstərilən təsirlərdə vahidliyin olmasını, ailədəki yaşlıların təsirləri, şəxsi nümunəsi ilə digər informativ təsirlərin: televiziya, internet, radio, sosial məkan və s. vəhdət təşkil etməsi çox mühümdür.

Araşdırmamızın digər bir istiqamətinə insanlara təsir göstərən informasiya sistemi daxildir. Bildiyimiz kimi, müasir dövrdə mühit amili dedikdə aparıcı yeri cəmiyyətin əksər üzvlərini özünün təsiri altında saxlayan, onların daxili aləminə nüfuz edən informasiya sistemi nəzərdə tutulur. İnformasiya insanın şüuruna və şüuraltına nüfuz edən ən güclü təsirə malikdir. Hər bir kəs hansısa formada televiziyanın, internetin təsirinə məruz qalır.

Bəziləri bu təsirə, ümumiyyətlə açıqdırlar. Yaşlı nəsil daha çox televiziyadan, yeniyetmə və gənclər isə internetdən istifadədə maraqlı və təşəbbüskardırlar. Bəziləri öz həyatını bu əlaqələr olmadan təsəvvür belə edə bilmirlər. Hətta, yeniyetmə və gənclər arasında artıq "internet asılılığı" adında psixoloji sindromlar qeydə alınmaqda, onun statistikası isə getdikcə artmaqdadır.

Bir sözlə, yaşadığımız müasir cəmiyyətdə hər an kütləvi informasiya vasitələri ilə üzləşirik. Yeni-yeni informasiyalar yayan bu vasitələrlə əlaqəyə o qədər alışmışıq ki, həyatımızı onlarsız təsəvvür belə edə bilmirik. Dünyada baş verənlərlə bağlı son xəbərlərlə tanış oluruq, incəsənət ulduzlarının yeni kliplərini, həyat macəralarını, idman komandalarının və ya çempionların oyunlarını izləyirik, öz maraqlarımıza uyğun sahələrdəki yeniliklər, texnologiyalar, kəşflər haqqında məlumatlar əldə edirik, özümüzü təsdiq etmək, reallaşdırmaq və aktuallaşdırmaq üçün saatlarla sosial şəbəkələrdə vaxt keçiririk. Nəticədə onların təsiri qarşılıqlı münasibətlərdə də özünü göstərir.

Bir çoxları hazırda da televiziya və internetin insan həyatına təsirinə neqativ yanaşır, onları gərginlik və həyacanların, stess və depressiyaların əsas mənbəyi hesab edirlər. Ancaq nəzərə almaq lazımdır ki, inkişafın baş

verməsi labüddür. Televiziya və internetsiz də bu inkişaf hansısa formada baş verəcək. Əlbəttə, onların həyatımızda bir sıra psixoloji problemlər yaratdığını etiraf etməliyik, lakin əvəzində aldığımız informasiyalar bizə bu və digər problemləri həll etməyin yollarını da öyrədir.

İnformasiyalar sayəsində dünyada baş verən siyasi, ictimai, sosial hadisələr, incəsənət və idman yenilikləri, ailə-məişət xəbərləri, tanınmış və ya tanınmamış şəxslərin faciələrindən təsirləndiyimiz, təəssüfləndiyimiz kimi, uyğurlarından, nailiyyətlərindən, qələbələrindən bizdə ruh yüksəkliyi yaranır. Bu məlumatlar bizi özünüfəallaşdırmaya həvəsləndirir. Q.Y.Boxonov hesab edirki, hətta K.İ.V. insanların fərdi şüurunun formalaşmasında, onlarda zövqlərin, baxışların, vərdişlərin, üstün yanaşmaların meydana gəlməsində gərəkli olanların əhəmiyyətli bir hissəsini öz üzərinə götürmüşdür. Bu baxımdan, informasiyalar bir neçə sahədə bizim işimizə yarayır.

a) dünyanı, cəmiyyətdə və ailədəki yerimizi, rolumuzu, kimliyimizi dərk etmək;

b) ailəni, cəmiyyəti, təşkilatı idarə etməyi, prosesləri nizamlamağı, bacarıqlarımızı inkişaf etdirmək;

c) müxtəlif sahələr üzrə geniş və yeni məlumatlar əldə etmək;

d) çox vaxt sərf etmədən, hətta xarici ölkələrdə yaşayan yaxınlarımızla ünsiyyət saxlamaq, onlar haqqında lazım olan məlumatları almaq, sevincimizi, kədərimizi paylaşmaq və s.

Hələ XX əsrin əvvəllərindən sosioloqlar (E.Dürkheym, M.Veber, E.Giddens, N.Luman, P.Berger və b.) cəmiyyətdə və ailələrdə baş verən sosial dəyişmələrdə KİV-in roluna xüsusi önəm verirdilər.

Bizim KİV-lə əlaqələrimizin əhatə dairəsi o qədər genişdir ki, hər biri haqqında məlumat vermək çətindir. Məhz bu çətinliyi nəzərə alaraq araşdırmalarımızı iki KİV nümunəsinə - televiziya və internetə yönəltmişik. Hər gün bu vasitələrdən müxtəlif informasiyalar alırıq. Onların 70 %-i yoxlanılmır. Hər bir informasiya haqqında dəqiq qərar verə bilmədiyimizə görə onu istər-istməz qəbul etməli oluruq. Gənc nəsil öz zövqlərini əsasən əyləncəli televiziya proqramları, jurnallar, internet məlumatları əsasında formalaşdırır. Yaşlılar isə bu sahədə daha çox xəbərlər proqramlarına, qəzetlərə, elmi nəşrlərə üstünlük verirlər. Nəticə belədir ki, KİV və kommunikasiya 80 % şəxsi və ictimai fikri formalaşdırır.

Əslində, KİV-ə o qədər də güvənmək, yayılan informasiyalara inanmaq, reallıq kimi qəbul etmək olmaz. Çox zaman informasiyaların mənbəyi öz təsdiqini tapmır. Mətbuat nümayəndələri müxtəlif mənbələrdən alaraq məqsədyönlü şəkildə yaydığı ziddiyyətli informasiyalarla insanları və cəmiyyəti idarə etmiş olur. Onun inkişaf tempini, istiqamətini dəyişir.

## 8.2. Qloballaşmanın etnomədəniyyətlərə təsiri

Müasir sosial-siyasi mühit özünün bir sıra spesifik xüsusiyyətləri ilə əvvəlki dövrlərdən fərqlənir. Bunun səbəbi dünyada, ayrı-ayrı cəmiyyətərdə gedən qlobal dəyişmələrdir. Dəyişmə inkişaf edən hər bir cəmiyyətin üzləşdiyi, böhran vəziyyətindən yaranan siyasi-iqtisadi, sosial-mədəni sahələri əhatə edən qlobal hadisədir. Bu hadisə hər bir dövrdə eyni qanunlarla tənzimlənsə də, müxtəlif tərzdə, özünə-

məxsus məzmunda baş verir. Nəticədə insanın özünü və dünyanı dərk etməsində, münasibətlərində, sosial əlaqələrində, nəhayət, bütün bunların nəticəsi olaraq həyat tərzində dəyişmələr gedir.

Y.D.Qraninin qənaətinə görə, bizim üçün qloballaşmanın gedişini, inkişafını öyrənmək ona görə zəruridir ki, müasir dünyada yaşayan insanların maraqları, tələbatları artır, dünyagörüşü dəyişir. Bizə tarixdən insanlığın bir-birini diferensiasiya və inteqrasiya ənənələri ilə şərtləndirən antropososial dəyərlərin sruktur qurulması, eyni zamanda, bu dəyərlərin yaranması və birliyinin düzxətli olmayan prosesi məlumdur. Müxtəlif transformasiyaları əxzetmə yolu ilə yeniləşənlər, sayına və məkanına görə daha geniş əhatəsi olanlar sosial, siyasi və sosiomədəni, antropoloji dəyərlərdir.

Əvvəlki dövrlə müqayisədə hazırda qloballaşmanın təsiri ilə cəmiyyətdə mədəni dəyişmələr sürətlənməkdədir. Dünya sivilizasiyası, elmi-texniki tərəqqi, demokratiya və insan azadlıqları ilə bağlı təsəvvürlər genişlənməkdədir. Bir çox vətəndaşların dünya sivilizasiyası haqqında aldıqları informasiyalar, onların həyat tərzi ilə bilavasitə tanışlıq, yaxud müəyyən müddətdə bu həyat tərzini yaşamaları onların sosial ədalət prinsipi haqqındakı təsəvvürlərini köklü şəkildə dəyişir. Bu reallaqların öz həyat tərzi ilə müqayisəsi və üzləşdiyi paradoksal fərqlər narazılığı daha da dərinləşdirir.

Hazırda sosial psixologiyanın inkişaf istiqaməti daha çox mədəni aspektdədir. Bunu zəruri edən amil insanın sosial davranışına təsir göstərən irsi, genetik, etnopsixoloji və d. təbii adlandırdığımız amillərin aydınlaşdırılmasıdır. Çünki bu amillər nəticəsində əsrlər boyu insanlar tərəfindən

mədəniyyətlərin stereotip qaydada mənimsənilməsi prosesi getmişdir, lakin müasir texnologiyaların, incə cihazların köməyi ilə mif və mifologiya, simvolika, adət-ənənələr və şüuraltı informasiyaların sosial məzmunu uğurla öyrənilir. İctimai şüurda kök salmış tarixi ənənələr haqqında vaxtilə irəli sürülən səthi fikirlərdən əsaslı şəkildə imtina olunur.

Xalqların mədəniyyətinə hörmətlə, dəyişməsi xüsusi (qlobal) yanaşma tələb edən fenomen kimi baxılır. Səbəbi isə biologiya, genetika, antropologiya, etnoqrafiya elmlərində insanın tarixi ictimai quruluşunun sosial təsirlərə davamlılığı haqqında əldə edilmiş faktlardır. Həmin faktlara əsaslanaraq təhsillə bağlı elmlərdə, eləcə də pedaqogikada, psixologiyada yeni cərəyanlar formalaşmışdır ki, onlara, məsələn antropoloji pedaqogikanı, təhsilin sosial psixologiyasını misal göstərmək olar. Bu elmlər təhsildə sosiallaşmanın indiyə qədər gizli qalan tərəflərini izah etməyə imkan verir.

E.Dürkheym sosial fakta, hər şeydən əvvəl aşağıdakıları şamil edir:

*- "kollektiv təsəvvürlər": folklor, dini inanclar, peşə ənənələri, adət-ənənələr, hüquqi normalar, qaydalar, insanın davranış normaları, moda, dil və sosial qrupa uzun müddət ərzində xas olan hansısa digər sosal-mədəni normalar;*

*- "sosial axın":insan kütləsi üçün qısamüddətli xas olan əhval -ruhiyyə, rəftar və s.;*

*- "sosial morfologiya":cəmiyyətin struktur quruluşu, onun qruplarını əmələ gətirənlərin, onların məlumatlanmalarının kəmiyyəti və xarakteri, əhalinin ərazidə yerləşməsi. Statistik ümumiləşdirməni də E.Dürkheym sosial fakt hesab edirdi.*

Göstərilən hadisələr fərddən asılı olmayaraq obyektiv şəkildə mövcuddur. Onlar fərdə təsir göstərərək onu müəyyən olunmuş tərzdə davranmağa məcbur edir.

E.Dürkheym cəmiyyəti xüsusi növ substansiya kimi qiymətləndirərək bildirir ki, qrup və onun təfəkkürü onu təmsil edən ayrı-ayrı fərdlərin təfəkküründən fərqlənir. *"Qrup düşünür, hərəkətləri onun üzvlərindən tamamilə başqa cür edir"*.

Mədəniyyət eynicinsli olmayıb, özündə çoxlu müxtəlif, bir-birinə zidd olan istiqamətləri birləşdirir. Eyni zamanda, o sosial və psixoloji baxımdan real olmaqla bir sıra daimi komponentlərə malikdir. Dəyərlərin özünəməxsus kompleksi və davranış normaları vardır. Bura zövqlə geyim formaları və xarici görünüş; qrup ünsiyyəti və əməkdaşlıq; davranışın xarakterik manerası, ünsiyyət adətləri və s. aiddir.

İnsan münasibətləri fərdlərin psixi inkişaf səviyyəsinə, sosial mühütin tələblərinə, şəraitinə, tələbatların ödənilmə səviyyəsinə uyğun olaraq formalaşır, yeniləşir və dəyişir. Psixoloji inkişafın yalnız müəyyən mərhələsində insan davamlı münasibət qura bilir. İnsan münasibətləri sosial əlaqələrlə tənzimlənən ünsiyyət prosesində reallaşır. Səmərəli, hər iki tərəfi razı salan ünsiyyət cəmiyyətlə sosial əlaqələr sistemində özünəməxsus yer tutmaqla nəticələrin səmərəliliyini şərtləndirir. Bizi burada qloballaşma şəraitində hər hansı münasibətlər deyil, onun ənənəvi münasibətlərdən fərqli tərəfləri, mədəniyyəti dəyişmə imkanları maraqlandırır. Ona görə də problemlə bağlı təhlilləri də bu istiqamətə yönəltməyi məqsədəuyğun hesab edirik.

Münasibət davranışda reallaşır. Davranış əvvəlki nəsillərdən əxz olunmuş stereotiplərlə tənzimlənir, lakin müasir insanın ünsiyyət, münasibət, əməkdaşlıq sahəsində sosial təcrübəsi daha yeni və daha zəngindir. Çünki o, şəxsiyyət olaraq qloballaşma şəraitində formalaşır. Sosial təcrübə artdıqca onların yeni əlaqələrə girərək özünüreal-laşdırmaq imkanları da genişlənməkdədir. Bu isə insanlara yalnız milli mədəniyyətə deyil, həm də bəşər insanına xas olan yeni rollar icra etmək imkanları yaradır, lakin bu yeni rolda çıxış etmək üçün onlar ünsiyyət tərzinə, münasibətlərə, mühitlə kommunikativ əlaqələrə daha diq-qətlə yanaşmalı olurlar.

Bu reallıqlara görədir ki, qloballaşma şəraitində sosi-ologiyada, psixologiyada, eləcə də onun digər sahələrdə insanın sosial varlıq kimi tədqiqinə də münasibət dəyiş-mişdir. Belə ki, müasir tədqiqatlarda fərdin fəaliyyətinin nəticələri onun motivasiyasının formalaşdırılmasına edilmiş təsirlərlə ölçülür, ona özünü müəyyənləşdirən, özü-nüreallaşdıran subyekt kimi yanaşılır.

Məsələn, A.L.Korjenko müasir qloballaşmanın təsirinə daha çox məruz qalan gənclərin yeni şəraitə, yeni mədəniyyətə və yeni cəmiyyətə adaptasiyasında submə-dəniyyət amilini alternativ variant kimi göstərir. Gənclərdə belə dini, siyasi, mədəni qruplarda birləşməyə, həmin qruplarda özünü təsdiq etməyə güclü tələbat olur. Gənclərin submədəniyyətinə onların özləri üçün yaratdıqları gizli, ədalı, urbanik mədəniyyət kimi baxmaq olar: “Bu, cəmiyyətdə gəncləri özündə birləşdirən “elitar mədəniyyət”dir; cəmiyyətin rəsmi, baza mədəniyyəti içərisində həyat stilini, dəyərlər oryentasiyasını və mentaliteti müəyyənləşdirən alt sistem olub (dünyanı dərk-

etmə, ağlın qurulması), onun daşıyıcılarına xasdır. Eyniləşmənin başlıca komponenti məqsəd, dəyərlər, mühakimələrdir. Onun əsas funksiyası adaptasiya hesab olunur".

Gənclər submədəniyyət qruplarına üzvü olduqları sosial (rəsmi) qruplarda hansısa səbəbdən uğur qazanmağa müvəffəq ola bilmədiklərinə görə, burada özlərinin ünsiyyət tələbatlarını ödəmək, özünü təsdiq etmək üçün qoşulurlar. Bu amil gəncləri submədəniyyət qruplarında öz maraqlarını təmin etmək baxımından kortəbii olaraq birləşməyə vadar edir. Belə qruplar norma, dəyər, baxış və ustanovkadan imtina edərək onlara qarşı duran, bununla belə, ümumbəşəri dəyərləri inkar etməyən, yetkinlik yaşına çatmamış yeniyetmələrin və gənclərin ictimai baxımdan formalaşdırdıqları sosial -pozitiv mühitin lehinə olan qrupdur.

İ.S.Kon bildirir ki, gənclərin bu və d. mədəni dəyərləri qavramasını, yaxud qəbul etməmələrinin qanunauyğunluqlarını başa düşmək üçün bu prosesə gənclərin özləri kimi, onların submədəniyyətindən baxmaq lazımdır. Gənclərin submədəniyyəti heç də müstəqil, bütöv və tamamlanmış deyil. Onun məzmununuda yaşlıların mədəniyyətinə xas olanlar var. İnsanın özünün daxili dünyasını kəşf etməsi sevincli və həyəcanlandırıcı hadisədir. Ancaq o, bir sıra narahat, dramatik həyəcanlara da səbəb olur. Özünənəzarəti aktuallaşdıran daxili "Mən" xarici davranışa uyğun gəlmir. Özünün unikallığı, təkrarsızlığı, başqalarına bənzərsizliyi ilə birgə onların dərk olunması bəzi hallarda gəncləri tənhalığa aparır. Gəncin "Mən"i hələ qeyri-müəyyəndir. O, nə iləsə doldurulması vacib olan qarmaqarışıq narahatlıqlar, yaxud daxili boşluq hissi

keçirir. Buradan da ünsiyyət tələbatı yaranır. Eyni zamanda onun seçiciliyi, birləşmə tələbatı artır.

İ.S.Konun təhlillərindən belə aydın olur ki, gənclərin submədəniyyətində yaşlılara xas olan əlamətlər onun daha çox xarici qatında toplanmış olur. Məsələn, gənclər daha çox müasir olmağa üstünlük verirlər. Ona görə də gənclərin əksər əyləncələri möcüzəi və qısamüddətli olub xarici effektə hesablanır. İ.S.Kon məhz bu əyləncələrdə gənclərin özünüsəmərəlilik, özünügerçəkləşdirmə maraqlarının dayandığını bildirir. Bu yolla onlar özünün mənsub olduqlarını ayırd edir, onun sosial dəyərini müəy-yənləşdirərək öz dəyərləri ilə uzlaşdırırlar.

Hazırda gənclərin belə submədəniyyət qruplarında təmsil olunmalarına vacib məsələ kimi baxılır. Kamilləşmiş yaşlı insan bunu nəzərə çarpdırmadan, özünün ictimai mövqeyindən yararlanaraq, əmək uğurlarına arxalanaraq, özünün ictimai mövqeyindən, ünsiyyət təcrübəsindən və bir çox başqa şeylərdən istifadə edərək reallaşdırır. Gənclər isə hələ yenicə müstəqil şəxsiyyət kimi yaşamağa başlayırlar. Onların sosial bazası ondan istifadə bacarığı kimi kasıbdır.

İnsanları birləşdirən təşkilatların, birliklərin böyük təsirə malik olduğu şübhəsizdir. Qeyd edilənlər nəzərə alınaraq əlverişli qarşılıqlı münasibətlər formalaşdıran, dünyagörüşü inkişaf etdirən gənclər birlikləri yaradılma-lıdır. Vacibdir ki, insan özünün yaradıcılığında sosial vəzifələrdən kənara çıxmadan özünüinkişafı onunla əlaqələndirsin. Bu reallığı nəzərə alaraq gənclərin hansı birliklərə meyil etmələrini nəzarətdə saxlamalı, onlara düzgün istiqamət verilməlidir. Aşağıdakılar aparılan işin məzmununda prioritet olmalıdır:

- gənclərin maarifləndirilməsi;

- onlara özünügerçəkləşdirmə inkanı verən qurumlar, cəmiyyətlər haqqında məlumatların çatdırılması;

- əlaqələrin yaradılması;

- gənclərin şüurunun xarici nəzarətə, özünənəzarətə və konkret nəticələrdə uğur əldə etməyə olan tələbata istiqamətləndirilməsi.

Yaxşı haldır ki, *cəmiyyətdə insan təfəkkürü, insan həyatı üçün qaçılmaz hesab olunan məişət bağlılığından azad yaşayan xüsusi sosial qrup da mövcuddur.* Bu, "intelligentlər" yaxud "sosial baxımdan azad düşüncəli intellektuallar"dır (ifadə A.Veberə məxsusdur). Onlar cəmiyyətin bütün qatlarına nüfuz edir, lakin hakimiyyətin yüksək eşelonlarının ətrafında cəmləşərək siyasi elitaya təsir göstərirlər. K.Manheym "kütləvi cəmiyyət" əsərində, totalitar rejimin qurulması təhlükəsinin yarandığı zaman demokratiyanın qorunub saxlanılması ümidini məhz intellektuallara bağlayır.

Hər hansı dövlətin demokratik azadlığı qoruyub saxlaması üçün siyasi elita öz fəaliyyətini pozitiv istiqamətə yönəltməlidir. Bunu "sosial texnologiyaların" – rasional qaydada qəbul olunmuş sosial-siyasi tədbirlərin planlı tətbiqi, konkret siyasi proseslərin nizamlanması yolu ilə həyata keçirmək olar. "Sosial texnologiyalar"ın təsir obyekti sosial qruplar qrup şüuru, qrup münasibətləri, dəyərlər, normalardır. Burada K.Manheym müasir cəmiyyətin iki son dərəcə ifrat xüsusiyyətindən ehtiyat edir: bir tərəfdən, dəyərlərin tam dezinteqrasiyası (anarxiya), bu zaman hər kəs yalnız öz həyatı ustanovkası ilə yaşayır, digər tərəfdən, ictimai həyatın total nizamlanması (diktatura) bu halda cəmiyyətin

dəyərlərinin inteqrasiyası fərdi başlanğıcın təzyiqi hesabına əldə olunur.

"Sosial texnologiya" cəmiyyətin "demokratik özünü-idarəsini" yeni, daha yüksək səviyyədə və məqsədyönlü qaydada təşkilini mümkün etmək üçün sosial nəzarətə can atır. Necə ki, müasir cəmiyyətdə hakimiyyətin mərkəzləşməsi əvvəllər görünməmiş səviyyəyə çatır, intellektuallara və siyasi elitaya olan tələbat da artır: idarə etməyi bilmələri və bunu başqalarına öyrətmələri üçün onlar sosioloji baxımdan təhsilli olmalıdırlar.

## 8.3. Qloballaşmaya təsir edən etnopsixoloji cəhətlər

Sosial psixologiyanın digər aktual problemi qloballaşma dövründə sosial qruplarda qarşılıqlı əlaqə və münasibətlərin sosial xüsusiyyətlərinin öyrənilməsidir. Çünki real şəraitdə qruplararası münasibətlərin dinamikasının dəyişməsi cəmiyyətin bütün sahələr ilə eyni tərzdə getmir. Hər bir fərddə davranışla, fəaliyyətlə bağlı özünəməxsus olan şəxsi dəyərlər üzvü olduğu qrupun digər üzvlərinin qəbul etdiyi normalarla həmişə üst-ütə düşmür. Bu, qrupdaxili qarşılıqlı təsirlə, uyğunlaşma ilə bağlıdır.

Müasir dövrdə bazar iqtisadiyyatı, Qərbə inteqrasiya və ideoloji sistem insanlardan bir sıra keyfiyyətlər kompleksi tələb edir ki, bunlardan biri də ünsiyyətə girə bilməkdir. İşgüzar münasibətlər, mənəvi-psixoloji yaxınlıq, məsələlərə aydın, konkret yanaşma, tərəfdarı dinləməyi bacarmaq və s. ünsiyyət prosesində mühüm yer tutur.

Sosial psixoloqlar qloballaşma şəraitində sosial qrupların yeni şəraitə adaptasiyası üçün islahatların aparılmasının

zəruriliyini ənənəvi cəmiyyətdə insanların kapitalizmə qədərki iqtisadi münasibətlərlə yaşamaları ilə əlaqələndirir. Belə cəmiyyətlərdə təhsilin səviyyəsi aşağıdır, ailədaxili sosial əlaqələr aparıcı əhəmiyyət kəsb edir, insan dəyərlərində dini sistem üstünlük təşkil edir. Bu halda şəxsiyyət özünün dəyişməsinə böyük tələbat hiss edir. Belə cəmiyyətlərdə sənayenin inkişaf sürəti ona aparır ki, hər kəs artıq yeni ictimai-iqtisadi əlaqələr axtarırlar. İstehsalın yeni tipinə keçidlə bağlı olaraq təhsil, məişət komfortu və informasiya texnologiyalarının səviyyəsinin artması isə dəyişmənin nəticələrini ifadə edən proseslərdəndir.

N.L.Xanin hesab edir ki, yeniləşdirməyə insan qrupunun yalnız xarici xarakteristikasının dəyişməsi kimi baxmaq olmaz. Yeniləşmə, mürəkkəbləşmiş etnomədəni sistemlərin dərin keyfiyyət transformasiyası hesab olunur. Onun mahiyyətində aşağıdakılar durur:

- şəxsiyyətin dəyərlərinin istiqaməti və ierarxiyası dəyişir, öz taleyindən razılıq və şəxsi uğurları haqqındakı təsəvvürlərin yeni məzmunu yaranır;
- bu məsələlərlə bağlı qiymətləndirmə meyarları dəyişir, ona müvafiq olaraq fərd öz qrupunun statusunu əvvəlkindən fərqli qiymətləndirir;
- dəyişmələrin qəbul olunması etnomədəni qruplar üçün əsas problem yaradır, bununla belə, dəyişən şəraitdə yaranmış yeni ənənələr yeniləşmənin mahiyyətini əks etdirir.

Göründüyü kimi, hazırda dünyada baş verən qloballaşmanın cəmiyyətlərdə ən çox dəyişməyə məruz qoyduğu sahə insan münasibətləridir. Cəmiyyətdə baş verən aparıcı proseslərin təsiri ilə yaranan yeni münasibətlər bir insan qrupunun digər insan qrupu ilə münasibətində

dəyişmə yaradır. Burada qruplararası münasibətlərin tənzmlənməsindəki ənənəvi meyarlar yeniləri ilə əvəz olunaraq bütövlükdə hüquqi-iqtisadi-mənəvi baxmdan tənzimlənir. Belə yenidənqurulma prosesi psixoloji gərginliklərlə, münaqişələrlə, qarşıdurmalarla müşayiət olunur. Buna səbəb etnopsixoloji maneələrdir.

Məsələ burasındadır ki, qloballaşmanın təsiri ilə dəyişən, yeniləşən cəmiyyətlərdə baş verən ictimai-iqtisadi proseslərin təsiri ilə əvvəlki quruluşun istehsal və istehlak tələblərinə uyğun gələn müəssisələr ya öz işini dayandırır, yaxud istiqamətini dəyişdirir. Bu proses sənaye, kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət, səhiyyə və d. sahələrdə, ictimai birliklərdə təmsil olunanların şəxsiyyətində də dəyişmələr yaradır.

Cəmiyyətdə aparıcı ictimai-siyasi proseslər fonunda baş verən və iqtisadi həyatın bütün sahələrinə, eləcə də kollektivlərə, qruplara, bu qruplardakı differensiasiya, inteqrasiya proseslərinə təsr göstərən belə yeniləşmə ziddiyyətsiz də ötüşmür. Məhz belə ziddiyyətlər, gərginliklər sosial münasibətlərdəki dəyişmələri zəruri edir, nəhayət, frdlər bu reallığı qəbul edir. Bu baxımdan, cəmiyyətdəki dəyişmələr ictimai şüurda, fərdlərin mənlik şüurunda dəyişmələr əmələ gətirir. İnsan qruplarındakı differensiasiya və inteqrasiyanın motivi dəyişir. Əvvəllər daha çox hüquqi-mənəvi (əxlaqi) normalarla tənzimlənən bu münasibətlər dəyişən cəmiyyətin tələblərinə uyğun olaraq hüquqi-iqtisadi-sosial (sərvət meyilləri və sinergizm) baxımından tənzimlənir, dəyərlilik səviyyəsi bu aspektdən qiymətləndirilir. Bu proses tamamilə yeni məzmunda və yeni prinsiplərlə davam edir.

- İstehsalın dəyişməsi iri dövlətlərin bu ölkəyə marağını artırır, yeni bazar uğrunda mübarizə güclənir.
- Hər bir dövlət yeni bazarı öz maraqlarına uyğun olaraq, özünəməxsus dəyərlərlə tənzimləməyə çalışır.
- Yeni bazarın “alıcıları” (yerli xalq -istehlakçılar) və “satıcıları” (istehsalçı ölkələr) arasında dəyər mübarizəsi gedir.
- Bu mübarizədə iki tərəf fəal mübarizə subyektləri kimi diqqət mərkəzində olur: əhali və yerli inhisarçı məmurlar.

Həmin əlaqələrdə üstünlük təşkil edən münasibət tipi qrup üzvlərinin qarşılıqlı əlaqəsinin motivindən birbaşa asılı olur. Eyni zamanda, bu münasibət tipi onların birgə fəaliyyətinin məqsədinə (istehsal olunan məhsula: sənaye, kənd təsərrüfatı, bilik, elm, incəsənət və d.) görə müəyyənləşir. Belə situasiyalarda qrup münasibətlərinin tənzimlənməsi üçün bir sıra tələblər meydana çıxır.

Fərd özünü mənsub olduğu, təmsil etdiyi qrupun stabil, davamlı üzvü kimi hiss etməli, bu qrupa situativ maraqlar, epizodik hallarda yaranan tələbatlar baxımından deyil, davamlı maraq və meyllərlə, dəyərlərlə, motivlərlə bağlı olmalı, həmin qrupun təmsilçisi olduğuna görə fəxr etməlidir. Hər bir insan təmsil etdiyi qrupun digər üzvünün maraqlarını qorumaq üçün özündə mənəvi cavabdehlik hiss etməli, qrup maraqlarını şəxsi maraqlarından aşağı tutmamalıdır. Bu xüsusiyyətləri özündə formalaşdıra bilməyən insan qrup tərəfindən qəbul olunmur. Əslində, insanın sosial yetkinliyi onun intellektual inkişafını daim qabaqlayır. Beləliklə də, qarşılıqlı münasibətlərin inkişafına yönəlmiş fəaliyyətdə sosial təcrübənin mənimsənilməsi baş verir, insanın sosial mövqeyi formalaşır. İnkişaf edən

cəmiyyətdə şəxsiyyətin ictimai fəallığı artdıqca, özünüaktuallaşdırma tələbatı gücləndikcə yeni insani münasibətlər də ön plana keçir. Beləliklə də, məhz insanlarla qarşılıqlı münasibətlər zəminində şəxsiyyətin özünü və dünyanı dərki sürətlənir.

## 8.4. Etnopsixoloji dəyişmələr

Dünya təcrübəsindən məlumdur ki, ənənəvi mədəniyyətin yeniləşməsi, hər şeydən əvvəl şəxsiyyətin dəyər-motivasiya strukturunda və kollektiv (mədəni, etnik) eyniliyində münaqişə yaradır. Çünki həyat tərzinin modernləşdirilməsi mürəkkəbləşmiş etnomədəni sistemi dərin keyfiyyət dəyişməsinə aparır.

1. Dəyərlərin istiqaməti, həyat tərzinin qiymətləndirilməsi və şəxsi uğurlar haqqında təsəvvürlər dəyişir.

2. Yeni istehsal tipinə keçid ictimai şüur səviyyəsinin artması ilə nəticələnir.

Beləliklə, cəmiyyətin xarici (üstqurumu) ilə bağlı olanlara müvafiq olaraq daha dərin qatları (bazisi), hətta etnopsixoloji xüsusiyyətləri də assimilyasiya oluna bilir. Bu baxımdan cəmiyyətin həyatında ardıcıl gedən dəyişmələr ayrı-ayrı fərdlərdə gedən dəyişmələrə alternativ olaraq baş verir. Ona görə də bu prosesə yalnz qrupların xarici əlamətlərinin dəyişməsi kimi baxmaq olmaz.

•Həyat tərzinin yeniləşməsi dəyər-motivasiya strukturunun və kollektiv (mədəni, etnik) eyniyyətinin dəyişməsi ilə bağlı olur.

•Həyat tərzinin yeniləşməsinin şəxsiyyətin dəyər-motivasiya sahsində əmələ gətirdiyi dəyişmələr bunu

deməyə əsas verir ki, mədəniyyətdə bu sahədə gedən də-yişmə ənənəvi norma və qaydaların itməsinə, nəticədə fərdiliyin möhkəmlənməsinə səbəb olacaqdır. Yeniləşmiş mədəniyyətlərdə şəxsiyyət müstəqilliyə, ilk növbədə özünün təəssüratlarının, hisslərinin, düşüncə və görüşlərinin azadlığına cəhd edəcəkdir.

•Dəyişmələrin tədricən getdiyi, daha az modernləşmiş qrupların nümayəndələri təbiətlə harmoniyanı qoruyub saxlamağa çalışırlar. Onlar, hətta yeni və ənənəvi mədəni dəyərlərin harmoniyasını yaratmağa qadirdirlər. Belə in-sanlarda əqidə bütövlüyü, milli stereotiplərə bağlılıq güc-lüdür.

•Həyat tərzinin modernləşməsi etnik eyniliyin qeyri-müəyyənliyinin artmasına və onun pozitivizminin enmə-sinə səbəb ola bilir.

•Modernizasiya həyat tərzinin yüksəlməsinə səbəb olduğundan mədəni və etnik eyniliyin aşınması ilə barış-maq lazım gəlir, lakin getdikcə ənənəvi mədəniyyətin də-yişməsi şəxsiyyətin dəyər-motivasiya quruluşunda və kol-lektiv şüurda münaqişə yaradır. Keçmiş ənənələrə bağlılıq meyli artır.

Ənənəvi cəmiyyətlərdə mənəvi dəyərlərdə dəyişmələr getdiyindən bir çoxları yeniləşməyə çətinlik çəkirlər. Bununla belə, proses gedir. Deməli bir yolumuz qalır -*mil-li dəyərlər zəminində özünəməxsus tərzdə yeniləşmək.* Nə-ticələrin səmərəli olması üçün onun həlli yolunu müəy-yənləşdirmək, baş verə biləcək hadisələri proqnozlaş-dırmaq çətindir. Ona görə də belə cəmiyyətlərdə yaranmış kulturoloji problemləri aydınlaşdırmaq və aradan qaldırmaq xüsusi əhəmiyyət kəsb edir.

Bu halda bizə yalnız "Nə etməli?" sualına cavab axtarmaq qalır. Bu cavabı şəxsiyyətin və cəmiyyətin yeniləşməsi prosesində axtarmalı oluruq. Aparılan ilk araşdırmalar bu nəticəyə gəlməyə əsas verir ki, onun cavabını cəmiyyətin dinamik inkişafını şərtləndirən amilləri öyrənməklə tapa bilərik. Başlıca amil-etnopsixoloji xüsusiyyətlərin sosiumun yeniləşmə tələbinə uyğunlaşmasıdır.

**Suallar və tapşırıqlar:**

*1. "Sosial təsir" nədir?*
*2. Sosial təsir vasitələrinə nələr daxildir?*
*3. Sosial təsirin psixoloji nəticələri özünü hansı sahələrdə göstərir?*
*4. Sosial təsirləri qruplaşdırın.*
*5. Qloballaşmanın etnomədəniyyətlə əlaqəsini izah edin.*
*6. Qloballaşmada sosial təsir effektlərinə nələr daxildir?*
*7. Qloballaşma etnomədəniyyətlərə necə təsir göstərir?*
*8. Qloballaşmanın etnopsixologiyaya təsir haqqında layihələr hazırlayın.*
*9. Etnopsixoloji maneələrə nələr daxildir?*
*10. Etnopsixoloji dəyişmələrə nələr daxildir?*

***Ədəbiyyat:***

*1. Bayramov Ə.S. "Kitabi-Dədə Qorqud" dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası. Bakı: Hurlan, 2000, 105 s.*
*2. Əliyev R.I. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı: Araz, 2000, 195 s.*
*3. Əliyev R.İ Etnopsixologiya: qloballaşma və millilik. Bakı: Nurlan, 2007, 180 s.*
*4. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı: Renessans, 2003, 258 s.*
*5. Əmrahlı L.Ş. Yeniləşən təhsilin psixoloji problemləri. Bakı: Mütərcim, 2010, 275 c.*
*6. Qloballaşmaya doğru. Bakı: Azərbaycan, 2006, 300 s.*
*7. Mehdi N. Çətin və dolaşıq durumların kulturolojisi. Bakı: Qanun, 2001, 300 s.*

*8. Stiqlitz C.E. Qloballaşma və onun doğurduğu narazılıqlar. R.Baxşəliyev və P.Baxşəliyevin tərcüməsi. Bakı: İİM, 2004, 317 s.*

*9. Веккер П., Босков А. Современная социологическая теория. М.: Просвещение, 1961, 368 с.*

*10. Гранин Ю.Д. Глобализация и национализм: история и современность. Социально-философский анализ: дисс… док. филос. наук. М., 2011, 329 с.*

*11. Гуселцева М.С. Культурно-историческая психология и «вызовы» постмодернизма // Вопросы психологии, 2003, №3, с.119-131*

*12. Дьяченко Н.В. Современная студенческая молодежь о духовности // Социология образования, 2010, № 2, с. 68-72*

*13. Кон И. С. Психология ранней юности, М.: Просвещение, 1989, 254 с.*

*14. Корженко А.Л. Молодежная субкультура как альтернативная форма социализации в юношеском возрасте // Вопросы психологии, 2010, № 2, с. 80-89*

*15. Петиненко И.А. Особенности ценообразования в условиях глобализации// Социология образования, 2010, с. 17-22*

*16. Ставрополский Ю.В. Кросскультурные различия в структуре личностной идентичности // Вопросы психологии, 2009, № 2, с. 98-106*

*17. Сухарев А.В. Этнофункциональный подход к проблеме психического развития человека // Вопросы психологии, 2002, № 2, с.40-57*

*18. Татаренко А.Н., Лебедева Н.М., Козлова М.А. Рол модернизации образа жизни в трансформации этнической идентичности // Вопросы психологии, 2006, № 2, с.156-167*

*19. Ханин Н.Л. Кросс-культурные перспективы диагностики индивидуальных различий //Вопросы психологии, 1989, № 4, с. 118-125*

*20. Held D., McGreww. Globalization theory, approaches and controversies// Cambridge: Polity Press, 204 p.*

*21. Online biblioteka. http://www. bestlibrary. ru. c. 1.*

# IX FƏSİL
# SOSİAL PSİXOLOGİYADA PRAKTİK XİDMƏTİN TƏŞKİLİ

## 9.1. Sosial psixologiyada praktik xidməti zəruri edən amillər

Cəmiyyət öz işini enerji mənbələri əsasında quraraq tənzimləyən saat, mühərrik deyildir. Cəmiyyətdə gedən sosial proseslər insanların hər saat, hər gün, nəhayət, illər, əsrlər ərzində yerinə yetirdikləri fasiləsiz hərəkətlərin, fəaliyyətin, qurduqları münasibətlərin nəticəsidir. Sivilizasiyanın baş verməsi, qloballaşmanın neqativ təsirlərindən yan keçmək üçün hər bir cəmiyyətdə yeni dəyərlər sisteminin işlənib hazırlanması, müasir dövrün tələbləri ilə ayaqlaşa bilən, rəqabətəqabil şəxsiyyətin formalaşdırılması, ünsiyyət və qrup münasibətlələrinin, dioloq mədəniyyətinin tamamilə yeni qaydalarla, yeni düşüncə tərzi və yeni sosial təfəkkür əsasında tənzimlənməsi yollarının araşdırılması müasir sosial psixologiya başlıca tədqiqat isitqamətləridir.

Son illər ərzində ayrı-ayrı ölkələrdə cəmiyyətin böhranlı vəziyyətinə dair müxtəlif istiqamətli müzakirələr onu göstərdi ki, bu sahədə tədqiqatlar, elmi axtarışlar xeyli intensivləşməlidir. Özlərini sosial mühitdə idarə etmək, cəmiyyətdəki yerini və mövqeyini müəyyənləşdirməkdən ötrü müxtəlif pillələrdə təhsil alanlar üçün vacib olanların öyrədilməsi, onlara özünütəsdiq və özünüreallaşdırma imkanlarının yaradılması, uşaq, yeniyetmə və gənclərin həyat tərzinin yaxşılaşdırılması, yaşlı və yaşıdlarla qarşılıqlı münasibətlərin nizamlanması, maraq və gözləmələrin

reallığa uyğunlaşdırılması kimi məsələlər əhatəli tədqiqatların predmetinə çevrildi. Bu halda elmi axtarışların istiqamətləri tədricən genişlənir, diqqətdən kənarda qalan, yaxud az diqqət yetirilən problemlərə dair tədqiqatlar meydana gəlir:

- sosial qruplarda imkanların bərabərləşməsi, bu sahədə sosial mobillik, birgəfəaliyyətin sosial inkişafa təsiri;
- ailənin sosial, demoqrafik və psixoloji problemləri;
- əmək qruplarında sosial-psixoloji vəziyyət, insanların şəxsi imkan və maraqlarının nəzərə alınması;
- fərdlərin cəmiyyətdəki sosial-mədəni mühitlə qarşılıqlı əlaqəsi və qarşılıqlı təsirlər;
- cəmiyyətin fərdlərə təsir imkanları;
- sosial qruplarda özünüidarəetmə mədəniyyəti;
- müxtəlif cəmiyyətlərdə sosial psixologiyanın inkişafı, sosial psixoloqarın fəaliyyəti və peşəkar inkişaf xüsusiyyətlərinin öyrənilməsi;
- fərdlərin sosiallaşmasında təhsil mühitinin rolu;
- cəmiyyətdə sosial ədalətin bərpası, insanlara neqativ psixoloji təsirlərin qarşısının alınması, ayrıseçkilik və bərabərsizlik hallarının aradan qaldırılmasına elmi tələblərin işlənib hazırlanması;
- gənc nəslin harmonik inkişafı ilə bağlı sosial-psixoloji proqramların işlənib hazırlanması, həyata keçirilməsi.

Göründüyü kimi, müasir dövrdə istər kiçik, istərsə də böyük sosial qrupların özünəməxsus psixoloji problemləri vardır. Ona görə də dünyada bütün elmlərin, o cümlədən psixologiyanın tətbiqi sahəsi yaranmışdır - praktik psixologiya. Praktik psixologiya hələ XVIII əsrin sonlarından kliniki problemlərin həllinə kömək məqsədilə: diaqnostika,

profilaktika və konsultasiya istiqamətində formalaşmağa başlamışdır.

Bu illər ərzində dünyada praktik psixologiyanın əldə etdiyi uğurlar qibtə ediləcək qədər çoxdur. Hazırda psixoloji xidmətdə: psixika, şüur və şüuraltı sahə, intuisiya, şəxsiyyət, fərdiyyət, davranış, fəaliyyət, ünsiyyət, münasibət, karyera qurmaq, uğur motivasiyasının yaranması, emosional sahənin tənzimlənməsi və d. dəyişmələrin yaradılmasında böyük uğurlar əldə edilib.

Psixologiyada söhbət hansısa material obyektin deyil, psixikanın tədqiqindən və onunla praktik "iş"dən gedir. Fiziki bədəndə olduğu kimi psixikanın da kütləsini, həcmini, tərkibində baş verən dəyişmələri "ölçmək", "çəkmək", cihazlara "qoşmaq" mümkün deyil. Onunla necə davranmağı standartlaşdırmaq, proqnozlaşdırmaq, sərhədlər qoymaq da çətindir. Bu səbəbdən, istər nəzəriyyəçilər, istərsə də praktiklər yalnız psixikanın nəticələri: duyulanlara və qavranılanlara verilən reaksiya, materialın yada salınmasının kəmiyyət və keyfiyyəti, təfəkkür əməliyyatları, onların davranış, fəaliyyət və ünsiyyətdə, bir sözlə, material aləmdə qoyduğu "izlər" üzərində tədqiqat aparmaq məcburiyyətində qalırlar.

Praktik psixologiyada hələlik insanın dərketmə aparatının daha geniş tədqiq edildiyi sahələrə, psixikanın şüurla bağlı tərəflərinə təsir göstərilir. Burada, əlbəttə ki, qanunauyğunluq var. Psixologiya elminin tarixinindən məlum olduğu kimi, hələ başlanğıcından onun yaranma səbəbləri praktik problemlərin: dərketmə (qavrama, hafizə, nitq, təfəkkür, iradə və s.), mənimsəmə (sensomotor və motor səviyyədə), adaptasiya və d. psixoloji aktların başvermə səbəbləri, mexanizm və qanunauyğunluqlarının öyrənilməsi zərurəti ilə bağlı olub.

Psixikanın sərhədlərini aşaraq onun real vəziyyətini qismən də olsa müəyyən etməyə yalnız dünyada tanınmış, qəbul olunmuş praktik peşəkarlar: mediumlar, ekstrasenslər və b. qadirdirlər. Məhz belə fövqəltəbii, fenomenal imkanlara malik olan, yaxud elmi və praktik psixologiya sahəsində ciddi tədqiqatlar aparmış, psixikanın idarə edilməsinin sirlərini bilən yüksək hazırlıqlı mütəxəssislər həmin sahələrlə işləyə bilərlər.

L.S.Vıqotski bildirirdi ki, professional sahədə gücsüzlük, infatilizm günah deyil, praktik sahədə çalışan mütəxəssisin bədbəxtliyidir. Praktika elmin təməl daşı olmalıdır. Əvvəllər praktika nəzəriyyələrdən, metropoliyadan tamamilə asılı olan koloniya kimi idisə, indi vəziyyət dəyişib. Praktika nəzəriyyənin ali məhkəməsi kimi çıxış edir.

Deməli, praktik psixoloqlar - praktik olaraq, sözün həqiqi mənasında psixoloq olmalıdırlar. Halbuki, sosial psixologiya özünün praktik sahəsinə kifayət qədər nəzarət edə bilmir. Ehtimal ki, özünün akademik səviyyəsini qoruyub saxlamaq üçün praktik sahə ilə ciddi əməkdaşlığa da az maraq göstərir. Belə yanaşma, əlbəttə, problemi həll etmir.

Əgər biz keyfiyyətli psixoloji xidmətdən danışırıqsa, ilk növbədə cəmiyyətin psixoloji mədəniyyəti və istifadəçilərin praktik psixoloqa etibarı ön plana keçir. Bunun üçün cəmiyyət elə bir mədəni səviyyəyə qalxmalıdır ki, uşaqdan böyüklərə qədər bu xidmətdən yararlanmağın qaydalarına bələd olmalı, onunla maraqlanmalıdırlar. Maraq isə öz-özünə yaranmır. Onun yaranması üçün insanlar psixoloqa *inanmalıdır*.

İstifadəçi psixoloqunun elmi-praktik hazırlığına inanmırsa, özünün ailə problemlərini, ehtimallarını, şübhələrini

ona etibar etməz. Yaxud, qadın, kişi, yeniyetmə, gənc heç kimə deyə bilmədiyi xoşagəlməz hadisəni, arzu və istəyini psixoloqa danışmaz. Əslində, çox zaman psixoloqların fəaliyyətindəki uğursuzluqlar da məsələlərin həllinə alternativ yol tapa bilməmələrindən yaranır. Deməli, praktik psixoloqun əsas vəzifəsi başqalarında özünə qarşı inam yaratmaqdır. Bunun üçün insanlara məsuliyyətlə yanaşmaq, situasiyanı hərtərəfli təhlil etmək, obyektiv nəticə çıxarmaqla düzgün yol göstərmək lazım gəlir.

Psixoloji xidmət işinə sosial marağın az olmasının *ikinci səbəbi* cəmiyyətin özünün onun xidmətlərindən yararlanmaq üçün hazır olmamasıdır. Cəmiyyətin ən çox inkişaf etmiş təbəqəsi sayılan ziyalılar belə elmi psixologiyanın nailiyyətlərinə arxayınlıqla yanaşmır, özproblemlərini psixoloqlardan daha çox falçılılara, "uzaqgörən"lərə etibar edirlər. Psixoloji xidmət işinin inkişaf etmədiyi, psixoloji gərginliyin, stress və digər halların çoxaldığı cəmiyyətdə əhalinin həmin insanlara üz tutması təbiidir. Ona görə də cəmiyyətdə praktik psixoloqların nüfuzunun artırılmasına, sosial həyatın bütün sahələrində, eləcə də təhsil sistemində psixoloji xidmət işinin genişləndirilməsinə ciddi ehtiyac yaranıb.

Psixoloji xidmətin zəif inkişafına *üçüncü səbəb* kimi etnopsixoloji xüsusiyyətləri göstərmək olar. Milli sterotiplər bu məsələdə mühüm rol oynayır. Mədəniyyətdən gələn inanc və ayinlərin, xalq təbabətinin yararlı və yararsız tərəflərinin ("mollanın kitab açması", "cinçıxarma", "çıldaqçılıq", "falaçma" və s.) kor-koranə qoruyub saxlamaq cəhdi buna nümunədir.

Qeyd edilən amillərin qarşısını alaraq cəmiyyətdə etibarlı psixoloji xidmət ənənəsi yarada biləcək aparıcı qüvvə -

elmi psixologiya və onun praktik sahədə çalışan təcrübəli nümayəndələridir. Əlbəttə, bu, təsəvvür olunduğu qədər də asan proses deyil. Əvvəlcə praktik psixoloqları qeyri-peşəkarlardan fərqləndirən xüsusiyyət, qabiliyyət, əlamət, standartlar cəmiyyət üçün aydınlaşdırılaraq insanlara alternativ seçim imkanları yaradılmalıdır.

Əslində, çatışmazlıqları yalnız istifadəçilərin savadsızlığı, maraqsızlığı, stereotip yanaşmaları ilə əlaqələndirmək ədalətli yanaşma deyil. Bu vəziyyətin ideal səviyyədə həll olunacağını iddia etmək də doğru olmazdı. Hətta, ən çox inkişaf etmiş ölkələrdə də bu problem hələ də bütövlükdə öz həllini tapmayıb, lakin heç olmasa, cəmiyyətin aparıcı sahəsində-təhsil sistemində, əmək sahələrində praktik psixologiyanın müasir metodlarına əsaslanaraq iş aparmaq, beləliklə də praktik psixoloji mədəniyyəti artırmaq mümkündür.

Fikrimizcə, vəziyyəti hələlik qismən da olsa nəzarətə götürmək üçün, birinci növbədə aşağıdakı problemlər öz həllini tapmalıdır:

- problemlərin mahiyyəti öyrənilməli, praktik psixologiyanın inkişaf istiqamətləri müəyyənləşdirilməlidir;
- şüur, psixika, davranış və fəaliyyət və d. məsələlərin praktik tədqiqinə məsuliyyətlə yanaşmaq bu sahədə çalışanlardan tələb olunmalıdır;
- praktik psixoloqların peşə fəaliyyətinə nəzarət və rəhbərlik etmək, istiqamətləndirmək və inkişaf etdirmək üçün xüsusi qurumlar yaradılmalıdır.

Görülən işlər öz nəticələrini onda göstərəcək ki, praktik psixologiyanın problemlərinin müxtəlif əlaqəli sahələr arasında bölüşdürülməsi prosesi getsin.

Onları iki böyük qrupa ayıra bilərik.

*Birinci:* elmi baxımdan hazırlıqlı mütəxəssislər: nevroloq, psixiatr, psixoterapevt, kliniki psixoloq və praktik psixoloqlar (uşaq psixoloqu, təhsil psixoloqu, ailə psixoloqu, məhkəmə psixoloqu, hərbi, idman, mühəndislik, incəsənət və d. praktik psixoloqlar),

*İkincilər*: bu və digər dərəcədə psixoloji biliklərlə tanış olmuş, fenomenal qabiliyyətləri olan praktiklər: parapsixoloq, ekstrasens, bioenergetik, münəccim, yaxud heç nə bilməyib çox şey bildiklərinə insanları inandırmağı bacaran intuistlər.

Hər bir fərdin, o cümlədən hər bir peşəkar psixoloqun birinci, ən mühüm vəzifəsi özünü dərk etmək, eləcə də başqalarına özünüdərketmədə yardımçı olmaqdır. Kim bunu daha yaxşı edirsə - *əsl praktikdir*. Ancaq bu işdə çaşdırmalar, yayındırmalar, ləngidici yollar göstərməklə şəxsiyyətin harmoniyasını pozmaq bağışlanmazdır. Burada söhbət insan taleyindən gedir. Belə vacib bir sahənin elmi nəzarətdən çıxaraq qeyri-ciddi sahəyə çevrilməsinə yol vermək etinasızlıqdır.

Gəldiyimiz qənaət budur ki, praktik psixoloji xidməti yalnız öz fəaliyyətini elmi əsaslar üzərində quran mütəxəssislər inkişaf etdirə bilər. Öz işinə ciddi yanaşan hər bir peşəkar mtəxəssis praktik psixologiyada uğurlar əldə etmək üçün onun başlanğıcından yekununa nə dərəcədə hazır olduğunu dərk etməli, məsuliyyətini başa düşməlidir. Digər şərt insanı sevmək, ona sağlam həyat tərzinin yollarını öyrədən psixologiyanın praktik məsələlərinə ciddi yanaşmaqdır.

Nəhayət, mövcud şəraiti nəzərə alaraq sosial psixologiyanın müasir problemləri içərisindən mədəniyyətlə sıx

əlaqəsi olan aşağıdakı məsələlərin önə çəkilməsi məqsədəuyğun hesab edilir:

1. Ailənin sosial psixologiyası.
2. Şəxsiyyətin sosial psixologiyası.
3. "Mən" və sosial mühit.
4. Sosial təsir.
5. Kiçik qrupların sosial psixologiyası.
6. Sosial təfəkkür.
7. Qloballaşma və mədəniyyətlər.

## 9.2. Təhsil qruplarına psixoloji xidmət

Respublikamızda təhsilin ümumtəhsil pilləsində praktik psixoloqlar ştat vahidləri üzrə fəaliyyət göstərirlər. On lar məktəb psixoloqlarıdır. Məktəb psixoloqlarının əsas işi ümumtəhsil sistemində psixoloji xidməti təşkil etməkdir.

*Məktəbdə psixoloji xidmət* təhsil subyektlərinin daxili potensialı, yaradıcı imkanları, özünüinkişaf və özünüdərketmə yollarını müəyyənləşdirməklə onların reallaşdırılmasına, aktuallaşmasına yönəldilən səmərəli biliklər, vasitələr, metodlar və psixotexnikalar sistemidir.

Məktəbdə psixoloji xidmətin təşkili təhsil sisteminin inkişaf səviyyəsi ilə bağlı olub onun məqsəd və vəzifələri, funksiyaları, iş prinsipləri təhsilin məzmununa, təhsil subyektlərinin qarşılıqlı münasibətlərinin mədəni xüsusiyyətlərinə uyğun olaraq müəyyənləşir.

Məktəbdə psixoloji xidmət işi onun məqsəd və vəzifələrinə uyğun olaraq qurulur. Müasir şəraitdə təhsilə psixoloji xidmətin başlıca *məqsədi uşaq, yeniyetmə və gənclərin psixoloji sağlamlığını qorumaqla onların təhsil müvəffəqiyyətinin artırılmasıdır.*

Psixoloji sağlamlıq ontogenezin bütün mərhələlərində normal, dinamik inkişafdır. *"Psixoloji sağlamlıq"* anlayışı 3 sahəni: tibb, psixologiya və sosiologiyanı əhatə edir. Məktəb psixoloqu uşaqların psixoloji sağlamlığını qorumaq üçün bu sahələrin mütəxəssisləri ilə əlaqəli fəaliyyət göstərir.

Şagirdlərin təhsil müvəffəqiyyətinin artırılması məsələsinə 3 istiqamətdə aparılan profilaktika, diaqnostika, konsultasiya, inkişafetdirici və korreksiya işi, konsiliumlar daxildir:

*1) problemli şagirdlərlə iş*: psixi inkişafında problemləri olan şagirdlərin təlim prosesinə adaptasiyasına, daxili potensialının reallaşdırmasına və özünüdərketməsinə əlverişli şəraitin yaradılması;

*2) normal psixikaya, lakin dərketmə sahəsində, fəaliyyət və ünsiyyətində bir sıra çətinlikləri olan şagirdlərlə iş:*onlarda öyrənmə və mənimsəmə bacarıqları, təhsilmotivasiyası, dərketmə maraqları və koqnitiv qabiliyyətlərin inkişafına ləngidici təsir göstərən sosial-psixoloji və pedaqoji amillərin qarşının alınması;

3) istedadlı şagirdlərlə iş: istedadlı şagirdlərin həmyaşıdlar qrupunda, eləcə də məktəbdə üzləşdikləri mənəvi-psixoloji çətinliklərin qarşısının alınması, özünüreallaşdırma üçün onlara əlverişli mühitin yaradılması.

Beləliklə, məktəb psixoloqunun başlıca məqsədi təhsilalanlar və təhsilverənlər üçün əlverişli psixoloji inkişaf mühitinin yaradılmasına nail olmaqdır. O öz işini şagird, pedaqoq və valideynlərin psixoloji biliklərinin artırılmasına, fəaliyyət və ünsiyyətdə bu biliklərdən yararlanaraq təhsildə uğurlar əldə etmələrinə yönəldir. Pedaqoji prosesdə yaranmış hər hansı problemli situasiyanı həll etmək üçün

onu sosial, psixoloji və pedaqoji kontekstdə nəzərdən keçirərək nəticə çıxarır. Məktəbdə ona müraciət edən şəxsə istifadəçiyə (şagird, müəllim, valideyn) *psixoloji yardım* göstərir.

Psixoloji yardım özündə bir neçə istiqaməti birləşdirir:

· psixoloji maarifləndirmə və psixoprofilaktika;

· psixodiaqnostika;

· psixokorreksiya və psixoterapiya;

· psixoloji konsultasiya;

· psixoloji konsilium.

Bütün bunlar son nəticədə məktəbdə əlverişli psixoloji iqlimin yaradılmasına xidmət edir. Məktəblilərin psixi inkişafı üçün əlverişli psixoloji mühitin kriteriyaları müəyyənləşdirilərkən aydın olub ki, hər bir yaş dövründə şagirdlər üçün yaradılmış əlverişli mühit onun sonrakı yaş dövrlərində daha məhsuldar fəaliyyət göstərməsinə imkan verir. Nəticədə şagird yaş dövrlərində özünün daxili potensialını, bilik ehtiyatını reallaşdırır, intellektual inkişaf mərhələlərini uğurla başa vurur.

Məktəb psixoloqunun vəzifələrinə bütün yaş mərhələlərində məktəblilərin psixi, psixofizioloji və şəxsi inkişafına təsir göstərmək üçün yerinə yetirilən işlər daxildir.

Məktəb psixoloqunun vəzifələrinə kompleks yanaşma geniş yayılıb. Psixoloqun məktəbdəki təhsil prosesini, təlim-tərbiyə işini kompleks müşayiət etməsi bir sıra vəzifələrin yerinə yetirilməsini zəruri edir:

- uşaqların məktəbə qəbulu zamanı onların hazırlıq səviyyəsini təyin etmək, sinif müəlliminə kömək edərək onlarla fərdi iş aparmaq, məktəbə adaptasiyasına nail olmaq;

- şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərini, intellektual, emosional, iradi və şəxsiyyət göstəricilərini diaqnozlaşdıraraq onların təlim-tərbiyəsinə mane olan səbəblərin aradan qaldırılması üçün tədbirlər görmək;

- risk qrupuna daxil edilmiş, kliniki problemləri olan şagirdləri diaqnozlaşdırmaq, onlara inkişafetdirici proqramlar tətbiq etmək;

- yaş böhranları dövründə məktəblilərin fəaliyyətini nəzarətdə saxlamaqla maarifləndirici, profilaktik, konsultativ və korreksiya işi aparmaq;

- şagirdlərdə təlim çətinlikləri yaradan səbəblərlə bağlı proqramlar hazırlayaraq müəllimlər və valideynlərlə birgə həyata keçirmək;

- şagirdlərə həmyaşıd, müəllim və valideynlərlə qarşılıqlı münasibətlərin pozulması səbəblərini izah etmək;

- məktəb rəhbərliyini, müəllim və valideynləri müxtəlif yaş dövrlərində şagirdlərin diqqəti, hafizəsi, təfəkkürü, maraqları və tələbatları haqqında məlumatlandırmaq;

- şagirdlərlə inkişaf, öyrənmə, mənimsəmə, özünütəyinetmə, özünüidentifikasiya, özünütərbiyə, yaşlı və yaşıdlarla ünsiyyətlə bağlı fərdi və qrup konsultasiyaları keçirmək;

- IX-XI sinif şagirdləri ilə peşəyönümü üzrə iş aparmaq;

- təhsil subyektlərində (şagird, müəllim, məktəb rəhbərləri və valideynlər) psixoloji mədəniyyətin inkişafı üzrə maarifləndirici proqramlar həyata keçirmək.

Məktəb təcrübəsi göstərir ki, şagirdlər bir çox hallarda tədris tapşırıqlarını yerinə yetirərkən əlverişli vasitələrə əsaslanmırlar. Bu səbəbdən, üzərində əməliyyat aparılan obyektlərin bütün zəruri və kifayət qədər əhəmiyyətli xassələrinə bələdləşmə çətin gedir. Nəticədə tapşırığın

mərhələləri arasında əlaqələr itir və əvvəlki məlumatlar, eləcə də əldə olunmuş zəruri biliklər unudulur. Bu baxımdan, məktəb təliminin ən çətin və başlıca problemlərindən biri də şagirdlərdə *dərketmə motivasiyasının* yaradılmasıdır.

*Şəxsiyyət problemlərinin* həlli də məktəbdə psixoloqun diqqət mərkəzində saxlamalı olduğu əsas problemlər sırasındadır. Burada *gənc nəslin cəmiyyətə inteqrasiyası,* şəxsiyyətin, bu cəmiyyətdə özünə yer tapması mühüm məsələdir. Uşaq, yeniyetmə və gənclərin cəmiyyətə inteqrasiyası üçün, hər şeydən əvvəl, onların daxili ehtiyacı və ehtiyatı üzə çıxarılmalıdır.

Daxili ehtiyatın üzə çıxarılması şagirdlərə müxtəlif metodlarla təsir göstərmək sayəsində mümkün olur. Məktəb psixoloqu bunun üçün əlverişli və təsiredici vasitələr seçir, tətbiq edir və ya şagirdlərə fərdiyyətinə uyğun vasitələrdən istifadə yollarını öyrədir. Burada başlıca məsələ - psixoloqun müəllimlərlə apardığı işdə onlara şagirdlərin yaş və cinsi xüsusiyyətləri, dərketmə və koqnitiv imkanları, emosional-iradi sahəsi, şəxsiyyəti, qarşılıqlı münasibətlərin tənzimlənməsi haqqında lazımi bilikləri çatdıra bilməsi, düzgün məlumatlandırmasıdır. Bu işləri bir neçə istiqamətdə qruplaşdırmaq olar:

- şagirdlərlə işləyərkən onların imkan və qabiliyyətlərini üzə çıxararaq yaş xüsusiyyətləri və aparıcı fəaliyyətinə uyğun inkişaf etdirmək;
- şagirdlərin fərdi xüsusiyyətləri: hiss, meyil, maraq, həvəs, qabiliyyət, intellekt, koqnitiv üslub, münasibət, motiv, ustanovka, daxili mövqe, oriyentasiya və s. inkişafını istiqamətləndirmək;

⬩ məktəbdə şagirdlər üçün əlverişli psixoloji iqlimin yaradılmasına yardım göstərərək onları məhsuldar və yaradıcı fəaliyyətə, müəllimlər və həmyaşıdlarla əməkdaşlığa yönəltmək,

⬩ psixikasında ləngimə, yayınma, davranışında pozuntular olan şagirdlər, emosional sahəsində problemləri olan müəllimlər, övladları ilə münaqişə yaşayan valideynlərə psixoloji xidmət göstərmək.

Ə.Ə.Əlizadə təhsil sahəsində yaranmış problemlərin həllində məktəb psixoloqunun qarşısında duran vəzifələr içərisində *yeni pedaqoji təfəkkürün* formalaşdırılmasını ən zəruri məsələ kimi önə çəkir. O, yeni pedaqoji təfəkkürün başlıca postulatlarına aşağıdakıları daxil edir:

⬩ təlimin məzmunu məqsəd deyil, şagird şəxsiyyətinin inkişafı üçün vasitədir;

⬩ hər bir şagird bir şəxsiyyət kimi təlim-tərbiyə prosesinin mərkəzi hadisəsidir;

⬩ müəllim şagirdin şəxsiyyət kimi mahiyyətini görməli, ona hörmət etməli və inanmalıdır;

⬩ şagirdin özünüreallaşdırması üçün məktəbdə müvəffəqiyyət və xeyirxahlıq situasiyası yaradılmalıdır;

⬩ şəxsiyyətin psixoloji-pedaqoji diaqnostikasına xüsusi diqqət yetirilməlidir: onun maraqları, qabiliyyətləri, istiqaməti, "Mən–konsepsiya"sı, xarakter əlamətləri, idrak fəaliyətinin xüsusiyyətləri sistemli öyrənilməlidir;

⬩ şəxsiyyətin inikşafı proqnozlaşdırılmalıdır;

⬩ fərdiləşmə təlim prosesi strategiyasının əsas istiqamətlərindən birinə çevrilməlidir.

Pedaqoji prosesin professional qaydada qurulması, məktəblilərin psixoloji sağlamlığının qorunması işini psixoloqdan başqa heç kim yaxşı təşkil edə bilməz.

Psixoloq məktəbdə məhz bu kimi işlərə cavabdehdir. Qeyd edilənlərin həyata keçirilməsi üçün İ.V.Dubrovina pedaqoji kollektivdə məktəb psixoloqunun bərabərhüquqlu üzv kimi qəbul edilməsini vacib bilir. Məktəb psixoloqu qarşıya qoyulmuş məqsədə - uşaq, yeniyetmə və gənclərin psixoloji sağlamlığına, təhsil uğurlarına nail olmaq üçün məktəb rəhbərliyi, müəllim və valideynlərlə birgə fəaliyyət göstərməlidir.

## 9.3. Ailədə psixoloji xidmət

Sosial psixologiyada ailə nəzəriyyələrinin banisi M.Bouen hesab olunur. O, XX əsrin ortalarında Amerikada ilk dəfə olaraq praktik ailə terapiyası məktəbi yaratmışdır. M.Bouen həmin dövrlərdə Z.Freydin yaratdığı analitik terapiyanın fərdiliyə, subyektivliyə yönəlməsindən narazı idi. Eləcə də, freydizmdə təbii elmlərin iştirak etməməsini qənaətbəxş sayılmırdı.

M.Bouenin ailə nəzəriyyəsinin əsasında canlı orqanizmlərin hər hansı mürəkkəb səviyyəli emosional vəziyyəti haqqındakı fikirlər durur. O, insanın davranışında qarşılıqlı münasibətlərin az və çox dərəcədə mexaniki xarakter daşıdığını göstərir. Əgər qıcıqlanma çoxdursa, insanın reaksiyası daha çox avtomatik, “emosional” olacaq. Qıcıqlanma az olduqda daha az avtomatik və düşünülmüş xarakter daşıyacaq. Onun ailə sistemi nəzəriyyəsində səkkiz vəziyyət ayırd edilir.

İnsanın “emosional” xəstələnməsini M.Bouen ailənin emosional sisteminin disfunksiyası ilə əlaqələndirir. Onun nəzəriyyəsinə əsaslanan mütəxəssislər psixiatrik xəstəliklərin səbəblərini təbbi amillərdən daha çox insanın psixoloji,

somatik və ya sosial simptomları hesab edirlər. Belə ki, emosional problemlər nəsillər boyu ailənin qarılıqlı münasibətlərində bir nəsildən digərinə daşınır.

Əgər ailədə nəsillər boyu trasformasiya edilən emosional informasiyalar varsa, deməli ailə üzvlərinin altşüurundakı genetik hafizədə saxlanılan istək və meyillərin informasiya seçiciliyinə təsiri də mümkündür. Çünki genetik informasiyaların avtomatik olaraq özünə adekvat informasiyalarla assosiasiya yaratması daha qanunauyğundur.

Belə məlum olur ki, inkişafda olan insanın daxili aləmi ətraf aləmin təsirlərinə seçici yanaşır. Yalnız özünü qane edənləri mənimsəyir. Hər bir şəraitdə yalnız ənənələrə görə deyil, həmçinin özünün şəxsiyyətinə, eləcə də kənar təsirlərə uyğun olaraq davranış nümayiş etdirir. Bu halda ona öyrədilənlərin konkret nümunələrlə təsdiqlənməsini, ona göstərilən təsirlərdə vahidliyin olmasını, ailədəki yaşlıların təsirləri, şəxsi nümunəsi ilə digər informativ təsirlərin (televiziya, internet, radio, sosial məkan və s.) vəhdət təşkil etməsi çox mühümdür.

Psixoloji xidmətin digər bir istiqaməti ailə və onun üzvlərinin qarşılıqlı münasibətləridir. Əslində, ailə münasibətləri də cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlərlə bilavasitə bağlıdır. Cəmiyyət dəyişdikcə ailə də dəyişərək inkişaf edir. Bu baxımdan ailənin tərbiyə mühiti də dəyişir. O halda ailədə övladlarla qurulan münasibətlərə yeni qaydalarla baxmaq lazım gəlir.

Psixoloji xidmət zamanı ailənin quruluşu, ailədaxili münasibətlərin məzmunu ilk növbədə kiçik qrup kontekstində öyrənilir. Ona görə də ailədaxili münaqişələrin xüsusiyyətlərini aydınlaşdırmaq üçün əvvəlcə kiçik

qrupun psixoloji mahiyyətini, bu qrupda qurulan əlaqələrin, birgə fəaliyyət və ünsiyyətin determinantları müəyyənləşdirilir. Problemə belə yanaşma kiçik qrup üzvlərinin qarşılıqlı münasibətlərinin xarakterini, onları münaqişəli vəziyyətə gətirən səbəbləri aydınlaşdırmağa imkan verir. Ə.S.Bayramov və Ə.Ə. Əlizadə ailəni sosial qrup kimi nəzərdən keçirirlər. Sosial psixologiyada insanın sosiallaşmasının ilkin təcrübə mənbəyi olan ailəyə onlar həm də psixi sağlamlığın mənbəyi kimi yanaşırlar.

Ailə psixoloqunun ən mühüm vəzifələrindən biri də ailədə psixoloji iqlimin qorunmasıdır. K.Levin "psixoloji iqlim" anlayışının sinonimi olaraq psixoloji ab-hava (psixoloji atmosfer) anlayışından istifadə edir. Bu, K.Levinin nöqteyi-nəzərində psixoloji mühitin elementidir. O, psixoloji mühiti differensiallaşdıraraq "regionlara" (onlar arasında sıx əlaqə mövcuddur) bölür. Regionun keyfiyyəti müxtəlif xüsusiyyətlərinə görə səciyyələnir. "Regionun mühiti onun örtüyü, yaxud üst qatıdır. Hərəkətli mühit insana tez bir zamanda təsir göstərir. Ləng mühit dəyişmələrə qarşı çıxır. O, kobud və elastik deyil".

K.Levinin izah etdiyi psixoloji iqlim insanın emosional vəziyyəti və maraqları ilə hazırda olduğu regionun vəziyyətinə uyğunluğunu ifadə edir. Həmin emosional vəziyyət insanların yaşantıları, əhvalları, özünə və ətrafına, tədqiqatımızda isə valideynin uşağa, ailədə baş verən hadisələrə və ya əksinə münasibətini özündə birləşdirir.

Psixoloji iqlimin quruluşu ailədəki nəsillərarası münasibətlərin xarakterindən, övladların cins-yaş xüsusiyyətlərindən, sayından, cinslərin kəmiyyət nisbətindən (qız və oğlanların say fərqindən), qohum və qonşularla münasibətlərindən, digər amillərdən asılı olur. Burada ər

və arvad arasındakı münasibətlər aparıcı yerdə durur. Ər-arvad arasında, hətta kiçik bir narazılıq olduqda belə uşaqlar onu hiss edir, narahatlıq keçirirlər. Nəticədə ailənin rahatlığı pozulur, psixoloji iqlim dəyişir.

Ailədə psixoloji iqlimi pozan əsas amilllərdən biri (əslində, birincisi) qarşılıqlı münasibətlərdə yaranmış böhran hallarıdır. Ailə münasibətlərindəki böhran uşaqlarda kədər, həyəcan, qorxu hissi yaradır. Belə emosional vəziyyətin uzun müddət davam etməsi ailədə valideynlərlə uşaqlar arasındakı qarşılıqlı hörmətin, etimadın və etibarın zəifləməsinə gətirib çıxarır. Uşağın ailədən kömək alaraq öz məqsədinə çatmaq üçün bəslədiyi ümidlər dəfələrlə özünü doğrultmadıqda, buna maneçilik törədən qadağa, maddi məhdudiyyət, emosional əngəllərlə rastlaşdıqda isə frustrasiya vəziyyəti yaranır. Frustrasiya uşaq üçün mühüm əhəmiyyət kəsb edən arzunun yerinə yetirilməsinə qarşı valideynin qoymuş olduğu qadağa və məhdudiyyətlərdən əmələ gəlir. Onun əlamətləri uşağın davranışında bir sıra təzahürlərlə özünü göstərərək hərəki oyanıqlıq, emosional passivlik, aqressiya, stereotipləşmə, reqressiya və s. formalarda bürüzə verir.

## 9.4. Əmək qruplarına psixoloji xidmət

Əmək sahələri çoxdur. Bunlara təhsil, tibb, biznes, rabitə, reklam, idman və d. daxildir. Bu sahələrdə fəaliyyət göstərən sosial psixoloqların hər birinin fərqli funksiyaları vardır. Onların fəaliyyət istiqamətləri də əməyin xüsusiyyətlərinə uyğun olaraq dəyişir. Bu reallıqları nəzər alaraq biz burada bir neçə əmək sahələrində fəaliyyət

göstərən praktik psixoloqların fəaliyyət istiqamətləri haqqında bəhs edəcəyik.

### *9.5. Sosial qruplarda müsbət psixoloji iqlimin qorunması*

Məlum olduğu kimi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin srtukturunda müxtəlif kateqoriyalı mütəxəssislər çalışır. Onların hər birinin vəzifə səlahiyyətləri xüsusi qaydalarla müəyyənləşir, lakin hər bir işçinin professional hazırlığına verilən ümumi tələblər də vardır. Onlardan ən başlıcası, bu sistemdə fəaliyyət göstərənlərin koqnitiv qabiliyyətləri ilə bağlıdır.

"Koqnitiv qabiliyyət" anlayışına koqnitiv sahə, koqnitiv bacarıq, koqnitiv üslub və digər bu kimi komponentlər daxildir. Bu komponentlərin kompleks psixoloji diaqnostikası yolu ilə rabitə və yüksək texnologiyalar sahəsində fəaliyyət göstərəcək mütəxəssislərin peşəkarlıq qabiliyyətlərini ölçmək olar.

Bunun üçün Beynəlxalq miqyasda tətbiq edilən və sınaqdan çıxmış bir sıra test nümunələri yaradılmışdır. Modifikasiya yolu ilə həmin testləri Respublikanın mədəni mühitinə, etnofunksional və etnopsixoloji faktorlarına uyğunlaşdırmaqla, bu zəmində xüsusi metodika işləyib hazırlamaqla rabitə sistemində işə qəbul olunanların peşəkarlığını, şəxsi keyfiyyətlərini müəyyənləşdirmək olar. Eyni zamanda, birgə layihələrlə alternativ testlər də yaratmaq mümkündür.

Rabitə sistemində fəaliyyət göstərən mütəxəssislər, rabitə və poçt işçiləri yüksək texnologiyaların tətbiqi üzrə koqnitiv səriştələrə sahib olmalıdırlar. Yeni texno-

logiyaların mənimsənilməsi və aparılan əməliyyatların operativliyi koqnitiv qabiliyyətlərin inkişafı yolu ilə baş verir. Xüsusi proqramlar əsasında təşkil olunan psixoloji treninqlərin köməyi ilə bilavasitə istifadəçilərlə işləyən əməkdaşlarda bu kimi qabiliyyətləri inkişaf etdirmək mümkündür.

Bundan başqa, rabitə və yüksək texnologiyalar sahəsində praktik psixoloqun görəcəyi işlərin daha bir istiqaməti vətəndaşların elektron informasiya resursları, o cümlədən internetdən istifadə imkanlarının artırılmasıdır. Təəssüf ki, yaradılan imkanlar özü ilə birgə istifadəçilər, xüsusilə məktəblilər (daha çox yeniyetmələr) üçün bir sıra problemlər yaratmaqdadır. Bu problemlər özünü daha çox informasiyalar əldə etmək, seçmək və istifadə sahəsində göstərir. Əsas səbəblərdən biri istifadəçilərin informasiyalardan səmərəli və məhsuldar istifadə qaydalarını bilməmələridir.

Rabitə və yüksək texnologiyalar sahəsində praktik psixoloqun işi psixoloji diaqnostikadan başlayır. Buraya bir neçə mövzu daxildir.

Mövzu: işə qəbul olunanların koqnitiv qabiliyyətlərinin psixodiaqnostikası

*I modul:* Koqnitiv sahənin psixodiaqnostikası

- Diqqəti mərkəzləşdirmə bacarığı.
- Operativ hafizə imkanları.
- Praktik təfəkkür, təfəkkür əməliyyatlarının çevikliyi.
- İntellektin labilliyi (qərarlılığı).
- İntellekt əmsalı İQ.
- Dil kodlarının mənimsənilməsi.

*II modul:* Peşə fəaliyyəti üçün vacib olan koqnitiv bacarıqların psixodiaqnostikası

• Koqnitiv üslubun təyini.
• Dili intuitiv dərketmə bacarığı.
• İnformasiyaların əlaqələndirilməsi.
• Ümumiləşdirmə və müqayisəetmə.
•Kateqoriyalaşdırma, modelləşdirmə, sxemləşdirmə.

Psixodiaqnostik (təşkilati, dəlillərin işlənilməsi, şərhetmə, bioqrafik, praksimetrik) metodlar: müşahidə, müsahibə, söhbət, intervyu, sorğu, testləşdirmə, fəaliyyət məhsullarının təhlili (proyektiv metodikalar) və s.

Psixodiaqnostik nəticələr sınanılanlara aşağıdakı koqnitiv göstəricilərini müəyyənləşdirməyə imkan yaradır:

- diqqətini mərkəzləşdirərək həlli çətin tapşırıqları səhvsiz başa çatdırmaq;
- uzunmüddətli hafizədəki informasiyanı qısamüddətli hafizəyə gətirərək yeni informasiya ilə assosiasiya etmək;
- təfəkkür əməliyyatlarını çevikliklə yerinə yetirmək;
- intellektin labillyini müəyənləşdirmək;
- dil kodlarının mənimsənilməsi imkanlarını öyrənmək;
- özünün koqnitiv üslubun təyin edərək informasiyaların işlənməsi sahəsindəki fərdi imkanlarını aydınlaşdırmaq;
- dili intuitiv dərketmə bacarığına görə üzərində işlədiyi mətnlərə yaradıcı yanaşmaq;
- ayrı-ayrı informasiyaları eyni məzmunda birləşdirmək, yaxud mətnin denototlarını seçmək;
- informasiyanı ümumiləşdirmək və müqayisə etmək;
- informasiyaları kateqoriyalaşdırmaq, modelləşdirmək, sxemləşdirmək.

Mövzu: işə qəbul olunanlarda peşə fəaliyyəti üçün vacib olan şəxsi keyfiyyətlərin psixodiaqnostikası.

*I modul:* Fərdi-psixoloji xüsusiyyətlər

• Temperament, xarakter, qabiliyyətlər.

• Fikri hərəkətlərin səs siqnallarına uyğunlaşdırılması.

• Obrazların, sxemlərin seçilməsi və praktik fəaliyyətdə tətbiqi.

• Sensor və motor sahənin identifikasiyası.

*II modul*: İradi-emosional sahə.

• Emosional sabitlik, təmkinlik.

• Psixi enerji sahəsinin təyini.

• Ünsiyyət, münasibət və kommunikativ əlaqələrdə empatiklik.

• Emosional üzüntünü yaradıcılıq enerjisi ilə kompensasiyaetmə bacarığı.

*III modul*: Şəxsiyyət və şəxsiyyətlərarası münasibətlər.

• Özünüqiymətləndirmənin adekvatlığı.

• Yeni mühitə adaptasiya bacarığı.

• İdarəetmə və idarəolunma: tabeçilik-dominantlıq.

• Birgəfəaliyyət imkanları, davranışın yüksək normativliyi.

• Təşkilatçılıq və qrup maraqlarına mərkəzləşmə.

• Kreativlik, riskəgetmə, özünənəzarət, özünəgüvənlik.

Psixodiaqnostik nəticələr sınanılanlara aşağıdakı fərdi psixoloji və şəxsiyyət göstəricilərini müəyyənləşdirməyə imkan yaradır:

- özünün fərdiliyi haqqında kompleks məlumatlar əldə etmək;
- praktik fəaliyyətdə üzləşdiyi çətinliklər və əldə etdiyi uğurların təfəkkür prosesləri ilə bağlılığını öyrənmək;
- sensor və motor sahənin identifikasiya imkanlarını aydınlaşdırmaq;

- fikri hərəkətlərin səs siqnallarına uyğunlaşdırılması səriştəsini təyin etmək;

- özünün emosional vəziyyəti haqqında dəlillərə sahib olmaqla yorğunluq yarada biləcək situasiyaları müəyənləşdirmək;

- kommunikativ bacarıqları barədə detalları bilmək;

- emosional üzüntünü yaradıcılıq enerjisi ilə kompensasiyaetmə bacarığı.

- özü haqqında sosial qiymətləndirmələri öyrənmək;

- yeni iş şəraitinə və peşə fəaliyyətinə adaptasiya bacarığını öyrənmək;

- idarəetmə, liderlik və rəhbərlik səriştələrini təyin etmək;

- qrupda birgə fəaliyyət imkanları, davranışın normativliyi üzrə məlumatlara sahibolma;

- özünün yaradıcılıq imkanları, riskəgetmə qabiliyyəti, özünənəzarət bacarığı haqqında kompleks məlumatlar əldə etmək.

Rabitə və yüksək texnologiyalar sıstemində fəaliyyət göstərənlərin praktik psixoloqun digər işi mütəxəssislərin professional fəaliyyətinin tənzimlənməsidir

*Mövzu:* əməkdaşlar və istifadəçilər arasındakı işgüzar əlaqələrdə səmərəliliyin artırılması

*I modul*: İşgüzar əlaqələrin qurulması

• İşgüzar əlaqələrə girmək üçün vacib bacarıqlara sahibolma.

• Ünsiyyət zamanı öz emosiyalarını cilovlamaq.

• İşgüzar əlaqələr zamanı özünü stress yaradan stimullardan təcridetmə.

• İşgüzar əlaqələrdə əsaslandırma və əksdəlillər qoyma texnikası.

• İşgüzar əlaqələr zamanı həmkarını vəcdəgətirmə.

• Mürəkkəb situasiyada hər hansı şəxslərlə razılığa gəlmək üçün kommunikativ bacarıqların artırılması.

*II modul*: Əmək məhsuldarlığının artırılması.

• Əməyəqabillik məşqləri.

• Rəqabətəqabillik üzrə psixoloji oyunlar.

• İş prosesində emosional gərginliyin aradan qaldırılması.

• İş prosesində psixoloji sağlamlığın qorunması.

• Psixi enerjinin rasional qaydada paylanması yolu ilə əmək qabilliyyətinin artırılması üzrə məşqlər.

• Peşə fəaliyyətində səmərəliliyin artırılması üzrə problem situasiyaların yaradılması və həlli.

Təlimin keçirilməsi üsulları: mühazirə, müzakirə, suallar, sorğu, beyin həmləsi, problem situasiya, rollu oyun, psixoloji drama, layihələndirmə, Venn diaqramı, şaxələndirmə.

*Mövzu:* poçt işçilərində peşə səriştəliliyinin artırılması.

I modul: Poçt şöbəsinin fəaliyyəti ilə bağlı peşə bacarıqların inkişafı

• Kommunal ödəmələrlə bağlı aprılan əməliyyatlarda informasiyaların dəqiq olması üçün diqqətin mərkəzləşdirilməsi.

• İnformasiyaların dəqiqləşdirilməsi zamanı qısamüddətli hafizədən istifadə.

• İş prosesində koqnitiv əməliyyatların emosional tənzimlənməsi.

• Professional fəaliyyətdə məsuliyyətlilik, vicdanlılıq.

II modul: poçt işçilərində ünsiyyət bacarıqlarının inkişafı.

• İstifadəçini dinləməkdə mane olan stimulları kənarlaşdıraraq diqqəti informasiya üzərinə yönəltmək.

İstifadəçilərlə ünsiyyyət zamanı özünün şəxsi mülahizələrinin neqativ təsirini dəf etmək.

• Ünsiyyət zamanı istifadəçini başa düşmək çətin olduqda alternativ məlumat mənbəyi axtarışı.

• Söhbət edərkən istifadəçinin jestlərini "oxumaq".

III modul: poçt işçiləri ilə istifadəçilər arasındakı mübahisə və münaqişələrin konstruktiv həlli.

• İstifadəçini səbirlə dinləmək, ona öz fikrini çatdırmağa imkan yaratmaq.

• İstifadəçilərlə ünsiyyət zamanı onunla mədəni davranmağa vadar edən psixoloji təsirləri fəallaşdırmaq.

• İstifadəçilərlə ünsiyyyətdə istifadə edilən ifadələrin yanlış anlaşıla bilməsinə yol verməmək.

•İstifadəçilərlə ünsiyyyətdə ona qarşı neqativ mövqenın maskalanması.

Psixoloji yardım alanlar aşağıdakılara yiyələnəcəklər:

- diqqətin mərkəzləşdirmək və informasiya üzərinə yönəltmək;
- qısamüddətli hafizədən səmərəli istifadə;
- əməliyyatların icrası zamanı emosional vəziyyətini tənzimləmək;
- istifadəçilərlə ünsiyyyətdə şəxsi mülahizələri neytralllaşdırmaq bacarığına sahibolma;

- istifadəçini razı salmaq üçün dəqiq məlumatlar əldə etmək bacarığına sahibolma;
- jestləri “oxumaq” bacarığının inkişafı;
- istifadəçilərlə mədəni davranışın müasir vasitələrinə yiyələnmək;
- istifadəçilərlə rol davranışına yiyələnmək.

***Fövqəladə hallar sistemində fəaliyyət göstərən praktik psixoloqların fəaliyyət istiqamətləri***

Əsas istiqamət: peşə fəaliyyəti zamanı yaranmış həlli çətın situasıyalarda özününizamlama.

Mövzu: Peşə fəaliyyətində davranışın emosional tənzimlənməsi.

*I modul:* Çətin situasiyalarda davranışın tənzimlənməsi

• Fövqəladə situasiyalarda yaranmış psixoemosional vəziyyətdən çıxmaq.

• Problemli sitiasiyalarda yaranmış həlli çətin tapşırıqların yerinə yetirilməsi.

• Münaqişəli situasiyaların nizamlanması.

• Çətin situasiyalara cəld bələdləşmə.

*II modul.* İnsanlarla emosional əlaqələrin yaradılması.

• Üzləşdikləri həlli çətin situasiyalarda istifadəçilərə empatik yanaşma.

• Söhbət zamanı emosional gərginliyin enməsi üçün iradi səy göstərməklə istifadəçilərlə empatik əlaqələr qurmaq.

• İnsanlarda xoş təəssürat yaradan verbal ünsiyyət bacarığına sahibolma;

• yaranmış maneələri kommunikasiyanın köməyi ilə dəf etmək.

• səmimi olmağa, üzləşdiyi problemin mahiyyətini etiraf etməyə inandırmaqla mövcud qaydalar əsasında birgə həllinə çalışmaq.

Təlimin keçirilməsi üsulları: mühazirə, müzakirə, suallar, sorğu, beyin həmləsi, problem situasiya, rollu oyun, psixoloji darma, layihələndirmə, Venn diaqramı, şaxələndirmə.

Təlimi bitirənlər aşağıdakılara yiyələnəcəklər:

- çətin situasiyalarda davranışı tənzimləmək;
- psixoemosional vəziyyətdən çıxmaq;
- həlli çətin tapşırıqların yerinə yetirmək;
- münaqişəli situasiyaları nizamlamaq;
- çətin situasiyalara bələdləşmək.
- istifadəçilərlə işgüzar-emosional əlaqələr yaratmaq;
- istifadəçilərlə işgüzar əlaqələr zamanı üzləşdikləri həlli çətin situasiyalarda onlara empatik yanaşmaq;
- istifadəçilərlə söhbət zamanı emosional gərginliyin enməsinə nail olmaq;
- işgüzar əlaqələrdə yaranmış maneələri dəf etmək.

Aparılan işlərin faydası:

- fövqəladə situasiyalar zamanı əməkdaşlarda yarana biləcək psixoemosional vəziyyətin profilaktikasının aparılması;
- əməkdaşların problemli sitiasiyalarda yerinə yetirilməsi lazım gələn həlli çətin tapşırıqlara hazır olması;
- əməkdaşların münaqişəli situasiyaları nizamlamaq bacarığına yiyələnməsi;
- çətin situasiyalara əməkdaşların cəld bələdləşməsi;
- üzləşdikləri həlli çətin situasiyalarda əməkdaşların istifadəçilərə empatik yanaşması;

- əməkdaşlar və istifadəçilər arasında daxili qaydalara uyğun empatik əlaqələrin qurulması;
- əməkdaşlarıda yaranmış maneələri kommunikasiyanın köməyi ilə dəf etmək bacarığının formalaşdırılması;
- istifadəçilərin üzləşdikləri problemin aradan qaldırılması üçün əməkdaşlarda peşə səriştəliliyinin artırılması.

*Mövzu:* əmək kollektıvındə ünsiyyət və qarşılıqlı münasibətlərin emosional tənzimlənməsi.

*I modul.* İşçiləri arasındaünsiyyətin tənzimlənməsi.

• Özünü və həmkarlarını adekvat qiymətləndirərək qəbul etmək.

• Üzləşdiyi çətin situasiyada özünün və həmkarlarının psixoloi vəziyyətini düzgün qiymətləndirmək

• Qrup maraqları üçün öz üzərinə məsuliyyət götürərək müxtəlif tapşırıqları yerinə yetirmək

• Düşdüyü çətin situasiyada həmkarının psixoloji vəziyyətini başa düşərək ona empatik yanaşmaq.

*II modul.* işçilər arasında kommunikativ əlaqələrin qurulması.

• peşə fəaliyyətində qarşılıqlı təsirin sözlü və sözsüz imkanlarından səmərəli istifadə;

• həmkarlarla informasiya mübadiləsi aparmaq, müxtəlif nöqteyi-nəzərləri bölüşmək;

• peşə fəaliyyətində uğur qazanmış əməkdaşların təcrübəsinin pozitiv tərəflərinin mənimsənilməsi;

• peşə fəaliyyətində kommunikativ bacarıqlara yiyələnmək üçün komplekslərdən azadolma;

• peşə fəaliyyətində yaranmış münaqişələri konstruktiv qaydada həll etmək.

*Mövzu:* fövqəladə hallar əməkdaşlarının psixoloji sağlamlığının profilaktikası.

*I modul*: peşə fəaliyyəti zamanı yarana biləcək stresslərdən özünümüdafiə.

• İşçilərdə stressin yaranma səbəbləri.

• Stress yaradan insanlar.

• Stress yaradan situasiyalar

• Stressdən özünümüdafiə imkanlarının müəyyənləşdirilməsi

*II modul*: işçilərdə "emosional üzüntü" sindromundan özünümüdafiə:

• Fövqəladə vəziyyətlə üzləşmiş vətəndaşla və həmkarlarla ünsiyyətdə psixoloji müdafiənin qurulması yolları: sözsüz və sözsüz özünümüdafiə.

• Problemli situasiyalarda özünümüdafiə.

• Uzunmüddəli mərkəzləşmə tələb edən tapşırıqlar zamanı yorğunluğun aradan qaldırılması.

• Özünüidarəetmə aparatı ilə tanışlıq və onun fəallaşdırılması.

*III modul*: özünütəşkiletmə.

• Problemin mahiyyətini öyrənərək qərarqəbuletmə.

• Ünsiyyət zamanı xoşa gəlməyən və maraqsız informasiyalara qarşı dözümlü yanaşma.

• Yersiz hərəkətləri izləyərkən və söhbətlərini dinləyərkən emosiyaların cilovlanması.

• Relaksasiyanın köməyi ilə stress yaradan stimullara qarşı dözümlülüyün yaradılması.

*Nəticələr:*

- stressin yaradan insanlara və situasiyalara qarşı dözümlülük;

- stressdən özünümüdafiə imkanlarına sahibolma;
- “çətin istifadəçi”lər və həmkarlarla ünsiyyətdə psixoloji müdafiə;
- uzunmüddəli mərkəzləşmə tələb edən tapşırıqlar zamanı yorğunluğun aradan qaldırılması yollarına sahibolma;
- özünüidarəetmənin fəallaşdırılması;
- problemə adekvat qərar qəbuletmə;
- hər hansı informasiyalara qarşı dözümlülük;
- emosiyaların cilovlanması.

İşin aparılması üsulları: mühazirə, müzakirə, suallar, sorğu, beyin həmləsi, problem situasiya, rollu oyun, psixoloji drama, layihələndirmə, Venn diaqramı, şaxələndirmə.

Psixoloji yardım alanlar aşağıdakılara yiyələnə bilirlər:

- özünü və başqalarını obyektiv qiymətləndirmə bacarığına sahibolma;
- qrup maraqlarını nəzərə almaq;
- düşdüyü çətin situasiyada həmkarına qarşı qayğıkeş olmaq;
- peşə fəaliyyətində dialoq qurmaq, söhbət etmək, müzakirə aparmaq üçün dil mədəniyyətini artırmaq;
- həmkarlarla informasiya mübadiləsi apararaq onların nöqteyi-nəzərləri ilə razılaşmaq;
- həmkarlarının təcrübəsini dəyərləndirərək müsbət tərflərini mənimsəmək;
- iş prosesi üçün zərərli olan komplekslərdən azadolma yolarını öyrənmək;
- əmək fəaliyyətində yaranmış münaqişələri həll etmək yollarına yiyiələnmək.
- işçilər arasında attidyüdlərin yüksək nəticələrinə nail olmaq;

- işçilərin üzləşdikləri çətin situasiyalarda qarşılıqlı anlamaya nail olmaq;
- işçilərdə qrup maraqları üçün öz üzərinə məsuliyyət götürərək müxtəlif tapşırıqları yerinə yetirmək marağı oyatmaq;
- əmək prosesində işçilərin qarşılıqlı pozitiv təsiri vasitələrinə yiyələnmələrinə nail olmaq;
- iş prosesində dialoq mühitinin yaradılmasına nail olmaq;
- kollektivdə qabaqcıl təcrübənin yayılmasına nail olmaq;
- kommunikativ bacarıqlara yiyələnmək yolu ilə işçilərin komplekslərdən azad olmalarına imkan yaratmaq;
- peşə fəaliyyətində yaranmış münaqişələrin konstruktiv həllini təmin etmək.

***Bank sistemində fəaliyyət göstərən praktik psixoloqların fəaliyyətinin əsas istiqamətləri***

*Mövzu:* Bank sistemi əməkdaşlarının müştərilərlə qarşılıqlı münasibətləri

I modul: bank işçilərinin ünsiyyət üslubu.

• Müştərilərlə ünsiyyətin emosional-koqnitiv tərəfləri.

• İzahetmə və aydınlaşdırma.

• İnformasiyanın çatdırılmasının verbal və qeyri-verbal tərəfləri.

• Bədənin dili: jest və mimikadan istifadə.

II modul: bank işçilərinin müştərilərlə qarşılıqlı münasibətlərində informasiyaların əldə edilməsi.

• Müştərilərlə münasibətdə Bankın maraqlarına motivləşmə.

• Müştərilərlə səmimi münasibət, onları inandırma və imkanlarına ümidləndirmə.

• Müştərilərin real vəziyyətinin aydınlaşdırılması və dəqiq məlumatlar almaq.

• Müştərilərlə işgüzar münasibətlərin qorunması

• Müştərilərlə müanqişədən qaçmaq.

III modul: bank işçilərinin real vəziyyətinin təyini.

• Müştərilərinin ailə vəziyyətinin müşahidəsi və təhlili.

• Müştərilərinin ailədaxili münasibətlərini aydınlaşdırma.

• Ailənin maliyyə problemlərinin sosial-psixoloji səbəblərinin araşdırılması.

•Yalan informasiyaların dəqiqləşdirilməsi.

*Mövzu:* Bank sistemi əməkdaşlarının emosional problemləri və onların həlli.

I modul: əməkdaşların emosional problemləri.

• Emosional yorğunluq.

• Emosional üzüntü.

• Ünsiyyətdənqaçma, tənhalığa meyillik.

• Stress və depressiya.

II modul: əməkdaşlarda baş verən emosional problemlərin aradan qaldırılması.

• Hisslərin aydınlaşdırılması

•Özünəəminliyin və gümrahlığın bərpası

• Fəaliyyətin stimullaşdırılması

• Uğur motivasiyasının yaradılması

*Mövzu:* əməkdaşların koqnitiv fəallığı.

I modul: Bank işçilərinin koqnitiv fəaliyyətinin təşkili.

• Rabitə işçilərinin koqnitiv hazırlığında özünüqiymətləndirmə.

• Bank işçilərinin koqnitiv hazırlığının psixometriyası.

• Koqnitiv bacarıqlarına görə işçilərin diferensiallaşdırılması.

• Koqnitiv qabiliyyətlərinə görə işçilərin diferensiallaşdırılması.

• Bank işçilərinin koqnitiv üslubunun təyini.

• Bank işçilərinin koqnitiv fəaliyyətinin tənzimlənməsi.

II modul: Bank işçilərində koqnitiv bacarıqların inkişafı.

• Öz işinə mərkəzləşərək əməliyyatların dəqiq və çevik icrası.

• Problemli situasiyada öz hərəkətlərini modelləşdirmək.

• İnformasiyaların kodlaşdırılması.

•İnformasiyaların təhlili və əməliyyatların aparılması.

III modul: bank işçilərində koqnitiv bacarıqların korreksiyası:

• Yüksək sürət tələb edən tapşırıqlara mərkəzləşmə.

• Diqqətin köçürülməsini tələb edən tapşırıqlara mərkəzləşmə.

• Yüksək məsuliyyət tələb edən tapşırıqlara mərkəzləşmə.

• Risk tələb edən situasiyalarda özününizamlama.

İş üsulları: mühazirə, müzakirə, suallar, sorğu, beyin həmləsi, problem situasiya, rollu oyun, psixoloji drama, layihələndirmə, testləşdirmə, Venn diaqramı, şaxələndirmə.

Psixoloji yardım göstərilənlər aşağıdakılara yiyələnə bilirlər:

- özünüqiymətləndirmənin nəticələri və qrup qiymətləndirmələri arasında müqayisə aparmaq;

- bank işçilərində özünün koqnitiv hazırlığı haqqında təsəvvür yaratmaq;
- koqnitiv bacarıqlarına görə işçilərin diferensiallaşdırılması
- koqnitiv qabiliyyətlərinə görə peşə səriştələrini müəyyənləşdirmək;
- özünün koqnitiv üslubunu müəyyənləşdirərək əmək fəaliyyətində nəzərə almaq;
- özünün koqnitiv fəaliyyətini səmərəli qaydada tənzimləmək;
- öz işinə mərkəzləşmək bacarığına yiyələnmək;
- əməliyyatların dəqiq və çevik icrası bacarığına yiyələnmək;
- öz hərəkətlərini modelləşdirmək, kodlaşdırmaq bacarığına sahibolma;
- informasiyaların təhlili və əməliyyatların aparılması imkanlarının artması;
- məsuliyyət tələb edən tapşırıqlara mərkəzləşmə;
- risk tələb edən situasiyalarda özününizamlama

**İdman sahəsində fəaliyyət göstərən praktik psixoloqun fəaliyyət istiqamətləri**

*Mövzu:* Məşqçilərin rəhbərlik üslubunun idman komandalarındakı psixoloji iqlimə təsiri

I Modul: məşqçinin rəhbərlik üslubu.

• Məşqçinin rəhbərlik üslubunun psixoloji komponentləri.

• Məşqçinin rəhbərlik üslubunun tipologiyası.

• Məşqçinin rəhbərlik üslubunun keyfiyyət göstəriciləri.

• Məşqçinin problem-situasiyalara rəhbərliyinin əsas şərtləri.

II Modul: Məşqçinin komanda üzvlərinə psixoloji təsiri.

• Məşqçinin psixoloji portreti və özünüqiymətləndirməsi.

• İdman komandasının uğurlarında məşqçinin rolu: attidyüdlər.

• İdman qruplarının idarə olunması.

• Məşqçinin rəhbərlik üslubunun komandaya təsiri.

III modul: komanda üzvləri ilə məşqçinin qarşılıqlı münasibətləri.

• İdman qruplarının psixoloji xüsusiyyətlərinə bələdləşmə.

• Komanda üzvlərinin məşqçi ilə emosional münasibətləri.

• Problemi situasiyalarda komanda üzvlərinin düzgün istiqamətləndirilməsi.

• Komanda üzvlərini uğur əldə etməyə stimullaşdırmaq.

Psixoloji yardım göstərilən məşqçilər aşağıdakılara yiyələnəcəklər:

- məşqçinin rəhbərlik üslubunun psixoloji komponentləri, tipologiyası və keyfiyyət göstəriciləri barədə biliklər əldə etmək;

- məşqçinin problem situasiyalara rəhbərliyinin əsas şərtləri və tətbiqi vasitələrinə yiyələnmək;

- idman qruplarının idarə olunması yollarını bilmək;

- idman qruplarının psixoloji xüsusiyyətlərinə bələdləşmə;

- problemi situasiyalarda komanda üzvlərini istiqamətləndirmək;

- komanda üzvlərini uğur əldə etməyə stimullaşdırmaq;

Gənclər və İdman Nazirliyinə faydası:

- məşqçinin rəhbərlik üslubunun keyfiyyət göstəricilərinin yaxşılaşması;
- problem-situasiyalara rəhbərlik üzrə bilik və bacarıqların artması;
- məşqçinin komanda üzvlərinə pozitiv psixoloji təsirinin artması;
- məşqçinin öz psixoloji portreti ilə tanışlığı və özünüqiymətləndirmə vasitələrinə bələd olması;
- idman komandasının uğurlarında məşqçinin öz rolunu dərk etməsi;
- məşqçi tərəfindən idmançıların və idman qruplarının idarə olunma təcrübəsinin artması;
- yarışlar zamanı komanda üzvlərinin düzgün istiqamətləndirilməsi;
- məşqçilər tərəfindən komanda üzvlərinin uğura stimullaşdırılması;
- məşqçinin rəhbərlik üslubunun komandaya təsirinin diaqnozlaşdırılması imkanlarının artması;
- məşqçilər və idmançılar üçün psixoloji konsultasiya, psixokorreksiya, psixoterapiya imkanlarının artması.

*Mövzu*: İdmançının şəxsiyyət göstəriciləri.

I Modul: idmançının fərdi xüsusiyyətləri.

- İdmançının fərdi xüsusiyyətləri.
- İdmançının tepmerament tipi.
- İdmançının emosional-koqnitiv sahəsi.
- İdmançının fiziki və koqnitiv qabiliyyətləri.
- İdmançının koqnitiv üslubu.
- İdmançının xarakteri.

II Modul: İdmançının fəaliyyətinin motivasiya və yönəlişliyi.

- İdmançının oriyentasiyası və mənəvi dəyərləri
- İdmançının sərvət meyilləri və sosial maraqları
- İdmançının fəaliyyət yönəlişliyi
- İdmançının fəaliyyət motivasiyasının quruluşu
- İdmançının şəxsiyyətinin xüsusiyyətləri

Psixoloji yardım göstərilən idmançılar aşağıdakılara yiyələnə bilirlər:

- özünün fərdi psixoloji xüsusiyyətlərinə yaxşı bələd olmaq;
- öz fəaliyyətini tepmerament tipinə görə nizamlamaq;
- özünün emosional-koqnitv sahəsinə bələd olmaq;
- fiziki və koqnitiv qabiliyyətlərini qiymətləndirmək;
- koqnitiv üslubunu təyin etmək;
- fərdi xarakterini müəyyənləşdirmək;
- özünün şəxsi oriyentasiyası, mənəvi dəyərləri, sərvət meyilləri və sosial maraqları barədə məlumatlar əldə etmək;
- özünün fəaliyyət ustanovkası və motivasiyasının quruluşuna bələd olmaq;
- fərdi xüsusiyyətlərini təhlil etmək və qiymətləndirmək.

*Mövzu*: İdmançının fəallaşmasında məşqçinin rolu

I Modul: İdmançının subyektiv fəallığı

- İdmançının subyektiv fəallığını şərtləndirən amillər
- İdmançının özünüfəallaşdırma maraqları
- İdmançının kollektivçilik hissi
- İdmançının şəxsi və qrup maraqlarının korrelyasiyası

*II Modul*: İdman komandalarında qarşılıqlı münasibətlər.

• "Məşqçi-idmançı" münasibətlərinin strukturu

• İdmançının birgə fəaliyyət maraqları

• İdman yarışlarına hazırlıq dövründə komanda uğurlarına motivləşmə

• İdmançılarda komandanın uğurlarına emosional münasibət

• Komanda üzvlərini birgə fəaliyyətin uğurlu nəticələrinə inandırma.

***Suallar və tapşırıqlar:***

*1. Sosial psixologiyada praktik xidmətin təşkilinə hansı məsələlər daxildir?*

*2. Sosial psixologiyada praktik xidməti zərurı edən amillər hansılardır?*

*3. Sosial həyatın hansı sahələrində praktik psixoloji xidmətlər göstərilir?*

*4. Təhsil qruplarına psixoloji xidmətin məzmununu şərh edin.*

*5. Təhsil psixoloqlarının fəaliyyət istiqamətlərini qruplaşdırın.*

*6. Ailədə psixoloji xidmət nə üçün aparılır?*

*7. Ailədə psixoloji iqlim dedikdə nə başa düşürsünüz?*

*8. "Ailədə psixoloji iqlimin yaxşılaşdırılmasında praktik psixoloqun rolu" adlı layihə hazırlayın.*

*9. Əmək qruplarına psixoloji xidmət hansı sahələri əhatə edir?*

*10. Rabitə və yüksək texnologiyalar sistemində praktik psixoloqun apardığı işləri izah edin.*

*11. Fövqəladə Hallar Nazirliyi sistemində fəaliyyət göstərən psixoloqlar hansı işləri görürlər?*

*12. Bank işçilərinə psixoloji xidmətin mahiyyətini izah edin.*

*13. İdman psixoloqları kimlərə xidmət göstərir?*

*14. İdman psixoloqlarının fəaliyyətini səciyyələndirin.*

***Ədəbiyyat:***


1. *Bayramov Ə.Ə. Şagirdlərdə təffəkkür müstəqilliyinin inkişafi və tərbiyəsi. Bakı: Maarif, 1966, 121 s.*
2. *Cavadov R.Ə., Tağıyeva G.V. Ekstremal şəraitlərdə psixoloji xidmət. Ali mətkəblər üçün dərslik. Bakı: ADPU-nun mətbəəsi, 2006, 258 s.*
3. *Əliyev R.I. Məktəbə psixoloji xidmətin aktual məsələləri. Bakı: Nurlan, 2004.*
4. *Əlizadə Ə. Ə.Tətbiqi psixologiya və məktəb təcrübəsi // TPİ-nin elmi əsərləri, 2006, № 1, s. 223-233.*
5. *Əmrahlı L.Ş. Psixoloji xidmətin əsasları. Bakı: MBM, 2007, 283 s.*
6. *Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiya. Bakı: «TS», 2000, 171 s.*
7. *Əmrahlı L.Ş. Psixoloji xidmət. I kitab. Psixoloji xidmətin əsasları. Bakı: MBM, 2007, 283 s.*
8. *Əmrahlı L.Ş. Psixoloji xidmət. II kitab. Psixoprofilaktika. Bakı: Mütərcim, 2010, 204 s.*
9. *Əmrahlı L.Ş. Psixoloji xidmət. III kitab. Psixodiaqnostika. Bakı: mbm, 2014, 300 s.*
10. *Əmrahlı L.Ş. Məktəbə psixoloji hazırlığın əsasları. Bakı: Nərgiz, 2006, 165 c.*
11. *İsmayılov N.V. Psixiatriya. Bakı: Maarif, 1992.*
12. *Гизе Ф.Практические работы по психотехнике. Ленинград: 1926, 182 с.*
13. *Гиппиулс С. В, Тренинг развития креативности. С-П, Речь, 2001, 342 с.*
14. *Глуханюк Н.С., Белова Д.Е. Психодиагностика. М.: Академический проспект, 2005, 272 с.*
15. *Ильин. Е. М. Психомоторная организация человеka. СПб: Питер, 2002, 382с.*
16. *Детский практический психолог. М.: Асадеме, 2001, 244 с.*

*17.Дубровина И.В. Практическая психологи образования в психологическом институте// Вопросы психологии, 2004, № 2, с. 42-57.*

*18.Немов Р.С. Психология. Книга 3. Психодиагностика. М.: Владос, 2003.*

*19.Хьелл Л., Зиглер Д. Теории личности.Санкт-Петербург, Питер Пресс, 1997, 606 с.*

**_Ümumi ədəbiyyat siyahısı_**

*1. Abutalıbov R.R., Məmmədov S.M., Quliyev S.M. İdarəetmənin əsasları. YEK Producfion, 2013, 220 s.*

*2. Ağayev Ə.Ə., Rzaeva Y.T., Hüseynova T.M., Vahabova T.Ə.Sosial pedaqoqika. Bakı, 2008, 332 s.*

*3. Bayramov Ə.S. "Kitabi-Dədə Qorqud" dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası. Bakı: Hurlan, 2000, 105 s.*

*6. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial Psixologiya. Bakı: "Qapp-Poliqraf" Korporasiyası, 2003, 356 s.*

*7. Bayramov Ə.Ə. Şagirdlərdə təffəkkür müstəqilliyinin inkişafi və tərbiyəsi. Bakı: Maarif, 1966, 121 s.*

*8. Bayramov Ə.S. Müasir sosial şərait və psixologiya elmi qarşısında duran vəzifələr//Azərbaycan məktəbi, 1989, № 7, s. 54-62*

*9. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: "Qapp-Poliqraf" Korporasiyası, 2003, 356 s.*

*10. Bayramov Ə.S. Müasir sosial şərait və psixologiya elmi qarşısında duran vəzifələr//Azərbaycan məktəbi, 1989, № 7, s. 54-62*

*11. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 2003, 534 s.*

*12. Bayramov Ə.S. Gənclərin özünütərbiyəsi haqqında. Bakı: Birləşmiş nəşriyyat mətbəəsi, 1961, 40 s.*

*13. Əliyev R. İ. Psixologiya. Bakı: Nurlan, 2007, 352 s.*

*14. Cavadov R.Ə., Tağıyeva G.V. Ekstremal şəraitlərdə psixoloji xidmət. Ali mətkəblər üçün dərslik. Bakı: ADPU-nun mətbəəsi, 2006, 258 s.*

*15. Əfəndiyeva Ü.A. Ünsiyyət və qarşılıqlı münasibətlər mək-*

*təbə psixoloji hazırlığın əsası kimi. Bakı: MBM, 2007, 224 s.*

16. *Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. Bakı: Gənclik, 1998, 520 s.*

17. *Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno--psixoloji əsasları. Bakı: Araz, 2000, 195 s.*

18. *Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s.*

19. *Əliyev R.I. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı: Araz, 2000, 195 s.*

20. *Əliyev R.İ Etnopsixologiya: qloballaşma və millilik. Bakı: Nurlan, 2007, 180 s.*

21. *Əliyev R.İ. Məktəbə psixoloji xidmətin aktual məsələləri. Bakı: Nurlan, 2004.*

22. *Əliyev R. İ. Psixologiya. Bakı: Nurlan, 2007, 352 s.*

23. *Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 196 s.*

24. *Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı: Renessans, 2003, 258 s.*

25. *Əlizadə Ə. Ə.Tətbiqi psixologiya və məktəb təcrübəsi // TPİ-nin elmi əsərləri, 2006, № 1, s. 223-233.*

26. *Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı: Renessans, 2003, 258 s.*

27. *Əlizadə Ə.Ə. Uşaqlarda kollektivçilik hissinin tərbiyəsi. Bakı: 1963, 50 s.*

28. *Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixo-pedaqogikaya giriş. Bakı: ADPU -nun mətbəəsi, 2008, 479 s.*

29. *Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı: Səda, 1998, 342 s.*

30. *Əlizadə H.Ə. Sosial pedaogikanın aktual məsələləri. Bakı: Səda, 1998, 342 c.*

31. *Əlizadə H.Ə. Sosial pedaogikanın aktual məsələləri. Bakı: Səda, 1998, 342 c.*

32. *Əlizadə S.H. Müəllimin məktəbdə rəhbərlik üslubunun sosial-psixoloji məsələləri //diss...psixol.üzrə fəl.dok. Bakı: 2015, 159*

*s.*

*33. Əmrahlı L.Ş. Təhsilin sosiologiyası//Təhsilin sosioloji problemləri, TPİ, 2010, s. 4-104*

*34. Əmrahlı L.Ş., Rzayeva N.T. Uşaq psixologiyası. Dərs vəsaiti. Bakı: 2010, 358 s.*

*35. Əmrahlı L.Ş. Psixoloji xidmətin əsasları. Bakı: MBM, 2007, 283 s.*

*36. Əmrahlı L.Ş. Yeniləşən təhsilin psixoloji problemləri. Bakı: Mütərcim, 2010, 275 c.*

*37. Əmrahlı L.Ş. Psixoloji xidmət. I kitab. Psixoloji xidmətin əsasları. Bakı: MBM, 2007, 283 s.*

*38. Əmrahlı L.Ş. Psixoloji xidmət. II kitab. Psixoprofilaktika. Bakı: Mütərcim, 2010, 204 s.*

*39. Əmrahlı L.Ş. Psixoloji xidmət. III kitab. Psixodiaqnostika. Bakı: mbm, 2014, 300 s.*

*40. Əmrahlı L.Ş. Məktəbə psixoloji hazırlığın əsasları. Bakı: Nərgiz, 2006, 165 c.*

*41. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Bakı: MBM, 2007, 200 s.*

*42. İsmayılova M.C. Tərbiyənin ünsiyyət üslubunun məktəbəqədər yaşlı uşaqların qarşılıqlı münasibətinə təsiri // Psix. elm. nam. alimlik dərəcəsi almaq üçün dissert. Avtoreferatı, Bakı: 1999, 26 s.*

*43. Həmzəyev V.Ə., Əmiraslanova S.F. Ünsiyyətin psixologiyası. Dərs vəsaiti. 2007, 180 s.*

*44. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı-1991, Maarif, 296 s.*

*45. Hüseynov Ş., Şiriyev F., Muradov C. Psixolinqvistika. Bakı: Bakı universiteti, 2003, 211 s.*

*46. Qloballaşmaya doğru. Bakı: Azərbaycan, 2006, 300 s.*

*47. Qolenkova Z.T., Akuliç M.M., Kuznetsov V.N. Ümumi sosial psixologiya. Dərs vəsaiti. İ.Rüstəmovun rus dilindən tərcüməsi. Bakı: Diplomat, 2007, 492 s.*

*48. Stiqlitz C.E. Qloballaşma və onun doğurduğu narazılıqlar. R.Baxşəliyev və P.Baxşəliyevin tərcüməsi. Bakı: İİM, 2004, 317 s.*

*49. Şimiyev H.V. Münaqişələr nəzəriyyəsində qərar qəbuletmənin əsas prinsipləri//Bakı Universitetinin Xəbərləri, Fizika-riyaziyyat elmləri seriyasi, 2014, №2, s.50-59*

*50.Təhsilin sosioloji problemləri. Bakı: Mütərcim, 2010, 304 s.*

*51.Kəlbəliyev Ə. Təhsili idarəetmənin əsasları. Bakı: Nurlan, 2006, 85 s.*

*52. Mehdi N. Çətin və dolaşıq durumların kulturolojisi. Bakı: Qanun, 2001, 300 s.*

*53.Məmmədzadə R., Abdullayev A., Kərimova E. və b. Menecment, marketinq və təhsilin iqtisadiyyatı. Bakı: Müəllim, 2015, 464 s.*

*54. Məmmədova R.O. Ailədaxili münaqişələr və kiçikyaşli məktəblilərin psixi inkişafina onun təsiri // diss... psixol. elm. üzrə fəl dokt. Bakı, BDU, 2016, 152 s.*

*55. Mustafayev A.M. Birgə fəaliyyət şəraitində şəxsiyyətlərarası qavrayışın dinamikası//psixol. üzrə fəldok. avtoreferatı. Bakı: 2004, 22 c.*

*56. Petrovski A.V. Ümumi psixologiya. (Ə.Ə.Əlizadə, M.Ə. Həmzəyev və İ.Ə.Seyidovun tərcüməsi). Bakı: Maarif, 1982, 494 s.*

*57. Vahidov F.Q., Ağayev T.B. Sosial psixologiya. Dərs vəsaiti. Bakı: Təknur, 2008, 334 s.*

*58. Veysova Z. Fəal/interaktiv təlim. Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNİCEF, 155 s.*

*59.Андреева Г.М. Социальная психология. М.: Аспект-пресс, 1999, 375 с.*

*60.Ананасенко Г.Л. Эволюция биоэнергетики и здоровье человека. СПб.: Метрополис, 1992, 123 с.*

*61.Армстронг М., Бэрон А. Управление результативностью.Система оценки результатов в действии. М.: Альпина Паблишер, 2011, 250 с.*

*62.Бабосов, Е.М. Социология управления: учеб. пособ. 2-е изд., стереотип. Минск : ТетраСистемс, 2001. 288 с.*

*63.Боссиди Л. Искусство резултативного управления. М.: Альпина паблишерз, 2010, 279 с.*

*64.Буева Л.П. Социальная среда и сознание личности. М.: МГУ, 1968, 268 с.*

*65.Брунер Д. Психология познания. М.: Прогресс, перевод К.И. Бабанского, 1977, 441 с.*

*66. Веккер П., Босков А. Современная социологичеcкая теория. М.: Просвещение, 1961, 368 с.*

*67.Вердербер Р., Вердербер К. Психология общения.СПб.: Прайм-Еврознак, 2003, 318 с.*

*68.Волков Ю.Г. Социология. М.: МГУ,2004, 220 с.*

*69.Волков А.М., Волкова Н.В.. Деятельность: структура и регуляция: Психологический анализ. М.: МГУ, 1987, 216 с.*

*70. Гидденс Э. Социология//www.soc.pu.ru.publikations.*

*71.Гизе Ф.Практические работы по психотехнике. Ленинград: 1926, 182 с.*

*72. Гиппиулс С. В. Тренинг развития kреативности. С-П, Речь, 2001, 342 с.*

*73. Глуханюк Н.С., Белова Д.Е. Психодиагностика. М.: Академический проспект, 2005, 272 с.*

*74.Гордеев В.И., Александрович Ю.С. Качества жизни, СПб: Речь, 2001, 190 с.*

*75.Гранин Ю.Д. Глобализация и национализм: история и современность. Социально-философский анализ: дисс… док. филос. наук. М., 2011, 329 с.*

*76. Гуселцева М.С. Культурно-историческая психология и «вызовы» постмодернизма // Вопросы психологии, 2003, №3, с.119-131*

*77. Ильин. Е. М. Психомоторная организация человеka. СПб: Питер, 2002, 382с.*

*78. Детский практический психолог. М.: Асадеме, 2001, 244 с.*

*79. Дойч М., Джерарад Г. Психология влияния. М.: Питер, 2004, 212 с.*

*80. Друкер П.Ф. Эффективное управление. М.: АСТ, 2004, 288 с.*

*81.Дубровина И.В. Практическая психологи образования в психологическом институте// Вопросы психологии, 2004, № 2, с. 42-57.*

*82.Духновский С.В. Психологическое сопровождение подростков в критических ситуациях. Учебное пособие. Курган: Изд-во Курганского Гос. Ун-та, 2003, 124 с.*

*83.Дьяченко Н.В. Современная студенческая молодежь о духовности // Социология образования, 2010, № 2, с. 68-72*

*84.История философии. Г.Челпановь, А.П.Нечаевъ. М-П.: изд., В.В. Димков -Бр.Салавевыхъ, 1914, 724 с.*

*85.Заржицкая О.А. Понятие «социализация телесности» в психологии// Психология и школа, 2007, № 3, с. 3-24*

*86.Зимбардо Ф., Ляйппе М. Социальное влияние // СПб.: Питер, 2011, 448 с.*

*87. Козлов В.В. Интегративная психология: Пути духовного поиска, или освящение повседневности. М.: Психотерапия, 2007, 528 с.*

*88. Коп И.С. Социальная психология//www.soc.pu.ru.publikations.*

*89. Кон И. С. Психология ранней юности, М.: Просвещение, 1989, 254 с.*

*90.Корженко А.Л. Молодежная субкультура как альтернативная форма социализации в юношеском возрасте // Вопросы психологии, 2010, № 2, с. 80-89*

*91.Петиненко И.А. Особенности ценообразования в условиях глобализации// Социология образования, 2010, с. 17-22*

*92.Конопкин О.А. Осознанная саморегуляция как критерий субъектности// Вопросы психологии, 2008, № 3, с. 22-35.*

*93.Кравченко А.И. Культурология. М.: Академический проект, 2003, 495 с.*

*94.Крайг Г.Д. Психология развития, С-П.: Питер, 2000, 692 с.*

*95. Кричевский Р. Л., Дубовская Е. М. Социальная психология малой группы.М.: ПРИОР, 2001, 174 с.*

*96.Кули Ч. Социальная самость //Американская социологическая мысль.М.: МГУ, 1994, с. 316-329*

*97.Лазурский А. Науки о характерах. М.: 1906, 354 с.*

*98. Левин К. Динамическая психология. М.: Сенсор, 2001, 572 с.*

*99. Левин К. Динамическая психология. М.: Сенсор, 2001, 572 с.*

*100. Литвиненко Э. Управленческая команда: как ее создать? // Народное образование, 2004, №4, с. 115-122*

*101. Лоуэн А. Психология тела: биоэнергетический анализ тела. М.: Институт Общегуманитарных Исследований, 2000 , 256 с.*

*102. Лютова С.Н. Социальная психология личностьи. М.: Просвещение, 2002, 179 с.*

*103. Манхейм К. Социология знания//www.soc. pu .ru.publikations.*

*104. Майерс Д. Социальная психология. 2002.*

*105. Марков М. Теория социального управления М.: 1978, 447 с.*

*106. Методика ДДЧ. М.: КСП, 1997, 320 с.*

*107. Мид М. Культура и мир детства. М.: Прогресс, 1988, 236 с.*

*108. Немов Р.С. Психология. Книга 3. Психодиагностика. М.: Владос, 2003.*

*109. Пиз А., Пиз Б. Новый языk телодвижений. М.: Экзмо, 2009, 442 с.*

*110. Почебут Л.Г., ЧикерВ.А.Организационная социальная психология. СПб.: Речь, 2002, 298 с.*

*111. Роберт Д. Фокусы языка. СПб: 2001, 21 с.*

*112. Рубинский Л.И., Соловьева А.Е. Психология самовоспитания. М.: Просвещение, 1982, 141 с.*

*113. Рубцов С. В. Целевое управление в корпорациях. М.: Экономика, 2001, 204 с.*

*114. Сафьянов В.И. Этика общения. М.: Знание, 1991, 63 с.*

*115. Семечкин Н.И. Психология социальных групп. Москва: Директ-Медиа, 2014, 324 с.*

*116. Синк Д.С. Управление производительностью: планирование, измерение и оценка, контроль и повышение: М.: Прогресс, 1989, 528 с.*

*117. Социология знания // http://pidruchniki.com.*

*118. Социологическая психология. Социология личности// http://www.auditorium.ru*

*119. Спенсер Г. Данные психологии. М.: 1926, 375 с.*

*120. Фрейд З. Психоанализ. Санкт-Петербург, 2001, 420 с.*

*121. Ставрополский Ю.В. Кросскультурные различия в структуре личностной идентичности // Вопросы психологии, 2009, № 2, с. 98-106*

*122. Сухарев А.В. Этнофункциональный подход к проблеме психического развития человека//Вопросы психологии, 2002, № 2, с.40-57*

*123. Уотсон Дж.Б. Психология как наука о поведении. М.:-Л.: ГИ, 1926, 381 с.*

*124. Управление изменениями. Под ред. Л. Уотсон и др. М.: Прогресс, 1994, 234 с.*

*125. Татаренко А.Н., Лебедева Н.М., Козлова М.А. Рол модернизации образа жизни в трансформации этнической идентичности // Вопросы психологии, 2006, № 2, с.156-167*

*126. Теория поля Курта Левина//Теории личности. Келвин С. Холл, Линдсей Г.М.: Апрел Пресс, 2000, с. 289- 335*

*127. Ханин Н.Л. Кросс-культурные перспективы диагностики индивидуальных различий //Вопросы психологии, 1989, № 4, с. 118-125*

*128. Холл С. Келвин, Литдсей Г. Теории личности. М.: Апрель-Пресс. 2000, 589 с.*

*129. Хьелл Л., Зиглер Д. Теории личности.Санкт-Петербург, Питер Пресс, 1997, 606 с*

*130. Bandura A., Ross D.A. Transmission of aggression through the imitation of aggressive models // Journal of Abnormal and Social Psychology, 1961, 63, p. 575-582*

*131. Bernstein B. Class, Codes and Control. London, 1975.*

*132. Boules S. and Gintis H. Scoolung in Capitalist Amerika. London, 1976.*

*133. Cassirer.E. Substance and funktion. Chicago, 1923, 188 p.*

*134. Hayes N. Psychology. London, 1999, 276 p.*

*135. Held D., McGreww. Globalization theory, approaches and controversies// Cambridge: Polity Press, 204 p.*

*136. Lewin K., Lippitt R., White R.K. Paterns of aggressive behaviour in exprementally created "social climates" // Journal of Social Psychology. 1939. №3, p. 271-299.*

*137. Mac Kinnon D.W. Creativity: f multi-faceted phenomenon URL // hipp: www. rsad. Edu*

*138. Neisser U. Cognitive Psychology. N. - Y: Appleton, 1967, 351 p.*

*139. Fayol F.H. Administration industrielle et générale. Paris: Dunod et Pinat,1917, 174 p.*

*140. Wilic P. Leaning to Labour: Now Working Class Kids Get Working Class Jobs. London, 1977.*

*141. http://socyus.ru/navigatsiya/teylor.html.Теория рационализации Ф.Тейлора*

*142. http://www.allbest.ru/Содержание и принципы управления*

*143.https://studme.org/74068/psihologiya/stihiynye_gruppy_massovye_dvizheniya*

*144. http://www.nauka-pedagogika.com*

*145. http://www.alexandria.org.ua*

146. *http:// www.azps.ru*
147. *http://www.vashpsixolog.ru*
148. *http://www. bestlibrary. ru. c. 1.*
149. *http://www.coolreferat.com*
150. *http://www.dissercat.com*
151. *http://www.referat.ru*
152. *http://www.wikipediya*
153. *http://www.online biblioteka*
154. *http://www.bestlibrary.ru*
155. *http://www.serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/14-nsiyy-t-m-d-niyy-ti*
156. *http://www.psixologiya.net/.../7-0ns304yy399t-ps304xolog304yasi-m*
157. *http://www.allbest.ru*
158. *http://www.az.wikipedia.org*
159. *http://www.detskiysad.ru*
160. *http://www.eidos.ru*
161. *http://www.gazetamim.ru*
162. *http://www.koob.ru*

## Əlavələr

### *Məsuliyyətliliyin müəyyənləşdirilməsi üzrə anket-sorğu*

*“Keçirdiyin günü zamanı bölək”*

Vaxtınızı necə keçirirsiniz? Əvvəlcə aşağıdakılara nə qədər vaxt ayırdığınızı göstərin:

- öz vəzifənizə daxil olan, ancaq məcburiyyət üzündən yerinə yetirdiyiniz işlərə ..........................................................
- istəyərək yerinə yetirdiyiniz işlərə ..........................
- müxtəlif ayinlərə ..............................................
- ünsiyyətə .............................................

☞ xoşagəlməz təhriklərlə hansısa işi görməyə............

☞ məmnunluq hissi yaradan fəaliyyətə .......................

☞ gələcəyin planlaşdırılması üçün gördüyünüz işlərə

☞boş-boşuna keçirdiyiniz vaxt ............................

☞ başqa işlərə sərv etdiyiniz vaxt ..........................

Hər iki dairəni verilmiş sualların sayı qədər hissələrə bölün, keçirdiyiniz vaxtı müvafiq qaydada onun seqmentlərində yerləşdirin.

*Adi gün*



*İdeal gün*

## *K.Q.Yunqun şəxsiyyət sorğusu*

*Təlimat: "*Sorğuda hər bir sual üçün iki cavab variantı verilmişdir. Onlardan özünüzə daha çox uyğun gələn cavabı qeyd edin".

1. Nəyə daha çox üstünlük verirsiniz?

a ) bir az yaxın dostlarıma; b) böyük dost kompaniyasına.

2. Hansı kitabları oxumağa üstünlük verirsiniz?

a) əyləncə mövzusunda; b) qəhrəmanlıq mövzusunda.

3. Söhbət zamanı nəyə daha çox yol verirsiniz?

a) ləngiməyə; b) səhvə.

4. Əgər siz pis hərəkət etmisinizsə bu zaman:

a) ciddi sıxıntı keçirirsiniz; b) ciddi sıxıntı keçirmirsiniz.

5. İnsanlara necə uyğunlaşırsınız?

a) tez, asan; b) gec, ehtiyatla.

6. Siz özünüzü küsəyən hesab edirsinizmi?

a) bəli; b) xeyr.

7. Siz qəhqəhəylə, ürəkdən gülməyi xoşlayırsınız?

a) bəli; b) xeyr.

8. Hesab edirsiniz ki, Siz:

a) sakitsiniz; b) söhbətcilsiniz.

9. Səmimi yoxsa qapalısınız?

a) səmimi; b) qapalı.

10. Təəssüratlarınızın təhlili ilə məşğul olmağı sevirsinizmi?

a) bəli; b) xeyr.

11. Ünsiyyətdə olarkən hansına üstünlük verirsiniz?

a) danışmağa; b) dinləməyə.

12. Özündən narazılıq Sizdə tez-tez baş verirmi?

a) bəli; b) xeyr.

13. Hansısa işi təşkil etməyi sevirsinizmi?

a) bəli; b) xeyr.

14. İntim gündəliyinizin olmasını istərdinizmi?

a) bəli; b) xeyr.

15. Qərar verdikdən sonra onun yerinə yetirilməsinə tez bir zamanda başlayırsınızmı?

a) bəli; b) xeyr.

16. Əhvalınız tez-tez dəyişirmi?

a) bəli; b) xeyr.

17. Öz fikirlərinizi başqalarına qəbul etdirə bilirsinizmi?

a) bəli; b) xeyr.

18. Sizin hərəkətləriniz başqaları tərəfindən istədiyiniz kimi qiymətləndirilirmi?

a) bəli; b) xeyr.

19. Siz mümkün xoşagəlməzliklərdən çox narahat olursunuz?

a) tez-tez; b) bəzən.

20. Çətin anlarda:

a) başqalarından kömək istəməyə tələsirsiniz; b) müraciət etməyi sevmirsiniz.

*Nəticələrin işlənməsi:*

Ekstraversiyaların göstəriciləri: 1b, 2 a, 3 b, 4 b, 5 a, 6 b, 7 a, 8 b, 9 a, 10 b, 11 a, 12 b, 13 a, 14 b, 15 a, 16 a, 17 a, 18 a, 19 b, 20 a.

Yerdə qalan cavablar introversiyanın göstəriciləridir.

Variantlar üzrə qeyd apardıqdan sonra cavabları hesablayıb 5-ə vurun.

Ballar: 0-35 bal introversiya; 36-65 bal amboversiya; 66-100 bal ekstraversiya.

*Ekstravertlər* – ünsiyyətə asan girirlər. Aqressivlik səviyyəsi yüksəkdir. Liderliyə meyillidirlər. Diqqət mərkəzində olmağı sevirlər. Səmimi, ünsiyyətcil, impulsivdirlər. Xolerik, sanqvinik tip onlarda üstünlük təşkil edir.

*İntrovertlər* – özlərinin təəssürat dünyasında yaşayırlar. Az ünsiyyətcil və sakitdirlər. Çətinliklə yeni tanışlıqlar yarada bilirlər. Risk etməyi sevmirlər, köhnə əlaqələrin qırılması onlara pis təsir göstərir, yüksək həyəcanlı və astagəldirlər. Fleqmatik və melanxolikərdə bu tip üstünlük təşkil edir.

## *Şəxsiyyətin meyillərinin müəyyənləşdirilməsi Oriyentasiya anketi*

Hazırda şəxsiyyətin oriyentasiyasını müəyyənləşdirmək üçün B.Bass tərəfindən 1967-ci ildə işlənmiş anketdən geniş istifadə olunur. Onun yeni variantları hazırlansa da əsas məzmunu saxlanılmaqdadır. Anket, hər birində şəxsiyyətin 3 istiqamətinə uyğun gələn və 3 variantda cavab olan 27 bənddən - mühakimədən ibarətdir. Respondent cavablardan daha çox onun fikrini ifadə edən, yaxud reallığa daha çox uyğun gələn birini və əksinə, onun fikrinə uzaq olan, ya da reallığa bir az uyğun gələn digərini seçməlidir. “Daha çox” cavabı 3 bal, “Daha az” 0 bal, seçilməmiş cavab 1 bal hesablanır. 27 bənd üzrə seçilmiş cavablar aşağıda verilmiş hər bir növ istiqamət üçün ayrılıqda hesablanır.

Metodikanın köməyi ilə aşağıdakı istiqamətlər müəyyənləşdirilir.

*1. Özünə istiqamətlənmə (Mən)* – işindən və əməkdaşlardan mükafatlandırmaya və məmnunluğa, status əldə

etməyə, hakimiyyətə meyl, rəqabətə meyllilik, birbaşa aqressiyaya istiqamətlənmə, əsəbilik, həyəcanlılıq, introvertlik.

*2. Ünsiyyətə istiqamətlənmə (Ü)* – hər hansı şəraitdə insanlarla ünsiyyəti qoruyub saxlamaq, birgə fəaliyyətə istiqamətlənmə, lakin konkret məsələləri həll etməkdə, yaxud insanlara səmimi qəlbdən köməklik etməkdə tez-tez zərər çəkmək, sosial təqdir olunmaya, tərifə istiqamətlənmə, qrupdan asılılıq, insanlarla bağlılığa və emosional münasibətlərə tələbat.

*3. İşə istiqamətlənmə (İ)* – işlə bağlı problemlərin həllində maraqlılıq, işi mümkün qədər yaxşı yerinə yetirmək, işgüzar münasibətlərə istiqamətlənmə, ümumi məqsədin əldə edilməsi üçün işlə bağlı, əhəmiyyətli maraqlarında qalmaq, öz fikrinin üstündə durmaq.

*Təlimat: "*Sorğu blankında 27 bənd verilir. Onların hər birində üç cavab variantı var: A, B, C".

1. Hər bir bənd üzrə cavablardan daha çox Sizin nöqteyi-nəzərinizi ifadə edən bir variantı qeyd edin. Mümkündür ki, cavablardan hansısa bir başqası da Sizə eynilə uyğun görünsün. Buna baxmayaraq, onlardan yalnız birini, Sizin üçün məhz daha dəyərli olan, fkirlərinizə uyğun gələn variantı seçərək bəndin nömrəsinə uyğun gələn damanın qarşısında, "Daha çox" fikrinin altından yazın.

2. Sonra maddələrdən fikirlərnizə daha az uyğun gələn birini, fikirlərinizə uzaq olanını seçin. Ona uyğun gələn hərfi maddə nömrəsinin önündə, "Daha az" fikrinin altından yazın.

3. Beləliklə, siz cavablandırmada müvafiq variantları göstərmiş olursunuz. Onlar sütunlarda təsvir edilir. Yerdə

qalan, seçmədiyiniz cavablar heç yerdə qeyd edilmir. Ancaq onlar ekspert tərəfindən təlimat üzrə hesablanır.

Çalışın mümkün qədər reallığı ifadə edin! Cavab variantları içərisində "yaxşı" və ya "pis" yoxdur. Ona görə də hansını yaxşı və ya pis olduğunu düşünməyin. Tapşırığı həll etdikcə onu düzgün yerinə yetirdiyinizə nəzarət edin. Əgər səhv qeyd etdiyinizi görsəniz düzəlişi elə aparın ki, aydın nəzərə çarpsın.

*Test materialı*

1. Daha çox məmnunluq duyuram:

a) işimin bəyənilməsindən;

b) işin yaxşı edilməsi fikrindən;

c) yaxşı dostların əhatəsində olması fikrindən.

2. Əgər futbol (voleybol, basketbol) oynasaydım istərdim:

a) oyunun taktikasını işləyən məşqçi olmaq;

b) məşhur oyunçu olmaq;

c) komanda kapitanı seçilmək.

3. Mənə görə yaxşı pedaqoq o şəxs hesab olunur ki:

a) şagirdə maraq göstərərək hər kəsə fərdi yanaşır;

b) dərsə maraq yaradaraq şagirddə bu dərsə aid bilikləri həvəslə, dərindən mənimsədir;

c) kollektivdə hər kəsin öz fikrini ifadə edə biləcək atmosfer yaradır.

4. İnsanlar xoşuma gəlir:

a) yerinə yetirilmiş işdən sevinəndə;

b) kollektivlə məmnuniyyətlə işləyəndə;

c) öz işlərini başqalarından yaxşı etməyə cəhd göstərəndə.

5. İstərdim ki, dostlarım:

a) qayğıkeş olsunlar, imkan düşəndə insanlara kömək etsinlər;

b) doğrucul və sadiq olsunlar;

c) ağıllı və maraqlı insanlar olsunlar.

6. Yaxşı dost o kəsi hesab edirəm ki:

a) onunla yaxşı qarşılıqlı münasibət alınır;

b) həmişə arxalana biləcəyim insandır;

c) həyatda çox şeyə nail olandır.

7. Ən çox sevmədiyim şey:

a) məndə nə isə alınmayanda;

b) yoldaşlarımla münasibətim pozulanda;

v) məni tənqid edəndə.

8) Mənə görə ən pisi odur ki, pedaqoq:

a) şagirdlərin çirkinliyini vurğulayır, onlara gülür və lağa qoyur;

b) kollektivdə rəqabət ruhu oyadır;

c) öz fənnini yaxşı bilmir.

9. Uşaqlıqda ən çox xoşuma gələn şey:

a) dostlarla birlikdə vaxt keçirmək;

b) yerinə yetirilmiş işdən duyğulanmaq;

c) məni nəyəsə görə tərifləmək.

10 Mən o insana oxşamaq istərdim ki:

a) həyatda uğur qazanıb;

b) həqiqətən də öz işinə aludə olub;

c) dostsevərliliyi və xeyirxahlığı ilə seçilir.

11. İlk növbədə məktəb:

a) həyatın qarşıya qoyduğu tapşırıqları həll etməyi öyrətməlidir;

b) şagirdin fərdi qabiliyyətlərini inkişaf etdirməlidir.

12. Əgər daha çox müstəqil vaxtım olsaydı, onu həvəslə istifadə edərdim:

a) dostlarla ünsiyyətə;
b) istirahət və əyləncəyə;
c) öz sevimli işlərimə və özünükamilliyə.
13. Uğura daha çox nail oluram:
a) mənə xoş olan insanlarla işləyəndə;
b) mənim maraqlı işim olanda;
c) mənim səylərim yaxşı qiymətləndiriləndə.
14. O zaman sevinirəm ki:
a) başqa insanlar məni qiymətləndirir;
b) yaxşı yerinə yetirilmiş işdən həzz alıram;
c) dostlarımla xoş vaxt keçirirəm.
15. Əgər mənim haqqımda qəzetdə yazmaq qərarına gəlsəydilər, istərdim ki:
a) mənim iştirak etdiyim hər hansı maraqlı iş: təhsil, idman haqqında;
b) mənim fəaliyyətim haqqında;
c) işlədiyim kollektiv haqqında.
16. O zaman yaxşı oxuyuram ki:
a) mənə qarşı fərdi yanaşma olanda;
b) fənnə qarşı maraq oyananda;
c) öyrənilən problem haqqında kollektivdə müzakirələr təşkil olunanda.
17. Mənim üçün ən pisi:
a) şəxsi ləyaqətin təhqir olunması;
b) vacib işin yerinə yetirilməsi zamanı baş verən uğursuzluq;
c) dostun itirilməsi.
18. Ən çox qiymətləndirirəm:
a) uğuru;
b) yaxşı təşkil olunmuş birgə iş imkanını;
c) sağlam, praktik ağıl və zehni.

19. O insanları sevmirəm ki:
a) özlərini qiymətləndirmirlər;
b) tez-tez dalaşır və konfliktə girirlər;
c) yeni olan hər şeyə qarşı etiraz edirlər.
20. O zaman xoşdur ki:
a) hər kəs üçün vacib olan iş üzərində işləyəndə;
b) çoxlu dosta sahib olanda;
c) heyranlıq yaradırsan və hər kəsin xoşuna gəlirsən.
21. Mənə görə rəhbər ilk növbədə belə olmalıdır: a) sadə; b) avtoritet; c) tələbkar.
22. Boş vaxtlarımda məmnuniyyətlə bu məzmunda kitab oxuyardım:
a) dost qazanmaq və insanlarla yaxşı münasibət qurmaq haqqında;
b) məşhur və maraqlı insanların həyatı haqqında;
c) elm və texnikanın son nailiyyətləri haqqında.
23. Əgər mənim musiqi qabiliyyətim olsaydı bunu üstün tutardım:
a) drijorluğu; b) bəstəkarlığı; c) solistliyi.
24. İstərdim:
a) maraqlı bir müsabiqənin ssenarisini qurmaq;
b) müsabiqədə qalib gəlmək;
c) müsabiqəni təşkil etmək və onu keçirmək.
25. Bilməli olduğum ən vacib şey budur:
a) nə etmək istədiyimi;
b) məqsədə nail olmağın yollarını;
c) insanları məqsədə çatmaq üçün hazırlamağı.
26. İnsan cəhd etməlidir ki:
a) başqaları ondan razı qalsın;
b) hər şeydən əvvəl, öz məsuliyyətini dərk etsin;
c) yerinə yetirdiyi işə görə onu danlamasınlar.

27. Boş vaxtımda bunlar mənim üçün istirahətdir:
a) dostlarımın əhatəsində olmaq;
b) əyləncəli filmlərə baxmaq;
c) sevdiyim işlə (hobbimlə) məşğul olmaq.

*Açar*

| *№* | *Mən* | *Ünsiyyət* | *İş* | *№* | *Mən* | *Ünsiyyət* | *İş* |
|---|---|---|---|---|---|---|---|
| *1* | *A* | *C* | *B* | *15* | *B* | *C* | [illegible] |
| *2* | *B* | *C* | *A* | *16* | *A* | *C* | [illegible] |
| *3* | *A* | *C* | *B* | *17* | *A* | *C* | [illegible] |
| *4* | *C* | *B* | *A* | *18* | *A* | *B* | [illegible] |
| *5* | *B* | *A* | *C* | *19* | *A* | *B* | [illegible] |
| *6* | *C* | *A* | *B* | *20* | *C* | *B* | [illegible] |
| *7* | *C* | *B* | *A* | *21* | *B* | *A* | [illegible] |
| *8* | *A* | *B* | *C* | *22* | *B* | *A* | [illegible] |
| *9* | *C* | *A* | *B* | *23* | *C* | *A* | [illegible] |
| *10* | *A* | *C* | *B* | *24* | *B* | *C* | [illegible] |
| *11* | *B* | *C* | *A* | *25* | *A* | *C* | [illegible] |
| *12* | *B* | *A* | *C* | *26* | *C* | *A* | [illegible] |
| *13* | *C* | *A* | *B* | *27* | *B* | *A* | [illegible] |
| *14* | *A* | *C* | *B* | | | | |

*Testin şərhi*

1. *Özünə istiqamətlənmə (Mən)* - işdən və əməkdaşlıqdan asılı olmayaraq birbaşa qiymətləndirməyə və məmnuniyyətə bələdləşmə, statusa çatmaqda aqressivlik, rəqabətə meyl, tez hirslənmə, həyəcanlılıq, introvertlik.

*2.Ünsiyyətə istiqamətlənmə (Ü)* - istənilən vəziyyətdə insanlarla münasibəti saxlamaq, birgə fəaliyyətə bələdləşmə, konkret tapşırığı yaxud insanlara kömək

göstərən zaman ziyana düşmək, qrupdan asılılıq, insanların emosional münasibətinə bağlılıq.

*3. İşə istiqamətlənmə (İ)*- iş problemlərini həll etməkdə maraqlı olmaq, işi yaxşı icra etmək, işə, əməkdaşlığına bələdləşmək, ümumi məqsədə nail olmaq üçün şəxsi maraqlarını güzəştə getmək.

***M.Rokiçin "Dəyərlərin oriyentasiyası" metodikası***

Hazırda dəyərlərin oriyentasiyasını öyrənmək üçün geniş yayılmış, məysədyönlü metodikalardan biri M.Rokiçin dəyərlər siyahısının müəyyənləşdirilməsinə əsaslanan "Dəyərlərin oriyentasiyası" metodikasıdır. M.Rokiç dəyərlərin iki qismini fərqləndirir:

*A) terminal dəyərlər* - fərdi mövcudluğun son məqsədinin onun cəhd etdiklərindən ibarət olmasına inam;

*B) instrumental dəyərlər* - hər hansı situasiyada özünün hansısa hərəkət tərzinin, yaxud şəxsiyyət xassəsinin üstün tutulması.

Belə fərqləndirmə dəyər-məqsəd və dəyər-vasitənin ənənəvi fərqləndirməsinə uyğun gəlir. Test işlənərkən respondentə əlifba siyahısı ilə kağızda ya hər biri mülahizə ayrılıqda kartlarda yazılmış, hər birində 18 mülahizə olan iki siyahı verilir. Respondent siyahıdakı mülahizələrin hər birini özünün qiymətləndirməsinə görə ardıjıllıqla nömrələyir. Kartlarda verilibsə onları ardıcıllıqla düzür. Sonuncu variant, yəni kartlarla işləmək etibarlı nəticələr əldə etmək baxımından daha mqsədəuyğundur. Əvvəlcə terminal, sonra instrumental dəyərlər müəyyənləşdirilir. İnsanın bu dəyərlər sistemi onun aşağıdakı şəxsiyyət göstəricilərini müəyyənləşdirməyə imkan verir:

1) şəxsiyyətin dəyər-motivasiyasının məzmununu;

2) ətraf aləmə, başqa insanlara, özünün-özünə münasibətini;

3) dünyagörüşünün əsaslarını;

4) həyati fəallığın qayəsini;

5) həyati konsepsiyasının əsaslarını;

6) onun "həyatının fəlsəfəsini".

Təlimat: "İndi Sizə hər birində 18 mülahizə yazılmış iki siyahı verilir. Bu siyahıdakı mülahizələr onların başladığı hərflərin əlifba siyahısı ilə verilmişdir. Siz isə bu nömrələnməmiş mülahizələrin qarşısına ən çox üstünlük verdiyiniz dəyərlərdən başlayaraq ən az diqqət yetirdiklərinizə doğru nömrələyəcək, yaxud kartları ardıcıl qaydada düzəcəksiniz. Testi işləyərkən hansı dəyər Sizin üçün həyati əhəmiyyət kəsb edirsə onları 1- dən 18-ə doğru nömrələyin.

Mülahizələri diqqətlə oxuyun. Sizin üçün hansı daha çox əhəmiyyyət kəsb edirsə onları 1-dən başlayaraq sıra nömrəsi ilə qeyd edin. Bu zaman Sizin üçün ən az əhəmiyyət kəsb edən dəyər 18-ci yerdə olacaq. İşləyərkən tələsməyin. Əgər seçim vaxtı fikrinizi dəyişirsinizsə, yazdığınız nömrəyə düzəliş edə bilərsiniz. Ona görə də qələmlə işləməyiniz məqsədə uyğundur. Sonuncu seçim sizin real seçiminiz olacaq.

Metodikanın validliyi onun universallığı, tədqiqatın aparılmasıın rahatlığı və nəticələrin işlənməsinə üçün sərf olunan vaxta qənaət edilməsi, çevikliyi stimul materialda olduğu kimi təlimatın da variasiya edilməsi imkanları ilə bağlıdır. Onun əhəmiyyətli dərəcədə çatışmazlığı cavabların səmimi olmaması ehtimalı və sosial baxımdan arzu olunanların təsiridir. Ona görə də hazırkı halda əsas rolu diaqnostikanın motivasiyası, sınanılanın könüllü

iştirakı və psixoloqla sınanılan arasında səmimi əlaqənin olması oynayır. Metodikanın seçmə və ekspertiza məqsədilə tətbiqi məsləhət deyil.

*Stimul material*

*A – terminal dəyərlərin siyahısı*

⇦ aktiv həyat fəaliyyəti (tamlıq və emosional doyumluluq);

⇦ həyati müdriklik (mühakimələrin kamiliyi və həyat təcrübəsində əldə olunmuş sağlam düşüncə);

⇦ sağlımlıq (fiziki və psixi);

⇦ maraqlı iş;

⇦ həyatın gözəlliyi və incəsənət (təbiətdə və incəsənətdə gözəlliyi hiss etmək);

⇦ məhəbbət (sevdiyi insanla mənəvi və fiziki yaxınlıq);

⇦ material baxımdan təmin olunmuş həyat (material çətinliklərin olmaması);

⇦ yaxşı və etibarlı dostların olması;

⇦ cəmiyyətdə qəbulolunma (ətrafdakıların, kolektivdəki iş yoldaşlarının hörməti);

⇦dərketmə (öz təhsilini, görüş dairəsini, ümumi mədəniyyəti, intellektual inkişafını artırmaq imkanı);

⇦ məhsuldar həyat (öz imkanlarından, güc və qabiliyyətlərindən maksimum istifadə etmək);

⇦ inkişaf (öz üzərində işləmək, daimi mənəvi və kamilləşmə);

⇦ əyləncə (vaxtını xoş, əyləncəli keçirmək, məsuliyyətin olmaması);

⇦ azadlıq (müstəqillik, mühakimələrində və hərəkətlərində asılılığın olmaması);

⇦ xoşbəxt ailə həyatı;

⇦ hamının xoşbəxtliyi (başqa insanların, xalqın, insanlığın xoşbəxtliyi, inkişafı və kamilliyi);

⇦ yaradıcılıq (yaradıcı fəaliyyət imkanlarının olması);

⇦ özünə arxayınlıq (daxili harmoniya, daxili ziddiyyətlərdən və şübhələrdən azad olmaq).

*B – instrumental dəyərlərin siyahısı*

⇦ səliqəlilik (təmizkarlıq), öz əşyalarını, işlərini səliqə-sahmanda saxlamaq;

⇦ tərbiyəlilik (yaxşı hərəkətlər);

⇦ yüksək tələblər (həyata, öz hərəkətlərinə qarşı yüksək tələb və bağlılıq);

⇦ həyatsevərlik (yumor hissi);

⇦ icraçılıq (intizamlılıq);

⇦ müstəqillik (müstəqil, qəralı hərəkət etmək qabiliyyəti);

⇦ özünün və başqalarının çatışmazlıqları ilə barışmamaq;

⇦ təhsillilik (yüksək bilik, yüksək mədəniyyət);

⇦ məsuliyyətlilik (borc hissi, öz sözünü tutmağı bacarmaq);

⇦rasionalizm (sağlam və məntiqi düşünmək, rasional qərarlar qəbul etmək bacarığı,

⇦ özünənəzarət (təmkinlilik, intizamlılıq);

⇦ öz fikirlərində, baxışlarında qalmaq cəsarətinin olması;

⇦ möhkəm iradə (öz sözünün üstündə durmaq, çətinliklərdən qaçmamaq);

⇦ hövsələlilik (başqalarının baxışlarına və fikirlərinə dözümlü olmaq, səhvləri bağışlamaq);

⇦ baxışların genişliyi (başqasının nöqteyi-nəzərini, zövq və adətlərini başa düşmək);

⇦ vicdanlılıq (ədalətlilik, səmimilik);
⇦ işlərində səmərəlilik (əməksevərlik, işdə məhsuldarlıq);
⇦ həssaslıq (qayğıkeşlik).

***Şəxsiyyətin sosial-psixoloji adaptasiyasının diaqnostikası (K.Rocers, R.Deymond)***

*Təlimat:* Sorğuda insan, onun həyat tərzi, təəssüratları, adətləri, davranış stili haqqında mülahizələr göstərilir. Onların hər birini öz həyatınızla müqayisə edə bilərsiniz. Mülahizələri oxuyaraq onları öz adətləriniz, həyat tərzinizlə uzlaşdırın. Hansılar Sizin fikirlərinizlə üst-üstə düşürsə, blankda müvafiq cavabı qeyd edin. Cavabı qeyd etmək üçün "0"-dan "6"-ya doğru nömrələnmiş 7 variantdan birini, fikirlərinizə münasib olanını seçin:

"0" – bu mənə qətiyyən aid deyil;
"1" – əsasən bu mənə xas deyil;
"2" – bunun mənə xas olduğuna şübhə edirəm;
"3" – mənə aid etməkdə çətinlik çəkirəm;
"4" – bu mənə oxşayır, ancaq əmin deyiləm;
"5" – bu mənə oxşayır;
"6" – bu dəqiq mənim haqqımdadır.

Seçdiyiniz variantı cavab blankındakı müvafiq sıra nömrəsinin qarşısında qeyd edin.

*Mülahizələr:*

1. Söhbətə kənar şəxs qarışanda özünü narahat hiss edir
2. Başqalarına ürək sözlərini demək arzusu yoxdur.
3. Hər şeydə mübahisə, yarış, mübarizə olmasını

arzulayır.

4. Özünə yüksək tələbkarlıq göstərir.
5. Gördüyü işlərə görə özünü tez-tez qınayır.
6. Özünü çox zaman alçaldılmış hiss edir.
7. Qarşı cinsdən olanların xoşuna gəldiyinə şübhə edir.
8. Verdiyi sözə həmişə əməl edir. Ətrafdakılarla isti, xeyirxah münasibətdədir.
9. Təmkinli, qapalı, hər kəslə məsafə saxlayan adamdır.
10. Uğursuzluqlarında özünü günahlandırır.
11. Məsuliyyətlidir, ona etibar etmək olar.
12. Nəisə dəyişmək gücündə olmadığını hiss edir, bütün cəhdlər əbəsdir.
13. Çox şeylərə yaşıdlarının gözü ilə baxır.
14. O qaydaları və tələbləri bütövlükdə qəbul edir ki, onları yerinə yetirmək zəzuridir.
15. Öz əminliyi və qaydaları çatışmır.
16. Bəzən vaxtaşırı arzuları baş qaldırır, sonra bu arzulardan reallığa çətinliklə qayıdır.
17. Müdafiəyə, hətta hücumlara həmişə hazırdır: fikrində çıxış yolu axtararaq acı təəssüratlar arasında ilişib qalır.
18. Özü və öz hərəkətlərini idarə etməyi bacarır, özünənəzarət onun üçün çətin deyil.
19. Əhval-ruhiyyəsi tez-tez pozulur, onu ümidsizlik və qüssə bürüyür.
20. Başqalarına aid olan heç nə onu narahat etmir: özünə mərkəzləşib, özü ilə məşğuldur. Bir qayda olaraq insanlardan xoşlanır.
21. Öz hisslərindən utanmır, onları açıq şəkildə

bəyan edir.

22. Çoxlu insanlar arasında özünü tənha hiss edir.
23. İndi özündə deyil. Hər şeyi atmaq, haradasa gizlənmək istəyir.
24. Adətən ətrafdakılarla yola gedir.
25. Öz-özü ilə mübarizə aparmaq həmişə çətindir.
26. Ətrafdakılara onların layiq olmadıqları xeyirxah münasibət göstərməkdən ehtiyatlanır.
27. Ruhən optimistdir, hər şeyin yaxşı olacağına inanır.
28. Özünə qarşı başqaları tərəfindən yalançı xoş münasibət görəndə narahat olur.
29. Daxilən optimistdir, xoş gələcəyə inanır.
30. Çətin, tərs və inadkardır.
31. İnsanların səhvlərini özlərinə deyir, onları yol verdikləri nöqsanlara görə günahlandırır.
32. Çox zaman heç də müstəqil fikirləşərək qərar qəbul etməyi bacarmır.
33. Onu tanıyanlardan çoxu onu sevir, yaxşı münasibət göstərir.
34. Fikirlərini heç kəslə bölüşmək istəmir.
35. Xarici görünüşünə görə cəlbedici olduğunu düşünür.
36. Özünü kimsəsiz hesab edir, köməyə ehtiyacı var.
37. Qərar qəbul etdikdən sonra, ona əməl edir.
38. Qərar qəbul edərkən başqalarının təzyiqindən qaça bilmir.
39. Günahı olmasa da özünü günahkar hesab edir.
40. Ətrafdakılara nifrət edir.
41. Hər şeylə razılaşır.
42. Əhvalı əzgindir, özünü ələ ala bilmir.

43. Əvvəllər onu narahat edən məsələlər barədə narahatlıq keçirmir.
44. Sakitdir.
45. Əsəbləşəndə özündən çıxır.
46. Özünü tez-tez incidilmiş hesab edir.
47. Səbrsiz, çılğın insandır.
48. Bəzən qeybət edir.
49. Öz hisslərinə inanmır, lakin bəzən hisslər onu aldadır.
50. Olduğu kimi görünmək ona kifayət qədər çətin gəlir.
51. Bir işi görməzdən qabaq yüz ölçüb bir biçir.
52. Ətrafda baş verənləri özü fikirləşdiyi kimi qəbul edir, hər şeyi mürəkkəbləşdirir.
53. Hər bir insanı olduğu kimi qəbul edir.
54. Öz problemləri haqqında fikirləşməməyə çalışır.
55. Özünü şəxsiyyət kimi maraqlı və cəlbedici insan hesab edir.
56. Utancaqdır.
57. Bir işi görmək üçün ona mütləq təzyiq göstərmək lazım gəlir.
58. Özünü başqalarından üstün hesab edir.
59. Heç bir işdə özünü göstərə, fərqlənə bilmir.
60. Başqalarının özü haqqındakı fikirlərindən ehtiyat edir.
61. Düzgünlüyü sevir, yaltaqlığı qəbul etmir, yaxşıların arasında olmağa çalışır.
62. Hər bir şeyi olan, imkanlı insanlardan zəhləsi gedir.
63. İşgüzar və enerjili insandır.
64. Çətinliklərdən qorxmur.

65. Özünü kifayət qədər qiymətləndirmir.
66. Təbiətcə öndə olmağı sevir, başqalarına təsir göstərə bilir.
67. Ümumilikdə özünə qarşı yaxşı münasibətdədir.
68. Hər zaman dediyinə nail olur, fikrindən dönmür.
69. İnsanlarla münasibəti pozmaq istəmir.
70. Müstəqil qərar qəbul edə bilmir, etdikdə isə onun düzgünlüyünə şübhə ilə yanaşır.
71. Özünü itirmiş vəziyyətdədir, başındakı bütün fikirlər bir-birinə qarışıb.
72. Özündən razıdır.
73. Bəxti gətirmir.
74. Xoşagəlimlidir.
75. Xarici görünüşcə çirkin olsa da mənəvi aləmi gözəldir.
76. Əks cinsin nümayəndələrini görən gözü yoxdur, onlara baş qoşmur.
77. Bir işə başlamazdan əvvəl qorxu hissi keçirir, bacarmayacağından ehtiyat edir.
78. Daxilən sakitdir, onu narahat edən bir problem yoxdur.
79. Yorulmadan çalışmağı bacarır.
80. Hiss edir ki, böyüyür, yaşa dolur, özü də, dünyagörüşü də dəyişir.
81. Bəzən başı çıxmayan məsələlərdən də söhbət açır.
82. Yalnız düzünü danışır.
83. Gərginlik içindədir, həyəcanlıdır.
84. Bir işi ona etdirmək üçün əvvəlcə beyninə yeritmək lazımdır.
85. Özünə əmin deyil.

86. Çox zaman özünü müdafiə etməyə, elədiyini əsaslandırmağa məcbur olur.
87. Güzəştə getməyi bacarır, başqaları ilə münasibətdə mülayimdir.
88. Ağıllı insandır, hər zaman düşünməyi xoşlayır.
89. Bəzən özündən deməyi xoşlayır.
90. Qərar qəbul edir, dərhal fikrini dəyişir, buna görə özünə nifrət edir, lakin özü ilə bacarmır.
91. Çalışır ki, özünə güvənsin, başqalarından kömək gözləməsin.
92. Heç zaman dəvət olunmuş yerə gecikmir.
93. Daxilən qapalıdır.
94. Başqalarından seçilir.
95. Çox da etibarlı insan deyil, bəzi məsələləri ona həvalə etmək olmaz.
96. Özünü dərk edə bilir, özü ilə bağlı hər şey ona aydındır.
97. İnsanlarla tez bir zamanda ünsiyyətə girir.
98. Bacarığı ilə gücü bir-birini tamamlayır, ən çətin tapşırığı yerinə yetirməyə qadirdir.
99. Özünə qiymət vermir, heç kəs onu ciddi qəbul etmir, sadəcə ona güzəştə gedirlər.
100. Əks cinsin nümayəndələri haqqında çox fikirləşdiyindən narahat olur.
101. Bütün vərdişlərini gözəl hesab edir.

*İşlənmə qaydası:* Sualları oxuyun. Sizə yuxarıda verilmiş 6 variantdan hansı daha çox uyğun gəlirsə, cavab blankında həmin sualın qarşısındakı müvafiq variantın nömrəsini qeyd edin, məsələn, 11-3; 24-5 və s.

## *Cavab blankı*

| *Suallar üzrə cavab variantları* | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| S | | s | v | s | v | s | v | s | v | s | v | s | v | s | v | S | v | s | v |
| 1 | | 2 | | 3 | | 4 | | 5 | | 6 | | 7 | | 8 | | 9 | | 10 | |
| 11 | | 12 | | 13 | | 14 | | 15 | | 16 | | 17 | | 18 | | 19 | | 20 | |
| 21 | | 22 | | 23 | | 24 | | 25 | | 26 | | 27 | | 28 | | 29 | | 30 | |
| 31 | | 32 | | 33 | | 34 | | 35 | | 36 | | 37 | | 38 | | 39 | | 40 | |
| 41 | | 42 | | 43 | | 44 | | 45 | | 46 | | 47 | | 48 | | 49 | | 50 | |
| 51 | | 52 | | 53 | | 54 | | 55 | | 56 | | 57 | | 58 | | 59 | | 60 | |
| 61 | | 62 | | 63 | | 64 | | 65 | | 66 | | 67 | | 68 | | 69 | | 70 | |
| 71 | | 72 | | 73 | | 74 | | 75 | | 76 | | 77 | | 78 | | 79 | | 80 | |
| 81 | | 82 | | 83 | | 84 | | 85 | | 86 | | 87 | | 88 | | 89 | | 90 | |
| 91 | | 92 | | 93 | | 94 | | 95 | | 96 | | 97 | | 98 | | 99 | | 100 | |
| 101 | | | | | | | | | | | | | | | | | | | |

## *Şərhetmə göstəriciləri və açar. İnteqral göstəricilər*

| | |
|---|---|
| *"Adapratiya"*<br>*A= a /a+b ·100%* | *"Özünüqəbuletmə"*<br>*S = a /a+b ·100%* |
| *"Başqalarını qəbuletmə"*<br>*L= 1,2a/ 1,2 a+b ·100%* | *"Emosional komfort"*<br>*E = a /a+b ·100%* |
| *İnternallıq"*<br>*İ=a/a+1,4b ·100%* | *"Dominantlığa cəhdetmə"*<br>*D=2a/ 2a+b ·100%* |

| № | | *Göstəricilər* | *Mülahizələr üzrə suallar* | *Nor malar* |
|---|---|---|---|---|
| 1 | a | *Adaptivlik* | *4,5,9,12,15,19,22,23,26,27,29,33,35,37,41,44,47,51,53,55,61,63,67,72,74,75,78,80,88,91,94,96,97,98* | *(68-170)68-136* |
| | b | *Dezadap-tivlik* | *2,6,7,13,16,18,25,28,32,36,38,40,42,43,49,50,54,56,59, 60,62,64,69,71,73,76,77,83,* | *(68-170)68-136* |

| | | | | |
|---|---|---|---|---|
| | | | *84, 86, 90, 95, 99, 100* | |
| 2 | a | *Yalançılıq-* | *34,45,48,81,89* | *(18-45) 18-36* |
| | b | *Düzgünlük* | *8,82,92,101* | |
| 3 | a | *Özünüqəbul etmə* | *33, 35, 55, 67, 72, 74, 75, 80, 88, 94,96* | *(22-52)242* |
| | b | *Özünü qəbul etməmək* | *7,59,62,65,90,95,99* | *(14-35) 14-28* |
| 4 | a | *Başqalarını qəbuletmə* | *9,14,22,26,53,97* | *(12-30)12-24* |
| | b | *Başqalarını qəbul etməmək* | *2,10,21,28,40,60,76* | *(14-35) 14-28* |
| 5 | a | *Emosional komfort* | *23,29,30,41,44,47,78* | *(14-35)14-28* |
| | b | *Emosional diskomfort* | *6,42,43,49,50,83,85* | *(14-35) 14-28* |
| 6 | a | *Daxili nəzarət* | *4,5,11,12,19,27,37,51,63,68, 7,91,98J3* | *(26-65)26-52* |
| | b | *Xarici nəzarət* | *25,36,52,57,70,71,73,77* | *(18-45) 18-36* |
| 7 | a | *Dominant-lıq* | *58,61,66* | *(6-15)6-12* |
| | b | *Çərçivədə olmaq* | *16, 32, 38, 69, 84, 87* | *(12-30)12-24* |
| | | *Problemdən qaçmaq* | *17,18,54,64,86* | *(10-25)10-20* |

Testin şərhi zamanı hər bir şkalanın nəticələrinə görə qeyri-müəyyənliklər sahəsi yeniyetmələr üçün mötərizə içərisindəki, gənclər və yetkin insanlar üçün mötərizədən kənardakı göstəricilər əsasında aparılır. Bu göstəricilərə

qədər olan nəticələr hədsiz zəif, ondan yuxarı olanlar isə ən yüksək səviyyə hesab olunur.

### *Şəxsiyyətlərarası və qrupdaxili münasibətlərin öyrənilməsi metodikası*

*Sosiometrik ölçü metodu - sosiometriya*
*Sosiometrik prosedur*

Sosiometrik tədqiqatda aşağıdakı məsələlərin həlli üzrə ardıcıl iş aparılır. İlk növbədə obyekt (qrup) müəyyənləşdirilir, onun öyrənilməsi üçün qarşıya konkret vəzifələr qoyulur, fərziyyə formalaşdırılır. Bu fərziyyə qrup üzvlərinin öyrənilməsi kriteriyalarına uyğun olmalıdır. İstər tədqiqatın gedişində, istərsə də tədqiqatdan sonra tam anonimliyi təmin etmək mümkün olmadığından qrup üzvləri əvvəlcədən təxmini də olsa gözlənilən nəticələrə hazır olmalıdırlar. Ona görə də insanları tədqiqata məcburi cəlbetmə yolverilməzdir, çünki sosiometriyanın səmərəli nəticələri, hər şeydən əvvəl, tədqiq olunanların könüllü iştirak etmələrindən, sorğulara səmimi, dəqiq cavab vermələrindən çox asılıdır. Burada tələb olunan əsas şərtlərdən biri də ekspertin qrupun bu və ya digər üzvünə qarşı simpatiya, yaxud antipatiyasını hiss etdirməsidir.

Bu məsələlər öz həllini tapdıqdan, vəzifələr, qaydalar dəqiqləşdirildikdən sonra təlimat hazırlanaraq qrup üzvlərinə elan edilir. Bununla yanaşı, hər bir qrup üzvü üçün yerinə yetirəcəyi işlərlə bağlı xüsusi kartlar hazırlanaraq onlara, ya şifahi izah edilir, ya da yazılı olaraq paylanılır. Hər bir qrup üzvü burada qoyulmuş suallara çox və ya az bağlılığı, simpatiya və antipatiyası, meylliliyi, inamı, yaxud inamsızlığı əsasında

cavab verməlidir. Sosiometrik prosedur iki formada keçirilə bilər.

*Birinci variant – qeyri-parametrik prosedur.*

Bu zaman tədqiq olunana sosiometrik kartlardakı suallara məhdudiyyətsiz sayda seçim təklif olunur. Məsələn, əgər qrupda 14 adam təmsil olunursa 13 adam seçə bilər. Beləliklə, hər bir qrup üzvünün digər qrup üzvünə qarşı seçimi nəzəri baxımdan mümkün maksimum sayda olacaqdır: N-1. Burada-N qrup üzvlərini ümumi sayı, özü çıxıldıqdan sonra qalan rəqəmdir. Məsələn, 14 nəfərlik qrupda bu rəqəm 13-dür.

Bu məsələni aydınlaşdırmalıyıq ki, seçimdə əldə olunan bu ölçü (N-1) sosiometrik ölçünün əsas kəmiyyət uyğunluğudur. Bu prosedur variantında əldə olunmuş nəticələr həm ayrılıqda hər bir qrup üzvü, həm də bütövlükdə qrupa şamil olunur. Burada hər bir qrup üzvünün özü seçən olmaqla yanaşı, həm də seçiləndir.

Bu variantın üstünlüyü ondan ibarətdir ki, hər bir qrup üzvünün emosional ekspantivliyini aydınlaşdırmağa, qruplararası əlaqəni qrup strukturunun özündə axtarmağa imkan verir. Qrup üzvlərin sayı 12-16 arasında olduqda bu əlaqələr daha da mürəkkəbləşir. Bu zaman hesablama texnikasından istifadə etmək lazım gəlir. Əks halda nəticələri təhlil etmək xeyli çətinliklər yaradır.

Qeyri-parametrik prosedurun çatışmazlığı bununla izah edilir ki, əldə olunmuş nəticələrin tam etibarlılığına təminat vermək çətindir. Çünki biz iştirakçıların suallara nə dərəcədə obyektiv cavab verdiklərinə tam əmin deyilik. Bir sıra iştirakçılar kimsənin xətrinə dəyməmək üçün hamını eyni səviyyədə seçir, yaxud hamıya eyni dərəcədə laqeydlik göstərirlər.

Belə cavabları iki aspektdən izah etmək olar: ya tədqiq olunanda həqiqətən də ətrafdakılara qarşı ümumi, o qədər də inandırıcı olmayan differensiasiya olunmamış münasibət yaranıb, ya da o bilərəkdən yalan məlumat verir, real münasibətini rəsmi məntiq arxasında gizlədərək doğru məlumat vermək istəmir. Bu, daha inandıcı görünür.

Sosiometrik tədqiqatlar tarixində bu kimi halların təhlili göstərmişdir ki, bir sıra tədqiqatçılar sosiometrik prosedur zamanı tətbiq olunan metodları dəyişiblər. Belə metodikalar təsadüfi seçim etmək ehtimalını azaltmağa yönəldilir. Məhz bu metodların köməyi ilə digər, ikinci variant formalaşmışdır.

*İkinci variant – seçim sayını məhdudlaşdıran parametrik prosedur.*

Bu halda tədqiq olunanın qarşısına qrup üzvlərindən ciddi şəkildə qeydə alınmış sayda, məsələn, 25 nəfərdən yalnız 4-5 nəfər seçmək tələbi qoyulur. Sosiometrik seçimin sayca məhdudlaşdırılması, sosiometrik, yaxud limit məhdudlaşdırılması adlanır. Hesab olunur ki, bu, sosiometrik nəticələrin etibarlılığını artırmaqla yanaşı, nəticələrin statistik işlənməsini də asanlaşdırır. Psixoloji baxımdan belə məhdudlaşdırma tədqiq olunanı daha diqqətli olmağa, mərkəzləşməyə, öz cavablarına məsuliyyətlə yanaşmağa, yayınma ehtimalı üzərində düşünməyə vadar edir.

Burada üzərində bir qədər dayanmalı olduğumuz daha bir məsələ də var. Sosiometrik məhdudlaşdırma zamanı tədqiq olunanlara müstəqil seçim imkanı verildikdə onlar özləri qrupdaxili münasibətlər üçün təsiredici imkanlara malik olan şəxsləri seçirlər, hansı ki, həmin şəxslər bütün qrup üzvləri üçün maraqlı obyekt hesab olunurlar.

Hazırda "sosiometrik məhdudiyyət" adı altında 25 nəfərlik qrupda 4-5 nəfərin seçilməsi əlverişli variant sayılır. Bu variantda nəticələrin yeni qaydada hesablanması üçün yeni ölçü tətbiq edilir. Həmin ölçü seçilmiş qrupun ümumi kəmiyyətini ifadə edir. Həmin ölçü *d-sosiometrik məhdudiyyət* adlanır. O, 4-5 nəfərlik qrupun sayını ifadə edən kəmiyyətdir. *d* ölçünün gətirilməsi və xarici şərtlərin standartlaşdırılması müxtəlif hesablamalarla aparlır. Bu baxımdan *d* bütün qrup üçün təxmini seçim ehtimalıdır. Belə ehtimalın müəyyənləşdirilməsində C.Moreno və E.Cenninqs aşağıdakı formulu irəli sürmüşlər: $P(A) = d / N\text{-}1$

Burada P(A) – təxmini hadisə ehtimalı; N – bütün qrup üzvlərinin sayıdır.

Adətən P(A)-nın ölçüsü 0,20 - 0,30 arasında götürülür. Bu ehtimalı formula gətirərək d-ni müəyyələşdirmək mümkündür. Bunun üçün məlum N-in sosiometrik vəziyyətini qrupun ölçulməsi məqsədilə seçilmiş sosiometrik məhdudiyyət (qrup) sayəsində əldə edirik.

Parametrik prosedurun çatışmazlığı qrupdakı qarşılıqlı münasibətlərin müxtəlifliyini açmaq imkanlarının azlığı ilə bağlıdır. Bu yolla yalnız subyektiv əlaqələrin mənasını aydınlaşdırmaq olur. Belə yanaşma qrupun sosiometrik quruluşu üçün səciyyəvi olan daha tipik kommunikativ münasibətləri öyrənməyə imkan verir. Bunu da qeyd etmək lazımdır ki, sosiometrik məhdudiyyət proseduru vasitəli ilə qrup üzvlərinin emosional ekspansivliyini geniş şəkildə öyrənmək də mümkün deyildir.

Beləliklə, sosiometrik prosedur aşağıdakı məqsəd dayışır:

a) qrupdakı subyektiv əlaqələri öyrənmək;

b) üzvlərin qrupdakı sosiometrik mövqeyini aydınlaşdırmaq, simpatiya və antipatiya baxımından statistik nəticələrin əvvəlində və sonunda duran qrup üzvlərini, avtoritetləri müəyyənləşdirmək;

c) qrupdaxili altsistemi, liderlik piramidasını, formal və qeyri formal liderləri "seçmək".

## *Qrupxarici referentometriya*

Müasir sosiometriyada *referent qrup* anlayışından da istifadə olunur. Referent qrup dedikdə subyekt üçün xüsusi əhəmiyyət kəsb edən yaxın tanışlar, dostlar, əməkdaşlar qrupu nəzərdə tutulur. Referent qrupda təmsil olunanların mövqeyi, fikri onun hər bir üzvü üçün xüsusi əhəmiyyət kəsb edir. Bu qrupun üzvləri daim həm birgə fəaliyyətdə, həm də fikrən qarşılıqlı münasibətdədirlər. Onlar bir-birinin hərəkətlərini, əməllərini, münasibət və rəftarını təhlil edir, qiymətləndirirlər. Ona görə də hər bir şəxs üçün təmsil olunduğu qrupdakı insanlarla münasibətlərini tənzimləmək baxımından özünün referent qrupunu müəyyənləşdirmək mühüm əhəmiyyət kəsb edir.

Aşağıda göstərilən metodika referent qrupa daxil olan şəxsləri müəyyənləşdirməyə imkan verir. Bu metodikanın köməyi ilə həmkarlar, təhsil, ailə mühiti (yaxınlar, dostlar, qohumlar, tanışlar) ilə bağlı olan insanların referent qrupu ayırd edilir. Bu metodika ilə, həmçinin, məktəbdə şagird və müəllim kollektivinin referent qrupunu müəyyənləşdirmək mümkündür. Bunun üçün iştirakçılara 10 sual – situasiya (1-A) və tədqiq olunanı əhatə edən insanların siyahısı (1-B) verilir.

*Təlimat:* hər bir sual-situasiyada ən azı 2 nəfər seçilir; seçilmiş ikinci şəxs birincidən daha az əhəmiyyət daşıyan adam olur.

*Test1-A*

*1. Kiminlə səfərə (ezamiyyətə, yay tətilinə) çıxardınız?*

*2. Sizə xoşagəlməzlik üz verib. Bunu, ilk növbədə kimə danışardınız?*

*3. Ad gününüzü qeyd etmək istəyirsiniz. Bu günü kiminlə keçirərdiniz?*

*4. Elə bir insan varmı ki, daha çox onunla vaxt keçirməyə çalışırsınız?*

*5. Çatışmazlıqlarınızın sizə daha çox kim tərəfindən deyilməsini gözləyirsiniz. Bununla bağlı daha çox kimi dinləyərdiniz?*

*6. Xoşladığınız insanla rastlaşmısınız. Kim onu daha düzgün qiymətləndirə bilər?*

*7. Həyatınızı dəyişmək istəyirsiniz. Bunu kiminlə məsləhətləşərdiniz?*

*8. Həyatda sizə kim nümunə ola bilər?*

*9. Daha çox kimin xoşuna gəlmək istərdiniz?*

*10. Kiminlə daha çox açıq danışa bilisiniz?*

*Test 1-B*

*1. Valideynlər (ana, ata).*

*2. Qohumlar (baba, nənə, əmi-dayı, xala-bibi).*

*3. Bacı, qardaş.*

*4. Yaşlı tanışınız.*

*5. Tanış valideyn.*

*6. Dostlar.*

*7. Yaxşı dost (rəfiqə).*

*8. Kompaniya, tanışlarınız.*

*9. Tanış oğlan, tanış qız.*

*10. Təhsildəki, işdəki yoldaşlar.*

*11. Klublardakı, idman komandasındakı, əyləncə yerlərindəki yoldaşlar.*
*12. Tarixi şəxsiyyət.*
*13. Hamının tanıdığı insan.*
*14. Başqaları vasitəsilə tanıdığınız adam.*
*15. Ədəbi personaj.*

*İşlənmə ardıcıllığı*

Seçim etdikdən sonra 1-B siyahısı 5 ballıq şkala ilə düzülərək (5, 4, 3, 2, 1) hər bir seçilmiş üzv qiymətləndirilir. Əldə edilmiş nəticələrin işlənməsi çox sadədir. Seçilmiş bütün şəxslər təkrarlanmadan ayrıca siyahıda yazılır. Sonra "qiymət-lər" yalnız siyahıya görə verilir və onların hər biri üçün toplanır. 2-3 şəxsin müqayisəsindən sonra əldə edilən, o qədər də çox olmayan ballar ayrıca vərəqdə balların azalması qaydası ilə yazılır. Bu insanlar referent qrupu təşkil edirlər.

## ***"Kommunikativ mədəniyyətin müəyyənləşdirilməsi" testi***

*Təlimat:* Sualları diqqətlə oxuyun, razılaşdığınız cavabların qarşısında "+" işarəsini qoyun. Nəticələrin işlənməsi müsbət cavabların ümumi sayı (cəmi) ilə müəyyən olunur.

| | | |
|---|---|---|
| 1. | *Söhbət zamanı səbrlə müsahibinizin Sizə söz verməsini gözləyirsiniz?* | "+" |
| 2. | *Problemin mahiyyətini öyrənənə qədər qərar qəbul etməyə tələsirsiniz?* | |
| 3. | *Söhbət zamanı yalnız xoşunuza gələnləri eşidirsiniz?* | |

| | | |
|---|---|---|
| 4. | *Emosiyalarınız Sizə müsahibinizi dinləməyə mane olurmu?* | |
| 5. | *Müsahibiniz öz fikrini çatdırarkən diqqətiniz yayınırmı?* | |
| 6. | *Söhbətin hansısa məqamlarında başqa bir şeyi xatırlayırsınızmı?* | |
| 7. | *Həmsöhbətiniz, yaxud onun danışdığı mövzu haqqında əvvəlki mövqeyiniz Sizə onu dinləməkdə mane olurmu?* | |
| 8. | *Onu başa düşmək çətin olduqda müsahibinizi dinləməyi dayandırırsınızmı?* | |
| 9. | *Danışan adama qarşı neqativ mövqe nümayiş etdirirsiniz?* | |
| 10. | *Həmişəmi müsahibinizi dinləyirsiniz?* | |
| 11. | *Hansı səbəbin onu məhz belə danışmağa vadar etməsilə bağlı özünüzü onun yerində təsəvvür edirsinizmi?* | |
| 12. | *Bu fakta diqqət yetirirsinizmi ki, müsahibinizlə müzakirə etdiyiniz məsələlərə müxtəlif yanaşmalarınız var.* | |
| 13. | *Müsahibinizin və Sizin istifadə etdiyiniz ifadələrin müxtəlif mənada anlaşıla bilməsinə yol verirsiniz?* | |
| 14. | *Mübahisənin nədən (müxtəlif nöqteyi-nəzər, məsələnin qoyuluşu və s.) yarandığını aydınlaşdırmağa cəhd edirsiniz?* | |
| 15. | *Söhbət edərkən müsahibinizin baxışlarından yayınırsınızmı?* | |
| 16. | *Söhbət zamanı Sizdə müsahibinizin sözünü kəsmək, öz fikrinizi onun fikrinə qarşı qoymaq, onun gələcəyi nəticələri qabaqlamaq arzusu yaranırmı?* | |

*Nəticələrin şərhi:*

◆*0-6 bal:* başqalarını dinləməyin ifadəlilik dərəcəsi aşağıdır, söhbət zamanı müşahidəçiyə və başqalarına özünüzü qəbul etdirməyə, üstünlüyünüzü göstərməyə çalışırsınız. Öz fikirlərinizi partnyorunuzun fikirlərindən üstün tutursunuz. Bu situasiyanın qiymətləndirilməsinə: nə zaman susmaq, nə zaman danışmaq, nə zaman dinləmək həssaslığı aşağı enir. Bu çatışmazlıqları aradan qaldırmaq üçün səmərəli dinləmə bacarıqlarını öyrənmək lazımdır.

◆*7-10 bal:* müsahibini dinləmə bacarığı orta səviyyədədir. Bu bacarıq daha çox situativ qaydada, qəbul olunan informasiyaya şəxsi yanaşma ilə, maraqlarla bağlı olaraq yaranır. Belələrindən fəal dinləmə, başqalarının fikirlərini qəbuletmə bacarığını təkmilləşdirmək tələb olunur.

◆*10 və daha çox:* Qəbul olunan informasiyaya şəxsi münasibətdən asılı olmayaraq başqalarını dinləmə bacarığı yüksəkdir, dinləmə mədəniyyəti qənaətbəxşdir. Belələri səmərəli əməkdaş sayılırlar. Əgər onun fəaliyyətinin əsasında insanlarla ünsiyyət durursa, bu sahədə uğur qazanacağı şübhəsizdir.

*Sişor testi*

*I. Qrupdakı yerinizi necə qiymətləndirərdiniz?*

1. Özümü bu qrupun üzvü, kollektivin bir hissəsi hesab edirəm.
2. Qrupun bütün fəaliyyətində iştirak edirəm.
3. Qrupun məşğul olduğu birgə fəaliyyətdən yalnız dərsdə iştirak edirəm.

4. Qrupun üzvü olduğumu hiss etmirəm.
5. Qrupdan ayrılıqda yaşayır və oxuyuram.
6. Bilmirəm, cavab verməkdə çətinlik çəkirəm.

*II. Belə bir imkanınız olsaydı öz qrupunuzu dəyişərdinizmi?*

1. Bəli, bunu tərəddüdsüz edərdim.
2. Daha çox qrupu dəyişməyə üstünlük verərdim, nəinki qalmağa.
3. Mənim üçün fərqi yoxdur.
4. Daha çox öz qrupumda qalmağa üstünlük verərdim.
5. Bilmirəm, cavab verməkdə çətinlik çəkirəm.

*III. Qrupunuzun üzvləri arasında qarşılıqlı münasibətlər necədir?*

1. Başqa kollektivlərdən yaxşıdır.
2. Təxminən başqalarındakı kimidir.
3. Başqalarından pisdir.
4. Bilmirəm.

*IV. Məktəbin (müəssisənin) rəhbərliyi ilə münasibətləriniz necədir?*

1. Başqa kollektivlərdən yaxşıdır.
2. Təxminən başqalarındakı kimidir.
3. Başqalarından pisdir.
4. Bilmirəm.

*V. Kollektivinizdə təhsilə münasibət necədir?*

1. Başqa kollektivlərdən yaxşıdır.
2. Təxminən başqalarındakı kimidir.
3. Başqalarından pisdir.
4. Bilmirəm.

Test işlənərkən suallardan yalnız biri seçilərək nömrəsi dairəyə alınır. Açardan eksperimentator özü istifadə edir. Əgər qrup üzvləri istəyərlərsə, nəticələr haqqında

məlumat, ya ümumilikdə, ya da fərdi qaydada elan oluna bilər.

*Açar*

| I | II | III | IV | V |
|---|---|---|---|---|
| 1 - 5 bal<br>2 - 4 bal<br>3 - 3 bal<br>4 - 2 bal<br>5 - 1 bal<br>6 - 1 bal | 1 - 1 bal<br>2 - 2 bal<br>3 - 3 bal<br>4 - 4 bal<br>5 - 5 bal<br>6 - 1 bal | 1 - 3 bal<br>2 - 2 bal<br>3 - 1bal<br>4 - 1 bal | 1 - 3 bal<br>2 - 2 bal<br>3 - 1bal<br>4 - 1 bal | 1 - 3 bal<br>2 - 2 bal<br>3 - 1bal<br>4 - 1 bal |

*Nəticələrə görə:- ən yüksək bal-19;- ən aşağı bal -5-dir.*

## "Q yerləşdirmə" metodikası

*V.Stefanson* tərəfindən işlənmiş bu metodika insanın özü haqqındakı təsəvvürlərini öyrənmək məqsədilə tətbiq edilir. Metodikanın üstünlüyü ondan ibarətdir ki, tədqiq olunan şəxs onun köməyi ilə özünün digər insanlara uyğunluq və ya uyğunsuzluğunu deyil, fərqini, "real-Mən"-ini müəyyənləşdirir.

"Q yerləşdirmə"metodikası daha çox diaqnostik mahiyyət daşıyır. Burada sınanılan şəxsə öz xassələrini təsdiq edən, yaxud adını göstərən kartlar dəsti verilir. Sınanılan kartları özü üçün ən çox xarakterik olandan ən az xarakterik olana doğru düzməlidir. Kartlar dəstinin ikinci dəfə, lakin yeni münasibətə - "sosial Mən"ə ("Başqaları məni necə görür?") görə yerləşdirməsi də mümkündür. "Mən"lərin izahına aşağıdakı kimi yanaşmaq lazımdır:

- "İdeal Mən" – "Necə olmaq istəyirəm?"

- “Real Mən” – “Müxtəlif situasiyalarda Mən necəyəm?”
- “Başqalarının əhəmiyyəti” – “Öz yoldaşımı necə görürəm?”
- “İdeal partnyor” – “Öz yoldaşımın necə olmasını istəyirəm?”

Metodika real qrupda insanın davranışının 6 əsas ənənəsini müəyyən edir: *asılılıq, müstəqillik, ünsiyyətcillik, ünsiyyətsizlik, mübarizlik, çəkingənlik.*

- Asılılıq ənənəsi – fərdin qrup standartları və dəyərlərini qəbul etməyə daxili cəhd etməsi.
- Ünsiyyətçilik ənənəsi – əlaqə, qrup üzvləri və başqa insanlarla emosional əlaqələr qurmaq cəhdi.
- Mübarizlik ənənəsi – şəxsiyyətin qrupun həyatında fəal iştirak etməsi, qarşılıqlı münasibətlər sistemində daha yüksək statusa nail olmaq. Onun əksi olan çəkingənlik (mübarizədən qaçmaq) qarşılıqlı təsirlərdən qaçmaq cəhdi, qrup mübahisələrində və konfliktlərdə neytrallığı qoruyub saxlamaq, kompromis qərarlara meyillilik kimi başa düşülür.

Bu ənənələrin hər biri özünün daxili və xarici xarakteri ilə fərqlənir. Məsələn, asılılıq, ünsiyyətcillik və mübarizlik şəxsiyyətin daxilən səmimi şəkildə mövcud olan tərəfi ola bilər, lakin onun xarici tərəflərinin özünəməxsus maska ilə gizlədilməsi mümkündür.

Əgər hər bir xarakter əlamətləri cütü üzrə cavablar 20-yə yaxındırsa, o zaman fərdə məxsus olan bu və digər davamlı ənənənin səmimi tərəflərinin mövcudluğundan danışa bilərik. Deməli, bu ənənələr yalnız qrupda deyil, ondan kənarda da təzahür edə bilir.

*Tədqiqatın gedişi.* Sınanılana mülahizələr üzrə kartlar verilir. Verilmiş mülahizələr konkret qrupdakı üzv kimi onun özü haqqındakı təsəvvürlərinə uyğun gəlirsə "bəli", onun təsəvvürləri ilə ziddiyyət təşkil edirsə, bu xüsusiyyət yalnız bəzi hallarda özünü göstərirsə, "xeyr (şübhə edirəm)" cavabını verir. Cavablar açar vasitəsilə aydınlaşdırılaraq hər bir ənənə üzrə xüsusiyyətlər seçilir. Belə ki, bir keyfiyyətin inkar olunması onun əks qütblü tərəfinin etiraf edilməsi kimi başa düşülür. "Bəli" cavabları əks tərəfli ənənə üçün "yox" cavabı kimi hesablanır.

Nəticədə, biz, göstərilən ənənələrin hər biri üzrə keyfiyyətlərin cəmini əldə etmiş oluruq. Nəticələr işlənərkən "bəli" cavabı - müsbət, "xeyr" cavabı - mənfi kimi götürülür. Müsbət 1-dən mənfi 1-in sərhədlərinə qədər alınan nəticələr 10-a bölünür. Ayrı-ayrı ənənələr üzrə 3-4 "şübhə edirəm" cavabı qətiyyətsizlik, zəiflik, qapalılıq kimi qiymətləndirilir. Digər hallarda bu, davranışda məlum olan seçiciliyə, problem situasiyalarda çevikliyə, fəallığa sübutdur. Bu keyfiyyətlər onların digər şəxsiyyət xassələri ilə uyğunluğunu təhlil etməyə imkan verir. Ən aşağı qiymət "bəli" və "xeyr" cavablarının sayı uyğun gəldikdə mümkündür. Məhz belə vəziyyət şəxsiyyətin daxili konfliktinin mənbəyi kimi özünü göstərir. Bu, əks tərəfli xüsusiyyətlərin eyni cür ifadə olunmasının təsiri altında baş verir. Qrup üzvlərinin hər birinin özü, eləcə də qrup üzvləri haqqındakı təsəvvürlərini öyrənərək, onların qarşılıqlı münasibətlərini, bir-birinə marağını müəyyənləşdirmək də mümkündür.

*Sorğunun mətni*

1. Öz yoldaşlarına tənqidi yanaşır.
2. Qrupda konflikt başlandıqda həyəcanlanır.
3. Liderlərin məsləhətlərinə əməl etməyə meyillidir.
4. Yoldaşları ilə çox yaxın münasibət qurmağa meyilli deyil.
5. Qrupda yoldaşlığı xoşlayır.
6. Liderin əksinə getməyə çalışır.
7. Qrupun yalnız 1-2 üzvünə simpatiyası var.
8. Qrup toplantılarından və görüşlərindən qaçır.
9. Liderin tərifindən xoşlanır.
10. Davranış tərzində və mühakimələrində müstəqildir.
11. Mübahisə zamanı kiminsə tərəfində durmağa hazırdır.
12. Yoldaşlarına rəhbərlik etməyə meyil göstərir.
13. Yalnız 1-2 dostu ilə ünsiyyətdən məmnun olur.
14. Qrup üzvləri tərəfindən düşmənçilik olduqda zahirən sakitlik nümayiş etdirir.
15. Öz qrupunun əhval-ruhiyyəsini qoruyub saxlamağa meyillidir.
16. Qrup üzvlərinin şəxsiyyət keyfiyyətlərinə əhəmiyyət vermir.
17. Qrupu öz məqsədindən yayındırmağa meyillidir.
18. Özünü liderlə qarşı-qarşıya qoymaqdan məmnunluq duyur.
19. Bir neçə qrup üzvü ilə yaxınlıq etmək istəyir.
20. Mübahisədə neytral qalmağa üstünlük verir.
21. Lider fəal olduqda və yaxşı rəhbərlik etdikdə xoşlanır.
22. Fikir ayrılığını soyuqqanlılıqla müzakirə etməyə üstünlük verir.

23. Hisslərini gizlətməkdə çətinlik çəkir.
24. Öz ətrafına həmfikirlərini yığmağa çalışır.
25. Rəsmi münasibətlər onu qane etmir.
26. Günahlandırılarkən özünü itirərək susur.
27. Qrupda əsas istiqamətlə razılaşmağa üstünlük verir.
28. Ayrı-ayrı yoldaşlara deyil, bütövlükdə qrupa daha sıx bağlıdır.
29. Mübahisəni uzatmağa və kəskinləşdirməyə meyillidir.
30. Diqqət mərkəzində olmağa çalışır.
31. Daha kiçik qruplaşmanın üzvü olmaq istəyir.
32. Kompromisə meyillidir.
33. Lider onun ümidlərini doğrultmadıqda daxili narahatlıq keçirir.
34. Yoldaşlarının iradlarına ağrılı yanaşır.
35. Qəddar və hiyləgər ola bilir.
36. Qrupdakı rəhbərliyi öz üzərinə götürməyə meyillidir.
37. Qrupda heç nəyi gizlətmir.
38. Qrupda fikir ayrılığı olduqda narahatlıq keçirir.
39. Qrup işinin planlaşdırılmasında liderin məsuliyyətini üzərinə götürməli olduğunu düşünür.
40. Dostluğa, dost münasibətinə meyil göstərmir.
41. Yoldaşlarına acıqlanmağa meyillidir.
42. Başqalarını liderə qarşı qoymağa meyillidir.
43. Qrup xaricində asanlıqla tanış tapır.
44. Mübahisəyə qoşulmaqdan qaçmağa çalışır.
45. Qrupun digər üzvlərinin təklifləri ilə asanlıqla razılaşır.

46. Qrupda qruplaşmanın yaranmasına müqavimət göstərir.
47. Qıcıqlandıqda gülünc vəziyyətə düşür, özünü itirir.
48. Qrupda fərqlənənlərə yaxşı baxmır.
49. Kiçik, daha intim qruplara üstünlük verir.
50. Özünün səmimi hisslərini göstərməməyə çalışır.
51. Qrupda fikir ayrılığı olduğu zaman liderin tərəfində durur.
52. Ünsiyyətdə əlaqələrin qurulmasında təşəbbüskardır.
53. Yoldaşlarını tənqid etməkdən qaçır.
54. Liderə başqalarından çox müraciət etməyə üstünlük verir.
55. Qrupda münasibətlərin həddən artıq fərdiləşməsindən xoşlanmır.
56. Mübahisə yaratmağı sevir.
57. Qrupda özünün yüksək mövqeyini qoruyub saxlamağa çalışır.
58. Yoldaşlarla əlaqələrə müdaxilə etməyə və pozmağa meyillidir.
59. Dalaşmağa və söyüşməyə meyillidir.
60. Liderdən narazılıq etməyə meyillidir.

*Açar*

*I. Asılılıq* - 3, 9, 15, 21, 27, 33, 39, 45, 51, 54
*II. Müstəqillik* - 6, 12, 18, 24, 30, 36, 42, 48, 57, 60
*III. Ünsiyyətcillik* - 5, 7, 13, 19, 25, 31, 37, 43, 49, 52
*IV. Ünsiyyətsizlik* - 4, 10, 16, 22, 28, 34, 40, 46, 55, 58
*V. Mübarizlik* - 1, 11, 17, 23, 29, 35, 41, 47, 56, 59
*VI. Mübarizədən qaçmaq*- 2, 8, 14, 20, 26, 32, 38, 44, 50, 53

## *KOS -1 metodikası*

*İşin gedişi.* Eksperiment həm fərdi, həm də qrup halında keçirilə bilər. Sınanılanlara 9-cu cədvəldəki cavabları qeyd etmək üçün blanklar paylanır. Blankda test üzrə verilmiş sualların cavabları müvafiq qaydada qeyd olunaraq təlimata uyğun işlənilir.

*KOS-1 metodikası üzrə cavablar blankı*

*Cədvəl 1.*

| | | | |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 |
| 29 | 30 | 31 | 32 |
| 33 | 34 | 35 | 36 |
| 37 | 38 | 39 | 40 |

*Təlimat:* Siz testi işləyərkən qoyulmuş sualların hər birinə cavab verməlisiniz. Öz fikirlərinizi hər bir suala bu qaydada bildirin: əgər verməli olduğunuz cavab müsbətdirsə (razılaşırsınızsa), o zaman həmin sualın cədvəldəki cavab nömrəsinə “+”, verdiyiniz cavab mənfidirsə (razı deyilsinizsə) “-“ qoyun. Verdiyiniz cavabın nömrəsi ilə onun cədvəldəki nömrəsinin üst-üstə düşməsinə diqqət yetirin. Nəzərə alın ki, suallar ümumi xarakter daşıdığından özündə bütöv mahiyyəti əks etdirmir. Ona görə də tipik situasiyaları təsəvvür edərək detallar üzərində ləngiməyin, suallar üzərində çox düşünmədən tez cavab verin. Mümkündür ki, bəzi sualları cavablandırmaq sizin üçün

çətin olsun. O zaman lazım bildiyiniz münasib cavabları verməyə çalışın. Bu sualların hər birinə cavab verərkən onun birinci sözünə diqqət yetirin. Cavabınız həmin sözlə uyğun olmalıdır. Suallara cavab verərkən təəssürat yaratmağa çalışmayın. Bizə doğru cavab lazımdır. Yekun bal isə suallar üzrə toplanır.

*Sorğu*

1. Daim münasibətdə olduğunuz dostlarınız çoxdurmu?
2. Çox hallarda yoldaşlarınızın əksəriyyətinə fikirlərinizi qəbul etdirməyə nail ola bilirsinizmi?
3. Yoldaşlarınızdan hansısa birinin sizi acılamasından yaranan xoşagəlməz hisslər uzun müddət davam edirmi?
4. Yaranmış çətin situasiyaya yönəlmək sizin üçün həmişə çətin olurmu?
5. Sizdə müxtəlif insanlarla tanışlıq əlaqələri qurmaq cəhdi varmı?
6. İctimai işlə məşğul olmaqdan xoşlanırsınızmı?
7. Doğrudurmu ki, sizə kitabla işləmək, yaxud başqa işlə məşğul olmaq, insanlarla münasibətdə olmaqdan daha xoşdur?
8. Öz niyyətlərinizi yerinə yetirmək üçün hansısa uğursuzluqla üzləşdikdə ondan asanlıqla əl çəkirsinizmi?
9. Sizdən yaşca xeyli böyük olan adamlarla asanlıqla əlaqələr qura bilirsinizmi?
10. Öz yoldaşlarınızla müxtəlif oyunlar və əyləncələr təşkil etməyi sevirsinizmi?
11. Yeni kompaniyaya qoşulmaq sizin üçün çətinlik yaradırmı?
12. Bu gün görməli olduğunuz işi başqa günə keçirdiyiniz hallar çox olur?

13. Tanış olmayan insanlarla əlaqələr qurmağa çətinlik çəkirsiniz?

14. Yoldaşlarınızın sizin fikirlərinizlə hərəkət etmələrinə nail olmağa çalışırsınız?

15. Yeni kollektivə alışmaq Sizə çətin gəlirmi?

16. Doğrudurmu ki, yoldaşlarınızla öz vəzifələrinizi və öhdəliklərinizi bölüşmədiyinizə görə onlarla konfliktiniz olmur?

17. Əlverişli situasiyada yeni insanla tanış olmağa cəhd edirsinizmi?

18. Mühüm məsələlərlə bağlı qərar qəbulunda təşəbbüsü tez-tez öz əlinizə alırsınız?

19. Ətrafınızdakı insanlar sizi qıcıqlandırdığından tək qalmaq istəyiniz olurmu?

20. Sizə tanış olmayan şəraitə çətin alışmağınız doğrudurmu?

21. Daim insanların arasında olmağı xoşlayırsınızmı?

22. Başladığınız işi sona çatdırmadıqda əsəbiləşirsinizmi?

23. Yeni insanlarla tanış olmaq üçün təşəbbüs göstərmək lazım gəldikdə çətinlik, narahatlıq, yaxud sıxıntı keçirirsinizmi?

24. Yoldaşlarınızla tez-tez ünsiyyətdə olmaq sizi yorurmu?

25. Kollektiv oyunlarda iştirak etməyi sevirsinizmi?

26. Yoldaşlarınızın maraqlarına uyğun olan məsələlərin həllinə təşəbbüs göstərirsinizmi?

27. Az tanıdığınız insanların arasında özünüzü inamsız hiss edirsinizmi?

28. Öz həqiqətinizi sübut etməyə az-az hallarda cəhd edirsiniz?

29. Hesab edirsinizmi ki, yaxşı tanımadığınız kompaniyada təəssürat yaratmaq sizin üçün o qədər də çətin olmur?

30. Təhsil aldığınız məktəbdə ictimai işlərdə iştirak edirsinizmi?

31. Tanışlarınızın dairəsini bir qədər məhdud saxlamağa çalışırsınızmı?

32. Mövqeyiniz və qərarlarınız yoldaşlarınız tərəfindən qəbul olunmadıqda ondan asanlıqla əl çəkirsinizmi?

33. Tanış olmayan kompaniyaya düşdükdə özünüzdə məcburiyyət hiss edirsinizmi?

34. Öz yoldaşlarınız üçün müxtəlif müəssisələrdə təşkilatçılıq etməyə həvəslə qoşulursunuzmu?

35. Böyük insan qrupunda danışmaq lazım gəldikdə özünüzdə kifayət qədər əminlik və təmkinlilik hiss edirsinizmi?

36. İşgüzar və şəxsi görüşlərə tez-tez gecikirsinizmi?

37. Dostlarınız çoxdurmu?

38. Öz yoldaşlarınızın diqqət mərkəzində olduğunuz hallar çoxmu olur?

39. Az tanış olduğunuz insanlarla tanış olarkən özünüzdə çəkingənlik və utancaqlıq hiss edirsinizmi?

40. Böyük insan qrupunun arasında özünüzdə əminlik hiss edirsinizmi?

*Nəticələrin işlənməsi*

Verilmiş cavablarınızı şifrələşdirin. Onları kommunikativ və təşkilatçılıq üzrə qruplaşdırın.

Qiymət normalarını kommunikativ (Kk) və təşkilatçılıq (Ko) meylləri əsasında müəyyənləşdirilir. Bu zaman Kk deşifratoru-Kx, Ko deşifratoru - Ox üzrə maksi-

mum nəticələrə müvafiq olaraq hesablanacaq. Testin nəticələri formul əsasında hesablanır.

$$Kk = Kx / 20 \; ; \; Ko = Ox / 20$$

*KOS -1 metodikası üzrə deşifrator (şifrə açan)*

*Cədvəl 2.*

| Meyllər | Cavablar | |
|---|---|---|
| | müsbət | mənfi |
| Kommunikativ<br>Təşkilatçı | I sütunun cavabları<br>II sütunu cavabları | III sütunun cavabları<br>IV sütunun cavabları |

Növbəti mərhələdə əldə edilmiş nəticələr aşağıdakı parametrlərə görə müəyyənləşdiriləcək.

*Kommunikativlik və təşkilatçılıq meyllərin qiymətləndirilməsi şkalası*

*Cədvəl 3.*

| Kk | Ko | Qiymətləndirmə şkalası |
|---|---|---|
| 0,10 - 0,45 | 0,20 - 0,55 | 1 |
| 0,45 - 0,55 | 0,56 - 0,65 | 2 |
| 0,56 - 0,65 | 0,66 - 0,70 | 3 |
| 0,66 - 0,75 | 0,71 - 0,80 | 5 |
| 0,75 - 1,00 | 0,81 - 1,00 | 5 |

Əldə edilmiş balların interpretasiyası.

*1. bal toplamış sınanılanda* kommunikativ və təşkilatcılıq meylləri aşağı səviyyədədir.

*2. bal toplamış sınanılanda* kommunikativ və təşkilatçılıq meylləri orta səviyyədən aşağıdır. Onlar ünsiyyətə, yeni kompaniyaya, kollektivə can atmırlar. Özlərini bu mühitdə yararsız, bacarıqsız və səriştəsiz hiss edir, ona görə də vaxtlarını təklikdə keçirməyə üstünlük verirlər. Öz tanışlıqlarını məhdudlaşdırır, insanlarla əlaqələrini azaldırlar. Çünki belə əlaqələr, eləcə də auditoriya qarşısında çıxış etmək onlarda çətinliklər yaradır. Onlar tanış olmayan situasiyada çətin bələdləşir, öz fikrində qalmır, başqalarının acı sözlərini, atmacalarını çətin həzm edirlər. İctimai işdə təşəbbüs göstərmir, bir çox problemlərin həllində müstəqil, bacardıqları kimi qərar qəbul etməyə üstünlük verirlər.

*3. bal toplamış sınanılanda* kommunikativ və təşkilatçılıq meylləri orta səviyyədədir. Onlar insanlarla əlaqələrə can atır, öz tanışlıqlarını məhdudlaşdırmır, öz fikrində qalmağı bacarır, öz işini planlaşdırırlar. Ancaq onların meyllərinin potensialı yüksək davamlılığı ilə xarakterizə olunmur. Bu qrupa aid olanlar özlərindəki kommunikativ və təşkilatçılıq meyllərini inkişaf etdirməyə, möhkəmləndirməyə ehtiyac hiss edirlər.

*4. bal toplamış sınanılanda* kommunikativ və təşkilatçılıq meylləri yüksək səviyyədədir. Onlar yeni şəraitdə özlərini itirmirlər. Özlərinə tez dost tapır, insanlarla tanışlığın əhatə dairəsini genişləndirir, ictimai işlə məşğul olur, çətin və mürəkkəb situasiyalarda müstəqil qərarlar qəbul etməyi bacarırlar. Bütün bunları özlərini zorlayaraq deyil, daxili tələbatlarına görə edirlər.

*5. bal toplamış sınanılanda* kommunikativ və təşkilatçılıq meylləri çox yüksək səviyyədədir. Onlar daxili imkanlarını reallaşdırmaq üçün özlərində

kommunikativ və təşkilatçılıq sahələri üzrə fəaliyyət göstərmək tələbatı hiss edirlər. Belə insanlar tezliklə çətin situasiyaya alışır, onu həll etmək üçün plan qururlar. Yeni kompaniyada və kollektivdə təşəbbüskardırlar. Müstəqil qərarlar qəbul edərək istədiklərinə nail olmağı bacarırlar. Bu insanlar üzvü olduqları qrup və kollektivdə asanlıqla qəbul olunurlar. Onlar özlərinin kommunikativ və təşkilatçılıq meyllərini ödəmək üçün fəaliyyət sahələri axtarıb tapırlar.

### *Müasir müəllimin pedaqoji-psixoloji biliklərinin müəyyənləşdirilməsi metodikası*

## *Pedaqoji keyfiyyətlərin yoxlanılması testi*

***1. Sinifdə sinif nümayəndəsi təyin edirsiniz:***

a) müəllimlərlə dostluq edən şagirdi;

b) yaxşı oxuyan şagirdi;

c) lider keyfiyyətləri olan şagirdi.

***2. Sinifdə ən çox tərif edirsiniz:***

a) müəllimlə dostluq edən, ona xəbərləri çatdıranları;

b) yaxşı oxuyan, yüksək nəticələri olanları;

c) nəticəsindən asılı olmayaraq çox çalışqanları.

***3. Açıq dərsdə ən məsuliyyətlı işi etibar edərdiniz:***

a) yaxşı oxuyana;

b) onların da iştirakını təmin etmək, məşğuliyyətə cəlb etmək üçün 2-lərlə oxuyanlara;

c) valideynlərdən kim öz övladının çıxışını daha çox arzulayırsa həmin şagirdə;

***4. Sinifdə olmadığınız zaman şüşəni sındırıblar:***

a) siz sinif fəalları ilə tək-tək danışırsınız, onlar da sizə məlumat verirlər;

b) şübhəlilərlə söhbət edirsiniz;

c) hansısa hekayə uyduraraq cəzalandırmamağa söz verib onları etirafa təhrik edirsiniz.

**5. S*inifdə konfliktdə olduğunuz, qəbul edə bilmədiyiniz şagird var:***

a) ayrı sinfə (məktəbə) keçənə qədər onunla mübarizə aparırsınız;

b) onu yenidən tərbiyə etmək üçün ciddi tədbirlər görürsünüz;

c) yeni yanaşmalar axtararaq müsbət nailiyyətlər əldə etməyə çalışırsınız.

***6. Müəllimlər otağında həmkarınızla bağlı baş vermiş gülməli hadisə haqqında danışılır.***

a) hamıya qoşularaq birlikdə gülürsünüz;

b) həmkarınıza istehza etdiklərinə görə onlara irad tutursunuz;

c) danışılanlara qarışmadan mövzunu dəyişməyə çalışırsınız.

***7. Valideynlər düşünürlər ki, Siz sevimli şagirdlərinizə yüksək qiymətlər yazırsınız.***

a) “nə istəyirlər düşünsünlər” - deyib reaksiya vermirsiniz;

b) valideyn iclasında qiymətləri əsaslandırmağa çalışırsınız;

c) narazılıq edən valideynləri dərslərdə iştirak etməyə dəvət edirsiniz.

Nəticənin işlənilməsi:

***a) – o bal; b) -1 bal; c) – 3bal.***

**0-6.** Pedaqoji səhflərinizi başa düşmürsünüz, psixoloq köməyinə ehtiyacınız var.

***7-12:*** təlim-tərbiyə prosesində siz hər zaman ədalətli deyilsiniz. Bəzi buraxdığınız səhvləri, uşaqların başa düşməməyi ilə kompensasiya edirsiniz.

**13-16:** bir çox müəllimə yaxşı nümunəsiniz, lakin özünüzü təkmilləşdirməlisiniz, çünki, dünya hər gün dəyişir, siz də müasirlikdən geri qalmamalısınız. Tələsik hərəkət etməyin, bu zaman uşaqlara qarşı hərəkətləriniz daha ədalətli olacaq.

**17-21:** bütün situasiyaları ideal hiss edirsiniz. Sizdə ədalətlilik hissi yaxşı inkişaf edir, lakın başqa müəllimləri öyrətməyə çalışmayın, qoy onlar özləri sizdən nümunə götürsünlər.

## *Şəxsi keyfiyyətlərin müəyyənləşdirilməsi üzrə populyar testlər*

*"Özünümüəyyənləşdirmə"*

*"Kimə görə mən kiməm?"*

*Təlimat:* Aşağıda göstərilən xüsusiyyətlərdən Sizə uyğun gələnini işarələyin.

| *SIra* | *Kİmə görə necəsiniz?* | *Müəllimlərə* | *Ailəmə* | *Dostlarıma* | *Özümə* |
|---|---|---|---|---|---|
| 1. | *Aktiv* | (...........) | (.........) | (.............) | (.........) |
| 2. | *Davakar* | (...........) | (.........) | (.............) | (.........) |
| 3. | *Plansız* | (...........) | (.........) | (.............) | (.........) |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4. | *Yolagedən* | (...........) | (.........) | (.............) | (.........) |
| 5. | *Axmaq* | (...........) | (.........) | (.............) | (.........) |
| 6. | *Çox zəkalı* | (...........) | (.........) | (.............) | (.........) |
| 7. | *Cəsarətsiz* | (...........) | (.........) | (.............) | (.........) |
| 8. | *Əzbərçi* | (...........) | (.........) | (.............) | (.........) |
| 9. | *Qaraqabaq* | (...........) | (.........) | (.............) | (.........) |
| 10 | *Bacarıqsız* | (...........) | (.........) | (.............) | (.........) |
| 11 | *Çox ciddi* | (...........) | (.........) | (.............) | (.........) |
| 12 | *Pinti* | (...........) | (.........) | (.............) | (.........) |
| 13 | *Şən* | (...........) | (.........) | (.............) | (.........) |
| 14 | *Yaraşıqlı və gözəl* | (...........) | (.........) | (.............) | (.........) |
| 15 | *Səmimi* | (...........) | (.........) | (.............) | (.........) |
| 16 | *Dəcəl* | (...........) | (.........) | (.............) | (.........) |
| 17 | *Çox güclü* | (...........) | (.........) | (.............) | (.........) |
| 18 | *Xəyalpərəst* | (...........) | (.........) | (.............) | (.........) |
| 19 | *Həmişə xəstə* | (...........) | (.........) | (.............) | (.........) |
| 20 | *İdmançı* | (...........) | (.........) | (.............) | (.........) |
| 21 | *Çox qısqanc* | (...........) | (.........) | (.............) | (.........) |
| 22 | *Diqqətsiz* | (...........) | (.........) | (.............) | (.........) |
| 23 | *Hörmətsiz* | (...........) | (.........) | (.............) | (.........) |
| 24 | *Bəxtsiz* | (...........) | (.........) | (.............) | (.........) |
| 25 | *Ərköyün* | (...........) | (.........) | (.............) | (.........) |
| 26 | *Çox qabi-liyyətli* | (...........) | (.........) | (.............) | (.........) |
| 27 | *Yazıq* | (...........) | (.........) | (.............) | (.........) |
| 28 | *Yola getməyən* | (...........) | (.........) | (.............) | (.........) |
| 29 | *Bədəbxt* | (...........) | (.........) | (.............) | (.........) |
| 30 | *Qabaqcıl insan* | (...........) | (.........) | (.............) | (.........) |
| 31 | *Bədbin* | (...........) | (.........) | (.............) | (.........) |
| 32 | *Sevilən* | (...............) | (.........) | (.............) | (.........) |
| 33 | *Başqa xüsusiyyəti-niz varsa əlavə edin.* | (...........) | (.........) | (.............) | (.........) |

Qiymətləndirmə ümumi mülahizələrə görə, şərh etmək yolu ilə aparılır. Bu testin nəticələri özünütərbiyə və özünükorreksiya üçün faydalıdır. Burada davranışın,

münasibətlərin inkişafı, kollektivə uyğunlaşdırılması nəzərdə tutulur.

***"Mən kiməm?"***

*1. Siz çoxdan başlamış olduğunuz, lakin yarımçıq saxladığınız işə başlamağa hazırlaşırsınız. Bu anda sizin sevgiliniz (arvadınız) zəng vurub görüşməyinizi (evə gəlmə-yinizi) xahiş edir:*

a) ondan bir qədər sonra zəng vurmağı xahiş edərək öz işinizi tələsik başa vurursunuz;

b) "gəlirəm, əzizim" - deyərək öz işlərinizi yarımçıq qoyub onun görüşünə tələsirsiniz;

c) ona kobud cavab verib işinizi davam etdirirsiniz.

*2. Qarşınızda iki seçim var: şən kompaniyada olmaq və ya sənədlərinizi qaydaya salmaq.*

a) "işləmək lazımdır", deyib kağız-kuğuzu yığışdırırsı-nız;

b) "kağızlara yaxın zamanlarda əl gəzdirərəm" - deyə fikirləşərək kompaniyaya qoşulursunuz;

c) sizi səliqəsizlikdə günahlandıranlara təbəssümlə baxıb ondan uzaqlaşırsınız.

*3. Sizdən başqalarının öhdəsindən gələ bilmədiyi hansısa işin icrası xahiş olunur.*

a) həmin adamın kürəyinə vuraraq deyirsiniz: "Heç bir problem yoxdur" və onun xahişini yerinə yetirirsiniz;

b) başınız qarışıq olduğundan əlinizi yellədib uzaqlaşırsınız;

c) onun əlini uzun müddət sıxıb fikirləşir və tədricən bu xahişin icrasına başlayırsınız.

*4. İş adamları həyatının mənasını paltarda görmürlər, ancaq sizin üçün:*

a) paltar böyük əhəmiyyət kəsb edir, onsuz özünüzü dəyərsiz hesab edirsiniz;

b) gözəl geyinməyi sevirsiniz, bu həm sizin, həm də ətrafdakılar üçün xoşdur;

c) yaxşı paltar sizin üçün lazımdır, əgər pis geyinərsinizsə sizinlə işbirliyi qurmazlar.

*5. Dostlara malik olmaq əladır.*

a) onların köməyi ilə işlərinizi qaydaya salırsınız: lazım olan şeyləri əldə edirsiniz, satırsınız, alırsınız;

b) onlar sizə çətin anlarınızda kömək edirlər;

c) dostlar sizin üçün hər şeydir, onlarla məsləhətləşirsiniz, onlara kömək edirsiniz.

*6. Sevdiyiniz adamlara kifayət qədər vaxt ayırırsınızmı? Onlardan biri sizdən təcili zəng vurmağınızı xahiş edir və siz cavab verirsiniz:*

a) “Mən işlə məşğulam, başqa işlərə vaxtım yoxdur”;

b) “Bir qədər gec olsa dünya dağılmaz ki?”;

c) “Əlbəttə, bu dəqiqə zəng vuraram, narahat olma”.

*7. Əksər iş adamlarının “şəxsi həyatı” var. Siz öz şəxsi həyatınızı necə qiymətləndirirsiniz?*

a) “Ailə, ev mənim şəxsi həyatımdır, əsas məsələ övladdır, iş isə insana maddi tələbatlarını ödəmək üçün lazımdır”;

b) “Ailə olsa pis deyil, ancaq işi də arxa planda qoymaq olmaz”;

c) “Bütün həyatımı ailə qayğılarına həsr etməklə keçirmək istəmirəm, iş mənim üçün vacibdir, ailə qayğılarını arvadım (ərim) də çəkə bilər”.

*8. İstirahət edə bilirsinizmi?*

a) “Bilirəm, ancaq həmişə yox, heç bu barədə düşünməmişəm”;

b) “İstirahət etdiyim vaxt həyatdan zövq alıram”;

c) “Xatırlaya bilmirəm ki, sonuncu dəfə nə zaman istirahət etmişəm”.

*Cavablar*

| | | | |
|---|---|---|---|
| 1 | a- 5 | b-3 | c-10 |
| 2 | a-10 | b-5 | c-3 |
| 3 | a-10 | b-3 | c-5 |
| 4 | a-3 | b-5 | c-10 |
| 5 | a-10 | b-5 | c-3 |
| 6 | a-10 | b-5 | c-3 |
| 7 | a-3 | b-5 | c-10 |
| 8 | a-5 | b-3 | c-10 |

*60 baldan çox.* Siz istedadlısınız. Belə münasib iş keyfiyyətlərinə malik olan insanlar az tapılır. Həyatınızı işə həsr edir, onun mənasını işdə görürsünüz. Ancaq artıq dayanmaq vaxtıdır. Qorxulu anlar yaşaya bilərsiniz. Bu təəccüblü deyil. Öz yaxınlarınız, dostlarınız haqqında düşünməlisiniz. Hazırda dost kimi qiymətləndirdikləriniz isə yalnız işinizlə bağlı olan insanlardır.

*35-60 bal arasında.* Sizin üçün ailənizlə, yaxınlarınızla birgə olmaq xoşdur. Qayğıkeş və diqqətlisiniz. Hər şeyi öz nəzarətinizdə saxlamaq istəyirsiniz. Yaxşı haldır ki, özünüzü tamamilə işə həsr etmirsiniz.

*35 bala qədər.* Yüngül həyat tərzinə daha çox maraq göstərirsiniz. Həyatınızı situasiyalar üzərində qurursunuz. Belə təsadüflərə həmişə etibar etmək olmaz. Yaxşı adamsınız, ancaq işgüzarlıq barədə də düşünməyi unutmayın. Bir qədər ciddi olmaq lazımdır.

### *Karyera qurmaq istəyənlər üçün test*

Dünyanın ən varlı insanları milyardlarla dollara sahibdirlər. Əlbəttə, onlar bu pulun hamısını özləri qazanmayıblar. Əsas rolu miras və onun tabeliyində olanların zəhməti oynayıb. Bir çoxları, məsələn, K.Kaxan müstəqil çalışıb. Amerikanın tanınmış milyonerləri arasında bir zamanlar ayaqqabı təmizləyənlər də var. Əlbəttə, bazar iqtisadiyyatı şəraitində başqa milyonerlərin də peyda olacağı istisna deyil. Bu proses davam edir.

Bəs kim asanlıqla milyon qazana bilər? Aşağıdakı 12 suala cavab verməklə bunu aydınlaşdıra bilərsiniz. Onların sırasında özünüzü də görmək istəyirsinizsə əvvəlcə bu testlə özünüzü sınayın.

*1. Hansı yolla daha asan pul qazanmaq olar?*

a) çoxlu işləmək, yaxşı informasiyaya malik olmaq, risk etmək və əlbəttə, hansısa iş qurmaq üçün pul qoymaq;

b) "dayı" köməyi, ya da vərəsəlik gözləmək, öz bəxtini lotoreyada sınamaq;

c) yavaş-yavaş karyera qurmaq, bütün pillələri keçərək aşağıdan rəhbərliyə qədər yüksəlmək, ya da siyasətlə məşğul olmaq.

*2. Uolt Disneyin hansı qəhrəmanı sizdə təbəssüm oyadır:*

a) Donald Dak;

b) Qustav Hans;

c) Doqobert Dak.

*3. Fikrinizcə, dünyanın varlı adamlarına müqavilə bağlamaq üçün nə qədər pul lazım gəlir?*

a) yarım milyondan 1 milyona qədər;

b) 10 milyona qədər;

c) 10 milyondan çox.

*4. Bu fikirlərin hansı ilə razısınız?*

a) pul nə qədər çoxdursa rahatlıq da o qədər çoxdur;

b) pul - hakimiyyət deməkdir;

c) pul qısqanclıq yaradır.

*5. Sizə "Məktub" oyunu tanışdırmı? Məktuba bir qədər pul qoyursunuz, sonra Sizə kapital qoyuluşu üçün qurban axtarırsınız. Son nəticədə qoyduğunuz kapital böyük məbləğdə özünüzə qayıdır. Bu oyunda hansı rolu yerinə yetirmək istərdiniz?*

a) iştirak etməmək?

b) iştirak etmək və qazanmaq;

c) oyunun təşəbbüskarı olmaq.

*6. Müxtəlif qəzetlərin "İşıqlı həyat" bölməsində xatırlanmanıza əhəmiyyət verərdinizmi?*

a) buna çox sevinərdim;

b) xeyr;

c) "haqqımda onsuz da yazırlar" - deyə düşünərdim.

*7. At yarışında hansı yolla udmaq olar?*

a) yüksək məbləğdə pul qoyaraq risk etmək;

b) yalnız yarışda iştirak etməklə pula qənaət etmək;

c) qalib at almaq.

*8. Fikrinizcə, kim daha tez və əminliklə dövlətli ola bilər?*

a) rejissor, aktyor, yazıçı, rəssam, idmançı-qalib;

b) vəkil, həkim, makler, siyasətçi;

c) firma və mətbuat orqan sahibi?

*9. Dostlar arasında biznesə necə yanaşırsınız?*

a) onlara pulla kömək edə bilərəm, nə zamansa onlar da mənə verərlər;

b) pul və dostluq bir yerə sığmır;

c) dostlardan borc almağa hazıram, verməyə yox.

*10. Səmimi olun. Əgər milyoner olsanız bundan zövq alardınızmı?*

a) əlbəttə, zövq alardım;

b)bu situasiyadan mənə etibar etməyənlərdən, yuxarıdan baxanlardan acıq çıxmaq üçün istifadə edərdim;

c) xeyr.

*11. Öz milyonlarınızı hara qoyardınız?*

a) daşınmaz əmlaka, incəsənət əsərlərinə;

b) aksiyalara və d. qiymətli kağızlara;

c) arvadımın (ərimin) dediyi kimi hərəkət edərdim.

*12. Əgər yarım milyon pulunuz olarsa onu artırmağa cəhd edərdinizmi?*

a) az olsa da olar, ancaq çox puldan da imtina etməzdim;

b) əlbəttə;

c) xeyr, bu qədər bəsimdir.

*Cavabları aşağıdakı ballar əsasında işləyin*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1. | a) –6; | b) -0 | c) -3 | 7. | a) -0 | b) -3 | c) -6 |
| 2. | a) -3; | b) -0 | c) -6 | 8. | a) -0 | b) -3 | c) -6 |
| 3. | a) - 0 | b) -3 | c) -6 | 9. | a) -3 | b) -6 | c) -0 |
| 4. | a) -6 | b) -3 | c) -0 | 10. | a) -0 | b) -3 | c) -6 |
| 5. | a) -3 | b) -0 | c) -6 | 11. | a) -3 | b) -6 | c) -0 |
| 6. | a) -0 | b) -6 | c) -3 | 12. | a) -3 | b) -6 | c) -0 |

*Balları toplayın. Onları aşağıdakı mülahizələrə görə şərh edin.*

*0-23 bal.* Varlanmaq üçün 3 yolunuz var. Ya varlı qadınla (kişi ilə) evlənmək, ya varis olmaq, ya da lotoreya udmaq.

*24-48 bal.* Sizin üçün var-dövlət pulla bağlıdır. Maliyyə fırıldaqlarından qaçırsınız. Ən yaxşısı odur ki, özünüzə karyera qurun və sürücü kreslosunda oturun. Hətta, əgər bu da sizə arzuladığınız milyonları verməzsə, həyatınız onsuz da material baxımdan təmin olunacaq.

*49-72 bal.* Nə zamansa milyoner olmaq üçün yaxşı şansınız var. Kommersiya işləri üçün ağıla sahibsiniz. Dostluğu pulla bir arada saxlamağı bacarırsınız. Təminatlı həyat tərzinizlə kifayətlənmək fikrində deyilsiniz, var-dövlətinizi daha da artırmaq haqqında düşünürsünüz.

*Əmr etmək, yaxud tabe olmaq?*

Sən kimsən kapitan yoxsa sıravi? Bunu aşağıdakı testin köməyi ilə müəyyən et.

1. Dostluq sizin üçün: a) əməkdaşlıqdır; b) dayaq olmaqdır; c) alicənablıqdır.

2. Əsl rəssam (artist) hər şeydən əvvəl buna malik olmalıdır: a) istedada; b) qərarlılığa; c) hazırlığa.

3. Qonaqlıqda siz özünüzü adətən belə hiss edirsiniz: a) “xoruz”; b) “toyuq”; c) “cücə”.

4. Əgər siz həndəsi fiqur olsaydınız, hansını seçərdiniz? :a) silindr; b) sfera; c) kub.

5. Sevdiyiniz adamla görüşmək üçün: a) ilk addımı siz atırsınız; b) gözləyirsiniz ki, ilk addımı o atsın; c) xırda addımlar atırsınız.

6. Təsadüfi hadisə zamanı, məsələn maşında qəza vəziyyəti yarandıqda: a) əyləci basırsınız; b) sürəti artırırsınız; c) özünüzü itirisiniz.

7. Çoxluğun qarşısında çıxış etdiyiniz zaman hiss edirsiniz ki: a) sizi dinləyirlər; b) tənqid edirlər; c) siz utanırsınız.

8. Uzaq səfərə belə dostlarla çıxmaq olar: a) güclü; b) ağıllı; c) təcrübəli.

9. Doğrusunu desək, Göyçək Fatma…: a) bədbəxt qızcığazdır; b) hiyləgər və şöhrətpərəstdir; c) naşükürdür.

10. Siz öz həyatınızı necə müəyyənləşdirərdiniz?: a) şahmat partiyası kimi; b) boks döyüşü kimi; c) qumar oyunu kimi.

*Indisə cədvələ uyğun olaraq ballarınızı hesablayın*

| Sual-lar | A | B | C | Suallar | A | B | C |
|---|---|---|---|---|---|---|---|
| 1. | 3 | 2 | 1 | 6. | 3 | 2 | 1 |
| 2. | 3 | 2 | 1 | 7. | 3 | 2 | 1 |
| 3. | 3 | 2 | 1 | 8. | 3 | 2 | 1 |
| 4. | 1 | 3 | 2 | 9. | 1 | 3 | 2 |
| 5. | 3 | 2 | 1 | 10. | 2 | 1 | 3 |

## *Testin şərhi*

*0-16 bal – adi sıravi.* Başqalarına həddən artıq hörmət edirsiniz. Yalnız yaxınlarınızın zəif xarakteri olmasına dua etməlisiniz. Onların Sizə həmişə tələblərlə yanaşmamalarından özünüzə təsəlli tapırsınız. İnsanlara əmr edə bilmirsiniz. Bunun üçün özünüzdə cəsarət tapa bilmir, başqalarından ehtiyatlanır, özünüzə inanmırsınız. Yaxud, ola bilər ki, sizin ehtiyatlılığınızın arxasında qorxu, yaxud

aldadılmış ümidlər dayanır? Hər halda, bu vəziyyətdə aşağıdakılara əməl etməyiniz məsləhətdir:

Vəziyyətdən çıxmaq üçün başqalarını sizin idarə etmək cəhdlərinizin neçə dəfə uğursuzluğa düçar olduğunu təhlil edin. Əgər siz lider olmadan da özünüzü yaxşı hiss edirsinizsə, bu zaman hadisələrdən kənarda qalmağa çalışın. Düşdüyünüz vəziyyətlə bağlı psixoloqla məsləhətləşin. Bu vəziyyət Sizi narahat etmirsə və nəyi isə dəyişmək istəmirsinizsə, o zaman başqalarının əmrinə müntəzir olun. Həqiqətdə bu o qədər də pis deyil, çünki belə tabe olmaq Sizə rahatlıq və sakitlik gətirir.

*17-23 bal – kiçik zabit.* Bir az idarəedici, bir az da sıravisiniz. Bu nisbətən yaxşı vəziyyət olsa da, kifayət qədər cəsarətli deyilsiniz. Hərdən qərarsızlıq göstərir, hərdən də ciddi olmağa çalışırsınız. Qərarları çətinliklə qəbul edirsiniz. Nəyi isə çətinliklə etiraf edirsiniz. Gətirdiyiniz dəlillər həddən artıq rasional olub yalnız şəxsi təcrübənizə əsaslanır. Geniş dünyagörüşə, qətiyyətli hərəkət sisteminə malik deyilsiniz. Aşağıdakılara əməl etməklə vəziyyətinizi bir qədər düzəldə bilərsiniz.

Həyatda uğur qazanmış şəxsiyyətlərin tərcümeyihalları ilə tanış olun. Risk tələb edən situasiyalarda intuisiyanıza arxayın olun. Özünüzün başqalarından üstün cəhətlərini görməyi və qiymətləndirməyi öyrənin. Zəif cəhətlərinizin korreksiyası üçün ağıllı bildiyiniz adamlardan məsləhətlər alın.

*24 baldan çox – general.* Hələ uşaq yaşlarından ictimai işlərdə fəal olmusunuz. Öz xidmətlərinizi başqalarına təklif etməkdən çəkinmirsiniz. Yaş keçdikcə sizin ətrafdakılara olan təsiriniz daha da artır. Əgər siz dürüst insansınızsa və işdən qorxmursunuzsa bu vergi

daha da arta bilər. Yaxşı təşkilatçı, rəhbər, lider ola bilərsiniz, lakin avtoritarlığa üstünlük verməyiniz məsləhət deyil. Başqalarına güc nümayiş etdirməkdən çəkinin. Onsuz da üzvü olduğunuz qrupda üstün yerlərdən birini tutursunuz. Yaxşı olar ki, öz gücünüzü mənsub olduğunuz qrupun uğurlarına, inkişafına sərf edəsiniz.

### *Müxtəlif sahələr üzrə şəxsi keyfiyyətlərin müəyyənləşdirilməsi metodikaları*

### *"İnsanları tanımaq qabiliyyəti" testi*

*1.Fikrinizcə qaydalara ciddi əməl edən insanlar:*

a) nəzakətli, ünsiyyətdə xoşdurlar;

b) ciddi tərbiyə olunublar;

c) sadəcə öz həqiqi xarakterlərini gizlədirlər.

*2. Heç vaxt mübahisə etməyən ər-arvad tanıyırsınız. Fikrinizcə:*

a) onlar xoşbəxtdirlər;

b) bir-birlərinə qarşı laqeyddirlər;

c) onlar bir-birinə inanmırlar.

*3. Bir insanı birinci dəfədir ki, görürsünüz və o həmin an kəskin lətifə danışmağa başlayır. Qərara alırsınız ki, o:*

a) məzəli insandır;

b) o özünə inamsızdır və elə buna görə də xoşagəlməz vəziyyətdən çıxmağa çalışır;

c) sizdə xoş təəssürat yaratmağa çalışır.

*4. Bir nəfərlə maraqlı mövzu ətrafında söhbət aparırsınız, tərəf müqabiliniz jestikulyasiyadan istifadə edir. Hesab edirsiniz ki, o:*

a) həyəcanlıdır;

b) səmimi deyil.

*5. Tanışlarınızdan bir nəfəri daha yaxından tanımağı qərara almısınız. Hesab edirsiniz ki:*

a) onu hər hansı bir məclisə dəvət etməklə;

b) onu işdə müşahidə etməklə.

*6. Restoranda kimsə böyük bəxşişlər paylayır. Əminsiniz ki:*

a) o, təəssürat yaratmağa çalışır;

b) ofisiant qızlarla maraqlanır;

c) bu, ürəkaçıqlığı ilə bağlıdır.

*7. Əgər insan söhbəti heç vaxt birinci başlamırsa, hesab edirsiniz ki:*

a) nəsə gizlədir, yaxud danışmaq istəmir;

b) həddən artıq qorxaqdır;

c) anlaşılmazlıqdan qorxur.

*8. Sizcə alçaq alının mənası:*

a) karlıq;

b) tərslik;

c)insan haqqında konkret olaraq heç nə deyə bilməzsiniz.

*9. Başqasının gözünün içinə baxa bilməyən insan haqqında nə düşünürsünüz:*

a) onda natamamlıq kompleksi var;

b) o səmimi deyil;

c) fikri o qədər də dağınıq deyil.

*10. Fikrinizcə yüksək gəliri olan insan həmişə ucuz əşyalar alırsa:*

a) qənaətlidir;

*b)* təvazökardır;

c) xəsisdir.

*Topladığınız balları hesablayın.*

*Nəticələrin şərhi*

| Suallar | a | b | c | Sual -lar | A | b | c |
|---|---|---|---|---|---|---|---|
| 1. | 2 | 4 | 1 | 6. | 4 | 2 | 1 |
| 2. | 2 | 1 | 4 | 7. | 2 | 4 | 1 |
| 3. | 1 | 2 | 4 | 8. | 1 | 2 | 4 |
| 4. | 4 | 1 | 0 | 9. | 1 | 4 | 2 |
| 5. | 1 | 2 | 0 | 10. | 4 | 2 | 1 |

*35-dən yuxarı.* Siz başqa insan haqqında çox asan fikir yürüdə bilirsiniz. Kimə isə baxmağınız kifayətdir ki, onun necə biri olduğunu biləsiniz. Bundan başqa səhv etmədiyinizə əmin olaraq ona öz fikrinizi deyə bilirsiniz. Əgər bu belədirsə düşünün: hər kəsə onun haqqında nə düşündüyünüzü demək nə dərəcə doğrudur? Bununla çətin ki, nə isə dəyişə biləsiniz, daha çox qıcıqlanma yaradacaqsınız. Yaxud heç kimin sizi aldada bilməyəcəyini göstərmək istəyirsiniz? Amma bu o qədər də ağıllı çıxış yolu deyil.

*26-34 bal.* Siz obyektiv olaraq situasiyanı və ətrafda olanları qiymətləndirə bilirsiniz. Həqiqətən də insanları tanımaq qabiliyyətiniz var və onun xarakterini tapmaq sizin üçün çətinlik yaratmır. Sizdən yaxşı psixoloq olar. İnsan haqqında yalnız özünüzün qiymətləndirmənizin olduğunu düşünmürsünüz. Bu, pedaqoq və rəhbərlər üçün çox yaxşı göstəricidir. Əgər səhv etdiyinizi düşünürsünüzsə bundan qorxmayın.

*16-25 bal.* Bir qayda olaraq öz düşüncələrinizə əmin olmaqla, başqalarının fikrini də asanlıqla qəbul edirsiniz. Belə olan halda sizin müşahidəçiliyiniz zəifləyir və bu da sonda müstəqil fikrinizin formalaşmasına maneçilik

törədir. Başqa insanı heç olmasa bir dəfə özünüzə görə qiymətləndirməyə cəhd göstərin.

*15 və daha az.* Başqalarına tez-tez inanırsınız. Həddən artıq tez inanansınız və insanları onların xarici görünüşünə görə mühakimə edirsiniz. Əgər qiymətləndirməniz sonda səhv alınarsa əhvalınız tamamilə pozulur.

### *"O kimdir?*

*Təlimat:* "Bu test kollektiv daxilində necə tanındığınızı aydınlaşdırmağı nəzərdə tutan texnikadır. Aşağıda kollektivə daxil olan yoldaşlarınızı tamamlayan 20 keyfiyyət sadalanmışdır. Bu keyfiyyət yoldaşlarınızdan hansının davranış və xüsusiyyətlərinə müvafiqdirsə, həmin cümlənin qarşısında onun adını və soyadını qeyd edin. Əgər o keyfiyyət sizə uyğun gəlirsə, siz, öz adınızı da qeyd edə bilərsiniz. Heç kimə uyğun gəlməyən keyfiyyətlərin qarşısını boş buraxın. Yazdıqlarınızı gizli saxlamağınız məsləhətdir".

*Tədqiq olunan haqqında məlumat:*

*A.A.S.:*

______________________________________________

*Təvəllüdü:*

___________________________________________

*Sosial statusu:*

________________________________________

*Keçirilmə tarixi:* "__" ________________ 20_ -cı il

*Keyfiyyətlər:*

1. Tez-tez tək qalmağı xoşlayan ____________________
2. Dostları ilə bir yerdə olmağı xoşlayan ____________

3. Çox nadan, həmişə o deyən olmasını istəyən ____
4. Çox çalışqan və həmişə yüksək qiymətlər alan ___
5. Kobud və qəlbə dəyən ____________________
6. İstənilən şəraitdə yardım edən ___________________
7. Çox mədəni və heç kimin xətrinə dəyməyən ______
8. Kollektivdə hər kəs tərəfindən sevilən ________
9. Özünü bəyənən, hamıya yuxarıdan aşağı baxan ___
10.İş bacarmayan ___________________________
11.Hamını ələ salan ___________________________
12.Çox qısqanc olan ___________________________
13.Çox danışmağı ilə kollektivin rahatlığını pozan _
14.Soyuqqanlı, həmişə düşünülmüş hərəkət edən _
15.Həyəcanlı və narahat olan ____________________
16.Dəymədüşər, zarafatı sevməyən _______________
17.Zarafat etməyi bacaran və onunla edilən zarafatı anlayan ___________________
18.Çox bacarıqlı ____________________________
19.Varlığı hiss olunmayan ______________________
20.Rəhbərliyin sevimlisi _______________________